ISSN 3006-0974

# AZƏRBAYCAN VƏKİLİ

ELMİ-PRAKTİK HÜQUQ JURNALI / SCIENTIFIC-PRACTICAL LAW JOURNAL

# AZERBAIJANI LAWYER

AZƏRBAYCAN RESPUBLİKASININ VƏKİLLƏR KOLLEGİYASI

AZERBAIJANI BAR ASSOCIATION

# Azərbaycan Vəkili

**elmi-praktik**

# HÜQUQ JURNALI

# Azerbaijani Lawyer

**scientific-practical**

# Law Journal

**2023-№1 (22)**

**ISSN 3006-0974**

# “AZƏRBAYCAN VƏKİLİ”
## ELMİ-PRAKTİK HÜQUQ JURNALININ
## REDAKSİYA HEYƏTİ

**Baş redaktor:** hüquq üzrə fəlsəfə doktoru (h.ü.f.d.) Anar Bağırov

**Baş redaktorun müavini:** hüquq elmləri doktoru (h.e.d.), professor Əmir Əliyev

**Redaksiya heyətinin sədri:** h.e.d. Turqay Hüseynov

**Məsul katib:** h.ü.f.d. Ruslan Vəliyev

**Redaksiya heyətinin üzvləri**
h.e.d., professor Azər Əliyev (Almaniya)
h.e.d., professor Oleq Zayçuk (Ukrayna)
h.e.d., professor Həsən Mirzəyev (Rusiya)
h.e.d., professor Fərhad Karaqusov (Qazaxıstan)
h.e.d., professor Cavid Abdullazadə (Türkiyə)
h.ü.f.d., dosent Stela Botnaru (Moldova)
h.ü.f.d. Tomas Glassman (ABŞ)
h.e.d., professor Cavanşir Süleymanov
h.e.d., professor İbrahim Quliyev
h.e.d., professor Firuzə Abbasova
h.e.d., professor Şəhla Səmədova
h.e.d., professor Alış Qasımov
h.e.d., professor Namiq Əliyev
h.e.d., professor Xəyyam İsmayılov
h.e.d., professor Mayis Əliyev
h.e.d., professor Ayxan Rüstəmzadə
h.e.d., professor Zahid Cəfərov
h.e.d., professor Sübhan Əliyev
h.ü.f.d., dosent Bəhruz Məhərrəmov
h.ü.f.d., dosent Zaur Əliyev
h.ü.f.d., dosent Mübariz Yolçiyev
h.ü.f.d. Şahin Məmmədrzalı

**Buraxılışa məsul:** Bayram Orucov

**Texniki redaktorlar:** Mələkxanım Rəhimova
İdris Əsədzadə



Redaksiyanın əlaqə məlumatları: Bakı şəhəri, C.Hacıbəyli küçəsi 100, Tel/Faks: +994 12 594 08 70
Email: office@barassociation.az; Veb-səhifə: http://www.barassociation.az


**© Azərbaycan Respublikasının Vəkillər Kollegiyası, 2023**

# EDITORIAL BOARD
## OF SCIENTIFIC-PRACTICAL JOURNAL OF
# "AZERBAIJANI LAWYER"

**Editor-in-chief:** Doctor of Philosophy in Law (PhD in Law) Anar Baghirov

**Deputy Editor-in-Chief:** Doctor of Laws (J.D.), Professor Amir Aliyev

**Chairman of the Editorial Board:** J.D. Turgay Huseynov

**Executive Secretary:** PhD in Law Ruslan Valiyev

**Members of the editorial board**

J.D., Professor Azer Aliyev (Germany)
J.D., Professor Oleg Zaychuk (Ukraine)
J.D., Professor Hasan Mirzayev (Russia)
J.D., Professor Farhad Karagusov (Kazakhstan)
J.D., Professor Javid Abdullazade (Türkiye)
PhD in Law, Associate Professor Stela Botnaru (Moldova)
PhD in Law Thomas Glassman (USA)
J.D., Professor Javanshir Suleymanov
J.D., Professor Ibrahim Guliyev
J.D., Professor Firuza Abbasova
J.D., Professor Shahla Samadova
J.D., Professor Alish Gasimov
J.D., Professor Namig Aliyev
J.D., Professor Khayyam Ismayilov
J.D., Professor Mayis Aliyev
J.D., Professor Aykhan Rustamzade
J.D., Professor Zahid Jafarov
J.D., Professor Subhan Aliyev
PhD in Law, Associate Professor Bahruz Maharramov
PhD in Law, Associate Professor Zaur Aliyev
PhD in Law, Associate Professor Mubariz Yolchiyev
PhD in Law Shahin Mammadrzali

**Responsible for release:** Bayram Orujov

**Technical editors:** Malakkhanim Rahimova
Idris Asadzade



Contact information of the editorial office: Baku, J. Hajibeyli Street 100, Tel/Fax:+994 12 594 08 70;
Email: Office@barassociation.az; Website: http://www.barassociation.az


**© Bar Association of the Republic of Azerbaijan, 2023**

**MÜNDƏRİCAT**

*Baş redaktordan*.............................................................................................................................7

*Etibar Əliyev, Fatimə Hüseynova.* Mediasiya prosesində təmsilçilik ......................................... 9

*Gülnaz Rzayeva.* İnsanın şəxsi həyatı sferasında məlumat azadlığının sərhədlərinin hüquqi tənzimlənməsi ......................................................................................................................... 16

*Hüseyn Əsgərov.* Mülki prosesdə nümayəndəlik institutunun mahiyyəti: nəzəri yanaşmalar və normativ təsbit ......................................................................................................................... 26

*Vüsalə Muradxanlı.* Humanitar müdaxilənin hüquqauyğunluğu və insan hüquqlarının müdafiəsi .. 32

*Mələkxanım Rəhimova.* Davamlı inkişaf sferasında layiqli həyat hüququnun hüquqi əsasları və universal standartları ................................................................................................................ 38

*Polad Mehdiyev.* Peşəkar hüquqi yardım hüququnun təminatları sistemində vəkillik institutunun yeri ......................................................................................................................................... 48

*Zamiq Allahverdiyev.* Uşaq hüquqlarının müdafiəsi üzrə beynəlxalq-hüquqi prinsiplərin milli hüquqda təsbiti və yerinə yetirilməsi ........................................................................................ 56

*Ramin Əliyev.* Beynəlxalq hüquqda təcavüz anlayışının əhəmiyyəti ............................................. 65

*Aisha Gasimova.* International aspects of the issue of human rights protection ........................ 72

*Pəri Vəlixanova.* Korporativ hüquqda demokratiya prinsipi ..................................................... 80

*Idris Asadzade.* The role of human in protecting the environment ................................................. 86

*Səadət Musayeva.* Beynəlxalq müqavilələr turizm hüququnun mənbəyi kimi ................................ 91

*Əlavələr.* Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun qərarları ............... 95

**CONTENT**

*From editor-in-chief*………………………………………………………………………………….....*7*

*Etibar Aliyev, Fatima Huseynova.* Representation in the mediation process …………………… 9

*Gulnaz Rzayeva.* Legal regulation of the limitations of freedom of information in the sphere of a person's personal life ……………………………………………………………………………… 16

*Huseyn Askerov.* The essence of the institute of representation in the civil process: theoretical approaches and normative definition ………………………………………………………………… 26

*Vusala Muradkhanli.* Legality of humanitarian intervention and protection of human right …. 32

*Malakkhanim Rahimova.* Legal framework and universal standards of the right to a decent life in the field of sustainable development ……………………………………………………………… 38

*Polad Mehdiyev.* The place of the advocate institute in the system of providing professional legal assistance …………………………………………………………………………………….. 48

*Zamiq Allahverdiyev.* Determination and implementation of international principles on the protection of children's rights in national law ………………………………………….……….. 56

*Ramin Aliyev.* The importance of definition of aggression in international law ………………. 65

*Aisha Gasimova.* International aspects of the issue of human rights protection ……………..… 72

*Pari Velikhanova.* The principle of democracy in corporate law ……………………………… 80

*Idris Asadzade.* The role of human in protecting the environment ...………………………….. 86

*Saadat Musaeva.* International treaties as a source of tourism law ……………………………. 91

*Appendices.* Decisions of the Plenum of the Constitutional Court of the Republic of Azerbaijan…………………………………………………………………….………………..95



### *BAŞ REDAKTORDAN*

Ümummilli liderimiz Heydər Əliyev ili elan edilmiş 2023-cü ildə “Azərbaycan Vəkili” elmi-praktiki hüquq jurnalını yeni məzmun və istiqamətdə beynəlxalq və Azərbaycan cəmiyyətinə təqdim etməkdən məmnunluq duyuruq.

Jurnalın istər məzmun, istərsə də forma və tərtibat baxımından Heydər Əliyev ili çərçivəsində yenidən təşkil edilməsi heç də təsadüfi deyildir. Bu müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev siyasətinin təntənəsi və daha da inkişafı ilə bağlıdır. Uzun illər ərzində dərc edilən və kifayət qədər nüfuza malik olan jurnal artıq müasir yanaşmalar üzərində qurulmuşdur. Belə ki, jurnalın redaksiya heyəti tanınmış xarici və yerli nüfuzlu vəkil-hüquqşünas alimlərdən təşkil edilmiş, jurnalda çap edilən məqalələr rəylərdən dəfələrlə keçirilmiş və bir neçə dildə xülasə ilə verilmişdir.

Müasir qloballaşan dünyada vəkillik fəaliyyətinin inkişaf etdirilməsi insan hüquqlarının müdafiəsinin yeni mexanizm və metodları ilə zənginləşmişdir. Müstəqilliyini bərpa etdikdən sonra dünya təcrübəsindən əhəmiyyətli şəkildə bəhrələnən Azərbaycan Respublikası insan hüquqlarının təmin edilməsi sahəsində əksər beynəlxalq müqavilələrə qoşulmaqla mühüm beynəlxalq təşkilatların üzvü olmuşdur. Hazırda dövlətimiz cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə çoxşaxəli istiqamətlərdə, o cümlədən insan hüquqları sahəsində əsaslı islahatlarla əhəmiyyətli tədbirlərə imza atır. Həyata keçirilən islahatlar isə bilavasitə hüquqi yardımın səmərəliliyinin, peşəkarlığının artırılması və genişləndirilməsi, hüquq elminin inkişafına mühüm töhfələrin verilməsi, vəkillərin peşə hazırlığının artırılması, ixtisaslaşmanın dərinləşdirilməsi və s. məqsədlər üzrə vəkillik institutunun inkişaf etdirilməsinə xidmət edir. Bu

### *FROM EDITOR-IN-CHIEF*

In 2023, which has been declared the year of our national leader Heydar Aliyev, we are pleased to present the "Azerbaijan Lawyer" scientific-practical law journal with a new content and direction to the international and Azerbaijani society.

It is no coincidence that the journal was reorganized within the year of Heydar Aliyev in terms of content, form and layout. This is related to the glorification and further development of the policy of Heydar Aliyev, the founder of the modern Azerbaijani state. The journal, which has been published for many years and has a sufficient reputation, is already based on modern approaches. Thus, the editorial board of the journal is made up of well-known foreign and local influential lawyer-legal scholars, the articles published in the journal have been repeatedly reviewed and summarized in several languages.

Advocacy development in the modern globalized world is enriched with new mechanisms and methods of human rights protection. After regaining its independence, the Republic of Azerbaijan, which benefited significantly from the world experience, became a member of important international organizations by joining most international agreements in the field of ensuring human rights. Currently, under the leadership of Mr. President Ilham Aliyev, our state is taking significant measures in multifaceted directions, including fundamental reforms in the field of human rights. These reforms directly serve to increase and expand the efficiency, professionalism of legal assistance, make important contributions to the development of legal science, increase the professional training of lawyers, deepen specialization and other purposes to develop the advocacy institute. The scientific potential of the Bar Association, which is an

sahəyə ciddi töhfələr verən müstəqil təsisat olan Vəkillər Kollegiyasının elmi potensialı isə özündə vəkillərlə yanaşı həm də tanınmış hüquqşünas alimləri birləşdirməsi səbəbindən durmadan artır. Bu işdə isə əlaqələndirilmənin daha səmərəli və yüksək səviyyədə aparılması məqsədi ilə Vəkillər Kollegiyasının Akademiyasının yaradılması da tarixi və əhəmiyyətli bir addım hesab edilməlidir.

Biz insan hüquqlarının müdafiə edilməsi sahəsində ən səmərəli vasitələrdən biri kimi maarifləndirmə işinin düzgün aparılmasını hesab etməklə bu istiqamətdə bütün resurslarımızdan istifadə edirik. Bu nöqteyi-nəzərdən yeni istiqamətdə buraxılan “Azərbaycan vəkili” elmi-praktik hüquq jurnalının qarşısında da mühüm vəzifələr dayanır. Belə ki, hüququn aktual sahələrinin, o cümlədən vəkillik institutunun inkişafı ilə bərabər, bu istiqamətdə ən mühüm problemlərin təhlili və həlli yollarının müəyyən edilməsi qarşıda dayanan əsas vəzifələrdəndir.

Tam əminliklə deyə bilərik ki, müasir və beynəlxalq standartlar əsasında yeni formatda dərc edilən “Azərbaycan vəkili” elmi-praktik hüquq jurnalı ictimaiyyət arasında hüquqi biliklərin dərinləşməsinə, vəkillik peşə fəaliyyətinin inkişafına əhəmiyyətli töhfələrini verəcəkdir. Jurnalın tezliklə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi əsərlərin dərc edilməsi tövsiyə edilən dövri nəşrlər siyahısında, o cümlədən beynəlxalq reytinq sistemlərində əhəmiyyətli yer tutacağına böyük əhəmiyyət veririk.

Jurnal hüquqşünas alimlər, vəkillər, praktiki hüquqşünaslar, hakimlər, hüquq fakültəsinin tələbələri və digər hüquq ictimaiyyəti üçün tam açıq olaraq Vəkillər Kollegiyasının maliyyə vəsaiti hesabına ildə ən azı iki və ya üç dəfə nəşr ediləcəkdir.

Sonda, dərc edilən saylarımızın əhəmiyyətli olacağına ümid edərək hər birinizə yeni ildə yeni-yeni uğurlar diləyirik.

independent institution that makes significant contributions to this field, is constantly increasing due to the fact that it unites not only lawyers but also well-known legal scholars. In this case, the creation of the Academy of the Bar Association should be considered as a historic and important step to make the coordination more effective and at a higher level.

We use all our resources in this direction, considering the proper conduct of educational work as one of the most effective tools in the field of human rights protection. From this point of view, the "Azerbaijan lawyer" scientific-practical law journal, published in a new direction, faces important tasks. Thus, along with the development of the actual fields of law, including the advocacy institute, the analysis of the most important problems in this direction and the determination of solutions are among the main tasks ahead.

We can say with full confidence that the "Azerbaijan Lawyer" scientific-practical law journal, published in a new format based on modern and international standards, will make significant contributions to the deepening of legal knowledge among the public and the development of advocacy profession. We attach great importance to the fact that the journal will soon occupy a significant place in the list of periodicals recommended for the publication of scientific works by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan, as well as in international rating systems.

The journal will be published at least two or three times a year at the expense of the Bar Association's funding, fully open to legal scholars, lawyers, practicing lawyers, judges, law students and the rest of the legal community.

In the end, we hope that our published journals will be significant, and we wish each of you good luck in the new year.

**Etibar Əliyev**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü,**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının professoru,**
**hüquq elmləri doktoru (a-etibar@rambler.ru).**
**Fatimə Hüseynova**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının dosenti, Dünya Tibbi Hüquq Assosiasiyasının üzvü,**
**hüquq üzrə fəlsəfə doktoru (lawyer.fatima85@gmail.com).**

# MEDİASİYA PROSESİNDƏ TƏMSİLÇİLİK

*Məqalədə mediasiya prosesində təmsilçilik münasibətləri barədə məsələ elmi müstəvidə araşdırılır. Qeyd edilir ki, mediasiya prosesində təmsilçilik mübahisə probleminin obyektiv və ədalətli həllində vacib rol oynayır. Mediasiya prosesində təmsilçiliyin forma və qaydaları müəyyən hüquqi əsaslar vasitəsilə nizama salınır. Bu kontekstdə müvafiq normativ hüquqi aktların adları çəkilir. Mediasiya hüquq institutu müəyyən struktur tərkib hissələrdən ibarətdir. Mediasiya prosesində təmsilçilik subinstitutu onlardan biri sayılır. Mediasiya prosesində təmsilçilik subinstitutuna elmi (doktrinal) anlayış verilir. Mediasiya prosesində təmsilçilik subinstitutu dedikdə mülki işlər və kommersiya münasibətləri (xarici elementli mübahisələr də daxil olmaqla), eləcə də ailə, əmək və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr üzrə tərəflərin mediasiya prosesində nümayəndələr vasitəsilə təmsil edilməsi ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləyən kompleks hüquq normalarının məcmusu başa düşülür..*

***Açar sözlər:*** *vətəndaş cəmiyyəti, ictimai münasibətlər, mülki və kommersiya mübahisələri, ailə mübahisələri, əmək mübahisələri, inzibati mübahisələri, alternativ həll, mediasiyaya müraciət, mediasiya prosesi, hüquqi əsaslar, mediasiya qanunvericiliyi, mediasiya prosesində təmsilçilik.*

Hər şeydən əvvəl, qeyd etməliyik ki, vətəndaş cəmiyyətində hər kəsin azadlıq hüququ vardır. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyası vətəndaşların azadlıq hüququnu təsbit edir (maddə 28). Azadlıq hüququ, mahiyyət etibarilə, vətəndaşların öz iradəsi əsasında davranış imkanını ehtiva edir. Davranış imkanı isə vətəndaşların istənilən hərəkəti etmək hüququdur, yəni potensial imkanıdır, istəyidir [1]. Belə hüquqdan faydalanaraq, vətəndaşlar öz aralarında yaranan mübahisələri üçüncü tərəfin (mediatorun) iştirakı ilə qarşılıqlı razılıq əsasında həll edirlər. Bu proses mediasiya adlanır. Mediasiya prosesinin həyata keçirilməsi zamanı yaranan ictimai münasibətlər mediasiya qanunvericiliyi ilə tənzimlənir [8, s.4]. Mediasiya münasibətlərini tənzimləyən müvafiq hüquq normalarının məcmusu mediasiya hüquq institutu adlanır.

Mediasiya haqqında mövcud qanunvericiliyə əsasən, mediasiya dedikdə mübahisə tərəfləri arasında yaranmış situasiyanın mediatorun vasitəçiliyi ilə, qarşılıqlı razılıq əsasında həll edilməsi istiqamətində həyata keçirilən proses nəzərdə tutulur [8, s.3].

Qeyd etməliyik ki, mediasiya prosesinin həyata keçirilməsi prosedurları mediasiya haqqında qanunvericiliklə xüsusi qaydada tənzimlənir. Belə ki, mediasiya prosesi Azərbaycan Respublikasının Ailə Məcəlləsi (1999-cu il), Əmək Məcəlləsi (1999-cu il), Mülki Məcəlləsi (1999-cu il), Mülki-Prosessual Məcəlləsi (1999-cu il), İnzibati Xətalar Məcəlləsi (2015-ci il), İnzibati-Prosessual Məcəlləsi (2009-cu il), "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu (2019-cu il), "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu (1999-cu il), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.09.2019-cu il tarixli 384 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mediatorların peşəkar etik davranış qaydası", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.09.2019-cu il tarixli 385 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mediasiya prosesinin həyata keçirilməsi Qaydası", Mediasiya Şurasının 15.04.2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Mediatorların davranışı ilə bağlı Reqlament", mediasiya təşkilatının daxili nizamnamə qaydası və digər normativ hüquqi aktlara əsasən həyata keçirilir [8, s. 22, 12].

Mediasiya haqqında qanunvericiliyə görə, mülki işlər və kommersiya münasibətləri (xarici elementli mübahisələr də daxil olmaqla), eləcə də ailə, əmək və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr üzrə tərəflər mediasiya prosesində bilavasitə və ya nümayəndələri vasitəsilə iştirak edirlər. Tərəflər mediasiya prosesində vəkillərin, tərcüməçilərin, müvafiq sahədə ekspert və mütəxəssislərin köməyindən istifadə edə bilərlər. Tərəflərin razılaşması ilə mediasiya prosesində digər şəxslərin də iştirak etməsi mümkündür (MHQ, maddə 24.4) [8, s.22]. Burada söhbət mediasiya prosesində daha çox iştirak edən təmsilçi (müvəkkil) şəxs kimi vəkildən gedir.

Fiziki və hüquqi şəxslərə yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsi üzrə vəkillik fəaliyyətinin əsas prinsipləri, vəkillərin hüquqi statusu və onların özünüidarəsinin əsasları "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli 783-IQ nömrəli Qanunu (VFQ) ilə müəyyən edilir [10, s. 11, 14]. Mövcud qanunvericiliyə əsasən, vəkil anlayışının ümumi məna yükü ali hüquq təhsilli, hüquqşünas ixtisası üzrə üç ildən az olmayaraq iş stajı olan və ya elmi və pedaqoji təhsil müəssisələrində hüquq sahəsində üç ildən az olmayan müddətdə fəaliyyət göstərən, İxtisas Komissiyasında peşə yararlılığının müəyyən edilməsi məqsədi ilə yazılı testdən və şifahi müsahibədən ibarət olan ixtisas imtahanını müvəffəqiyyətlə vermiş və müvafiq tədris-elm müəssisəsində icbari təlimi müvəffəqiyyətlə bitirmiş şəxsləri əhatə edir (VFQ, maddə 8). Eyni zamanda, hüquq elmləri doktoru elmi dərəcəsi olan şəxslər, habelə əvvəllər Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi, apellyasiya və kassasiya instansiyası məhkəmələrinin sədri vəzifəsində işləmiş şəxslər müvafiq prosedurlara cəlb edilmədən vəkil ola bilərlər. Vəkil öz fəaliyyətində müstəqildir və yalnız qanunvericiliyin tələblərinə tabedir [10, s.6-7].

Vəkillik fəaliyyətini həyata keçirən vəkillər qanunvericilikdə təsbit edilmiş müvafiq hüquqlara malikdirlər. Belə hüquqlar sırasında aşağıdakıları göstərə bilərik:

- hüquqi yardım almaq üçün müraciət edən şəxslərin müdafiəçisi olmaq, onların mənafelərini təhqiqat, istintaq, məhkəmə, digər dövlət orqanlarında, təşkilatlarında, qeyri-dövlət təşkilatlarında, xarici ölkələrdə və beynəlxalq təşkilatlarda təmsil etmək;
- vəkillik peşə fəaliyyətində qanunvericiliklə qadağan olunmamış və vəkil etikasına zidd olmayan bütün üsul və vasitələrdən istifadə etmək;
- vəkillik peşə fəaliyyətinin həyata keçirilməsi ilə bağlı müstəqil araşdırmalar aparmaq, sənəd toplamaq, hüquqi yardım göstərmək üçün zəruri olan arayışları və digər sənədləri idarə, təşkilat və müəssisələrdən tələb etmək, onlarla tanış olmaq və həmin sənədlərin surətlərini çıxarmaq;
- vəkillik peşə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar xüsusi bilik tələb edən məsələlərin araşdırılması üçün müvafiq ekspertlərdən və ya mütəxəssislərdən rəy almaq, eləcə də qanunvericiliklə nəzərdə tutulmuş qaydada texniki vasitələrdən istifadə etmək;
- qanunvericiliklə müəyyən olunmuş qaydada müdafiə və ya təmsil edilən şəxslə təklikdə, maneəsiz görüşüb danışmaq və s. hüquqlar (VFQ, maddə 15) [10, s.11-12].

Həmçinin, vəkillər öz peşə fəaliyyətləri ilə əlaqədar olaraq, yuxarıda göstərilən hüquqları həyata keçirirərkən müəyyən vəzifələr daşıyırlar ki, onlara aşağıdakılar aiddir:

- qanunun tələblərini icra etməli, müdafiə edilən və ya hüquqları təmsil edilən şəxsin mənafelərini qorumaq üçün qanunvericiliklə nəzərdə tutulmuş bütün üsullardan istifadə etməlidir;
- vəkil sirrini qorumalı, vəkil andına və vəkil etikasına riayət etməlidir;
- öz peşə fəaliyyətində yalnız qanunun tələblərini rəhbər tutmalıdır;
- hüquqi yardımın göstərilməsi üçün müraciət etmiş şəxsin maraqlarına zidd və hüquqlarının həyata keçirilməsinə mane olan hər hansı hərəkəti, müdafiəçisi olduğu şəxsin mənafeyinə zidd olaraq onun törədilmiş cinayətlə əlaqəsini və təqsirini təsdiq, zərərçəkmişlə barışığını elan və ona qarşı qaldırılmış mülki iddianı qəbul etməməli, müdafiəsinə yönəlmiş şikayəti geri götürməməlidir;
- mənafeyi təmsil edilən və ya müdafiə edilən şəxsin icazəsi olmadan hüquqi yardımın göstərilməsi ilə əlaqədar vəkilə məlum olan faktları və sənədləri, eləcə də mənəviyyata, demokratik cəmiyyətdə ictimai qaydaya və ya dövlət təhlükəsizliyinə ziyan vura bilən, həmçinin yetkinlik yaşına çatmamışların mənafeləri və ya tərəflərin şəxsi və ailə həyatının müdafiəsi tələb edərsə, belə məlumatları yaymamalıdır;
- vəkil sirrindən özünün şəxsi və ya başqasının mənafeyi üçün istifadə etməməlidir;

- "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn tələblərə ciddi əməl etməlidir və s.

Göstərilənlərlə yanaşı, qeyd etməliyik ki, vəkilin qanun pozuntusuna yol verməsi nəticəsində müdafiə edilən və yaxud təmsil edilən şəxsin əmlakına bilavasitə zərər dəyərsə, buna görə vəkil maddi məsuliyyət daşıyır. Müdafiə edilən və ya təmsil edilən şəxslər qarşısındakı məsuliyyətinə zəmanət vermək məqsədi ilə vəkillərin sığorta bank hesabı yaradılır. Hər bir vəkil hər ay həmin hesaba aylıq gəlirinin 2 faizini keçirir. Hər hansı vəkil tərəfindən vurulmuş ziyanın ödənilməsi üçün onun vəsaiti kifayət etmədikdə, məhkəmə qərarına əsasən vəkillərin sığorta bank hesabı vəsaitindən istifadə edilir. Belə hallarda Vəkillər Kollegiyasının Rəyasət Heyəti mülki qanunvericiliklə müəyyən edilmiş qaydada sığorta bank hesabından ödənilmiş vəsaiti ziyan vurmuş vəkildən tələb etməlidir.

Eləcə də vəkilin mülki və ya cinayət işləri üzrə müvafiq olaraq nümayəndə və müdafiəçi qismində iştirakını istisna edən hallar Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi və Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi ilə, inzibati xətalar haqqında işlər üzrə icraatda müdafiəçi və ya nümayəndə qismində iştirakını istisna edən hallar isə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilir.

Habelə, hüquqi yardımın göstərilməsi üçün müraciət etmiş fiziki və hüquqi şəxslərə məxsus və iddia obyekti olan əmlakın və hüquqların vəkil tərəfindən öz adına və ya başqa şəxslər üçün alınması və başqa yolla əldə edilməsi qadağandır (VFQ, maddə 16) [10, s.12-13].

Məlum olduğu kimi, vəkillər/təmsilçilər mediasiya zamanı mübahisələrin idarə olunması proseslərində fəal iştirak edərək, mühüm rol oynayırlar. Bununla da sözügedən şəxslər tərəflər arasında mübahisələrin uğurlu variantda həll edilməsinə ciddi təsir göstərmək imkanına malik olurlar.

Buna görə də, təmsilçi-vəkillərin mübahisələrin həlli prosedurlarının danışıqlara əsaslanan proseslərdə, yəni mediasiya prosesində mübahisə edən tərəfləri optimal şəkildə dəstəkləməsi üçün zəruri olan zəngin informasiya məlumatlılığı və müvafiq texniki-hüquqi bacarıqları nümayiş etdirmələri çox vacib məsələdir ) [9].

Mediasiya prosesinin tərəfləri kimi, aydın məsələdir ki, hüquqi və fiziki şəxslər, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər, habelə mediasiya prosesinin tətbiqinə razılıq verən inzibati orqanlar çıxış edir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mediasiya prosesinin həyata keçirilməsi Qaydası" adlı normativ hüquqi akt bu sahədə münasibətlərin tənzimlənməsində əhəmiyyətli rol oynayır. Adıçəkilən normativ hüquqi aktda mediatora anlayış verilmiş, həmçinin mediasiya prosesində iştirak edən tərəflərin hüquq və vəzifələri təsbit edilmişdir, eləcə də mediasiya prosesində faktiki iştirak edən təmsilçi şəxslərə dair müəyyən müddəalar yer almışdır [6, 12]. Belə ki, mediator peşəkar əsasda mediasiya prosesinin həyata keçirilməsi üçün tərəflərin cəlb etdiyi və ya mediasiya təşkilatı tərəfindən təyin olunmuş, mediasiya haqqında qanunvericiliyin tələblərinə cavab verən fiziki şəxsdir. Mediasiya prosesinin həyata keçirilməsində şəxsən və ya etibarnamə əsasında təmsilçi vasitəsilə iştirak etmək mübahisə edən tərəflərin hüquqları sırasına daxildir. Əgər mübahisə işi üzrə tərəflər mediasiya nəticəsində barışıq əldə edərlərsə, mediator tərəflərin xahişi ilə barışıq sazişinin hazırlanmasına onlara müvafiq köməklik göstərir.

Eyni zamanda, barışıq sazişi təmsilçi vasitəsilə də bağlanıla bilər. Nümayəndə ilə təmsil olunan tərəflə nümayəndəni məlumatlandırmaqla birbaşa əlaqə saxlamaq mediatorun hüququdur. Təmsilçiyə verilən etibarnamədə onun bu səlahiyyətləri xüsusi olaraq göstərilməlidir.

Vəkil/təmsilçi şəxslərin iştirakı ilə mediasiya prosesi həyata keçirilərkən təmsilçi şəxslər mediasiya sessiyalarına hazırlıq zamanı tərəflərə müvafiq məlumat və məsləhət verməklə köməklik göstərir, eləcə də sessiya ərzində mübahisə edən tərəfləri müşayiət edir. Mediasiya prosesini səciyyələndirən əlamətlərdən biri də məhz mübahisə edən tərəflərin bir-biri ilə birbaşa danışması və qarşı tərəfin dinləməsi üçün mediator tərəfindən zəruri şəraitin yaradılması imkanıdır. Bu zaman, təbii ki, təmsilçi şəxs/vəkil tərəfindən dəstəklənən mediasiya prosesi əhəmiyyətli dərəcədə faydalı ola bilər [7]. Belə ki, belə mediasiya prosesi mübahisə edən tərəflərin keyfiyyətli hüquqi məsləhət almasına, onların qarşılıqlı şəkildə dialoqa girməkdə daha inamlı olmasına, habelə tərəflər arasındakı hər hansı bir güc vəziyyəti bərabərsizliyinin aradan qaldırılmasına təminat verir. Vəkil/təmsilçi şəxslər

mediasiya prosesini sadələşdirə, asanlaşdıra və mediatora uğurlu nəticə əldə etmək üçün, xüsusilə, dəstək verə bilərlər.

Belə bir məqamı xüsusilə qeyd etməliyik ki, məhkəmə icraatı prosesindən fərqli olaraq, mediasiya proseduru tarixi faktlar, milli mentalitet, səbəbiyyət əlaqələri, mübahisə edən tərəflərin hüquqları və arqumentləri nəzərə alınmaqla, tam fərqli bir konsepsiyaya əsaslanır. Belə ki, qeyd edilən amillər mübahisə edən tərəflər arasında barışıq sazişi əldə etmək üçün əsas sayılmır, yəni burada mühakimə vəziyyəti yaranmır. Sözügedən konsepsiyanın düzgün dərk edilməsi, təbii ki, vəkil/təmsilçi şəxslərin mediasiya prosesində konstruktiv iştirakı və mübahisə edən tərəflərə proses ərzində effektiv dəstək verilməsi üçün olduqca aktualdır. Mediasiya prosesində əsas diqqət mübahisə edən tərəflərin gələcəkdə yarana biləcək ehtiyac, mənafe və maraqlarına fokuslanır. Eyni zamanda, tərəflər üçün onların bir-birini qarşılıqlı başa düşmək və mübahisəni təfsilatı ilə dərk etmək məqsədilə interaktiv format və əməkdaşlıq şəraiti yaradılır; belə şəraitdə tərəflər mübahisə üzrə müvafiq həll yolu imkanı əldə edirlər. Belə hal mediator tərəfindən idarə edilən və asanlaşdırılan, xüsusi struktura malik olan, qeyri-rəsmi və könüllü xarakter daşıyan müəyyən bir prosesdə təzahür edir.

Mübahisə işi üzrə mediasiya prosesində aktiv əməkdaşlıq və konstruktiv yanaşma təqdim edən təmsilçi-vəkil şəxslər mediasiyanı idarə edən mediatorlara araşdırılan problem üzrə razılaşma variantlarına fokuslanmaqda səmərəli köməklik göstərməklə, tərəflərin real maraq, tələb və ehtiyaclarını daha əhatəli şəkildə ehtiva edən barışığın əldə olunmasına dəstək verə bilərlər.

Mediasiya prosesinə fokuslanmağın, eləcə də onu aydın dərk etməyin bir neçə üsulu mövcuddur ki, həmin üsullardan biri "mediasiya hərəkətlərini" mübahisə edən tərəflərin tələb və maraqlarını daha aydın müəyyənləşdirməyə, eləcə də situasiyanı ətraflı şərh etməyə müvafiq imkan yaradan effektiv proses kimi nəzərdən keçirməkdən ibarətdir. Təmsilçi-vəkil şəxslərin mübahisənin həlli üzrə fəal yanaşmasına müvafiq olaraq, mediasiya prosesi bu halda çox faydalı üsul kimi çıxış edir. Bu zaman vəkil/təmsilçi (müvəkkil) şəxslər etik davranış və peşəkarlıq nümayiş etdirərək, mübahisə edən tərəflərin ən vacib tələb və maraqlarının təmin olunmasına səy göstərirlər. Bu, onu ifadə edir ki, effektiv mediasiya, bir qayda olaraq, mübahisə edən tərəflərin ən vacib maraqlarının müəyyən olunması və şərh edilməsi prosesində əmələ gələn müxtəlif xarakterli kommunikativ, metodoloji və konseptual problemlərin həlli yolu ilə baş tuta bilər. Çünki effektiv mediasiya prosesində tərəflərin maraqları bütün iştirakçılar üçün daha aydın və anlaşılan olur, eləcə də tərəflər öz maraqlarını daha məqsədəuyğun variantda və real formada müəyyən edə bilirlər.

Başqa sözlə ifadə etsək, effektiv mediasiya, adətən, mübahisə işi üzrə tərəflər arasında qarşılıqlı razılıq əsasında, könüllü olaraq, müvafiq barışıq sazişinin bağlanması yolu ilə yekunlaşır. Deməli, mübahisə edən tərəflər arasında belə bir yazılı barışıq sazişinin imzalanmasından sonra mediasiya mübahisəni sona çatdırır. Sözügedən sənəd - barışıq sazişi qanuni hüquqi qüvvəyə malik olan və məcburi icra öhdəliyi yaradan müqavilə sayılır [7, s.52-60].

Xüsusilə vurğulamalıyıq ki, mübahisə üzrə işin mediasiyada təhlilinin tərkib hissəsi kimi, əsasən, mübahisələrin həlli metodunun seçilməsi amili çıxış edir. Belə ki, tərəflər arasındakı müvafiq mübahisə işinə baxarkən, vəkil/təmsilçi şəxslər, adətən, mübahisə probleminin mahiyyətinə əsaslanan yanaşma tətbiq edirlər. Mübahisənin həlli istiqamətində mediasiya proseslərinin seçilməsində isə, vəkil/təmsilçi şəxslərin toxunulmuş məsələyə obyektiv və analitik tərzdə yanaşması mühüm əhəmiyyət kəsb edir. Göstərilən tərzdə peşəkar münasibət istənilən mediasiya işinin təhlilində başlanğıc nöqtə ola bilər.Bu zaman, təbii ki, mübahisə edən tərəflərin şəxsi keyfiyyətləri, xüsusi ehtiyacları və seçimləri, eləcə də qarşı tərəflə davranış və münasibətləri nəzərə alınmalıdır.

Mediasiya prosesində iştirak edən təmsilçi/vəkil şəxslər tərəflərin düzgün seçim etməsini təmin etmək üçün onları mediasiyada baxılan mübahisələrin həlli prosesləri, habelə problemin xüsusiyyətləri və tövsiyə olunan tədbirlər haqqında ətraflı məlumatlandırmalıdır. Təmsilçi/vəkil şəxslər bu cür metodları tərəflərə rasional təklif kimi təqdim etməklə, seçilmiş mediasiya prosesi vasitəsi ilə mübahisə edən tərəflərə peşəkar dəstək göstərə bilərlər.

Eyni zamanda, qeyd etməliyik ki, mübahisələrin həlli üçün mediasiya həyata keçirilərkən göstərilən metodologiya əsasında müvafiq adekvat prosesin seçilməsi vacib məsələdir. Belə ki, bu seçim tərəflərin mövqeyinə əhəmiyyətli dərəcədə təsir göstərərək, potensial nəticələrin əldə edilməsi istiqamətində mümkün seçim dairəsini konkretləşdirə bilər. Ona görə də, təmsilçi/vəkil şəxslər

mübahisələrin həlli zamanı müxtəlif mediasiya proseslərindən istifadə edilməsinin müsbət və mənfi aspektlərini tərəflərlə fəal şəkildə müzakirə etməlidirlər. Göstərilən amil təmsilçi/vəkil şəxslərin peşə davranışının qiymətləndirilməsində metodoloji əsas kimi sayılır.Bu baxımdan, hüquqi təhlil aparan təmsilçi şəxslər əvvəlcədən mübahisənin həlli üzrə bütün rasional variantları nəzərdən keçirərək, situasiyanı obyektiv şəkildə dəyərləndirməlidirlər.

Belə bir aspekti də, xüsusilə, qeyd etməliyik ki, mübahisələrin həlli üçün əlverişli metodların seçilməsi mübahisənin yarandığı vaxt, yaxud ondan daha əvvəl, yəni mediasiyada iştirak barədə müqavilə mərhələsində baş tuta bilər. Ona görə də, təmsilçi/vəkil müqavilə hazırlayarkən, mediasiya prosedurunun müqavilə bağlayan tərəflərə faydalı ola biləcəyi, eləcə də müqavilə münasibətlərinin spesifik xarakterinə görə xüsusi əhəmiyyət kəsb edəcəyi barədə mülahizələri diqqətdə saxlamalıdır; həm də mediasiya barədə müvafiq qeyd-şərtin müqaviləyə daxil edilə bilməsinin mümkünlüyü nəzərdən keçirilməlidir [4, 5, 8].

Mediasiya işi üzrə mübahisənin həllinin düzgün metodu barədə tərəflərə məsləhət verilməsi, eləcə də mediasiya prosesinə dair hərtərəfli xərc-mənfəət təhlilinin aparılması vəkil/təmsilçi şəxslərin vəzifə borcudur. Bu kontekstdə vəkil/təmsilçi şəxslər mübahisə tərəflərinə, daha doğrusu, öz müştərilərinə bu peşəkar vəzifə borcunun lazımi şəkildə yerinə yetirildiyini açıqcasına nümayiş etdirməlidirlər. Belə ki, mediasiya prosesinin hansı müddətə davam edə biləcəyini, prosesin nə qədər xərc tələb edəcəyini, risklərin nədən ibarət ola biləcəyini, gözlənilən nəticəyə nailolma ehtimalının nə qədər olduğunu, eləcə də barışıq sazişinin icrası ilə bağlı riskləri mübahisə edən tərəflərin anlaması mühüm məsələdir. Bu kontekstdə vəkil/təmsilçi mübahisə edən tərəflərin mediasiya prosesi ilə bağlı seçimlərinə dair ən yaxşı, yaxud ən pis variantları, eləcə də faktiki real hədəf səviyyəsini müəyyən edərək, mediasiya işinin risk səviyyəsinin dəyərləndirilməsini aparmalıdır. Sözügedən risk ehtimalının müəyyən edilməsi seçilmiş mediasiya işinin realizasiya prosesində yenidən nəzərdən keçirilməli və zərurət yarandığı halda yenilənməlidir. Belə ki, mediasiya işi ilə bağlı əvvəlcədən həyata keçirilən hər hansı bir araşdırma, habelə mediasiya işi üzrə dəyərləndirmə mübahisə edən tərəflərə mövcud seçim imkanlarını daha düzgün qiymətləndirməyə və real gözləntilər proqnozlaşdırmağa dəstək ola bilər.

Qeyd etməliyik ki, vəkil/təmsilçi şəxsin mübahisə edən tərəflərin işi üzrə mediasiya prosesinə cəlb edilməsinin cürbəcür metod və üsulları mövcuddur. Bu kontekstdə, praktiki olaraq, aşağıda göstərilən metod və üsulları fərqləndirə bilərik:

- vəkil/təmsilçi şəxs mübahisə edən tərəfi onun müştəri-sifarişi əsasında mediasiya prosesinə hazırlayır və sonra həmin tərəfi mediasiya prosesində tək buraxır;
- vəkil/təmsilçi şəxs mübahisə işi üzrə tərəfi ilə mediasiya prosesi ərzində onunla birlikdə tamamilə iştirak edir (bu metod daha optimal vəziyyət sayılır);
- mübahisə işi üzrə tərəf mediasiya prosesinin əvvəlində tək olur və onun vəkili mediasiya prosesinə son fazada daxil olur (bu zaman real variantlardan nəticə çıxarmaq prosesində vəkil həmin tərəfə-şəxsə istiqamət verir, son barışıq və ya digər razılaşmanın hazırlanmasında ona dəstək göstərir);
- mübahisə işi üzrə tərəf mediasiya prosesində şəxsən iştirak etmədiyi halda və ya müddətdə vəkil həmin şəxsi hüquqi cəhətdən təmsil edir və s.

Ümumiyyətlə, mübahisə edən şəxslərin mediasiya prosesində iştirakı, bir qayda olaraq, tələb edilir; belə hal həm də mediasiya prosesini aparan mediatorlar tərəfindən tövsiyə edilir. Lakin, praktiki cəhətdən, mediasiya prosesində iştirak edən hər bir tərəfin mübahisə işi üzrə problemi həll etmək və mübahisə tərəfləri üçün məcburi hüquqi qüvvəsi olan barışıq sazişini imzalamaq səlahiyyətlərinə malik olan nümayəndə tərəfindən təmsil edilməsi mümkün sayılır. Eyni zamanda, nümayəndənin təmsil etdiyi tərəf üçün müvafiq barışıq sazişini imzalamaq haqqında səlahiyyətində müəyyən məhdudiyyət halları mövcud olduqda, mediasiya prosesini aparan mediator belə halların mövcudluğunu aşkarlamalı və bu barədə mediasiya prosesində iştirak edən hər bir tərəfə aidiyyəti üzrə məlumat verməlidir.

Göstərilənlərlə yanaşı, qeyd etməliyik ki, mübahisə edən tərəflərin, yəni həm fiziki, həm də hüquqi şəxslərin (hüquqi şəxslərə münasibətdə - səlahiyyətli rəhbər nümayəndənin) mediasiya prosesində şəxsən iştirak etməsi, mahiyyət etibarilə, mediasiya işi üzrə problemin yeni həll variantlarının daha asan araşdırılmasına münbit şərait yaradır. Bu zaman mübahisə işi üzrə barışıq sazişinin əldə edilməsi, eləcə də bununla bağlı müvafiq qərarların qəbul olunması üçün mediasiya

prosesində tam səlahiyyətlə iştirak etmək, zənnimizcə, uğurlu mediasiyanın baş tutması istiqamətində vacib faktordur.

Beləliklə, qeyd edə bilərik ki, mediasiya hüquq institutu müəyyən struktur tərkib hissələrdən ibarətdir. Mediasiya prosesində təmsilçilik subinstitutu onlardan biri sayılır. Göstərilənləri nəzərə alaraq, mediasiya prosesində təmsilçilik subinstitutuna aşağıdakı məzmunda elmi (doktrinal) definisiya formulə etmək mümkündür:

- mediasiya prosesində təmsilçilik subinstitutu dedikdə mülki işlər və kommersiya münasibətləri (xarici elementli mübahisələr də daxil olmaqla), eləcə də ailə, əmək və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr üzrə tərəflərin mediasiya prosesində nümayəndələr vasitəsilə təmsil edilməsi ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləyən kompleks hüquq normalarının məcmusu başa düşülür.

**İstinadlar:**


1. Azərbaycan Respublikasının Konstitusiyası – www.e-qanun.az
2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi - www.e-qanun.az
3. Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi - www.e-qanun.az
4. Azərbaycan Respublikasının Mülki Məcəlləsi - www.e-qanun.az
5. Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi - www.e-qanun.az
6. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu. Bakı, 2019, № 9, maddə 1539.
7. Leonardo D'Urso, Konstantin-Adi Qavrila. Mediasiyanın əsas iştirakçılarının təlimi üçün tədris vəsaiti. Bakı, ADR Center, 2020, s. 10-60, 112 s.
8. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, 36 s.
9. Ruslan Mirzəyev. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADR Center, 2020, s. 16-30, 163 s.
10. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2020, 20 s.
11. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu. Normativ hüquqi aktlar toplusu / Buraxılışa məsul: Kərimli B.C. Bakı: "Hüquq Yayın Evi", 2017, 136 s.
12. https://www.e-qanun.az/framework/46946
13. https://constcourt.gov.az/az/decisions
14. https://barassociation.az



**Etibar Aliyev**
**Member of the Azerbaijan Bar Association,**
**Professor of the UNESCO Chair on "Human rights and information law"of the Faculty of Law of Baku State University,**
**Doctor of Laws (a-etibar@rambler.ru).**
**Fatima Huseynova**
**Associate Professor of the Department on "Private International Law and European Law" of the Faculty of Law of Baku State University,**
**member of the World Association of Medical Law, Doctor of Philosophy in Law (lawyer.fatima85@gmail.com).**


**REPRESENTATION IN THE MEDIATION PROCESS**


*In the article, the issue of representation relations in the mediation process is investigated at the scientific level. It is noted that representation in the mediation process plays an important role in the objective and fair resolution of the dispute problem. Forms and rules of representation in the mediation process are regulated by certain legal bases. In this context, the names of relevant normative legal acts are mentioned. Mediation legal institution consists of certain structural components. The sub-institution of representation in the mediation process is considered one of them. In the mediation process, a scientific (doctrinal) understanding is given to the sub-institution of*

*representation. Sub-institution of representation in the mediation process means a set of complex legal norms regulating civil affairs and commercial relations (including disputes with foreign elements), as well as social relations arising from the representation of the parties through representatives in the mediation process for disputes arising from family, labor and administrative law relations.*

***Keywords:*** *civil society, public relations, civil and commercial disputes, family disputes, labor disputes, administrative disputes, alternative solution, appeal to mediation, mediation process, legal bases, mediation legislation, representation in the mediation process.*

**Этибар Алиев**
**Член Коллегии адвокатов Азербайджана,**
**Профессор кафедры ЮНЕСКО Права человека и информационное право**
**Юридического факультета Бакинского государственного университета,**
**доктор юридических наук (a-etibar@rambler.ru).**
**Фатима Гусейнова**
**Доцент кафедры Международного частного права и европейского права**
**юридического факультета Бакинского государственного университета, член Всемирной**
**ассоциации медицинского права, доктор философии по праву**
**(lawyer.fatima85@gmail.com).**

## ПРЕДСТАВИТЕЛЬСТВО В ПРОЦЕССЕ МЕДИАЦИИ

*В статье на научном уровне исследуется вопрос представительских отношений в процессе медиации. Отмечается, что представительство в процессе медиации играет важную роль в объективном и справедливом разрешении спорной проблемы. Формы и правила представительства в процессе медиации регулируются определенными правовыми базами. В этом контексте упоминаются названия соответствующих нормативных правовых актов. Правовой институт медиации состоит из определенных структурных компонентов. Одним из них считается субинститут представительства в процессе медиации. Субинституту представительства в процессе медиации дается научное (доктринальное) понятие. Субинститут представительства в процессе медиации означает совокупность комплексных правовых норм, регулирующих гражданские дела и коммерческие отношения (в том числе споры с иностранным элементом), а также общественные отношения, возникающие при представительстве сторон через представителей в процессе медиации по спорам. Возникающие из семейных, трудовых и административно-правовых отношений.*

***Ключевые слова:*** *гражданское общество, связи с общественные отношения, гражданские и коммерческие споры, семейные споры, трудовые споры, административные споры, альтернативное решение, обращение к медиации, процесс медиации, правовые основы, законодательство о медиации, представительство в процессе медиации.*

**Məqalənin redaksiyaya daxil olma tarixi: 22.05.2023**

**Gülnaz Rzayeva**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru (gulnazrzayeva@mail.ru).**

# İNSANIN ŞƏXSİ HƏYATI SFERASINDA MƏLUMAT AZADLIĞININ SƏRHƏDLƏRİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİ

*Müasir dövrdə İKT-nin dinamik inkişaf etdiyi bir dövrdə insanın şəxsi həyatı sferasında məlumat azadlığının sərhədlərinin hüquqi tənzimlənməsi aktual mövzulardan hesab olunur. Çünki bir tərəfdnə insanın şəxsi və ailə həyatının qorunması vacibdirsə, digər tərəfdən hər bir kəsin istənilən məlumatı əldə etmək hüququ təmin olunmalıdır. Ona görə də şəxsi toxunulmazlıq hüququnun məzmunu dəqiq müəyyən olunmalıdır ki, məhz hansı məlumatların əldə olunması və yayılmasına məhdudiyyətlərin qoyulması məsələsi konkretləşdirilsin. Təqdim olunan məqalə şəxsi toxunulmazlıq hüququ ilə bağlı məqamlara aydınlıq gətirilməsini, məlumat azadlığının əksər hallarda şəxsi toxunulmazlıq hüququ ilə toqquşmasından irəli gələn ziddiyyətlərin aradan qaldırılması üçün təkliflərin təqdim olunmasını qarşıya məqsəd kimi qoymuşdur. Məqalədə mövcud problemlər həm hüquqi, həm də təcrübi baxımdan şərh olunmuş, təklif və tövsiyələr irəli sürülmüşdür.*

***Açar sözlər:*** *şəxsi həyat, ailə həyatı, şəxsi toxunulmazlıq hüququ, məlumat azadlığı, informasiya, fərdi məlumat, unudulmaq hüququ, internet, virtual məkan, milli-hüquqi tənzimetmə, beynəlxalq-hüquqi tənzimetmə.*

*1.1. Şəxsi toxunulmazlıq hüququna klassik yanaşma*

"Klassik mənada" şəxsi toxunulmazlıq hüququ fərdin sərbəst inkişaf edə bildiyi və tək qalmaq hüququna malik olduğu çərçivədə fiziki mənada müəyyən məkanı ifadə edir. Lakin müasir dövrdə rəqəmsallaşma bu hüquqdan da yan keçməmişdir. Elektron kommunikasiyalardan istifadə etməklə şəxsi həyatın toxunulmazlığına müdaxilənin ən kəskin forması maddi və ya digər faydalar əldə etmək üçün şəxsin şəxsiyyətinin oğurlanmasıdır [15, s. 96]. Bu, çox vaxt internet mühitində həssas fərdi məlumatların (şəxsiyyət nömrəsi, kartın kredit nömrəsi və s.) ehtiyatsız sızmasının nəticəsidir. Ona görə də bu gün şəxsi toxunulmazlıq hüququna məkan, informasiya və kommunikativ konfidensiallıq baxımından yanaşmaq olar. Məkan konfidensiallığı insanın yaşadığı evə və digər məkana (iş sahəsi daxil olmaqla) aiddir. Məlumat konfidensiallığı fərdi məlumatların əlavə edilməsi, idarə edilməsi və istifadəsinə aiddir. Kommunikativ konfidensiallıq şəxsi qeydlərə, yazışmalara və ya hər hansı digər ünsiyyət formasına aiddir.

1890-cı ildə Harvard Hüquq İcmalında dərc olunan Samuel Uorren (1852-1910) və Luis Brendaysın (1856-1941) dərc etdirdiyi "Şəxsi həyatın toxunulmazlığı" adlı məqalə ilə şəxsi toxunulmazlıq hüququ bir sıra imtiyazları ehtiva etməyə başladı və artıq mülkiyyət toxunulmazlığı yalnız maddi deyil, həmçinin qeyri-maddi formada sahibliyi əhatə etdi [17].

Deməli, artıq əvvəllər olduğu kimi, şəxsi həyatın toxunulmazlığı məsələsi hər hansı bədən xəsarətləri ilə bağlı meydana gəlmirdi və intellekt, informasiya özü şəxsi həyatın toxunulmazlığında əsas element kimi qiymətləndirilirdi. Bununla yanaşı, şəxsi toxunulmazlığın insanın fiziki bədənindən asılı olmayaraq müəyyənləşdirilməsi insanın ailə münasibətlərini şəxsi həyatın toxunulmazlığı konsepsiyasının bir hissəsinə çevirdi. S.Uorren və L.Brendaysın öz məqaləsini yazmaqda əsas məqsədi məhz belə bir yeni şəraitdə şəxsi həyatın toxunulmazlığı, təhqir, böhtan və s. bu kimi məsələlərin qanunla necə tənzimlənməsini və təcrübi tərəfləri təhlil etməkdən ibarət idi. Məqalənin maraqlı tərəfi ondadır ki, müəlliflər bir çox Roma hüququnun prinsiplərinə (postulatlarına) müraciət edirdilər. Məsələn, "damnum absque injuria" prinsipini rəhbər tutan tədqiqatçılar xüsusi vurğulayırdılar ki, hətta formal olaraq qanuni və leqal görünən hər hansı bir hərəkət insanın şəxsi həyatına qəsd edə bilər.

Müəlliflər Prins Albert V. Strencin və Vilsonun məhkəmə işlərini misal göstərərək, Lord Kottenhamın "III Georginin xəstəliyi zamanı onun ətrafında olmuş həkimlərin öz gündəliklərindəki qeydləri çap etməyin düzgün olmadığı" iddiasını xüsusi qeyd edirlər [4].

Göründüyü kimi, ilkin olaraq, gənc tədqiqatçılar tərəfindən irəli sürülmüş şəxsi həyatın toxunulmazlığı hüququ müasir dünyada fundamental insan hüquqlarından biri kimi həm beynəlxalq səviyyədə, həm də ayrı-ayrı dövlətlərin milli hüququnda tanınmışdır.

*1.2. Məlumat azadlığının hüquqi tənzimlənməsinin əsas xüsusiyyətləri*

Məlumat azadlığına dair beynəlxalq normalara nəzər salsaq, görərik ki, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19-cu maddəsində informasiya əldə etmək hüququ və məlumat azadlığı ifadə azadlığı çərçivəsində tənzimlənir. Bu tənzimləmə Ümumdünya İnsan Hüquqları Bəyannaməsində olduğu kimi mətnə axtarmaq ifadəsini daxil etmişdir. Axtarmaq sözünün daxil edilməsi ilə belə bir məna ortaya çıxır ki, hazırda mövcud olan məlumatlara çıxış əldə etməklə yanaşı, ayrı-ayrı şəxslər tərəfindən tələb olunacaq məlumatların verilməsi baxımından dövlətin üzərinə pozitiv öhdəlik qoyulur.

Avropa İnsan Hüquqları Konvensiyasına gəldikdə isə, Konvensiyanın 10-cu maddəsi ifadə azadlığını təsbit etmişdir. Lakin Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktdan fərqli olaraq, axtarmaq sözü daxil edilməmişdir. Daha konkret desək, Pakt axtarmaq, almaq və yaymaq elementlərini ehtiva edirsə, Konvensiya yalnız almaq və yaymaq azadlıqlarını nəzərdə tutur. O zaman belə bir nəticəyə gəlmək olarmı ki, Konvensiya dövlətlərin pozitiv öhdəliklərini istisna edir?

Qeyd olunan tənzimləmənin informasiya hüquqları kontekstində dövlətə təsir göstərmədiyi qənaəti İHAM-ın baxdığı işlər üzrə qəbul etdiyi qərarlar nəticəsində məhkəmə təcrübəsində də öz əksini tapmışdır. Məsələn, Leander İsveçə qarşı işində hərbi bazada işə başlayan və daha sonra ona qarşı aparılan təhlükəsizlik istintaqı səbəbilə işdən çıxarılan Leander işdən çıxarılmasının səbəblərini öyrənmək istəsə də, tələbi rədd edilmişdir. Bundan sonra Leander Avropa Məhkəməsinə müraciət etmişdir. 10-cu maddə kontekstində informasiya əldə etmək hüququ baxımından araşdırıldıqda, Məhkəmə qeyd etmişdir ki, 10-cu maddə dövlətin üzərinə fiziki şəxslərə məlumat çatdırmaq öhdəliyi qoymur və bu maddə fiziki şəxslərə məlumatı əldə etmək hüququnu vermir, ona görə də heç bir pozuntu baş verməmişdir [11]. Qaskin Böyük Britaniyaya qarşı işində isə Qaskin 18 yaşına qədər uşaqlığının çox hissəsini himayədarlıqda keçirmiş şəxsdir. O, 18 yaşı tamam olandan sonra onun haqqında saxlandığı müddət ərzində saxlanılan, ona baxan ailələrin kim olduğu barədə bəzi məlumatlar tələb etmiş və bu tələb rədd edilmişdir. Avropa Məhkəməsinə müraciətdən sonra Məhkəmə şəxsin öz uşaqlığı və erkən inkişaf dövrləri haqqında məlumat əldə etməsi ilə bağlı 8-ci maddə baxımından pozuntunun olduğunu müəyyən etmişdir. Bununla belə, 10-cu maddə baxımından Məhkəmə Leander işinə də istinad edərək qərara gəlmişdir ki, dövlət əlçatan məlumatın əldə edilməsinə müdaxilə etməmək öhdəliyinə malikdir, yəni dövlət məlumat vermək öhdəliyi altında deyil və 10-cu maddə bunu təmin edəcək mühafizə bəndi kimi qəbul edilməməlidir [5].

Məhkəmə bu günə qədər qəbul etdiyi qərarlarda dövlətin müdaxiləsi nəticəsində əlçatan məlumatın əldə edilməsinin mümkünsüzlüyünü 10-cu maddə baxımından ifadə azadlığına müdaxilə kimi qiymətləndirmişdir. Bununla belə, dövlətin fərdi məlumatların əldə edilməsinin qarşısının alınması 10-cu maddə baxımından deyil, şəxsi və ailə həyatının qorunması məqsədi daşıyan və bununla bağlı dövlətin üzərinə pozitiv vəzifə qoyan 8-ci maddə baxımından pozuntu kimi qiymətləndirilmişdir [8].

Məlumat azadlığı həm fərdi, həm də sosial cəhətdən düzgün məlumat əldə etmək hüququnu da əhatə edir. Sunday Times Birləşmiş Krallığa qarşı qərarında Avropa Məhkəməsi təkcə məlumat almaq hüququnun deyil, həm də ictimaiyyətin dəqiq məlumat almaq hüququnun qorunduğunu bildirmişdir [19]. Siyasi və demokratik nəzarət yalnız real məlumatların əldə edilməsi ilə formalaşan ictimaiyyətin rəyi ilə mümkündür. Cəmiyyətin əldə etdiyi real informasiya ilə ictimai rəy formalaşdırması üçün zəruri olan məlumat azadlığı dövlət üçün də şəffaflıq prinsipini zəruri edir.

Maraqlı cəhət ondadır ki, Məhkəmə əvvəlki qərarlarında informasiya əldə etmək hüququnu ifadə azadlığı kontekstində şərh etmirdi. Məsələn, Leander İsveçə qarşı qərarında Məhkəmə hesab etmişdir ki, rəsmi reyestrlərdə saxlanılan məlumatların aidiyyəti şəxsə bildirilməməsi 8-ci maddənin əhatə dairəsinə düşür. İnformasiyanın rəsmi sistemlərdən əldə olunması məsələsi ilə bağlı Konvensiyanın 10-cu maddəsinə əsasən heç bir ayrıca məsələ yaranmır [11].

Tarsagaga Szabadsagjogokert Macarıstana qarşı qərarında isə Avropa Məhkəməsi yekdilliklə qəbul etmişdir ki, informasiya əldə etmək ifadə azadlığının tərkib hissəsidir. Ərizəçi Tarsasaga Szabadsagjogokert (Macarıstan Vətəndaş Azadlıqları Birliyi) baş qərargahı Budapeştdə yerləşən qeyri-hökumət təşkilatıdır. Təşkilatın məqsədi vətəndaş cəmiyyətinin və Macarıstan hüququnun gücləndirilməsi və narkotik vasitələrin istifadəsinə qarşı mübarizədir. 2004-cü ildə parlament üzvü Macarıstan Cinayət Məcəlləsində narkotiklərlə bağlı cəzaların dəyişdirilməsi ilə bağlı şikayətlərini Konstitusiya Məhkəməsinə təqdim etmişdir. Ərizəçi baxdığı şikayətlə bağlı məlumat almaq üçün Konstitusiya Məhkəməsinə müraciət etmiş, lakin Məhkəmə ərizəçinin informasiya sorğusunu rədd etmişdir. Ərizəçi bütün digər hüquqi müdafiə vasitələri üçün öz ölkəsində müraciət etmiş, lakin istədiyi məlumatı əldə edə bilməmişdir. Ərizəçi Macarıstan dövlətinin informasiya əldə etmək hüququnu pozduğunu əsas gətirərək Konvensiyanın ifadə azadlığını ehtiva edən 10-cu maddəsinə əsaslanaraq İHAM-a müraciət etmişdir. Keçmiş qərarlarına istinad edərək, Məhkəmə yekdilliklə ərizəçinin ifadə azadlığının pozulduğu barədə qərar qəbul etmişdir. Məhkəmə ardıcıl olaraq ictimaiyyətin ümumi maraq kəsb edən məlumat almaq hüququna malik olduğunu qəbul etmişdir. Onun bu sahədə presedent hüququ bu cür məsələlərlə bağlı məlumat və ideyaların yayılmasına xidmət edən mətbuat azadlığı ilə bağlı işlənib hazırlanmışdır. 10-cu maddə ilə qorunan maraqları nəzərə alaraq, hakimiyyət orqanları məlumatın toplanmasına maneələr yaratdıqda dolayı senzuranın bir formasına çevrilə biləcək özbaşına məhdudiyyətlərə qanun yol verə bilməz. Məsələn, sonuncu fəaliyyət jurnalistikada mühüm hazırlıq mərhələsidir və mətbuat azadlığının ayrılmaz, qorunan hissəsidir. Konstitusiya Məhkəməsinin informasiya inhisarında olması senzuranın bir forması idi. Bundan əlavə, ərizəçinin niyyətinin sözügedən konstitusiya şikayətindən toplanmış məlumatları ictimaiyyətə çatdırmaq və bununla da narkotiklərlə bağlı hüquqpozmalara dair qanunvericiliyə dair ictimai müzakirələrə töhfə vermək olduğunu nəzərə alsaq, onun məlumat yaymaq hüququ açıq şəkildə pozulmuşdur [18].

### *1.3. Rəqəmsal dövrdə şəxsi toxunulmazlıq hüququnun təminatı və məlumat azadlığına dair məhdudiyyətlər*

Şəxsi həyatın toxunulmazlığı hüququ ona görə informasiya hüquqları ilə bağlı mövzu çərçivəsində şərh olunur ki, informasiya əldə etmək hüququnun realizəsi zamanı ən çox toqquşduğu hüquq məhz şəxsi həyatla əlaqədardır. Şəxsi həyatın toxunulmazlığı ilə informasiya əldə etmək hüququ arasında fikir ayrılığı olduqda, hansı hüququn digərindən üstün olduğunu ölçmək üçün heç bir meyar yoxdur. İki dəyərli hüquq geniş şəkildə üst-üstə düşür və mövcud struktur heç birinə zərər vermədən ikisini ayırmaq iqtidarında deyil. Mişel Fukonun söylədiyi kimi, bilik olmadan hakimiyyətin həyata keçirilməsi mümkün deyil, biliyin güc yaratmaması mümkün deyil [6, p. 1598].

Hətta artıq son dövrlərdə "informasiya şəxsiyyəti" (information identity) [13, p. 539] deyə bir ifadə meydana gəlmişdir. İnsanlar da cəmiyyətdə öz informasiya identikliyini dəyərləndirirlər. Həqiqətən də insanın başqalarının şüurunda hərtərəfli, həqiqi, dinamik, davamlı müəyyən edilə bilən xarakter kimi görünməsinə imkan verən funksional informasiya platformalarına olan istəyi daxili dəyərə malikdir. Bununla belə, reallığın dəyişdirilməsi bu istəyi yerinə yetirməkdə çətinlik yaradır. Texnoloji yeniliklər və sosial dəyişikliklər şəxsiyyət anlayışını genişləndirir və onun idarə olunması üçün yeni və maraqlı imkanlar açır. Bununla belə, onlar onun həssaslığını kəskin şəkildə artırırlar. Bu problemlə üzləşərkən mövcud qanunlar köhnəlmiş və konseptual cəhətdən qüsurlu görünür, şəxsiyyəti qismən və təsadüfi şəkildə qoruyur. Şəxsi toxunulmazlıq hüququ müstəqil, möhkəm və açıq bir anlayış kimi qəbul edilməlidir. Bu hüquq şəxsiyyətin daha dərindən başa düşülməsini, yəni onun mürəkkəbliyi, müxtəlif idarəetmə imkanları və üzləşdiyi təhlükələr ifadə edir. Deməli, şəxsiyyətə zərər vuran müxtəlif hərəkətlərin məhdudlaşdırılması, bir şəxs haqqında məlumat təhrifləri və yanlış nəşrlər, şəxsin identifikasiya platformasının məhv edilməsi və təqlid edilməsi və s. bu kimi məsələlər şəxsiyyətin toxunulmazlığı hüququ müstəvisində şərh olunmalıdır ki, bütün bunlar da informasiya sahəsində baş verir.

Əslində informasiya şəxsiyyəti hüququ dolayısı ilə yalnız mənəvi toxunulmazlıqla bağlı olaraq şəxsi həyatın toxunulmazlığı hüququnun əhatə dairəsinə düşür. Həm də bu hüquq yalnız şəxsin

informasiya sistemlərində tanınması ilə əlaqədar olmayıb, cəmiyyətdə və onlayn platformalarda tanınması kimi də qəbul edilməlidir. Sözün qısası, informasiya şəxsiyyəti hüququ insanın öz şəxsiyyətinin konkret təzahürü və onunla başqalarının şüurları arasında əlaqəni saxlamaq hüququ deməkdir. O, həm də yaxşı reputasiya hüququndan fərqlənir ki, bu da insanın xarakterinin sadəcə mövcudluğunu deyil, sosial cəhətdən müsbət cəhətlərini vurğulayır. Başqa sözlə, insanın yaxşı reputasiya hüququ onu ona aid olan mənfi ifadələrdən qoruyur [12, p. 183]. Bunun əksinə olaraq, şəxsiyyət hüququ onu neytral ifadələrdən, həmçinin silinməkdən, gizlədilməkdən, süzülməkdən və şəxsiyyətə çevrilməkdən qoruyur.

Qeyd etmək lazımdır ki, oflayn dünyada informasiya konfidensiallığı fərqli cür izah olunur. Cerri Kangın şərhinə görə, konfidensiallıq üç üst-üstə düşən klasterdən ibarətdir: məkan konfidensiallığı (fiziki məkan), qərarvermə konfidensiallığı (seçim) və informasiya konfidensiallığı (informasiya axını) [10, p. 1202-1203]. Onlayn dünyada konfidensiallıq şəxsi toxunulmazlıq və qapalı informasiya kontekstində şərh olunmalıdır. Şəxsi toxunulmazlıqla bağlı tənzimləmələr rəqəmsal dövrün ən başlıca problemlərindən biridir. Məlumatların konfidensiallığı anlayışı müasir konfidensiallıq qaydalarını formalaşdırmışdır və şəxsi toxunulmazlıq hüququ məlumatların qorunmasında diqqət mərkəzində olmalıdır. Fərdi məlumatlara ticarət etmək imkanı vermək məqsədi ilə biz fərdlərin öz şəxsi məlumatlarında mülkiyyət maraqlarını qəbul etməliyik, lakin bu, şəxslərin konfidensiallıq maraqlarına müdaxilə olunmayacağı dərəcədə məhdudlaşdırılmalıdır. Başqa sözlə, məlumat subyektinin və ya digər fiziki şəxslərin şəxsi toxunulmazlıqla bağlı maraqları ötürülmə nəticəsində zədələndikdə ona üstünlük verilməlidir.

İnformasiya əldə etmək hüququ ilə şəxsi toxunulmazlıq hüququ arasında ziddiyyətin mənbəyi fərdlərin informasiya və ya şəxsi toxunulmazlıq hüququnun hüquqi müdafiəyə layiq olub-olmaması məsələsidir. Belə ki, informasiya əldə etmək hüququ vasitəsilə şəxsin şəxsi həyatı ilə bağlı məlumatın üçüncü şəxslərə verilməsi və bununla da informasiyanın media vasitələri vasitəsilə ictimaiyyətə açıqlanması şəxsi hüquqlara zidd olacaqdır. Digər tərəfdən, məlumat şəxsin şəxsi həyatına aid olduğu üçün məlumat sorğusu rədd edilən şəxsin informasiya almaq hüququnun qarşısı alınacaqdır. Göründüyü kimi, bu hüquqlardan birinin istifadəsi digərinin pozulması ilə nəticələnə bilər.

Maraqların toqquşması zamanı nəzərə alınmalı olan məsələ ictimailiyin və şəxsin razılığının olub-olmamasıdır. Bu, demək olar ki, bütün hüquq sistemlərində qəbul olunmuşdur ki, şəxsin ictimai məkanda (istər oflayn, istərsə də onlayn) açıqladığı fərdi məlumatların əldə olunmasına məhdudiyyət qoyulmur. Hətta Van Burenin Hiq LinkedIn-ə qarşı işində ABŞ məhkəmələri də bəyan etmişdi ki, ictimaiyyətə açıq veb-saytlarda ictimai xarakter daşıyan məlumatın şəxsi həyatın qorunmasına dair ağlabatan gözləntilərə məruz qala biləcəyi şübhəli olaraq qalır [9].

İnformasiya əldə etmək hüququ ilə şəxsi toxunulmazlıq hüququnun toqquşduğu digər sfera dövlətin informasiya toplamaq səlahiyyəti ilə əlaqədar meydana çıxır. Belə ki, dövlətin informasiya sahəsində səlahiyyətləri əsasən aşağıdakı formalarda həyata keçirilir:

Birincisi, qanuni yollarla lazımi informasiyanı toplamaq səlahiyyəti. Bu səlahiyyət təmin olunmazsa, digər dövlət məlumatları reallaşdırıla bilməz, dövlətin ictimai idarə olunan rolu yerinə yetirilə bilməz.

İkincisi, informasiyanı elan etmək səlahiyyəti. Bu, ictimai yollarla iqtisadi və sosial məlumatları elan etmək vəzifəsindən irəli gəlir. Belə məlumatları elan etməklə sosial informasiya resursları səmərəli şəkildə inteqrasiya oluna bilər, həmçinin insanlara doğru məlumatı yalandan ayırmağa və məlumatdan istifadənin səmərəliliyini səviyyəyə qaldırmağa kömək edə bilər.

Üçüncüsü, informasiya ilə işləmək və ya onun emalı səlahiyyəti. İnformasiyanı emal edərkən səlahiyyətli dövlət qurumları məlumatdan istifadə edir, həm də məlumat yaradırlar. Məlumatı saxlamaq, emal etmək və təhlil etməklə, informativ idarəetmə və qərarlar qəbul edilə bilər. Beləliklə, dövlətin xidmət səviyyəsi artırıla bilər.

Təbii ki, dövlət insanlara daha yaxşı xidmət göstərmək, ölkənin ictimai işlərini idarə etmək və təkmilləşdirmə aparmaq üçün çoxlu sayda fərdi məlumatlara ehtiyac duyur. Lakin qanun vətəndaşa onun və ya özü haqqında məlumatların yayılmasına nəzarət etmək hüququnu həvalə edir. Vətəndaş öz şəxsi həyatının sirrini açıqlamaq və ya açıqlamamaq hüququna malikdir və onun şəxsi toxunulmazlığı

nə dərəcədə açıqlana bilər. Fərdi məlumatların icazəsiz açıqlanması və şəxsi məlumatlardan sui-istifadə edilməsi vətəndaşın şəxsi həyatının toxunulmazlığı hüququnun pozulmasıdır. Buna görə də dövlətin fərdi məlumatlardan istifadə etməsi ilə fərdin konfidensiallığının qorunması arasında ziddiyyətlər vardır. Bu ziddiyyətlərin aradan qaldırılması müxtəlif yollarla mümkün ola bilər. Hər şeydən əvvəl, dövlət orqanları informasiyalaşma prosesində qanunçuluq prinsipinə tabe olmalıdır. Qanunçuluq prinsipi tələb edir ki, informasiya hüququnu həyata keçirərkən milli idarəçiliyə müəyyən hüquqi səlahiyyət verilməli və bu, öz vəzifəsi çərçivəsində həyata keçirilməlidir. Müvafiq vəzifələri həvalə edilməyən inzibati orqanların hər hansı məlumatı hazırlamaq, toplamaq, saxlamaq, yaymaq və onlarla məşğul olmaq hüququ yoxdur.

Bundan əlavə, məlumat toplanarkən, qanunla və ya ictimai maraqlarla müəyyən edilmədikdə, məlumatın elan edilməsi və istifadəsi üçün fərdi razılıq əldə edilməlidir. Fərdi məlumatı saxlayarkən, xüsusən də şəxsi məlumatı redaktə edərkən və yenidən qurarkən onun düzgünlüyünə xüsusi diqqət yetirilməlidir. Saxlanılan məlumatda qeyri-dəqiq məlumatlar olarsa, inzibati məlumatların ictimaiyyətə açıqlanması vətəndaşlar üçün xoşagəlməz nəticələrə səbəb olacaqdır. Eyni zamanda, inzibati orqan saxlanılan məlumatların təhlükəsizliyinə zəmanət verməyə borcludur. Fərdi məlumatı ictimailəşdirərkən səlahiyyətli orqan şəxsi məlumatların yayılmasını məhdudlaşdırmalıdır. Səlahiyyətli orqanlara bu cür məlumatları biznes məqsədi ilə başqa təşkilata və ya şəxslərə vermək qadağandır.

Müasir dünyada şəxsi toxunulmazlıq hüququ ilə bağlı ən çox yayılmış problem şəxsin foto və videolarının paylaşılması ilə bağlıdır. Araşdırmamıza əsasən deyə bilərik ki, əksər dövlətlərdə ictimai yerlərdə foto və ya video çəkmək konstitusiyaya uyğundur. Dövlət insanlara şəxsi həyatın toxunulmazlığı hüquqlarını versə də, əgər onlar ictimai yerlərdədirsə, heç kimin qeyd olunan hüququ yoxdur. Gördüyümüz kimi, paparassilər məşhurları ictimai yerlərdə təqib edirlər, lakin heç vaxt məhkəməyə verilmirlər. Həmçinin, küçə fotoqrafları ictimai yerlərdə tez-tez şəkil çəkdirirlər. Şəhər həyatını, ümumi insanları, asayiş keşikçilərini və ya ictimai mülkiyyətdə olan hər şeyi kadra almaq qanunidir.

Şəkillərin kommersiya və qeyri-kommersiya məqsədli istifadəsini bilmək zəruridir. İctimai yerdə çəkilmiş istənilən fotoşəkillər qeyri-kommersiya məqsədləri üçün istifadə edilə bilər. Qeyri-kommersiya şəkilləri film, xəbərlər, incəsənət və ya şəxsi səbəblər üçün istifadə etməyi nəzərdə tutur. Bəzən televiziyalar, jurnallar, qəzetlər və digər KİV-lər şəkillərin dərc olunmasını xahiş edirlər. Bunlar “qeyri-kommersiya məqsədli istifadə” kimi təsnif edilir. Ümumi fotoqrafiya şəxsi həyatın toxunulmazlığı ilə bağlı heç bir problem yaratmasa da, şəxsi olaraq çəkilmiş fotonu istifadə etmək olmaz.

Bununla bağlı İHAM təcrübəsinə baxsaq, Məhkəmə qeyd etmişdir ki, şəxsin təsviri onun şəxsiyyətinin əsas atributlarından birini təşkil edir, çünki o, şəxsin unikal xüsusiyyətlərini üzə çıxarır və şəxsi öz həmyaşıdlarından fərqləndirir. İfadə azadlığı fotoşəkillərin dərcini əhatə etsə də, Məhkəmə buna baxmayaraq müəyyən etmişdir ki, başqalarının hüquq və reputasiyasının müdafiəsi bu sahədə xüsusi əhəmiyyət kəsb edir. Məhkəmə 8-ci maddə ilə 10-cu Maddəyə əsasən ifadə azadlığını tarazlaşdırarkən nəzərə alınmalı olan əsas amillərin nəzərə alınmasını zəruri saymışdır: ümumi maraqların müzakirəsinə töhfəsi varmı; aidiyyəti şəxs nə dərəcədə tanınır və çəkilişin əsas mövzusu nədir; müvafiq şəxsin əvvəlki davranışı; nəşrin məzmunu, forması və nəticələri; fotoşəkillərin çəkildiyi şərait [7].

Əsas etibarilə müqayisəli təhlili Anqlo-sakson və Roman-german sistemə daxil olan dövlətlər əsasında apardıq. Birinci qrup dövlətlərin əksəriyyətində fotoşəkillərin və ya filmlərin çəkilməsi ilə bağlı bəzi xüsusi məhdudiyyətlərə aşağıdakılar daxil ola bilər: fotoşəkil ədəbsiz olmamalıdır; şəkil təxribat xarakterli və ya seksual xarakter daşıyan uşağa aid olmamalıdır; fotoşəkildə məhkəmə qərarı ilə qorunan heç bir şey olmamalıdır (məsələn, uşaq qəyyumluğu və ya şahidin müdafiəsi); foto böhtan xarakterli olmamalıdır və ya kommersiya məqsədləri üçün istifadə edilməməlidir [14].

Roman-german dövlətlərindən Rusiyanın hüquqi tənzimləməsini daha məqsədəuyğun saydıq. Belə ki, RF-nin Mülki Məcəlləsində bu məsələ konkret şəkildə müəyyən olunmuşdur: Şəxsin təsvirinin (o cümlədən onun fotoşəkilinin, habelə onun təsvir olunduğu videoyazıların və ya təsviri sənət əsərlərinin) açıqlanmasına və sonrakı istifadəsinə yalnız həmin şəxsin razılığı ilə yol verilir. Vətəndaş vəfat etdikdən sonra onun təsvirindən yalnız uşaqlarının və sağ qalan həyat yoldaşının razılığı ilə, onlar olmadıqda isə valideynlərin razılığı ilə istifadə edilə bilər. Bu cür razılıq aşağıdakı hallarda tələb olunmur: 1) təsvirin

istifadəsi dövlət, ictimai və ya digər ictimai maraqlar üçün həyata keçirilir; 2) vətəndaşın təsviri ictimaiyyət üçün açıq yerlərdə və ya kütləvi tədbirlərdə (mitinqlər, qurultaylar, konfranslar, konsertlər, tamaşalar, idman yarışları və s. bu kimi tədbirlər) çəkilişi zamanı əldə edilmişdir (şəxsin təsvirin əsas obyekti kimi istifadə olunması halları istisna olmaqla); 3) şəxs ödəniş əsasında belə çəkilişə razılıq vermişdir. Şəxsin yuxarıdakı tələblərin pozulması ilə əldə edilmiş və ya istifadə edilmiş təsviri internetdə yayılarsa, vətəndaşın bu şəklin çıxarılmasını, habelə onun daha sonra yayılmasının qarşısının alınmasını və ya qadağan edilməsini tələb etmək hüququ vardır (152.1-ci maddə) [21].

Beləliklə, ictimai məkanlarda əgər foto və ya video çəkiliş birbaşa şəxsə fokuslanıbsa, mütləq onun razılığı alınmalıdır. Hətta bəzi hüquqşünaslar belə razılığın alınmamasını xırda xuliqanlıq kimi qiymətləndirirlər [22]. Əgər insan çəkilişin əsas subyekti deyilsə, deməli, onun hüquqları pozulmur. Lakin o, məqsədyönlü şəkildə çəkilirsə, o zaman artıq şəxsi həyatın toxunulmazlığına müdaxilədən danışmaq olar və bu uşaqlara da aiddir. Belə ki, uşaqların üstün mənafeyi baxımdan onların çəkilməsinə valideynlərin və yaxud da qəyyumların razılığı ilə icazə verilsə də, ictimai məkanda və ya tədbirdə çəkiliş zamanı əgər uşaq əsas subyekt deyilsə, bu çəkiliş mübahisələndirilə bilməz.

Rəqəmsal dövrdə şəxsi həyata dair məlumatların informasiya məkanında qorunması ilə bağlı meydana çıxan yeni hüquqlardan biri də unudulmaq hüququdur. Unudulmaq hüququ ilə bağlı əsas məsələ internet arxivlərindən məlumatların götürülməsi olduğu üçün bir çox hallarda sual yaranır ki, unudulmaq hüququna deyil, ifadə azadlığına dair müddəalara müraciət olunsun. Fikrimizcə, belə suallara konkret cavab İHAM təcrübəsində öz əksini tapmışdır. Xüsusilə, Times Qəzetləri Böyük Britaniyaya qarşı işini qeyd etməliyik ki, bu iş üzrə Rusiya əsilli bir iş adamı Times qəzetində çap olunmuş iki məqalədə böhtana görə məhkəməyə müraciət edib. Bu məqalələrdə o, çirkli pulların yuyulması və şübhəli mafiya başçısı ilə əlaqələndirilir. Hər iki məqalə dərc olunduğu gün “Times” qəzetinin saytına yüklənib. Britaniya Məhkəmələrində aparılan araşdırmalardan sonra iş həll olundu və Times Qəzetləri bəlli bir məbləğ ödəməyə razı oldular. Times Qəzetləri Apellyasiya Məhkəməsi, daha sonra isə Lordlar Palatası tərəfindən Brunsvik Dükü işində (1849-cu ildən) qaydaya etiraz etməkdən imtina etdi. Bu qayda bildirir ki, diffamasiyanın hər bir nəşri ayrıca hərəkətə səbəb olur. İnternet kontekstində bu o deməkdir ki, böhtan xarakterli materiallara hər dəfə daxil olanda yeni bir hərəkət səbəbi yaranır. Bu qayda İnternet Yayım Qaydası adlanır. Times Qəzetləri bu işlə bağlı Avropa Məhkəməsinə müraciət etdi və bildirdi ki, bu İnternet Yayım Qaydası onun ictimai əlçatan internet arxivini saxlamaq imkanlarını məhdudlaşdırır, eləcə də ifadə azadlığına sərt təsir göstərir. “The Times”, həmçinin Apellyasiya Məhkəməsinin arxivlərin saxlanmasının ifadə azadlığının əhəmiyyətsiz aspekti olduğu qənaətinə etiraz edərək, açıq və demokratik cəmiyyət üçün tarixi sənədlərin tamlığı və əlçatanlığının vacibliyinin zəruriliyini vurğuladı. Birincisi, Məhkəmə müəyyən etdi ki, internet arxivlərinin saxlanması internetin ictimaiyyətin xəbərlərə çıxışının və ümumilikdə məlumatın yayılmasının genişləndirilməsində oynadığı mühüm rolu işin əsas aspektidir. Məhkəmənin fikrincə, bu cür arxivlər Konvensiyanın 10-cu maddəsinin verdiyi mühafizə dairəsinə daxildir. İfadə azadlığı ilə digər rəqabət aparan hüquqlar arasında tarazlığın yaradılmasında təqdir marjası cari hadisələrin xəbərləri deyil, keçmiş hadisələrin xəbər arxivləri ilə bağlı olduqda daha çox ola bilər. Bu konkret işdə Məhkəmə belə qənaətə gəldi ki, qəzet – nəhayət etdiyi kimi – məqaləyə müəyyənlik əlavə edə bilərdi və etməli idi. Bu xüsusiyyət yazılı mətbuatda dərc olunmuş həmin məqalə ilə bağlı böhtan işinin başlandığını göstərməlidir. Belə bir tələb ifadə azadlığına qeyri-mütənasib müdaxilə hesab edilmir. Bununla belə, potensial böhtan xarakterli məqaləni silmək tələbi yoxdur. Bundan əlavə, Məhkəmə bu işdə məlumatların silinməsi hüququnu tanımadı [20].

Avropadan fərqli olaraq, ABŞ qanunları ümumiyyətlə söz azadlığını və ictimai məlumat hüququnu yüksək qiymətləndirir və əksər nitqlərə ciddi şəkildə məhdudiyyətlər qoyur. Əgər unudulmaq hüququ ABŞ-da mövcuddursa, o, Aİ-də olduğu kimi geniş şəkildə həyata keçirilməməlidir. Əksinə, hüququn uyğun hesab edildiyi dar kontekstlərdə təzahür etməlidir. Məsələn, unudulmaq hüququ qanunda analoqların artıq mövcud olduğu (kredit hesabatı), özəl qurumların artıq təcrübədə olduğu (Google kiber zorakılıq məzmununu silir) və ya problemli məsələ ətrafında mühüm söhbətlər (intiqam pornosu) olduqda əsaslandırıla bilər. Bu yolla, Birləşmiş Ştatlar internet əsrində millətin konfidensiallıq haqqında davam edən müzakirəsi ilə bir hüququn təbii şəkildə inkişaf etməsi üçün unudulmasına icazə verə bilər [16, p. 1210].

Unudulmaq hüququ ilə bağlı mübahisələrdə ifadə azadlığı və onun əhatə dairəsində olan kütləvi kommunikasiya, məlumat, mətbuat və internet azadlığı həmişə nəzərə alınmalı və ifadə azadlığının məhdudlaşdırılması zəruri hesab edilərsə, bu məhdudiyyət mütənasib olmalıdır. Mütənasiblik prinsipi çərçivəsində ifadə azadlığına ən az müdaxilə ilə unudulmaq hüququ ilə əldə etmək istədiyi məqsədə çatacaq bir vasitə seçmək lazımdır. Bu çərçivədə bir məzmunda şəxsin adının, soyadının və ya şəklinin qaralması və ya silinməsi kimi üsullar unudulma haqqının maraqlarını qarşılamaq üçün kifayət edərsə, ilk növbədə bu üsullar tətbiq edilməli və məzmunun tamamilə silinməsinin qarşısı alınmalıdır. Lakin burada unudulmaq hüququna və ifadə azadlığına tabe olan məzmundakı məlumatlar təqdim edildiyi/ötürüldüyü kontekstdən ayrılmadan bütövlükdə və konkret hadisənin bütövlüyü çərçivəsində qiymətləndirilməlidir. Çünki konkret hadisə kontekstində bütövlükdə sözügedən məlumatın silinməsi unudulmaq hüququnun mənafeyini təmin etmək üçün kifayət deyilsə, əlavə tədbirlər görülməlidir. Yaxud həmin şəxsin bu məlumatı özlüyündə ictimai marağın üstünlüyünə töhfə verə bilər və bu halda məlumatı silmək mümkün olmayacaqdır.

İctimai şəxslərin unudulmaq hüququ adi insanların unudulmaq hüququndan daha dar sayılmalı və bu məsələdə ikiqat fərq qoyulmalıdır. Bu baxımdan, sözügedən şəxslərin keçmiş davranışları və ya yaşadıqları bir hadisə ilə bağlı ictimaiyyətə açıqlanan məlumatlar bu şəxslərin şəxsi həyat fəaliyyətləri ilə bağlı məlumatdırsa, məlumat unudulmaq hüququ çərçivəsində qiymətləndirilə bilər. Lakin məlumatın şəxsin şəxsi həyat fəaliyyəti çərçivəsində olması bilavasitə unudulmaq hüququnun üstün olduğu qənaətinə gəlməyəcək və məlumatın ictimai maraqlara töhfə verib-verməməsinin araşdırılması ayrıca aparılacaq. Bundan başqa, sözügedən ictimailəşdirilmiş məlumatlar həmin şəxslərin vəzifə və ya peşə fəaliyyətinə aid olarsa, unudulmaq hüququ daha dar çərçivədə qiymətləndirilir. Üstəlik, siyasi xadimlərin informasiya azadlığı qarşısında vəzifələri və ya peşə fəaliyyətləri ilə bağlı unudulmaq hüququ ilə bağlı müraciətlərini qəbul etməsi demək olar ki, mümkün deyil. Çünki cəmiyyətdəki digər insanların siyasi həyat haqqında məlumat alması təkcə cari hadisələri və məlumatları deyil, həm də keçmiş hadisələri və məlumatları bilmək və əldə etmək marağı ehtiva edir. Bu baxımdan siyasi şəxslərin vəzifələri və ya peşə fəaliyyətləri ilə bağlı məlumat və ifadələrin mühafizəsi qayda, unudulmaq hüququnun qorunması isə istisna olacaqdır.

*1.4. Nəticə*

Şəxsi toxunulmazlıq hüququ ilə məlumat azadlığının toqquşduğu əsas məqam hər kəsin daha çox məlumatı bilmək istəyindən, qarşı tərəfin isə əksinə şəxsi və ailə həyatının gizli qalmasını istəmək tələbindən irəli gəlir. Təsadüfi deyil ki, ölkə daxilində mövcud olan bütün qanunvericilik normalarında şəxsin özünün razılığı olmadan (yəni gizli) onun video çəkilişinə, fotosunun çəkilməsinə və ya səs yazısına icazə verilmir. Belə yazı və çəkilişlərə yalnız qanunda nəzərdə tutulmuş hallarda və qanunla müəyyən olunmuş qaydada yol verilir. Burada əsas məsələ foto və video çəkilişinin məlumat azadlığının məzmununa daxil olması ilə əlaqədardır. Konstitusion qaydada məlumatların qanuni yolla əldə olunması yolverilən olduğu üçün belə çəkilişləri də məlumat mənbəyi kimi qiymətləndirə bilərik. Hesab edirik ki, qanunvericilikdə ictimai yerlərdə belə çəkilişlərin aparılması ilə bağlı normanın olmaması sonradan mübahisələndirmə predmeti olub-olmayacağını sual altına alır. Qanunvericilik aspektindən baxsaq, şəxsin fotosu əksər dövlətlərdə, eləcə də İHAM təcrübəsində şəxsi həyata dair məlumat sayılsa da, respublikamızda belə tənzimləmə nəzərdə tutulmamışdır. Ona görə də ictimai yerlərdə şəkli və ya videosu çəkilmiş şəxsin bununla bağlı hansı hüquqlara malik olacağı tam dəqiq deyil. Tədqiqat zamanı müxtəlif xarici dövlətlərin təcrübəsinə nəzər saldıq və daha uyğun təcrübə kimi Almaniya, Rusiya və Türkiyənin tənzimləməsini məqbul sayırıq. Belə ki, ictimai yerlərdə çəkilişə yalnız o halda icazə verilə bilməz ki, şəxs belə çəkilişin əsas obyekti olsun. Eyni zamanda, burada istisnalar da öz əksini tapmalıdır. Məsələn, cinayətlə bağlı kadrların icazəsiz yayımlanması, uşaqların valideynin və ya qəyyumunun icazəsi olmadan tam aydınlıqla kadra alınması. Bu kimi məsələlərin qanunvericilikdə öz əksini tapması zəruridir.

Milli konstitusiyamızda şəxsi toxunulmazlıq hüququna dair 32-ci maddənin o qədər də uğurlu olmadığını hesab edirik. Bir tərəfdən, məhdudiyyətlər natamam şəkildə yalnız IV bənddə yazışma sirri üçün nəzərdə tutulmuşdur. Digər tərəfdən isə VII bənddə şəxsi həyata aid məlumatların nəzərdə tutulmasını və ailə həyatının diqqətdən kənarda qalmasını heç bir səbəblə əsaslandırmaq mümkün deyil.

Bundan əlavə, əqidə, dini və etnik mənsubiyyətlə bağlı informasiya zatən şəxsi həyata dair məlumat olduğu üçün bu növ informasiyanın xüsusi vurğulanması da çox ziddiyyətli görünür. Qeyd olunanları nəzərə alaraq, ARK-nın 32-ci maddəsinin yenidən işlənməsinə və müvafiq dəyişikliklərin edilməsinə zərurət vardır. Avropa və Anqlo-Sakson təcrübəsinə əsasən, belə qənaətə gəlmək olur ki, məlumatların informasiya sistemindən sildirilməsi hüququ unudulmaq hüququ ilə eyniləşdirilir. Belə ki, Fərdi Məlumatların Qorunmasının Ümumi Qaydalarının 17-ci maddəsində sildirmək hüququnu nəzərdə tutan maddənin adında mötərizədə "right to be forgotten" yazılmışdır. Fikrimizcə, "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulan "xüsusi kateqoriyalı məlumatlar" (irqi və yaxud milli mənsubiyyətə, ailə həyatına, dini etiqada və əqidəyə, səhhətə və ya məhkumluğa aid məlumatlar) məhz unudulmaq hüququnun məzmunu ilə bağlıdır. Analoji norma "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyanın 6-cı maddəsində də nəzərdə tutulmuşdur.

Həmçinin Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsinin VII bəndində də deyilir ki, məlumatın aid olduğu şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz. Bu bənddə ailə həyatına aid məlumatların daxil edilməməsi özü də bir qədər mübahisəlidir. Əslində, mövcud problemlərin əsası milli qanunvericilikdə fərdi məlumata dolğun anlayış verilməməsindən irəli gəlir. Fərdi məlumat dedikdə, şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyənləşdirməyə imkan verən istənilən məlumatı nəzərdə tutan qanunverici ("Fərdi məlumatlar haqqında" 11 may 2010-cu il tarixli Azərbaycan Respublikası Qanunu) informasiya sahəsində digər normalarda fərdi məlumatları şəxsi və ailə həyatına dair məlumatların məcmusu kimi qiymətləndirir. Xüsusi kateqoriyalı məlumatları unudulmaq hüququnun predmetinə daxil olan məzmun kimi qəbul etsək, o zaman Konstitusiyanın 32-ci maddəsinin VII bəndinin də redaktəsi daha düzgün olar.

Beləliklə, Azərbaycan Respublikasının qanunvericiliyi məlumatların silinməsi hüququnu unudulmaq hüququ ilə eyniləşdirmir. Əslində, fərdi məlumatların məzmununa yuxarıda qeyd etdiyimiz redaktələrin edilməsi ilə xüsusi kateqoriyalı məlumatların unudulmaq hüququ ilə ehtiva olunması mümkün olar. Sadəcə burada bir məqamı unutmamaq lazımdır. Unudulmaq hüququ kütləvi informasiya vasitələrindən və internet informasiya ehtiyatlarından məlumatların silinməsi ilə məhdudlaşmalıdır. Burada dövlət informasiya sistemlərində mövcud olan məlumatların tamamilə məhvindən söhbət getmir. Məsələ burasındadır ki, Fərdi Məlumatların Qorunmasının Ümumi Qaydaları da hər iki hüququ eyni maddə altında birləşdirsə də, dolayısı ilə verilənlərin silinməsi hüququnu tənzimləyir. Çünki məlumat (verilən) subyektinə nəzarətçidən (controller) onunla əlaqəli fərdi məlumatların silinməsini həddindən artıq gecikdirilmədən əldə etmək hüququna və nəzarətçinin Qaydalarda göstərilən əsaslardan birinin tətbiq olunduğu hallarda şəxsi məlumatları ləngimədən silmək məcburiyyətində olmasını nəzərdə tutur. Nəzarətçi adı altında isə Qaydalar fərdi məlumatların işlənməsinin məqsəd və vasitələrini təkbaşına və ya başqaları ilə birlikdə müəyyən edən fiziki və ya hüquqi şəxs, dövlət orqanı, qurum və ya digər qurumları birləşdirir. Deməli, hər hansı bir sosial şəbəkədən illər sonra şəxsin məhkumluğu barədə xəbəri çıxarıb onun şəxsi həyatına mənəvi zərər yetirildiyi hallarda Qaydalar unudulmaq hüququnu müdafiə etməyəcəkdir. Problem ondadır ki, öz fərdi məlumatlarının silinməsini istəyən şəxs bunun üçün bütün müvafiq subyektlərə müraciət etməlidir. Dövlətdaxili səviyyədə bu, o qədər çətin iş deyil. Lakin söhbət ayrı-ayrı yurisdiksiyalara aid subyektlərə silinmə üçün müraciət etmədən gedirsə, artıq bu zaman çətinliklər meydana çıxacaqdır. Çünki məlumatların hələ də vebsaytın başqa bir hissəsində tapıla biləcəyi mümkündür. Bundan əlavə, məlumatlar hələ də ehtiyat məlumat daşıyıcılarında və ya bulud yaddaşında saxlanıla bilər ki, bunun qarşısını almaq praktiki olaraq mümkün deyil. Nəhayət, hələ naməlum üçüncü tərəflərin şəxsi nüsxələri saxlaması və bu nüsxələrin gələcəkdə internetə qoyulması ehtimalı da qalmaqdadır. Bu baxımdan, unudulmaq hüququnun informasiya sistemləri ilə əlaqələndirilməsi heç düzgün deyil. Çünki informasiya sistemlərinin fəaliyyəti dövlətlərin daxili yurisdiksiyası altına düşür, lakin internet məkanından məlumatların silinməsi artıq sərhədləri bilinməyən

kibermәkana aiddir. Ona görə də unudulmaq hüququ ilə bağlı beynəlxalq hüquqi normaların dəqiq qəbul edilməsi və dövlətlərin bu normaları milli təcrübədə tətbiqi ilə bağlı addımların atılması gərəkdir.

**İstinadlar:**


1. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşri. Bakı: Nurlar, 2019, 352 s.
2. Əliyev Ə.İ., Rzayeva G.A., İbrahimova A.N., Məhərrəmov B.A., Məmmədrzalı Ş.S. İnformasiya hüququ. Dərslik. Bakı: Nurlar, 2019, 448 s.
3. Rzayeva G.A., İbrahimova A.N. Süni intellekt, insan hüquqları və fərdi məlumatların təhlükəsizliyi. Dərs vəsaiti. Bakı: Nurlar, 2021, 200 s.
4. Dorothy J. Glancy. The invention of the right to privacy. // Arizona Law Review, 1979, Volume 21 (1). http://law.scu.edu/wp-content/uploads/Privacy.pdf Gaskin v. the United Kingdom, 7 July 1989. https://hudoc.echr.coe.int/app/conversion/docx/?library=ECHR&id=001-57519&filename=CASE%20OF%20LEANDER%20v.%20
6. Golder Papiya. Right to Information vs. Right to Privacy: A Judicial Approach // International Journal of Law Management & Humanities, 2021, No. 4, pp. 1598-1605
7. Guide on Article 8 of the European Convention on Human Rights. https://www.echr.coe.int/documents/d/echr/guide_art_8_eng
8. Herczegfalvy v. Austria, Application No. 10533/83, 24 September 1992. https://hudoc.echr.coe.int/app/conversion/docx/?library=ECHR&id=001-57519&filename=CASE%20OF%20LEANDER%20v.%20
9. Inc. v. LinkedIn Corp., D.C. No.3:17-cv-03301-EMC, at 18 (9th Cir. Apr. 18, 2022). https://cdn.ca9.uscourts.gov/datastore/opinions/2022/04/18/17-16783.pdf
10. Jerry Kang. Information Privacy in Cyberspace Transactions // Stanford Law Review, 1998, pp. 1193-1294 (102 pages)
11. Leander v. Sweden, Application no. 9248/81, 26 March 1987. https://hudoc.echr.coe.int/app/conversion/docx/?library=ECHR&id=001-57519&filename=CASE%20OF%20LEANDER%20v.%20
12. Nick Braithwaite. The international libel handbook. Focal Press, 1995, 200 p.
13. Oreg Elad. Right to Information Identity // John Marshall Journal of Computer and Information Law, 2012, Vol. 29, No. 4, Fall/Winter, pp. 539-592
14. Photography and film in public places. https://www.lawhandbook.sa.gov.au/ch34s01s04s02.php
15. Prlja D. Reljanović, D. Internet pravo. Beograd: Institut za uporedno pravo, 2012, 156 c.
16. Ravi Antani. The Resistance of Memory: Could the European Union's Right to be Forgotten Exist in the United States? // Berkeley Tech. L.J., 2015, pp. 1173-1210
17. Samuel D. Warren, Louis D. Brandeis. The Right to Privacy. // Harvard Law Review, 1890, Vol. 4, No. 5, pp. 193-220
18. Társaság a Szabadságjogokért v. Hungary, Application no. 37374/05, 14 April 2009. https://hudoc.echr.coe.int/eng#{%22itemid%22:[%22001-92171%22]}
19. The Sunday Times v. v. United Kingdom. Application No. 6538/74, 26.04.1979. https://globalfreedomofexpression.columbia.edu/cases/the-sunday-times-v-united kingdom/#:~:text=Case%20Summary%20and%20Outcome, violated%20its%20freedom%20of%20expression
20. Times Newspaper Ltd v. the United Kingdom, Application no. 64367/14, 13 November 2018. https://globalfreedomofexpression.columbia.edu/cases/times-newspapers-ltd-v-united-kingdom
21. Гражданский Кодекс Российской Федерации. https://www.consultant.ru/document/cons_doc_LAW_5142/
22. Юристы: Назойливую видеосъемку на улице могут признать мелким хулиганством. https://rg.ru/2021/04/25/iuristy-nazojlivuiu-videosemku-na-ulice-mogut-priznat-melkim-huliganstvom.html

**Gulnaz Rzayeva**
**Lecturer of the UNESCO Chair on Human rights and Information Law of the Faculty of Law of Baku State University, Doctor of Philosophy in Law (gulnazrzayeva@mail.ru).**

## LEGAL REGULATION OF THE LIMITATIONS OF FREEDOM OF INFORMATION IN THE SPHERE OF A PERSON'S PERSONAL LIFE

*In an era of dynamic development of ICT, the legal regulation of the limitatitons of freedom of information in the sphere of a person's personal life is considered to be one of the topical issues. Because, on the one hand, it is important to protect a person's personal and family life, on the other hand, everyone should have the right to access any information. Therefore, the content of the right to privacy should be clearly defined in order to specify exactly what kind of information should be restricted. The aim of the presented article is to clarify points related to the right to privacy, and to present proposals for eliminating the contradictions arising from the conflict between the freedom of information and the right to privacy in most cases. In the article, the existing problems are interpreted from both a legal and practical point of view, suggestions and recommendations are put forward.*

***Keywords:*** *personal life, family life, right to privacy, freedom of information, information, personal data, right to be forgotten, internet, virtual space, national-legal regulation, international-legal regulation.*

**Гульназ Рзаева**
**Преподаватель кафедры ЮНЕСКО по правам человека и информационного право юридического факультета Бакинского государственного университета, доктор философии по праву (gulnazrzayeva@mail.ru).**

## ПРАВОВОЕ РЕГУЛИРОВАНИЕ ГРАНИЦ СВОБОДЫ ИНФОРМАЦИИ В СФЕРЕ ЛИЧНОЙ ЖИЗНИ ЧЕЛОВЕКА

*В современное время, в эпоху динамичного развития ИКТ, правовое регулирование границ свободы информации в сфере личной жизни человека считается одним из актуальных вопросов. Потому что, с одной стороны, важно защитить личную и семейную жизнь человека, с другой стороны, каждый должен иметь право доступа к любой информации. Следовательно, содержание права на неприкосновенность частной жизни должно быть четко определено, чтобы точно указать, какой тип информации следует ограничивать. Цель представленной статьи – прояснить моменты, связанные с правом на неприкосновенность личности, и представить предложения по устранению противоречий, возникающих в большинстве случаев из конфликта между свободой информации и правом на неприкосновенность личности. В статье существующие проблемы трактуются как с юридической, так и с практической точки зрения, выдвигаются предложения и рекомендации.*

***Ключевые слова:*** *личная жизнь, семейная жизнь, право на неприкосновенность частной жизни, свобода информации, информация, персональные данные, право на забвение, Интернет, виртуальное пространство, национально-правовое регулирование, международно-правовое регулироване.*

**Məqalənin redaksiyaya daxil olma tarixi: 15.09.2023**

**Hüseyn Əsgərov**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü (huseyna28@mail.ru).**

# MÜLKİ PROSESDƏ NÜMAYƏNDƏLİK İNSTİTUTUNUN MAHİYYƏTİ: NƏZƏRİ YANAŞMALAR VƏ NORMATİV TƏSBİT

*Nümayəndəlik institutu praktiki olaraq hüququn bütün sahələrində mövcuddur. Mülki prosesdə nümayəndəlik institutu fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni maraqlarının məhkəmədə müdafiəsinin vacib konstitusion təminatıdır. Hüququn bu institutu ümumi anlamda bir şəxsin digər şəxsin adından, onun maraqları naminə, onun tapşırığı ilə həmin şəxsə qanunla verilən səlahiyyətlər çərçivəsində prosessual hərəkətləri icra etdiyi, eyni zamanda təmsil olunan şəxsə münasibətdə müəyyən hüquq və vəzifələr yaradan hüquq münasibətidir. Nümayəndəlik maddi və prosessual hüquqda öz məqsədlərinə, yaranma əsaslarına və nəticələrinə görə fərqlənir.*

***Açar sözlər:*** *mülki proses, nümayəndə, qanunvericilik, doktrina, hüquq sistemi, prosessual, ədalət mühakiməsi, çəkişmə prinsipi, vəkil.*

Mülki prosesdə nümayəndəlik institutunun anlayışı ilə bağlı məsələləri tədqiq edərkən ümumilikdə nümayəndəliyin mahiyyəti, mülki prosesdə nümayəndənin iştirakının zəruriliyi, müxtəlif hüquq ədəbiyyatlarında mövcud olan nəzəri fikirlərin, doktrinaların, eyni zamanda dövlətdaxili normativ hüquqi aktların araşdırılması, müqayisəli şəkildə təhlili məqsədəuyğun hesab edilir. İlk öncə, mülki proseslərdə nümayəndələrin iştirakı zərurətinə diqqət yetirək. İnsanlar məhkəmədə öz işlərini şəxsən və ya nümayəndələri vasitəsilə apara bilərlər. Fəaliyyət qabiliyyəti olmayan, yetkinlik yaşına çatmayan, azyaşlı şəxslərin işlərini onların qanuni nümayəndələri, qəyyumlar və himayəçilər aparır. Hüquqi şəxslərin işlərini isə onlara qanunla, nizamnamə ilə və ya təsis sənədi ilə verilmiş səlahiyyətlərin daxilində hərəkət edən nümayəndələri həyata keçirir.

Müxtəlif səbəblərə görə vətəndaşlar bəzən məhkəmə iclasında bilavasitə iştirak edə bilmirlər. Məsələn sağlamlıq vəziyyətinə görə, məzuniyyətlə əlaqədar, xəstəxanaya yerləşdirmə, ezamiyyətdə olma, məhkəmənin yerləşdiyi yerin şəxsin yaşayış yerindən uzaqlığı və s. Bəzən isə sadəcə iştirak etməmə istəyi, məsələn: "əks tərəflə" qarşılaşmamaq səbəbi ilə bağlı ola bilər. Nəhayət, insanlar ixtisaslı hüquqi yardıma ehtiyac duyur, buna görə qanun vətəndaşlara nümayəndələr vasitəsilə məhkəmədə öz işlərini aparmağa imkan verir. Hətta şəxs özü işdə şəxsən iştirak etsə belə, bu, iş üzrə nümayəndəyə malik olmaq hüququndan məhrum etmir.

Bəzi hallarda maddi hüquq münasibətləri nümayəndəliyə yol vermir. Məsələn nikahın bağlanması zamanı nümayəndəliyə yol verilmir. Prosessual kontekstdə isə belə məhdudiyyətlərə, demək olar ki, rast gəlinmir. Məhkəmə nümayəndələri onlara verilən səlahiyyətlər daxilində təmsil etdiyi şəxs üçün daha əlverişli şəraitin yaradılmasına çalışan, ona zəruri hüquqi yardım göstərməli olan şəxsidir. Paralel olaraq, nümayəndənin iştirakı məhkəmədə ədalət mühakiməsinin həyata keçirilməsinə də müsbət mənada öz təsirini göstərir [20, s. 49]. Mülki prosesdə nümayəndəlik institutunun əsas məqsədi fiziki və hüquqi şəxslərin hüquq və qanuni maraqlarının tam şəkildə təmin edilməsinə nail olmaqdır. Bu institutun əhəmiyyəti bir sıra səbəblərlə əlaqədardır. İlk növbədə, mülki işlərin çəkişmə prinsipi əsasında həyata keçirilməsi səbəbi ilə əlaqədardır. Sübutetmə yükünün tərəflərin üzərinə qoyulması səbəbindən tərəflər öz hüquq və maraqlarını müdafiə etmək üçün zəruri hüquq bilgisinə malik olmalıdır. İkincisi, ümumilikdə hüquq sisteminin, qanunvericiliyin zənginləşməsi və ya mürəkkəbləşməsi: Belə ki, cəmiyyətin tələbatları artdıqca qanunların sayı da artır, hətta hüquqşünaslar arasında da ixtisaslaşma qaçınılmazdır. Belə olan halda, ixtisaslı nümayəndənin iştirakı, onun peşəkar hüquqi yardım göstərməsi zərurətə çevrilir.

Mülki prosesdə iştirak edən nümayəndə prosesdə iştirak etməklə özü üçün yox, təmsil etdiyi şəxs üçün müəyyən hərəkətlər yaradır, dəyişir və ya ləğv edir. Nümayəndənin mülki prosessual münasibətlərin subyekti olması sualına birmənalı cavab vermək çətindir. Bu suala pozitiv cavab vermək daha rahatdır, çünki müvafiq məsələ qanunda öz təsbitini tapmışdır [17, s. 77]. Məsələn, AR MPM nümayəndəni prosesin digər iştirakçıları kateqoriyasına aid edir (md. 61). Nümayəndəlik institutu təkcə iddia icraatında deyil, xüsusi icraat, icra icraatında, həmçinin bütün instansiya məhkəmələrində aparılan işlərdə də həyata keçirilir.

İndi isə mülki prosesdə nümayəndəlik institutu ilə bağlı doktrinal fikirlərə, nəzəri yanaşmalara baxaq. Nümayəndəlik institutu hələ Roma xüsusi hüququnda məlum idi. Roma məhkəmə proseslərində actores (hüquqi şəxsin nümayəndəsi), tutores (qəyyumlar), advocatus (öz qohum və dostlarına məhkəmədə məsləhət verən şəxslər) [15, s. 82] adlı şəxslər iştirak edirdi. Alman-Holland yurisprudensiyası adlanan XVII əsrin hüquqşünasları nümayəndəlik institutunu inkişaf etdirərək ona yeni xüsusiyyətlər gətirmişdi. Belə ki, nümayəndə digər şəxsin adından çıxış etsə də, mülki prosesdə hüquq və vəzifələr yaradır və prosesin tamhüquqlu iştirakçısına çevrilirdi. Bu dəyişiklik uzun müddət hüquq aləmində qüvvədə olan və nümayəndələri proses iştirakçısı statusundan məhrum edən alteri stipulari nemo potest prinsipini [7, s. 37] əhəmiyyətli dərəcədə dəyişdi. Qədim Roma alimi Ulpianın irəli sürdüyü bu prinsipi təbii hüquq məktəbinin nümayəndələri dəyişə bildi [11, s. 432].

Mülki prosesdə nümayəndənin birbaşa iştirakı, başqa sözlə birbaşa nümayəndəlik konsepsiyasının işlənib hazırlanmasında Holland hüquq alimi Hüquo Qrotsi böyük işlər görmüşdür. Məhz o, ilk dəfə olaraq nümayəndəlik müqaviləsini üçüncü şəxsin xeyrinə olan müqavilədən ayırmışdır [9, s. 45-46]. Bu addım kontinental hüquq sistemli ölkələrin qanunvericiliyində hələ də öz qüvvəsini saxlayır. Ümumiyyətlə, bir vacib məqamı qeyd edək ki, Roma hüquq sistemindən yararlanmış kontinental hüquq sistemli dövlətlər (Almaniya, İtaliya, Fransa, Rusiya, o cümlədən Azərbaycan) mülki prosesdə nümayəndənin iştirakını həmin prosesin effektivliyi və ümumilikdə ədalət mühakiməsinin səmərəliliyi baxımından vacib şərt sayırlar.

Artıq qeyd etdiyimiz kimi, mülki prosesdə nümayəndəlik institutuna müxtəlif ölkələrin hüquq ədəbiyyatlarında fərqli yanaşmalar mövcud olsa da, onların arasında ciddi fikir müxtəlifliyi və ya prinsipial fərqlər nəzərə çarpmır. Bununla belə, tədqiq etdiyimiz məsələ ilə bağlı dolğun, bitkin fikir bildirmək üçün həmin konseptual fikirlərə nəzər yetirilməsi məqsədəuyğun hesab edilir.

Köln Universitetinin professoru Mattias Kilian qeyd edir ki, hüquqi nümayəndəlik müxtəlif işlər üzrə məhkəmə prosesində hər hansı bir şəxsə peşəkar hüquqşünas (lisenziyalı peşəkar hüquqşünas, barrister, solisitor, vəkil və s.) tərəfindən təmsilçiliyin göstərilməsidir. Müəllif eyni zamanda məcburi (mandatlı) nümayəndəliyi də fərqləndirir. Bu növ nümayəndəlikdə təmsil olunan şəxsin məhkəmədə eşidilmək və prosessual hüquqlardan istifadə etmək hüququ var [6, s. 3].

Mülki hüquq sferasında nüfuzlu mütəxəssislərdən hesab edilən professor Rik Verhagen mülki prosesdə nümayəndənin statusu ilə bağlı məsələdə onun səlahiyyətinin yaranması meyarını əsas götürür. Məhz bu səbəbdən nümayəndəlik qanuni (normativ hüquqi akt əsasında yaranır) və könüllü (əqd və ya etibarnamə əsasında yaranır) ola bilir [8, s. 6]. Belə bölgü əsasən kontinental hüquq sisteminə malik dövlətlər üçün xasdır. Mauro Kappelletti qeyd edir ki, mülki prosesdə azyaşlılar, fəaliyyət qabiliyyəti olmayanlar, aztəminatlılar qanuni nümayəndələrlə təmsil olunurlar ki, həmin nümayəndələr qismində adətən vəkillər çıxış edir [5, s. 119].

Məşhur Britaniya hüquq alimi, Oksford Universitetinin mülki proses üzrə professoru Adrian A.S.Zukerman hesab edir ki, ümumi hüquq sistemli ölkələrdən fərqli olaraq, kontinental hüquq sistemində mülki prosesdə nümayəndənin iştirakı arzuolunandır. Bunun əsas səbəbi mülki prosesin çəkişmə prinsipi əsasında aparılması və məhkəməyə bu prosesdə tam neytral mövqeyin tutulması imkanını verilməsi ilə bağlıdır. Anqlo-amerikan sistemindən fərqli olaraq, bu sistemə malik ölkələrdə prosedur qaydaların çoxluğu, normativ aktların fərqliliyi, prosessual qaydaların yazılı şəkildə aparılması və s. rəsmiliklər insanlara məhkəmə prosesində özünü müdafiə etmə qabiliyyətini azaltmağa gətirib çıxarır, yəni bütün bunların mövcudluğu zəruri hüquqi bilikləri olmayan şəxsin mülki prosesdə asanlıqla uduzacağına işarə edir [10, s. 357-361].

Mülki prosesdə nümayəndəlik institutu ilə bağlı rus alimlərinin də fikirləri maraq doğurur. O.V.İsaenkova qeyd edir ki, mülki prosesdə məhkəmə nümayəndəsi mülki prosesin iştirakçısıdır və təmsil olunan fiziki və hüquqi şəxslərin adından prosessual hərəkətlər həyata keçirir [18, s. 106]. R.A.Sidorovun fikrincə, nümayəndə mülki prosesin müstəqil iştirakçısıdır və onun prosessual vəziyyəti bir qədər mürəkkəbdir, çünki o, təmsil olunan şəxsin hüquqlarını realizə edir. Bu səbəbdən müəllif nümayəndəni, nə prosesdə iştirak edən şəxslər kateqoriyasına, nə də prosesin digər iştirakçılarına aid etmir [14, s. 78].

Nümayəndələr hüquq müdafiə fəaliyyəti ilə yanaşı, mülki işlərə düzgün baxılması və həllinə də yardım edirlər. Bunun üçün nümayəndənin maddi və prosessual hüquq normaları barədə kifayət qədər bilik və bacarıqları olmalıdır. Burada söhbət əsasən vəkillərdən gedir [16, 28]. Bəzi müəlliflər hesab edir ki, məhkəmədə mülki işlərin aparılmasında təkcə maddi və prosessual normalar haqqında

informasiyaya malik olma kifayət etmir, bu sahədə praktiki bacarıqların olması da şərtdir [13, s. 35]. Hər bir halda nümayəndə təmsil etdiyi hüquqi və fiziki şəxsin adından çıxış etməli, onun üçün müsbət hüquqi şəraitin yaradılmasına çalışmalıdır [19, s. 32].

Xarici ölkələrin alimləri ilə yanaşı, mülki prosesdə nümayəndəlik institutu ilə bağlı yerli müəlliflərin də maraqlı fikirləri var. Professor Ə.İ.Əliyev nümayəndəlik institutunu həm beynəlxalq, həm də dövlətdaxili kontekstdə təhlil edərək qeyd edir ki, ədalət mühakiməsinin əsas ünsürlərindən biri kimi müdafiəçinin köməyindən istifadə etmək hüququnun başlıca məqsədi tərəflərin real (həqiqi) bərabərliyinə təminat verməkdir [1, s. 415]. Göründüyü kimi, müəllif çəkişmə prinsipinin realizəsini əsas götürmüşdür. M.Mövsümov hesab edir ki, məhkəmədə nümayəndəlik mülki prosesdə məhkəmə və nümayəndə arasında təşəkkül tapan münasibətləri tənzimləyən mülki prosessual hüquq normalarının məcmusudur. Məhkəmədə nümayəndəlik hüquq münasibətidir və ona verilən hüquq çərçivəsində təmsil etdiyi şəxsin adından prosessual hərəkətləri etməkdən ibarətdir. Nümayəndənin prosessual hərəkətləri təmsil etdiyi şəxs üçün prosessual nəticələr yaradır: hüquq və vəzifələr [3, s. 92].

Ş.İ.Əliyev qeyd edir ki, hüquq münasibətlərinin subyektlərinin hüquq və qanuni maraqlarının müdafiəsinin təmin olunması hüquqi dövlətin əsas məqsəd və vəzifələrindən birini təşkil edir. Bu məqsəd və vəzifənin həyata keçirilməsində mühüm rol nümayəndəlik institutunun bir qolu olan vəkilliyin üzərinə düşür. Belə ki, vəkillik bütün tarixi inkişaf yolu ərzində özünün əsas məqsədi olan fiziki və hüquqi şəxslərin hüquq və qanuni maraqlarını müdafiə etməklə ədalət mühakiməsinin həyata keçirilməsinə və qanuniliyə riayət olunmasına öz köməkliyini göstərmişdir [2, s. 8]. Mülki prosesdə nümayəndəlik institutun anlayış və mahiyyəti ilə bağlı doktrinal fikirlərlə yanaşı, bu institutun normativ-hüquqi anlayışına da diqqət yetirilməlidir. Bir qədər də konkret desək, müxtəlif dövlətlərin milli qanunvericiliklərində bu məsələyə hansı prizmadan yanaşılmasına aydınlıq gətirilməsini məqsədəuyğun hesab edirik.

ABŞ-da nümayəndəliklə bağlı əsas qanunvericilik aktları ölkə Konstitusiyası, Qanunların məcəlləsi (1911), Rayon məhkəmələri üçün mülki məhkəmə icraatı qaydaları (1937), Sübutetmə haqqında federal qaydalar (1975), Apellyasiya icraatı qaydaları (1967), Ali məhkəmədə işlərin aparılması qaydaları (1989) və s. aktlardır. Bu qanunlara əsasən, ABŞ-da qanuni və müqaviləli nümayəndəlik mövcuddur. Əgər məhkəmə prosesində nümayəndə yoxdursa, tərəflə mübahisəsi varsa və ya sadəcə tərəfi təmsil etmək gücündə deyilsə, onu məhkəmə təyin edir.

Böyük Britaniyada da demək olar ki, eyni vəziyyətdir. Burada da, nümayəndəliyin könüllü və icbari forması təsbit edilmişdir. Böyük Britaniyada nümayəndəliyin geniş yayılmış forması barrister və solisitorlardır. İngiltərə və Uelsdə mövcud olan praktikaya əsasən, insanlar, məhkəmə çəkişmələrində "etibarlı nümayəndə"-nin köməyindən istifadə hüququna malikdirlər. Bu şəxslər adətən tərəfin əri (arvadı), iş yoldaşı, qonşusu və s. olur. Lakin hər bir halda qeyd edək ki, Böyük Britaniyada yerli məhkəmələrdə baxılan işlərdə fərdi iddiaçıların 85%-i, ali məhkəmə instansiyalarında isə 52%-i nümayəndəsiz, yəni özünü şəxsən müdafiə edir [4, s. 16].

Solisitorlar və barristerlərin hüquqi statusları ilə əlaqədar belə bir nəticəyə gələ bilərik ki, onlar arasında indiyə qədər mövcud olan əsas fərq ondan ibarətdir ki, barristerlər bütün məhkəmələrdə çıxış etməklə və ali məhkəmə instansiyalarında iş aparmaq hüququna malik olmaqla solisitorlar üzərində üstünlüyə malikdir. Solisitorlar isə ali instansiya məhkəmələrində iş aparmaq hüququna malik deyil. Ümumi qaydaya əsasən solisitorlar yalnız aşağı instansiya məhkəmələrində iş aparmaq hüququna malikdir.

Digər ölkələrdə olduğu kimi Almaniyada da qanuni və könüllü nümayəndəlik fərqləndirilir. Almaniyada məhkəmə nümayəndəliyinin ən geniş yayılmış forması vəkillik institutudur. Alman mülki prosesində vəkil müstəqil peşəkar fəaliyyəti realizə edir. Vəkilin prosessual vəziyyəti Almaniya Mülki Prosessual Məcəlləsi və 1959-cu il tarixli Vəkillik haqqında federal qanunla tənzimlənir. Mülki Prosessual Məcəllənin 78-ci paraqrafına əsasən, tərəflər həm aşağı (landgerixt), həmçinin yuxarı (oberlandgerixt) instansiya məhkəmələrində səlahiyyətli nümayəndələri vasitəsilə, yəni vəkillərlə çıxış etməlidirlər [23].

Almaniyada vəkillər ayrıca kontorlara sahib olmaqla müxtəlif şəxslərin xidmətindən istifadə edirlər. Onlar digər sahibkarlardan öz peşəkar fəaliyyətlərini reklam etmək hüququna malik olmamaları, habelə sahibkarların verdiyi ticarət vergisini verməmələri ilə fərqlənirlər. "Vəkillik haqqında" Federal Qanuna əsasən, Almaniyada vəkillərin aşağıdakı funksiyaları var: hüquq məsələləri üzrə məsləhətlər və rəylər verilməsi; mülki prosesdə (məhkəmə və məhkəmədənkənar orqanlarda) tərəf kimi çıxış edən müştərilərin nümayəndəsi qismində iştirak etməsi; məhkəmə və ya istintaq orqanlarında cinayət işi üzrə

təqsirləndirilən şəxsin və ya məhkumun hüquqlarının müdafiə edilməsi. Bu isə artıq cinayət prosesi çərçivəsində olmaqla müştəri təmsilçiliyinin bir forması hesab edilir. Cinayət prosesində vəkil zərərçəkmiş şəxsin maraqlarının nümayəndəsi qismində də çıxış edə bilər. Qanun vəkilə müştərinin əmlakını idarə edə bilməsi üçün onunla müqavilə bağlamaq hüququ verir.

Almaniyada ədalət mühakiməsinin mühüm elementlərindən biri olan vəkillik xidmətinin əhalinin aztəminatlı hissəsinə "pulsuz" olaraq göstərilməsi sistemi mövcuddur. Bu sistemə görə, hüquqi yardım yalnız müştəriyə münasibətdə pulsuz hesab edilə bilər. Belə ki, vəkilin göstərdiyi hüquqi xidmətin haqqı dövlət hesabına - müvafiq torpağın xəzinəsi və ya ümumi dövlət büdcəsi hesabına ödənilir. Mülki işlər üzrə ödəniləcək qonorar federal əsasnamə ilə müəyyən edilmiş minimal məbləğin 30%-ni, cinayət işləri üzrə isə minimal məbləğin 25%-ni təşkil edir. Bu zaman cinayət işinin həcminin böyüklüyündən asılı olaraq məbləğin həcmi artırıla bilər. Almaniya qanunvericiliyinə uyğun olaraq, pulsuz hüquqi yardımın göstərilməsi üçün iki mühüm şərt tələb olunur. Birinci şərt işdə vəkilin iştirak etməsinin məcburi hal olmasıdır. Belə ki, Almaniya mülki prosessual və cinayət prosessual qanunvericiliyi işdə vəkilin iştirakının məcburi olduğu halların siyahısını müəyyən etmişdir. İkinci şərt isə şəxsin həqiqətən də belə hüquqi yardımın qarşılığını ödəmək imkanına malik olmaması göstərilir.

Fransa Mülki Prosessual Məcəlləsinə müvafiq olaraq, qanunla müəyyən edilmiş hallardan başqa (yəni qanuni nümayəndəlik), şəxs məhkəmədə sərbəst şəkildə özünü şəxsən müdafiə edə bilər (md. 18). Tərəflər məsləhət ala və aktiv məhkəmə təmsilçiliyi üçün sərbəst şəkildə vəkil seçə bilərlər (md. 19) [24]. Kontinental hüquq sistemli ölkələr arasında hüququn özünəməxsus xüsusiyyətləri ilə fərqlənən ölkələrdən biri olan Fransada vəkillik fəaliyyəti təcrübəsinə diqqət yetirilməsi mühüm əhəmiyyət kəsb edir.

Qeyd edilməlidir ki, Fransada "vəkil" termini vəzifə və ya rütbə deyil, şəxsin peşəkar fəaliyyətinin forması anlamına gəlir. Bu səbəbdən də vəkillik ixtisasına malik olan, lakin vəkillik sferasında öz fəaliyyətini dayandıran hər bir şəxs hüququn hər hansı digər sahəsində çalışmasından asılı olmayaraq vəkil sayıla bilməz [21, s. 215]. Vəkillik peşəsi Fransa qanunvericiliyinə əsasən, müstəqil institut hesab edildiyinə görə vəkil və onun müştərisi arasında olan maliyyə münasibətlərinə müdaxilə edilməsi qadağandır. Belə ki, vəkil və onun müştərisi arasında olan münasibətlər könüllü razılaşmaya əsaslanır. Fransada "Vəkillərin statusu haqqında" Qanunun 10-cu maddəsinə əsasən mülki-prosessual sənədlərin tərtib olunması və prosessual fəaliyyətlərdə iştirak edilməsinə görə tariflər Fransa mülki prosessual qanunvericiliyinə uyğun olaraq müəyyən edilir.

ABŞ və Almaniyada olduğu kimi, Fransada da pulsuz hüquqi yardım göstərilməsi institutu mövcuddur. Demək olar ki, Fransada bu institut çox geniş yayılmışdır və fransız vəkilləri əhaliyə pulsuz hüquqi yardım göstərilməsinə olduqca böyük vaxt sərf edirlər. Belə ki, Parisdə təxminən 27 min nəfər əhali hər il pulsuz hüquqi yardım alır. Fransada pulsuz hüquqi yardımın göstərilməsi ilə bağlı vəziyyəti xarakterizə edən əsas faktlardan biri kimi 12 dekabr 2001-ci il tarixində Fransada 35 min vəkil tərəfindən edilən ümummilli tətili göstərmək olar. Vəkillərin əsas tələbi maddi təminatı zəif olan vətəndaşların məhkəmə müdafiəsi üçün subsidiyaların artırılması olmuşdur. Fransız vəkillərinin əsas arqumenti Böyük Britaniyada az təminatlı əhalinin hüquqi yardımı üçün on dəfə artıq subsidiyaların ayrılması və bunun da nəticəsində Böyük Britaniyada pulsuz hüquqi yardımın daha əlçatmaz olması idi [12, s. 229-230].

İndi isə nümayəndəlik institutuna milli qanunvericiliyimizdə verilən anlayış, ümumiyyətlə nümayəndəliyin Azərbaycan hüquq sistemində yeri və əhəmiyyəti ilə bağlı məsələlərə nəzər yetirək. Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyində, konkret desək Azərbaycan Respublikasının MPM-də nümayəndəlik institutuna ayrıca VI fəsil həsr olunsa da, Məcəllənin müxtəlif maddələrində nümayəndəliyin müxtəlif növləri, nümayəndə kimi çıxış edə bilən şəxslərin dairəsi, nümayəndələrin səlahiyyətləri, nümayəndəliyə xitam verilməsi kimi məsələlər hüquqi cəhətdən tənzimlənir. AR MPM məhkəmədə mülki işin aparılması üçün səlahiyyəti lazımi qaydada rəsmiləşdirilmiş müəyyən kateqoriya şəxsləri nümayəndə kimi tanıyır (md. 69, 71, 72) [22]. Bundan əlavə, AR MPM-n 66-70-ci maddələri və Vəkillər və vəkillik fəaliyyəti haqqında Qanunun sistemli təhlili göstərir ki, hər bir vəkil məhkəmədə nümayəndə qismində iştirak edə bilər.

Azərbaycan mülki qanunvericiliyi nümayəndəliyin yaranma əsaslarına görə növbəti növlərini fərqləndirir: 1) qanuni; 2) könüllü (müqavilə və ya etibarnamə ilə) və 3) təsis aktına əsasən nümayəndəlik. Nümayəndəliyin növlərə ayrılmasının praktiki əhəmiyyəti var. Belə ki, qanuni nümayəndə prosessual hərəkətləri ilə tam şəkildə təmsil etdiyi şəxsi əvəz edir. Könüllü nümayəndəlikdə isə təmsil etdiyi şəxsin bilavasitə məhkəmədə iştirak etməsini və prosesdə şəxsi iştirakı nümayəndəsinin də olmasını istisna etmir.

Yəni nümayəndələrin prosesdə iştirak etməməsi müxtəlif hüquqi nəticələr doğurur. Qanuni nümayəndənin prosesə gəlməməsi şəxsin gəlməməsinə bərabərdir. Könüllü nümayəndənin prosesə gəlməməsi isə təmsil etdiyi şəxsin mövqeyindən asılıdır və prosesin gedişinə mane olmur.

Beləliklə, mülki prosesdə nümayəndəlik institutunun anlayışı ilə bağlı qeyd etdiyimiz fikirləri ümumiləşdirərək belə qənaətə gəlirik ki, mülki məhkəmə icraatında nümayəndəlik geniş anlayışdır və hüquqi və fiziki şəxslərin mülki hüquq və azadlıqlarının müdafiəsi və yaxud da pozulduğu halda bərpası məqsədilə fəaliyyət qabiliyyətli şəxslər tərəfindən göstərilən yardım və ya sadəcə təmsilçilikdir.

Azərbaycan hüquq sistemində nümayəndəlik institutuna, xüsusilə də mülki prosesdə nümayəndəlik məsələlərinə xüsusi diqqət ayrılmışdır. Ali Qanun səviyyəsində bu məsələlər ümumi şəkildə tənzimlənmiş (md. 61, 71) və digər qanunlarda və məcəllələrdə müvafiq sferada məsələlərin hüquqi tənzimlənməsi konkretləşdirilmişdir. İnkişaf etmiş və zəngin hüquq təcrübəsinə malik xarici ölkələrin qanunvericiliyinin təhlili və müasir dövrdə mülki işlər üzrə məhkəmə təcrübəsindəki problemlərin təhlili Azərbaycan mülki prosessual qanunvericiliyində nümayəndəlik institutu ilə bağlı müəyyən dəyişikliklərin həyata keçirilməsi haqqında fikir söyləməyə əsas verir.

## İstinadlar:

1. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, Hüquq Ədəbiyyatı Nəşriyyatı, 2013, 506 s.
2. Əliyev Ş.İ. Vəkillik hüququ. Dərs vəsaiti. Bakı, Azərbaycan Hüquq İslahatları Mərkəzi. 2012, 380 s.
3. Mövsümov M. Mülki prosessual hüquq. Dərslik. Bakı, Qanun Nəşriyyatı, 2011, 416 s.
4. Access to Justice for Litigants in Person (or self-represented litigants). A Report and Series of Recommendations to the Lord Chancellor and to the Lord Chief Justice, 94 p.
5. Cappelletti Mauro. Civil Procedure in Italy. Springer, 2013, 451 p.
6. Kilian Matthias. Representation in Court Proceedings. Comparative Aspects and Empirical Findings. CCBE / PECO / IBA 2015, Kiev, June 5 and 6, 2015, 23 p.
7. Smits J. M. Elgar Encyclopedia of Comparative Law, Second Edition. Edward Elgar Publishing, 2012, 1000 p.
8. Verhagen H.L.E. Agency in Private International Law, the Hague Convention on the Law Applicable to Agency. Dordrecht: Martinus Nijhoff Publishers in cooperation with the T.M.C. / Asser Instituut, The Hague, 1995, 431 p.
9. Zimmermann R. The Law of Obligations, Roman Foundation of the Civilian Tradition, Juta &Co.; Ltd. Wetton, 2000, 656 p.
10. Zuckerman Adrian. No Justice Without Lawyers —The Myth of an Inquisitorial Solution. Oxford Legal Studies Research Paper 66/2014, p. 355-374.
11. Zweigert K. and Kotz H. Introduction to Comparative Law, Third Revised Edition, trans. Oxford T. Weir; Clarendon Press, 1998, 744 p.
12. Адвокатская деятельность: Учебно-практическое пособие / Под общ. ред. канд. юр. наук В.Н. Буробина. - Изд. 2-е, перераб. и допол. - М.: «ИКФ «ЭКМОС», 2003, 624 с.
13. Баранов В., Приженникова А. Актуальные проблемы участия представителя в гражданском процессе. Арбитражный и гражданский процесс. 2006, N 2, с. 32-37.
14. Брежнева Н.А., Тулина Н.М. Проблемы представительства в гражданском судопроизводстве // Юридические науки: проблемы и перспективы: материалы III междунар. науч. конф. (г. Казань, май 2015 г.). Казань: Бук, 2015, с. 77-79.
15. Гражданское процессуальное право России: Учебник для вузов /П.В.Алексий, Н.Д.Эриашвили, В.Н.Галузо и др.; Под ред.проф. П.В.Алексия, проф. Н.Д.Амаглобели. М.: ЮНИТИ-ДАНА, 2005, 432 с.
16. Гук В.А. Представительство в гражданском процессе: правозащитная функция и актуальные вопросы совершенствования законодательства // Юридическая наука и правоохранительная практика. 2014 г. № 2, с. 22-28.
17. Диордиева О.Н. Гражданское процессуальное право: Учебно-методический комплекс. – М.: Изд. Центр ЕАОИ. 2008, 284 с.
18. Исаенкова О.В. Гражданское процессуальное право России : учебник / О.В.Исаенкова, А.А.Демичев ; под ред. О.В.Исаенковой. М. : Норма, 2009, 448 с.

19. Казанцев В.И., Казанцев С.Я.Гражданский процесс: Учеб. для студ. учреждений сред. проф. образования. — М.: Издательский центр «Академия», 2003, 240 с.

20. Треушникова М.К. Практикум по гражданскому процессу. М., Городец, 2007, 320 с.

21. Смоленский М.Б. Адвокатская деятельность и адвокатура Российской Федерации. Серия «Высшее образование» Ростов на Дону, «Феникс», 2004, с. 215.

22. http://e-qanun.az/code/9

23. https://www.gesetze-im-internet.de/englisch_zpo/englisch_zpo.html

24.https://www.legifrance.gouv.fr/content/download/1962/13735/version/3/.../Code_39.pdf

**Huseyn Askerov**
**Member of the Bar Association of the Republic of Azerbaijan (huseyna28@mail.ru).**

## THE ESSENCE OF THE INSTITUTE OF REPRESENTATION IN THE CIVIL PROCESS: THEORETICAL APPROACHES AND NORMATIVE DEFINITION

*The institution of representation exists in almost all branches of law. The institution of representation in civil process is the most important constitutional guarantee of the protection of the rights and legitimate interests of individuals and legal entities in court. In general, this institution of law represents a legal relationship in which one person performs procedural actions on behalf of another person, for the sake of his interests, on his behalf, within the powers granted to this person by law, and at the same time creates certain rights and obligations in relation to to the person represented. Representation differs in material and procedural law in its goals, grounds for formation and results.*

***Keywords:*** *civil process, representative, legislation, doctrine, legal system, procedural, justice, adversarial principle, lawyer.*

**Гусейн Аскеров**
**Член Коллегии Адвокатов Азербайджанской Республики (huseyna28@mail.ru).**

## СУЩНОСТЬ ИНСТИТУТА ПРЕДСТАВИТЕЛЬСТВА В ГРАЖДАНСКОМ ПРОЦЕССЕ: ТЕОРЕТИЧЕСКИЕ ПОДХОДЫ И НОРМАТИВНОЕ ОПРЕДЕЛЕНИЕ

*Институт представительства существует практически во всех отраслях права. Институт представительства в гражданском процессе является важнейшей конституционной гарантией защиты прав и законных интересов физических и юридических лиц в суде. В целом данный институт права представляет собой правоотношения, в которых одно лицо совершает процессуальные действия от имени другого лица, ради его интересов, от его имени, в рамках полномочий, предоставленных этому лицу законом, и в то же время создает определенные права и обязанности по отношению к представляемому лицу. Представительство различается в материальном и процессуальном праве по своим целям, основаниям формирования и результатам.*

***Ключевые слова:*** *гражданский процесс, представитель, законодательство, доктрина, правовая система, процессуальное, правосудие, принцип состязательности, адвокат.*

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18.07.2023**

**Vüsalə Muradxanlı**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü,**
**Hüquq və İnsan haqları İnstitutu Publik**
**Hüquqi Şəxsin İnsan hüquqları üzrə təlim və**
**ekspertiza şöbəsinin müdiri (vusala-aydin@yandex.ru).**

# HUMANİTAR MÜDAXİLƏNİN HÜQUQAUYĞUNLUĞU VƏ İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ

*Məqalədə beynəlxalq hüquqda humanitar müdaxilənin yeri, anlayışı, əsasları aydınlaşdırılır, həmçinin digər müəlliflərin bu sahədə fikirləri təhlil edilir. Humanitar müdaxilənin qloballaşma prosesində tətbiqi praktik misallarla izah edilir, birbaşa məcburetmə tədbirlərinin bir növü kimi humanitar müdaxilənin qanuniliyi məsələsinə, onun hansı şərtlər daxilində həyata keçirilməsinə toxunulur. Həmçinin məqalədə qlobal təhlükəsizliyin saxlanması prinsipi kimi müdafiə məsuliyyətinin hüquqi əsası konkret qanunvericilik aktlarında göstərilir. Qeyd edilir ki, qloballaşma prosesləri kollektiv təhlükəsizlik anlayışının beynəlxalq hüquqi təfsirini genişləndirmiş, onu tədricən fərdin təhlükəsizliyi, insan hüquqlarının qorunması və kütləvi şəkildə pozulmasının qarşısının alınması ilə birbaşa əlaqələndirmişdir, formal nöqteyi-nəzərdən beynəlxalq hüquqda humanitar müdaxilənin rəsmi qəbul edilmiş anlayışı da yoxdur. Bununla belə, BMT çərçivəsində güc tətbiqinin legitimliyi şübhə doğurmur, çünki bu beynəlxalq təşkilat digər məsələlərlə yanaşı, təcavüz aktlarının qarşısını almaq və beynəlxalq münaqişələri sülh yolu ilə həll etmək üçün yaradılmışdır. BMT-nin həyata keçirdiyi humanitar müdaxilə o halda qanuni hesab edilə bilər ki, bu cür müdaxilə insan hüquqlarının kobud və sistematik pozulmasının qarşısını almaqla bərabər qlobal təhlükəsizliyə təhdid, o cümlədən beynəlxalq cinayətlərlə bağlı olan böhran və ya münaqişə vəziyyətlərinin qarşısını ala bilsin, humanitar müdaxilənin tətbiqi onun hüquqauyğunluğu ilə əlaqədar irəli sürülən hallara uyğunlaşdırılmaqla həyata keçirilməlidir. Bunun üçün isə humanitar müdaxilənin hüququyğunluğuna dair BMT tərəfindən mühüm beynəlxalq sənədin qəbul edilməsi zəruridir.*

***Açar sözlər:*** *beynəlxalq hüquq, humanitar müdaxilə, insan hüquqları, qanunauyğunluq, legitimlik, təcavüz aktları, BMT, təhlükəsizlik.*

İnsan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi, insan hüquqlarının universallığı və təbii hüquq ideyasının proiriteti, şəxsiyyətin təhlükəsizliyi, insan hüquqlarının kütləvi şəkildə pozulmasının qarşısının alınması və bütün bəşəriyyətin təhlükəsizliyinin, yəni qlobal təhlükəsizliyin təmin edilməsi beynəlxalq münaqişələrin həllində beynəlxalq hüququn rolunun daha da gücləndirilməsini tələb edir. Bu zaman tədqiq edilən əsas istiqamətlərdən biri də humanitar müdaxilə konsepsiyasıdır. Qeyd edilir ki, humanitar müdaxilənin özünün hüquqi ideyası fərdi hüquqların cəmiyyətin mənafeyindən üstünlüyünü bəyan edən Avropa siyasi-hüquqi baxışlarından və beynəlxalq hüquq nəzəriyyəsindən qaynaqlanır [1, s.102]. Əhalinin hüquqlarının müdafiəsi üçün beynəlxalq müdaxilə problemi beynəlxalq hüquqda həmişə son dərəcə mürəkkəb hesab edilmişdir. 1945-ci ilə qədər beynəlxalq hüquqda gücdən istifadəyə dair ümumi qadağa yox idi. Baxmayaraq ki, XX əsrin əvvəllərindən beynəlxalq münasibətlərdə güc amilinin tətbiqini məhdudlaşdırmaq üçün hüquqi prosesin əsasları formalaşmağa başlamışdı [17, s. 77].

Beynəlxalq hüquqda humanitar müdaxilənin rəsmi qəbul edilmiş anlayışı yoxdur. Bununla belə, BMT-nin Müdaxilə və dövlət suverenliyi üzrə Beynəlxalq Hüquq Komissiyası 2002-ci il tarixli A/57/303 "Müdafiəyə görə məsuliyyət" adlı sənədində müdaxilənin qanuniliyini təsdiqlədi, çünki dövlətlərin özlərinin əsas vəzifələrinin öhdəsindən gələ bilmədiyi və ya əsas vəzifələrini yerinə yetirmək istəməyən zaman beynəlxalq ictimaiyyət həlledici hərəkətlərə görə məsuliyyət daşıyırlar [13]. Bununla belə, doktrinal səviyyədə fikir ayrılıqları BMT daxilində güc tətbiqinin qanuniliyi ilə bağlıdır, çünki bu beynəlxalq təşkilat əvvəlcə təcavüzün qarşısını almaq və dövlətlərarası münaqişələri sülh yolu ilə həll etmək üçün yaradılmışdır. BMT Nizamnaməsində "BMT-nin sülhün təmini üzrə əməliyyatları" və "sülhməramlı əməliyyatlar" anlayışları yoxdur. Eyni zamanda, güc tətbiqinə icazə hüquqauyğun və BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bənddə göstərildiyi kimi güc BMT-nin elan edilmiş məqsədlərinə uyğundur, Heç bir dövlətin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı istifadə edilmir.

"Sülhməramlı əməliyyatlar" anlayışı kimi müharibənin olmadığı şəraitdə güc əməliyyatlarının nəzəri təsbiti 1995-ci ildə ABŞ-ın Qərargah rəisləri Komitəsinin doktrinasında qəbul edilmişdir [6, s. 88].

İrqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq hamı üçün insan hüquqlarına və əsas azadlıqlarına hörmət BMT Nizamnaməsinin 1-ci maddəsinin 3-cü bəndində təşkilatın məqsədi kimi təsbit edilməklə, bu həm də Ümumdünya İnsan Hüquqları Bəyannaməsində də təsdiqlənir. Qeyd etmək lazımdır ki, şəxsiyyətin hüquq və azadlıqlarını qorumaq üçün insan hüquqlarının kütləvi şəkildə pozulması halında güc tətbiq olunması siyasi və hüquqi cəhətdən hüququyğun ola bilər. Lakin BMT Nizamnaməsi əsas beynəlxalq sənəd kimi dövlətlərə başqa dövlətdə insan hüquqlarını qorumaq üçün birtərəfli qaydada silahlı qüvvədən istifadə etmək hüququnu vermir. BMT Beynəlxalq Ədalət Məhkəməsi 1945-1990-cı illərdə daxili işlərə müdaxilə ilə bağlı dövlətlərarası mübahisələrə dair qərarlarında xarici müdaxilənin, o cümlədən humanitar əsaslarla yolverilməzliyini təsdiq etmişdir. Korfu boğazı (Albaniya Böyük Britaniyaya qarşı) qərarında BMT Beynəlxalq Ədalət Məhkəməsi qeyd etmişdir ki, xarici müdaxilə güc siyasətinin təzahürüdür və beynəlxalq müqavilələrdə təsbit olunmuş insan hüquqlarının möhkəmləndirilməsi üçün məqbul vasitə ola bilməz [8].

Hüquq ədəbiyyatında qeyd edilir ki, əvvəllər beynəlxalq-hüquqi praktikada kollektiv güc tətbiqi istisna olaraq qalırdı [10, s. 296]. Buna baxmayaraq dövlətlərin güc tətbiq etməsi müharibədən sonrakı dövrdə beynəlxalq münasibətlərin faktı olmuşdur. Nüfuzlu hüquqşünas alim A.Fedross BMT Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndini təfsir edərək qeyd edirdi ki, dövlətlərin müstəqilliyi yalnız xarici dövlətin hüquq qaydasından müstəqillik kontekstində, lakin beynəlxalq hüquq normalarından asılılıq kontekstində olmamaqla nəzərdə tutulur [16, s. 26].

Təbii olaraq beynəlxalq münasibətlərdə gərginliyin azalması ilə üst-üstə düşən qloballaşma proseslərinin başlanması kollektiv təhlükəsizliyin beynəlxalq hüquqi təfsirini genişləndirdi, onu tədricən şəxsi təhlükəsizlik, daxili münaqişələrin həlli, insan hüquqlarının kütləvi şəkildə pozulmasının qarşısının alınması ilə əlaqələndirdi. 1975-ci il Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Yekun Aktı insan hüquqları və əsas azadlıqlarına hörməti beynəlxalq hüququn əsas prinsipi kimi tanıdı. Beləliklə, A.X.Saidovun qeyd etdiyi kimi, insan hüquqları və əsas azadlıqlarına hörmət prinsipinin mahiyyəti təkcə dövlətin və onun sərhədlərinin təhlükəsizliyinin təminini deyil, həm də insan təhlükəsizliyinin təmin edilməsi zərurətində ifadə olunurdu [15, s. 69]. Bu zaman beynəlxalq hüquqda təhlükəsizliyin humanitar ölçüsünü bütün bəşəriyyətin təhlükəsizliyində həlledici amil və humanitar müdaxilənin beynəlxalq hüquqi legitimliyi kimi qiymətləndirmək istiqamətində konseptual dəyişiklik başlandı. Beynəlxalq sülhə və təhlükəsizliyə təhlükə yarada bilən mübahisə və vəziyyətlərin qarşısının alınması və aradan qaldırılması və bu sahədə BMT-nin rolu haqqında 1988-ci il tarixli Bəyannamədə insan hüquqlarının və əsas azadlıqlarının universal və tam şəkildə həyata keçirilməsi beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi üçün zəruri və təxirəsalınmaz şərt kimi müəyyən edilmişdir. Təhlillərdə sonradan qlobal təhlükəsizliyin humanitar problemləri müstəmləkə sistemlərinin dağılması üzrə daxili münaqişələr [9, s. 43] və təbii ehtiyatlar uğrunda mübarizə ilə əlaqələndirilirdi [11, s. 437].

Dünyanın bir sıra regionlarında, ilk növbədə Afrika və Yaxın Şərqdə baş verən regional münaqişələr insan hüquqlarının kütləvi şəkildə pozulması, etnik təmizləmə və artan müharibə cinayətləri ilə müşayiət olunmuşdur. Bununla əlaqədar hüquq ədəbiyyatında BMT Təhlükəsizlik Şurasının müxtəlif istiqamətlər üzrə fəaliyyəti əsaslandırılmağa çalışılmışdır ki, burada da humanitar müdaxilə xüsusi qeyd edilməlidir [12, s. 145]. Təhlükəsizlik Şurasının 5 aprel 1991-ci il tarixli 688 saylı qətnaməsində mülki əhaliyə qarşı repressiyaların nəticələri ilk dəfə olaraq beynəlxalq sülhə və bəşəriyyətin təhlükəsizliyinə təhdid kimi qiymətləndirildiyi üçün beynəlxalq ümumi hüquqda humanitar müdaxilə doktrinasına ilk dəfə olaraq yeni istiqamətdə yanaşıldı [14]. Hüquqi məzmununa görə, humanitar müdaxilə yeni nəsil münaqişələr doktrinası olan bəyan edilmiş məqsədlərlə suveren dövlətin daxili işlərinə güclə müdaxilədir. Təhlillərdə qeyd edilir ki, bu dünya birliyinin insan hüquqlarına qayğısının təsiri altında fərd və beynəlxalq hüquq arasında birbaşa əlaqələrin inkişafı kimi xarakterizə edilmişdir [4, s. 93]. Hüquq professoru Q.Kox qeyd edir ki, kiber silahlar, kosmik və bioloji silahlar, ekoloji və iqtisadi böhranlar kimi yeni qlobal təhlükələr qarşısında beynəlxalq ictimaiyyətin ümumi maraqları dövlətin suverenliyindən kənara çıxır [3].

Beynəlxalq müdaxilə inkişafı bəşəriyyətə qarşı cinayətlərlə bağlı olan böhran və ya münaqişə vəziyyətlərinin qarşısını aldıqda, habelə əhalinin soyqırımdan, dini və ya etnik təmizləmədən qorunması məqsədini güdərsə, humanitar müdaxilə qanuni sayılır. Dövlətlərarası münaqişələrin həlli vasitəsi kimi

hazırlanmış sülhməramlı mexanizm qlobal səviyyədə beynəlxalq təhlükəsizliyi təhdid edən dövlətdaxili münaqişələr və vətəndaş müharibələri ilə bağlı vəziyyətlərdə getdikcə daha çox istifadə olunur. 2008-ci ilin avqustunda Cənubi Qafqazda Müharibənin hallarının araşdırılması üzrə Beynəlxalq Komissiyanın hesabatında qeyd edilir ki, beynəlxalq ədalət mühakiməsində humanitar məqsədlər üçün birtərəfli, icazəsiz güc tətbiq etmək hüququ yoxdur və belə hüququn saxlanmasına qarşı kəskin etirazlar vardır [2].

Dünya birliyi tərəfindən birbaşa məcburetmə tədbirlərinin bir növü kimi humanitar müdaxilənin həyata keçirilməsinin şərtləri və hüquqi proseduru BMT Nizamnaməsində, Baş Assambleyanın qətnamələrində (43/131, 44/21, 46/182, 2625, 3114), Təhlükəsizlik Şurasının qətnamələrində (688, 767, 770, 771, 787, 794, 814, 815, 819, 824, 836, 929) təsbit edilmiş beynəlxalq hüquq normaları kompleksi ilə müəyyən edilir. BMT-nin mövqeyi onunla ifadə olunur ki, heç bir hüquqi prinsip – hətta suverenlik prinsipi belə insanlığa qarşı cinayətlərə haqq qazandırma kimi istifadə edilə bilməz. Beynəlxalq hüququn inkişafı və xarici müdaxilə presedentlərinin sayının artması qlobal təhlükəsizlikdə dövlət hakimiyyəti tərəfindən və ya onun razılığı ilə terrorizmə və ya kütləvi insan hüquqlarının pozulmasına qarşı mübarizə zamanı qorunmaq məsuliyyəti kimi aktual tendensiya yaratmışdır.

Bu istiqamətdə də ədəbiyyatda kifayət qədər əsaslandırılmış fikirlərə rast gəlinir [5, s. 62]. Bununla belə, beynəlxalq ictimaiyyətin istifadə etdiyi hərbi güc, silahlı müdaxilənin qarşısını almaq üçün bütün qanuni vasitələr tükənmiş olduqda hüquqauyğun ola bilər. Belə legitim tədbirlərə “yaxşı niyyət” və “son vasitə” daxildir.

Qlobal təhlükəsizliyin saxlanması prinsipi kimi müdafiə məsuliyyətinin hüquqi əsası suverenlik konsepsiyasının ayrılmaz tərkib hissəsi olan öhdəliklərdə, BMT Nizamnaməsinin 24-cü maddəsinə əsasən, beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün BMT Təhlükəsizlik Şurasının məsuliyyətində, insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq sənədlərdə əks olunan konkret hüquqi öhdəliklərdə, beynəlxalq humanitar hüquq sahəsində qəbul edilmiş beynəlxalq sənədlərdə, inkişaf edən dövlətlərarası münasibətlər təcrübəsi, regional təşkilatların və BMT Təhlükəsizlik Şurasının özünün fəaliyyəti nəticəsində yaranan beynəlxalq hüquqi adətlərin formalaşması ilə öz əksini tapır. Beynəlxalq hüquqda konseptual dəyişikliyin spesifikliyi həm də onunla ifadə olunur ki, müdaxilə barədə qərar qəbul edilərkən BMT beynəlxalq hüquqi öhdəliyin digər subyekt tərəfindən pozulması nəticəsində hüquqları pozulmuş subyekt kimi çıxış edir.

Müdafiə məsuliyyətini öz üzərinə götürərək, BMT Nizamnamənin 1-ci Fəslinin 4-cü maddəsinin 1-ci bəndinə uyğun olaraq fəaliyyət göstərir, belə ki, üzv-dövlətlər Nizamnamə ilə öz üzərlərinə öhdəliklər götürmüşlər və buna müvafiq olaraq, bu öhdəlikləri yerinə yetirirlər və buna hazırdırlar.

“Müdafiə üzrə məsuliyyət” anlayışı düşməni məhv etmək kimi klassik mənada ənənəvi qələbə məqsədi daşımır. Bu zaman Konsepsiya bir sıra məsuliyyət növünü ehtiva edir, məsələn, bir qrup insanı təhlükəli vəziyyətə salmış münaqişələrin və böhranların əsas səbəblərini aradan qaldırmaq üçün tədbirlərin görülməsində ifadə olunan vəziyyətin qarşısının alınması üçün məsuliyyət və s. [13]. Bu zaman dövlət suverenliyi ilə insan hüquqlarının müdafiəsi arasında hüquqi ziddiyyətin müəyyən dərəcədə aradan qaldırılması, suverenliyin legitimliyi ilə humanitar müdaxilənin əsaslandırılması arasında balansın yaradılmasına kömək edilməsi ciddi zərurətə çevrilməlidir.

Müasir qlobal təhdidlərdə təşkilati birliyə və bütün beynəlxalq hüquq sisteminin inkişafına təkan verən məsuliyyət prinsipi, fikrimizcə, qlobal təhlükəsizliyin idarə olunmasında mərkəzi yer tutmalıdır. Bizə də elə gəlir ki, məhz məsuliyyət prinsipi qlobal təhlükəsizliyin təmin edilməsinin beynəlxalq hüquqi mexanizminin fəaliyyətinin və səmərəliliyinin müəyyən göstəricisi kimi çıxış edir, bütün beynəlxalq münasibətlər sisteminin hüquqi mahiyyəti konsepsiyasını nümayiş etdirir.

Hüquq ədəbiyyatında insan hüquqları üzrə mühüm və aktual məsələlərdən biri də humanitar müdaxilənin hansı şərtlər daxilində həyata keçirilməsi və ya başqa sözlə desək, onun hüquqauyğunluğu məsələsinin təhlilidir. Bu problem hələ XX əsrin sonlarında müxtəlif beynəlxalq tədbirlərdə və konfranslarda beynəlxalq hüquqşünas alimlərin iştirakı ilə geniş müzakirə edilmişdir. Bütövlükdə götürsək, bu zaman humanitar müdaxiləyə yol verilməsinin müxtəlif meyarları qeyd edilməklə onun hüquqauyğunluğu məsələsi əsaslandırılır ki, bunlara da aid edilə bilər: insan hüquq və azadlıqlarının kobud və sistematik pozulması halları real olmaqla bərabər, həm də artıq baş verməlidir; problemin həlli üzrə bütün mümkün dinc vasitələr heç bir səmərə verməməlidir; insan hüquq və azadlıqlarının pozulmasının qarşısını almaq tələbi ilə dövlətlərə müvafiq təcili tələb irəli sürülməlidir; yaxşı olardı ki, müdaxiləyə yol verən dövlət humanitar müdaxilə üzrə BMT Təhlükəsizlik Şurasına müvafiq məlumat

təqdim etsin; əgər BMT Təhlükəsizlik Şurasının müvafiq razılığı varsa, onda humanitar müdaxilənin hüquqauyğunluğu ilə bərabər, həm də onu həyata keçirmək olar; müəyyən bir dövlətin ərazisinə humanitar müdaxiləni həyata keçirmək üzrə silahlı qüvvələr yeritmək üçün həmin dövlətin özünün dəvətinin alınması məqsədəuyğundur; insan hüquqlarının kobud şəkildə pozulduğu hallarda humanitar müdaxilə üzrə yalnız onun qarşısını almaq məqsədilə güc tətbiq edilə bilər və humanitar müdaxiləyə yol verən dövlətin başqa mənafeləri üçün istifadə edilə bilməz; güc tətbiq edilməsi dövlətin siyasi, sosial-iqtisadi quruluşunu dəyişdirməyə yönələ bilməz, o cümlədən hökumətin devrilməsi məqsədi də daşıya bilməz; humanitar müdaxilənin gedişində olduqca məhdud silahlı qüvvələr heyətindən, həm də yalnız müəyyən məqsədə çatmaq üçün lazım olan miqyasda istifadə oluna bilər; silahlı qüvvələrdən məhdud vaxt ərzində istifadə olunmaqla bu qüvvələr humanitar müdaxilənin məqsədinə nail olduqdan sonra dərhal da həmin xarici ərazidən çıxarılmaqla həyata keçirilməlidir [7, s. 71-75].

Fikrimizcə, qlobal təhlükəsizliyi qorumaq üçün insan tələfatına səbəb olan zorakı dövlətdaxili münaqişələrə silahlı müdaxilə də daxil olmaqla, beynəlxalq ictimaiyyət tərəfindən hüquqi tənzimləmə vasitələrinin müəyyən edilməsinə ehtiyac tam əsaslandırılmışdır. Fikrimizcə, zorakılığın yayılmasının qarşısını almaq üçün beynəlxalq birliyin başqa ölkələrdəki insanları qorumaq vəzifəsi ilə suveren dövlətin öz ölkəsində insanları terror aktından qorumaq vəzifəsi arasında fərq qoymaq lazımdır. Humanitar müdaxilələrin həyata keçirilməsi təcrübəsi unikal legitimliyinə görə yalnız BMT-dən həyata keçirilməlidir. Həddindən artıq güc tətbiqi həm humanitar aksiyanın özünün, həm də sonrakı böhranın idarə edilməsinin legitimliyini sarsıdır və bu, hətta zorakılığın artmasına kömək edə bilər. Buna görə də, humanitar müdaxilələrin məqsədləri, tərkibi və gözlənilən səmərəliyinin müəyyən bir ölkənin sosial-siyasi və mədəni-milli xüsusiyyətləri əsasında mümkün qədər fərdi şəkildə həyata keçirilməsi zəruridir. Beləliklə, davam edən humanitar müdaxilə beynəlxalq müdaxiləyə ehtiyacı olan obyektin siyasi və tarixi xüsusiyyətlərini nəzərə almaqla konkret olaraq yerli məqsəd daşıyacaqdır. Bu zaman da, dövlətlərin suverenliyi və insan hüquq və azadlıqlarının faktiki həyata keçirilməsini qarşılıqlı müəyyən edən normativ qayda işlənib hazırlanmalıdır.

Beləliklə, yuxarıda qeyd edilənləri ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar:

1. Qloballaşma prosesləri kollektiv təhlükəsizlik anlayışının beynəlxalq hüquqi təfsirini genişləndirmiş, onu tədricən fərdin təhlükəsizliyi, insan hüquqlarının qorunması və kütləvi şəkildə pozulmasının qarşısının alınması ilə birbaşa əlaqələndirmişdir. Bundan başqa, təhlükəsizliyin humanitar ölçüsü bütün dünya birliyinin təhlükəsizliyində həlledici amilə çevrilmişdir ki, bu da qeyd edilən istiqamətdə mühüm beynəlxalq-hüquqi tədbirlərin görülməsini zəruri etmişdir. Beynəlxalq hüquqi tədbirlərdən ilkin olaraq isə beynəlxalq təşkilatların qeyd edilən sahədə səylərinin artırılması ilə beynəlxalq normativ-hüquqi bazanın formalaşdırılması və təkmilləşdirilməsi zəruridir.

2. Xüsusilə əhalinin ayrı-ayrı təbəqələrinin müdafiəsi məqsədilə humanitar müdaxilə və beynəlxalq müdaxilənin hüquqi ideyası beynəlxalq hüquq doktrinasında son dərəcə mürəkkəb və ziddiyyətlidir. Formal nöqteyi-nəzərdən beynəlxalq hüquqda humanitar müdaxilənin rəsmi qəbul edilmiş anlayışı da yoxdur. Bununla belə, BMT çərçivəsində güc tətbiqinin legitimliyi şübhə doğurmur, çünki bu beynəlxalq təşkilat digər məsələlərlə yanaşı, təcavüz aktlarının qarşısını almaq və beynəlxalq münaqişələri sülh yolu ilə həll etmək üçün yaradılmışdır. BMT-nin həyata keçirdiyi humanitar müdaxilə o halda qanuni hesab edilə bilər ki, bu cür müdaxilə insan hüquqlarının kobud və sistematik pozulmasının qarşısını almaqla bərabər qlobal təhlükəsizliyə təhdid, o cümlədən beynəlxalq cinayətlərlə bağlı olan böhran və ya münaqişə vəziyyətlərinin qarşısını ala bilsin. Bununla belə, istifadə edilən hərbi güc, bütün digər qanuni vasitələrin tam tükənməsi şərti ilə hüquqauyğun ola bilər. Bu humanitar müdaxilədən məqsədli şəkildə digər dövlətlər tərəfindən istifadə edilməsinin qarşısını almaqda ən optimal bir yoldur.

3. Humanitar müdaxilənin tətbiqi onun hüquqauyğunluğu ilə əlaqədar irəli sürülən hallara uyğunlaşdırılmaqla həyata keçirilməlidir. Bunun üçün isə humanitar müdaxilənin hüququyğunluğuna dair BMT tərəfindən mühüm beynəlxalq sənədin qəbul edilməsi zəruridir. Bundan başqa, istənilən halda da humanitar müdaxilənin həyata keçirilməsi praktikası yalnız BMT-dən həyata keçirilməlidir. Belə ki, humanitar müdaxilə barədə qərar qəbul edərkən BMT Nizamnamənin 1-ci fəslinin 4-cü maddəsinin 1-ci bəndinə uyğun hərəkət edir, belə ki, üzv-dövlətlər Nizamnamədə göstərilən öhdəlikləri öz üzərlərinə götürmüşlər və müvafiq olaraq bu öhdəlikləri yerinə yetirməyə borcludurlar.

**İstinadlar:**

1. Beaulac, S. The Power of Language in the Making of International Law: The Word Sovereignty in Bodin and Vattel and the Myth of Westphalia (Developments in International Law, 46) / S. Beaulac.- Netherlands: Martinus Nijhoff Publishers, 2004. 214 p.

2. Christian Marxsen. The Crimea Crisis An International Law Perspective: [Electronic resource] / https://is.gd/lW99zP

3. Koh, H.H. Transnational Legal Process: [Electronic resource] / https://is.gd/fDw3mJ

4. Nikolas, Stürchler. The Threat of Force in International Law / Stürchler Nikolas. - Cambridge: Cambridge University Press, 2009. 384 p.

5. Robert, I. Rotberg. State Failure and State Weakness in a Time of Terror / Rotberg I. Robert. - Washington, D.C.: Brookings Institution Press, 2003. 456 p.

6. U.S. Military Operations: Law, Policy, and Practice / Edited by Geoffrey S. Corn, Rachel E. VanLandingham, and Shane R. Reeves. - Oxford: Oxford University Press, 2015. 880 p.

7. Карташкин В.А. Права человека в международном и внутригосударственном праве. Москва, 1995, 135 с.

8. Краткое изложение решений, консультативных заключений и постановлений Международного Суда ООН (1948-1991): [Электронный ресурс] / https://is.gd/oQcJy4

9. Малинин, С.А. Человеческое измерение как обязательный компонент всеобъемлющего подхода к международной безопасности // - Санкт-Петербург: Правоведение, 1994. № 3, с. 40-47.

10. Международное право: Учебник / Ответственные редакторы В.И.Кузнецов и Б.Р.Тузмухамедов, – Москва: Норма Инфра-М, – 2010. – 720 с.

11. Международное право: Учебник / Под ред. А.Я. Капустина. – Москва: Гардарики, 2008. 617 с.

12. Мюллерсон, Р.А., Шеффер, Д.Д. Правовое регулирование применения силы // Вне конфронтации. Международное право в период после холодной войны. Сборник статей. Москва: Спарк, 1996. с. 108-154.

13. Ответственность за защиту. Док. A/57/303 // принят 14 августа 2002 г. Международная комиссия по вопросам вмешательства и государственного суверенитета: [Электронный ресурс] / https://is.gd/OMtRVu

14. Резолюции Совета Безопасности ООН 1991 года: [Электронный ресурс] / https://is.gd/LHOl02

15. Саидов, А.Х. Концепция «европейского правового пространства»: проблемы и перспективы // Москва: Московский журнал международного права, 1992. № 3, с. 59-72.

16. Фердросс, А. Международное право (перевод с немецкого) / А.Фердросс. – Москва: Иностр. лит., 1959. 652 с.

17. Шармазанашвили, Г.В. Мирное разрешение международных споров - один из важнейших принципов международного права // - Москва: Советское государство и право, 1962. № 1. с. 71-79.

**Vusala Muradkhanli**
**Member of the Azerbaijan Bar Association,**
**Head of the Department of Training and Expertise**
**on Human Rights of the Public Legal Entity "Institute of**
**Law and Human Rights" (vusala-aydin@yandex.ru).**

## LEGALITY OF HUMANITARIAN INTERVENTION AND PROTECTION OF HUMAN RIGHTS

*The article clarifies the place, concept, and foundatieons of humanitarian intervention in international law, as well as analyzes the opinions of other authors in this field. The application of humanitarian intervention in the process of globalization is explained with practical examples, the issue of the legality of humanitarian intervention as a type of direct coercion measures, and the conditions under which it is implemented, are touched upon. Also, in the article, the legal basis of defense responsibility as a principle of maintaining global security is indicated in specific legislative acts. It is noted that the processes of globalization expanded the international legal interpretation of the concept*

*of collective security, gradually connecting it directly with the safety of the individual, protection of human rights and prevention of mass violations, from a formal point of view, there is no officially accepted concept of humanitarian intervention in international law. However, the legitimacy of the use of force within the framework of the UN is not in doubt, since this international organization was created, among other things, to prevent acts of aggression and to resolve international conflicts peacefully. The humanitarian intervention carried out by the UN can be considered legitimate in those circumstances if such intervention can prevent gross and systematic violations of human rights and threats to global security, including crisis or conflict situations involving international crimes. For this, it is necessary to adopt an important international document by the UN on the legality of humanitarian intervention.*

***Keywords:*** *international law, humanitarian intervention, human rights, legality, legitimacy, acts of aggression, UN, security.*

**Вусала Мурадханлы**
**Член Коллегии адвокатов Азербайджана,**
**Заведующий отделом Подготовки и Экспертизы**
**по Правам Человека Публично Юридического Лица**
**“Института права и прав человека” (vusala-aydin@yandex.ru).**

## ЗАКОННОСТЬ ГУМАНИТАРНОЙ ИНТЕРВЕНЦИИ И ЗАЩИТА ПРАВ ЧЕЛОВЕКА

*В статье уточняются место, понятие и основы гуманитарной интервенции в международном праве, а также анализируются мнения других авторов в этой области. На практических примерах поясняется применение гуманитарной интервенции в процессе глобализации, затрагивается вопрос о законности гуманитарной интервенции как вида прямых мер принуждения и условиях, при которых она осуществляется. Также в статье указаны правовые основы оборонной ответственности как принципа обеспечения глобальной безопасности в конкретных законодательных актах. Отмечается, что процессы глобализации расширили международно-правовое толкование понятия коллективной безопасности, постепенно связав его непосредственно с безопасностью личности, защитой прав человека и предотвращением массовых нарушений, а в международном праве нет официально принятой концепции гуманитарной интервенции. Однако легитимность применения силы в рамках ООН не вызывает сомнений, поскольку эта международная организация создана, в том числе, для предотвращения актов агрессии и разрешения международных конфликтов мирным путем. Гуманитарная интервенция, осуществляемая ООН, может считаться законной только в тех обстоятельствах, если такая интервенция может предотвратить грубые и систематические нарушения прав человека и угрозы глобальной безопасности, включая кризисные или конфликтные ситуации, связанные с международными преступлениями. Для этого необходимо принять важный международный документ ООН о законности гуманитарной интервенции.*

***Ключевые слова:*** *международное право, гуманитарная интервенция, права человека, законность, легитимность, акты агрессии, ООН, безопасность.*

**Məqalənin redaksiyaya daxil olma tarixi: 19.10.2023**

**Mələkxanım Rəhimova**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyası**
**Akademiyasının elmi katibi,**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsinin**
**"İnsan hüquqları və informasiya hüququ" UNESCO**
**kafedrasının müəllimi (melek.rahimovafff@gmail.com)**

# DAVAMLI İNKİŞAF SFERASINDA LAYİQLİ HƏYAT HÜQUQUNUN HÜQUQİ ƏSASLARI VƏ UNİVERSAL STANDARTLARI

*Müasir dövrdə davamlı inkişaf çərçivəsində indiki nəsillərin tələbatlarının gələcək nəslin mənafeyinə zərər vurmadan ödənilməsi durur ki, bu da özünün üç istinad nöqtəsi ilə xarakterizə olunur. Davamlı sosiallıq adını almış ən mühüm sütunlardan biri insanların layiqli həyat səviyyəsinin təmin olunmasında ən başlıca yerlərdən birini tutur. Cəmiyyət davamlı sosiallıq çərçivəsində insanların əsas sosial hüquqlarını təmin etməklə onların rifahının yüksəldilməsinə nail ola bilər. Məqalədə Minilliyin inkişaf məqsədləri qismində planlaşdırılan sektorların inkişaf mərhələləri və hüquqi əsaslarının əks olunduğu mənbələr araşdırılmış, on yeddi məqsəddən on birinin sosial hüquq qismində təhlili aparılmış, bu barədə tədqiqatçıların fikirlərinə yer verilmişdir. Müəllif tərəfindən davamlı inkişafa nail olmağın ən başlıca şərti kimi sosial mənafeyin təminatı fikri irəli sürülmüş, bu məqsədin digər iki (iqtisadi və ekoloji) məqsədlərə gedən yolun da başlıca şərti olduğu müdafiə olunmuş, bu istiqamətdə təkliflər səsləndirilmişdir.*

***Açar sözlər:*** *davamlı inkişaf, minilliyin inkişaf məqsədləri, mütləq yoxsulluq, sosial davamlılıq, aclıq, yoxsulluq, səhiyyə, təhsil.*

Müasir ədəbiyyatlarda davamlı inkişaf konsepsiyasının anlayışı barədə vahid tərif yoxdur. Müxtəlif tədqiqatçıların buna fərqli müstəvidə yanaşmasına baxmayaraq, qəbul edilmiş ən ağlabatan tərif belədir: davamlı inkişaf indiki nəsillərin tələbatının maksimum səviyyədə ödənilməsidir ki, bu da gələcək nəsillərin mənafelərinə zərər vurmamalıdır. Çünki onu zərər vurmadan, tükətmədən, aşındırmadan gələcək nəsillərə ötürmək bu günün tələbatıdır. Başqa sözlə "Təbiət miras deyil, gələcək nəsillərin əmanətidir!" [10]. Fikrimizcə, Davamlı İnkişaf bəşəriyyətin ən ideal formada mühafizə edilərək, uzun müddət varlığını qorumaq üçün bütün vasitələrdən istifadə etmək fəaliyyətidir.

V.A.Kaptyuqanın fikrincə, davamlı insan konsepsiyası, bəşəriyyətin idraklı şəkildə balanslaşdırılmış sosial-iqtisadi inkişafına və ətraf mühitin qorunmasına nail olmaq, həmçinin həm texnoloji proses, həm də istehlakın səməriləşdirilməsi yolu ilə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında iqtisadi dispariteti kəskin şəkildə azaltmaqdan ibarətdir [11]. N.N. Moiseyev isə qeyd edir ki, davamlı inkişafı, biosfer və cəmiyyətin tarazlıq vəziyyətinə keçmə vəziyyətini təmin edən fəaliyyətə qəsd edən cəmiyyət strategiyasının işlənməsi və həyata keçirilməsi kimi başa düşmək lazımdır. Bəşəriyyətin gələcəyi yalnız stabil bioloji dövriyyənin mühafizəsi şəraitində qarantiya altına alına bilər. Məhz dövretmələrin stabilliyi biosferin tarazlıq vəziyyəti deməkdir. Akademik A.D.Ursul'a görə isə davamlı inkişaf, ətraf mühiti dağıtmayan, fasiləsiz ictimai tərəqqini təmin edən, idarə olunan, dəstəklənən və nizamlanan inkişaf strategiyasıdır [11]. Davamlı inkişaf konsepsiyanın yaranma tarixi 5 əsas mərhələdən ibarətdir: 1) XX əsrin 50-60-cı illəri; 2) XX əsrin 60-80-illəri; 3) XX əsrin 80-2000-ci illər; 4) 2000-2015 illər; 5) 2015-2030 illər.

Birinci mərhələni əhatə edən XX əsrin 50-60-cı illəri iqtisadi inkişaf və ətraf mühit arasında böhranla müşayiət olunurdu. Biz bu mərhələdə bəşəriyyətin mühafizəsi üçün əhəmiyyətli addımlara rast gəlinmir. Bu dövr gələcəkdə yaranacaq davamlı inkişaf məqsədləri çərçivəsində yalnız bir neçə Konfransın keçirilməsi ilə kifayətlənmişdir: Təbiəti mühafizə sahəsində ilk beynəlxalq konfrans "Dünyanın böyük şəhərlərində havanın çirkləndirilməsinin tüstüdən ölüm hallarının artmasının nəticəsi kimi" adını alaraq 1955-ci ildə keçirilmişdir. Növbəti addımlar kimi, 1962-ci ildə isə Reyçel Karsonun "Səssiz bahar" adlı kitabı nəşr edilir ki, kitabda ilk dəfə kənd təsərrüfatında istifadə olunan sintetik pestisidlərin törətdiyi təhlükə haqqında danışılırdı. Bu kitab ABŞ və digər ölkələrdə ekoloji hərəkatın genişlənməsinə əhəmiyyətli təkan vermişdir. Birinci mərhələ çərçivəsində növbəti addım olaraq 18 dekabr 1962-ci ildə BMT Baş Assambleyasının "İqtisadi İnkişaf və təbiətin mühafizəsi"

adlı qətnaməsinin qəbul edilməsi olmuşdur. Qətnamədə İqtisadi inkişafın ətraf mühitə vurduğu zərərlər qeyd edilirdi.

İkinci mərhələ isə Texniki və intellektual tərəqqinin ekoloji böhrana səbəb olduğu XX əsrin 60-80-ci illərini əhatə edir. Bu mərhələdə Roma klubunun üzvlərinin əməyi xüsusilə qeyd edilməlidir. Bu klub ətraf mühitin mühafızəsi sferasında ilk beynəlxalq təşkilat kimi 1968-ci ildə Aurelio Peççei tərəfindən insan təbiətin harmoniyasına nəzarət məqsədilə yaradılmışdır. Ədəbiyyatlara ilk dəfə "Qlobal problemlər" terminini gətirən təşkilat bu problemlərin həlli istiqamətində də olduqca əhəmiyyətli addımlar atmış, təşkilat üzvləri iki yerə – 1) bədbin və 2) nikbinlərə bölünmüşdülər. Təşkilat çərçivəsində səsləndirilən məruzələr, eləcə də 1971-ci ildə "Dünyanın dinamikası", 1972-ci ildə "Artım həddi" (Medouz), 1974-cü ildə "Bəşəriyyət iki yol ayrıcında" (M.Messaroviç və E.Pestel) adlı kitablar mövcud böhranların XXI əsrin ortalarında qlobal fəlakətə səbəb olacağını qeyd etmiş, onun həlli yollarını təklif etmiş, 1974-cü ildə üzvi artım konsepsiyasının əsasını qoyan "İnsanlıq iki yolayrıcında" adlanan məruzəsi işıq üzü gördü. Məruzələrin davamı olaraq 1976-cı ildə Y.Tinbergen tərəfindən "Beynəlxalq qaydalara (nizama) yenidən baxılması", 1980-cı ildə A.Peççeinin tərəfindən "İnsani keyfiyyətlər" adlı məruzələr də səsləndirilmişdir.

Bu mərhələdə SSRİ-də isə vəziyyət nisbətən gərgin olaraq qalırdı. "Artımın həddi"-nə kəskin tənqidi yanaşan İ.V.Stalin 1938-ci ildə insan təsiri altında təbiətin dəyişməsini inkar edən "dialektik və tarixi materializmə dair" məqaləsini dərc etdirmişdi.

II Dünya müharibəsindən sonrakı dövrdə xüsusən 70-80-ci illərdə təbiətdəki böhranların dərinləşməsi səbəbindən tədqiqatçılar təbiət-cəmiyyət münasibətlərini xüsusilə diqqət mərkəzində saxlayır, tez-tez bu barədə çıxışlar səsləndirirdilər. Xüsusən bu mərhələdə 24 oktyabr 1945-ci ildə yaranmış BMT də ətraf mühitlə bağlı böhranları daim diqqət mərkəzində saxlayırdı. Təşkilatın bu sahədə ilk addımı kimi 15-16 iyun 1972-ci ildə Stokholm şəhərində keçirilən konfrans, bu konfransın yekunu olaraq Stokholm Bəyannaməsi və Fəaliyyət Planı qəbul edilmiş, 5 iyun Beynəlxalq ətraf mühitin mühafizəsi günü elan edilmişdir. Konfransda 113 dövlət iştirak etmiş, beynəlxalq və milli səviyyələrdə aktiv ekoloji fəaliyyət başlanılmışdır [12]. 1972-ci ildə BMT-nin Baş Assambleyasının xətti ilə BMT-nin ətraf mühit proqramı tərtib edilmiş, ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq qanunvericiliyin inkişafı və təkmilləşdirilməsi məqsədilə YUNEP təşkilatı yaradılmışdır [13]. Daha sonra isə 1990-cı ildə Qrinpis ABŞ, Böyük Britaniya, İsveç, Braziliya və Hindistan tədqiqatçıları tərtəfindən hazırlanmış "Qlobal istiləşmə" adlı məqaləni dərc etmişdir.

1980-90-cı illəri əhatə edən üçüncü mərhələdə ilk dəfə olaraq Ümumdünya komissiyası (Brundtland Q.X. komissiyası, 1987 ildə) tərəfindən "Davamlı inkişaf" termini təklif edilərək, "Bizim ümumi gələcəyimiz" adlı qətnamə qəbul edildi. Davamlı inkişaf konsepsiyası çərçivəsində təhlil etdiyimiz sosial komponent də ilk dəfə bu mərhələdə səsləndirilmişdir: "Ölkələr arasında yaşayış səviyyəsində mövcud olan fərqlərin azaldılması, yoxsulluğun aradan qaldırılması müasir dövrdə beynəlxalq ictimaiyyətin ən mühüm vəzifələrindən biridir" və "Davamlı inkişafa nail olmaq üçün həmin prosesə mane olan və zərər verən sənaye kompleksləri bütünlükdə dövlətlər tərəfindən ləğv olunmalı və azaldılmalıdır".

Üçüncü mərhələdə həmçinin Beynəlxalq davamlı inkişaf institutu (1990) təsis edilmiş və davamlı inkişafa aşağıdakı tərif verilmişdir: "Davamlı inkişaf vahid ətraf mühit, iqtisadi səmərəlilik və xalqların rifahının birliyini ifadə edir" [14]. 1992-ci ildə Rio-de-Janeyroda ətraf mühit və inkişaf üzrə ümumdünya Sammiti keçirilmiş, sammitdə ətraf mühitin mühafizəsi məsələsini dünyanın sosial-iqtisadi inkişafının vacib tərkib hissəsi olduğu qeyd edilmiş, bu fikirlər Davamlı İnkişaf konsepsiyası şəklinə salınmışdır. Sammit çərçivəsində 27 prinsipdən ibarət olan "Rio bəyannaməsi" qəbul edilmişdir.

1992-ci ilin iyununda isə "Ətraf mühit və inkişaf" üzrə BMT konfransı keçirilmiş, konfransın yekunu olaraq insan-cəmiyyət münasibətlərinin tənzimlənməsi istiqamətində aşağıdakı sənəd qəbul edilmişdir: 1) XXI əsrin gündəliyi – Bu Davamlı İnkişafa nail olmaq üçün gələcəyə investisiya qoyuluşu üzrə yeni yanaşmalar tələb edən irihəcmli, incəliklə işlənilmiş fəaliyyət planıdır; 2) Meşələrin mühafizəsi prinsipləri – meşə resurslarından rasional istifadə olunması, meşələrin mühafizəsi və artırılması üzrə qlobal konsensusun əldə edilməsi üzrə 15 prinsipinin qəbulu; 3) BMT-nin iqlim dəyişmələri üzrə çərçivə konvensiyası. Bu məqsəd "atmosferdəki istixana effekti yaradan

qazların konsentrasiyasını stabilləşdirilərək onların iqlim sisteminə təhlükə yaratmayan səviyyəsinə" çatmağı vurğulayan çoxtərəfli saziş; 4) BMT-nin bioloji müxtəliflik haqqında konvensiyası - konvensiya bioloji müxtəlifliyin mühafizəsi, onun komponentlərinin davamlı istifadə olunması, genetik resurslardan birgə, bərabər və ədalətli faydalanmaq prinsiplərinə əsaslanır.

1997-ci ilin dekabrında Yaponiyanın Kioto şəhərində BMT-nin İqlimin Dəyişməsi Üzrə Üçüncü Konfransı keçirilmiş və 171 ölkə tərəfindən Kioto protokolu imzalanmış, 2007-ci ildə qüvvəyə minmişdir [15]. Azərbaycan Respublikası da davamlı inkişaf kontekstində mühüm beynəlxalq proqramlara qoşulmuş, üzərinə götürdüyü öhdəlikləri ölkədaxili siyasətdə vicdanla realizə etmişdir. Azərbaycan Respublikası tərəfindən 1992-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını imzalanmış, 1995-ci ildə ratifikasiya edilmiş, 2000-ci ildə bu konvensiyaya əlavə olan Kioto protokolu imzalanmışdır. Ölkə ərazisində 1997-ci ildə iqlim dəyişmələri üzrə dövlət komissiyası yaradılmış, iqlim dəyişmələrinin gözlənilən təsirinin azaldılmasına yönəlmiş milli və regional proqramların hazırlanmış, 1998-1999-cu illərdə "İqlim dəyişmələri üzrə birinci milli məlumatlar" layihəsinin I mərhələsi, 2000-ci ildə isə II mərhələsi yerinə yetirilmişdir [16]. 2000-2010 illərini əhatə edən dördüncü mərhələ BMT -nin təşəbbüsü ilə 2000-ci ildə "Minilliyin Forumu" keçirilmişdir. Minilliyin İnkişaf Məqsədlərinin (MİM) hədəflənən nəticələrə çatmağın ən doğru yolu olduğu qeyd edilmişdir. Bu mərhələdə davamlı inkişafa nail olmaq yolunda əhəmiyyətli addımlar atılmışdır.

26 avqust-4 sentyabr 2002-ci il tarixində Cənubi Afrika Respublikasının Yohannesburq şəhərində Sammit keçirilmişdir. Sammit çərçivəsində 21-ci əsrin Gündəliyinin və Rio-de-Janeyro sammitinin digər yekun sənədlərinin dövlətlər tərəfindən təmin olunması mexanizminin təhlil edilməsi və bu istiqamətdə yeni staretiga planlaşdırmaqdan ibarət idi. Sammit iştirakçıları 5 əsas sahənin - 1) su təchizatı və sanitar şəraitin təmin edilməsi, 2) energetika, 3) səhiyyə, 4) kənd təsərrüfatı və 5) bioloji müxtəlifliyin vacibliyini qeyd etmişlər. 2012-ci ilin iyunda, “Rio +20” yenidən zirvə görüşü keçirilmişdirRio de Janeyroda keçirilən Ətraf Mühit və İnkişaf üzrə Konfransda da əsas məsələlər qismində “yaşıl” iqtisadiyyat, davamlı inkişaf və yoxsulluğun aradan qaldırılması problemləri müzakirə olunmuşdur.2015-2030 illəri əhatə edən V mərhələdə isə yeni hədəflərin müəyyən edilməsi ilə xaraqterizə olunur. Xüsusən, 2015-ci ilin sentyabrında yeni Dayanıqlı İnkişaf Məqsədlərini qəbul edilmiş, 1 yanvar 2016-cı il tarixində qüvvəyə minmişdir. Bu məqsədlər içində aclığa son qoymaq, insan həyatını dəyişmək və planetimizi qorumaq üçün müvafiq fəaliyyət gündəliyinin əsası qoyulmuşdur. “2030 Qlobal İnkişaf Gündəliyi” 15 il ərzində həyata keçirilmiş Minilliyin İnkişaf Məqsədləri əsasında hazırlanaraq layiqli həyat, sosial müdafiə, layiqli məşğulluq, təhsil, iqlim dəyişikliyi ilə mübarizə, ətraf mühitin mübarizəsi məsələlərinin tənzimlənməsinə əsaslanır. Konvensiyanın tərəfi kimi Azərbaycan da iqlim dəyişmələrinin gözlənilən təsirinin azaldılmasına yönəlmiş milli və regional proqramların hazırlanması, həyata keçirilməsi və nəşr etdirilərək ictimaiyyətə çatdırılması kimi öhdəliklər götürmüşdür. Konvensiyanın tələblərinə uyğun olaraq 1998-1999-cu illərdə “İqlim dəyişmələri üzrə birinci milli məlumatlar” layihəsinin I mərhələsi, 2000-ci ildə isə II mərhələsi yerinə yetirilmişdir. Layihənin I mərhələsi çərçivəsində respublika ərazisində müasir iqlim dəyişmələrinin tendensiyası müəyyən edilmiş, gözlənilən iqlim dəyişmələrinin ssenariləri (5 ssenari) hazırlanmış, iqlim dəyişikliklərinin neqativ təsirləri nəticəsində baş verə biləcək itkilərin azaldılması üçün milli adaptasiya planı, qlobal istiləşməyə səbəb olan parnik qazlarının milli kadastrı, parnik qazlarının tullantılarının azaldılmasına dair milli fəaliyyət planı hazırlanmışdır. Layihənin II mərhələsində Azərbaycan Respublikasında parnik qazlarının azaldılması üçün texnologiyalara milli tələbat müəyyənləşdirilmiş, iqlim üzərində sistematik müşahidələrin hazırkı vəziyyəti və potensialı qiymətləndirilmişdir. 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən BMT-nin ölkəmizə göstərdiyi dəstəyin əlaqələndirilməsi üçün əsas tərəfdaş kimi fəaliyyət göstərən Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasına dair fərman imzalanmışdır [17]. Milli səviyyədə DİM-ə nail olmaq məqsədilə MAPS (2030 Gündəliyi naminə aktuallaşdırma, sürətləndirmə və siyasətə dəstək) missiyasını həyata keçirərək 2018-ci ildə Dayanıqlı İnkişaf üzrə Bakı Forumunu təqdim etmişdir. Digər məsələlərlə bərabər regional forum DİM-lərin inteqrasiyası və onların icrasını sürətləndirmək məqsədilə fəaliyyətləri müəyyən edən Bakı Prinsiplərinin qəbul edilməsi ilə yekunlaşdırıb. BMT-nin dəstəyi ilə interaktiv tablo, məlumatları vahid şəkildə toplayan, DİM-lərə doğru inkişafı real vaxt rejimində izləyən DİM-lər üzrə Milli Məlumat Portalı istifadəyə

verilib [18]. Tədqiqatçıların fikrincə, davamlı insan inkişafı konsepsiyası çərçivəsində inkişaf 3 təməl prinsip – iqtisadi artım, sosial irəliləyiş və ətraf mühitin dayanıqlılığını təmin edən ekoloji sektorların vəhdəti formasında cərəyan edir. Lakin davamlı inkişaf yalnız bu saydıqlarımızla şərtlənmir. Qeyd edilməlidir ki, sosial, iqtisadi, mədəni, ekoloji, siyasi faktorlar da burada özünü göstərməkdədir.

Davamlı inkişaf çərçivəsində insan rifahına və cəmiyyətin uzunömürlülüyünə nail olunmasının əsas şərti sosial davamlılığın təmin olunmasından başlayır. Əvvəllər Sosial İnkişaf kimi tanınan Qlobal Təcrübə müasir dövrdə Sosial Davamlılıq və İnklüzivlik (SSI) adını alaraq yeni inkişafa mane ola biləcək müvafiq maneələri aradan qaldırmağa yönəlmiş, iqtisadi və sosial imkanlardan kənarda qalan insanların bu sahədə hüquqlarının təmin olunması ilə xaraqterizə olunur. Sosial davamlılıq – cəmiyyətlərin sağlam, ədalətli, fasiləsiz, bərabər, hərtərəfli şəkildə inkişaf edəcəyi və mövcud olmağa davam edə biləcəyinə əmin olmaqdır. Başqa sözlə sosial cəhətdən davamlı icmalar ədalətli, müxtəlif, əlaqəli və demokratikdir və yaxşı həyat keyfiyyətini təmin edir. Sosial davamlılıq insanların yaşadıqları və işlədikləri yerlərdən nəyə ehtiyacı olduğunu başa düşərək rifahı təşviq edən davamlı uğurlu yerlərin yaradılması prosesidir. Sosial davamlılığın əsas məzmunu hər kəsin yaxşı həyat keyfiyyətindən həzz ala biləcəyi, bərabər imkanlara malik olduğu və bütün sosial tələbatlarının ödənildiyi bir mühitdir. Müasir dövrdə sosial davamlılıq bir çox tədqiqat qrupları tərəfindən araşdırılır. Lakin onlardan ən məşhurları Davamlı Avropa Araşdırma İnstitutu, Oksford Davamlı İnkişaf İnstitutu, Davamlı Gələcəklər İnstitutu və Sidney Texnologiya Universitetidir. Oksford Davamlı İnkişaf İnstitutunun (OISD) araşdırmalarına görə, sosial davamlılıq – bərabərlik və sağlamlıq kimi ənənəvi sosial siyasət sahələrini iştirak, ehtiyaclar, sosial kapital, iqtisadiyyat, ətraf mühit, xoşbəxtlik, rifah və keyfiyyət anlayışları ilə birləşdirir [19]. Davamlı Avropa Araşdırma İnstitutu isə bu qənaətdədir ki, "sosial davamlılıq, elm adamları tərəfindən davamlı inkişafın müstəqil ölçüsü kimi iqtisadi və ekoloji ölçülər qədər geniş şəkildə tanınmır" [20]. Sosial davamlılıq – bütün insanlar üçün bərabər imkanların yaradılması və köklü sistem bərabərsizliklərinin ləğv edilməsidir. Bu sistem insanların cəmiyyətdə, məişətdə, hətta texnologiyalarda belə tam iştirak etmək imkanlarının artırılmasına yönəlmişdir. Bu mexanizm münaqişə və zorakılıqla mübarizə aparan ölkələrdə sosial birliyin qurulmasına yönəlmişdir, ən başlıca şərti isə iqlim dəyişikliyinin sosial ölçüləri ilə mübarizədir. Bu mexanizm insanların və ətraf mühitin mühafizəsini gücləndirməklə bərabər, sosial və ətraf mühitin idarə edilməsi üzrə ölkənin potensialını artırır və şəffaflıq, hesabatlılıq, ayrı-seçkiliyə yol verməmək və ictimai iştirakçılıq kimi sahələrdə mühüm irəliləyişlərə nail olur [21]. Nobel mükafatı laureatı Amartya Senin fikrincə, sosial davamlılığın beş ölçüsü var. Bunlar biznesin və ya layihənin sosial cəhətdən davamlı olub-olmadığını müəyyən edərkən nəzərə alınmalı olan amillərdir: 1) Kapital, 2) Müxtəliflik, 3) Sosial birlik, 4) Həyat keyfiyyəti, 5) Demokratiya və idarəçilik. Həyat keyfiyyəti – çox geniş mövzudur və özündə əlverişli mənzil, fiziki və zehni tibbi dəstək, təhsil, məşğulluq, təhlükəsizlik və digər sahələri özündə birləşdirir. Bərabərlik – sosial cəhətdən davamlı cəmiyyətin ədaləti və bərabər imkanları təşviq etdiyini nəzərə alaraq, gender maaş fərqinin aradan qaldırılmasının tələb edir. [22]. Bərabərlik müəyyən qruplar üçün çatışmazlıqların azaldılması və ya bu qrupların həyatlarına daha çox nəzarət edə bilmələri üçün maneələrinin təmin olunmasıdır. Müxtəlif insan qruplarının bir çox müxtəlif qruplarından ehtiyacların tapılması, bu tələblərin qiymətləndirilməsi və təhsilin təmin edilməsi və s. sahələrdə özünü göstərir. Demokratiya - cmanın büdcəsi və resurslarının davamlılıq proqramlarını davam etdirmək və adekvat olmasını təmin etmək üçün düzgün və ədalətli idarəetmə sistemi tələb olunur. Sosial birlik cəmiyyətin hər bir qrupunun iştirakını təmin edir [23]. BMT-nin Qlobal Sazişində insan hüquqlarının sosial davamlılığın ən əsas göstəricilərindən biri olduğu qeyd edilir.

Layiqli həyat hüququ kontekstindən araşdırdığımız davamlı inkişafın sosial komponenti bütünlükdə sosial və mədəni sistemlərin sabitliyini qorumağa yönəlmişdir. Bu yanaşmanın mühüm cəhəti insanların tələbatlarının layiq olduqları səviyyədə ödənilməsindən ibarətdir. Faydaların ədalətli bölüşdürülməsi istiqamətində həyata keçirilən sosial kontekst insan yönümlü olaraq qlobal miqyasda mədəni kapitalın və müxtəlifliyin qorunub saxlanmasını, eləcə də qeyri-dominant mədəniyyətlərdə olan davamlı inkişaf təcrübələrinin istifadəsini hədəfləyir. Dayanıqlı İnkişaf Məqsədləri bütün kasıb, zəngin və orta inkişaf etmiş ölkələr üçün fəaliyyətə çağırışdır. Təbii ki, bunlar da rifahı yaxşılaşdırmaq və planetimizi qorumaq məqsədi daşıyır. Dövlətlər başa düşürlər ki, yoxsulluğun aradan qaldırılması səyləri iqtisadi artımın artırılması və təhsil, səhiyyə, sosial müdafiə və məşğulluq, eləcə də iqlim

dəyişikliyi ilə mübarizə və ətraf mühitin mühafizəsi sahəsində bir sıra problemlərin həlli istiqamətində mühüm nəticələrə səbəb olacaqdır [24]. Gəlin bu məqsədləri ayrılıqda araşdıraq. Bəzi müəlliflərin fikrincə, BMT-nin 17 DİM-dən 11-i sosial sütunlarla bağlıdır. Ona görə də sosial davamlılığın BMT-nin DİM-lərinə nail olunmasında mühüm rolu var. Fikrimizcə isə, davamlı inkişafa layiqli həyat hüququ kontekstindən yanaşıldıqda yalnız aşağıdakı sosial yönümlü məqsədlərin təhlili məqsədəuyğundur:

1) I məqsəd – Yoxsulluğa son;
2) II məqsəd – Aclığa son;
3) III məqsəd – Yaxşı səhiyyə və rifah;
4) IV məqsəd – Keyfiyyətli təhsil;
5) VI məqsəd – Təmiz su və sanitariya;
6) VII məqsəd – Sərfəli və təmiz enerji;
7) VIII məqsəd – Layiqli əmək və iqtisadi artım.

İndiki şəraitdə bu məqsədlərin nə üçün bu qədər vacib olduğunu vurğulamaq ən əsas məsələlərdəndir.

Birinci məqsəd olan yoxsulluğun bütün formalarına son qoyulmasının minilliyin inkişaf məqsədləri sırasına daxil edilməsinin müxtəlif səbəbləri vardır: işsizlik, sosial təcrid, müəyyən ölkələrin əhalisinin təbii fəlakətlərə, xəstəliklərə və insanların məhsuldar həyat sürməsinə mane olan digər hadisələrə qarşı həssaslığının yüksək səviyyəsinin mövcud olması və s. Müəlliflərin fikrincə, yoxsulluq dedikdə, sadəcə dolanışığın dayanıqlılığını təmin etmək üçün tələb olunan gəlir və resursların olmaması deyil, həm də aclıq və zəif qidalanma, təhsilə və digər əsas xidmətlərə çıxışın məhdud olması, sosial ayrı-seçkilik və təcridolunma, eləcə də qərarların qəbul edilməsində iştirak edə bilməmə formalarında təzahür edir. Bu istiqamətdə davamlı inkişaf 2030-cu ilə qədər yoxsulluğun bütün formalarının aradan qaldırılması məqsədi güdür. Belə ki, 700 milyondan çox insan hələ də ifrat yoxsulluq şəraitində yaşayır və sağlamlıq, təhsil, su və kanalizasiyaya çıxış kimi əsas ehtiyaclarını ödəmək üçün mübarizə aparır. Cənubi Asiya və Sub-Sahara Afrikası əhalisinin böyük əksəriyyəti gündə 1,90 ABŞ dollarından az qazanır. Bu insanlar bütün dünyada ifrat yoxsulluq şəraitində yaşayan insanların ümumi sayının təxminən 70 faizini təşkil edir. Hindistan, İndoneziya, Çin və Nigeriya da daxil olmaqla aşağı-orta gəlirli ölkələrin əhalisi yaşayan insanların ümumi sayının təxminən yarısını təşkil edir. Lakin bu fenomen inkişaf etmiş ölkələrə də təsir edir. Hazırda dünyanın ən zəngin ölkələrində 30 milyondan çox uşaq yoxsulluq həddində yaşayır [25].

Hədəflər sırasında yoxsul və digər həssas dünya əhalisinin böyük hissəsini əhatə etmək istiqamətində – milli anlayışlara uyğun olaraq yoxsulluğun hər hansı forması ilə üzləşən bütün insanların xüsusi payını 2030-cu ilədək ən azı iki dəfə azaltmaq, hamı üçün milli səviyyədə məqsədəuyğun sosial müdafiə sistemlərini və sosial təminatın minimum səviyyələrini təmin etmək, həssas əhali qruplarının iqtisadi resurslara bərabər çıxış hüquqlarına, habelə əsas xidmətlərə, torpaq və əmlak formaları üzərində mülkiyyət və nəzarətə, miras, təbii resurslar, müvafiq yeni texnologiyalar və maliyyə xidmətlərinə, o cümlədən mikro-maliyyə xidmətlərinə bərabər çıxış imkanlarına malik olmalarını təmin etmək, yoxsul və həssas qrupları möhkəmləndirmək, onların iqlimlə bağlı hadisələrə, fors-major hallara qarşı davamsızlığı azaltmaq, dünya ölkələrini adekvat resurslarla təmin etmək məqsədilə əməkdaşlığın genişləndirilməsi, maliyyə vəsaitlərinin daha sürətli cəlb olunmasına yönələn möhkəm əsaslı siyasi çərçivələr yaratmaq. Davamlı inkişaf məqsədinin müəllifləri hesab edir ki, yoxsulluğun aradan qaldırılması rifahdır, çünki, bütün insanlar bir-birinə bağlıdır. Artan bərabərsizlik isə iqtisadiyyata ziyan vurur, böyüyür, cəmiyyətin birliyini pozur, siyasi və sosial gərginliyi artırır, bəzi hallarda isə qeyri-sabitliyə və münaqişəyə səbəb olur [25].

Müəlliflər üçün ərzaq təhlükəsizliyinə nail olmaqla qidalanmanın yaxşılaşdırılması və dayanıqlı kənd təsərrüfatının inkişafı istiqamətində davamlı inkişafa nail olmaq ikinci məqsəd olaraq aclığa son məqsədini qəbul etdilər. Onların fikrincə, aclığa son qoymaqla iqtisadiyyat, səhiyyəy, təhsilə fayda vermək və bərabərliyi təşviq etmək mümkündür. Aclığın qarşısının alınması aqrar inkişafa dəstəklə yanaşı, hər kəs üçün qidalı elementləri ilə zəngin ərzağın təmin edilməsi və layiqli gəlir yaradılmasıdır. Təbii ki, bunun da bir çox vacib səbəbləri var: qeyri-kafi qidalanma, aclıq səbəbiylə insanların iş qabiliyyətini azalması və onlarınxəstəliklərə qarşı həssaslığı və s. Statistikaya görə dünyada təxminən

800 milyon insan aclıqdan əziyyət çəkir və əksəriyyəti bunlardan inkişaf etməkdə olan ölkələrdə yaşayır [25].

Cəmiyyətdə qida çatışmazlığının səbəbləri isə müxtəlif cür qiymətləndirilir: Məsələn, kəskin iqlim şəraiti, müharibələr, terror aktları, ölkələrdəki qeyri-sabitlik, kənd təsərrüfatında mövcud böhran, yığım zamanı qida itkiləri, həşəratların əkinlərə ziyan vurması və s. Bu istiqamətdə hədəflər planına əhalinin həssas qruplarının il boyu təhlükəsiz, qidalı elementlərlə zəngin və yetərli miqdarda ərzağa çıxışını təmin etmək, zəif qidalanmanın bütün formalarına son qoymaq, yeniyetmə qızların, hamilə və ya süd verən qadınların və yaşlı insanların qidalanma ilə bağlı ehtiyaclarını təmin etmək, 5 yaşadək uşaqlarda bəstəboyluq və arıqlıq halları ilə bağlı beynəlxalq səviyyədə razılaşdırılmış hədəflərə çatmaq, kənd təsərrüfatının istehsal potensialını artırmaq, təsərrüfatdankənar məşğulluğa təhlükəsiz və bərabərhüquqlu çıxış imkanının təmin etmək, ailə təsərrüfatlarının, heyvandarlıqla və balıqçılıqla məşğul olan əhalinin gəlirlərini ikiqat artırmaq, dayanıqlı ərzaq istehsalı sistemlərini təmin etmək, ekosistemlərin qorunub saxlanmasına kömək etmək, iqlim dəyişikliyinə, kəskin hava şəraitinə, quraqlığa, daşqınlara və digər təbii fəlakətlərə uyğunlaşma potensialını gücləndirmək, torpağın keyfiyyətini tədricən artıran dayanıqlı kənd təsərrüfatı təcrübələrini tətbiq etmək, bitkilərin və heyvanların genetik müxtəlifliyini qorumaq ərzaq malları bazarını nəzarətdə saxlamaq və s. daxildir.

Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Qrupunun icraçı üzvü olan Dünya Qida Proqramı çərçivəsində sosial təhlükəsizlik proqramlarının təşviqi, qida təhlükəsizliyinin təmin olunması, aclığın aradan qaldırılması, fövqəladə hallara hazırlıq və cavab tədbirləri üçün şəraitin yaradılması, təchizat zəncirlərinin və logistikanın idarə edilməsi və iqlim dəyişikliyinə qarşı davamlılığın gücləndirilməsi kimi texniki yardım və inkişaf fəaliyyətlər həyata keçirir. Bu proqram münaqişə bölgələrinə ərzaq yardımı göstərmək, ərzaqdan müharibə və münaqişə silahı kimi istifadənin qarşısını almaq istiqamətindəki fəaliyyətinə görə sülh üzrə Nobel mükafatına layiq görülmüşdür [26].

Müəlliflər sağlam həyatı təmin etmək, rifahı təşviq etmək, firavan cəmiyyət yaratmaq, insanların sağlamlığını qorumaq, əhalinin bütün təbəqəsinin sağlamlıq standartlarının təmin olunması üçün üçüncü məqsəd olaraq Yaxşı səhiyyə və rifah məqsədini konsepsiyaya daxil edirlər. Təbii ki, bunun da təkzibolunmaz səbəblər vardır. Əsaslar sırasında uşaq ölümləri, doğum zamanı ana ölümləri, yoluxucu xəstəliklərin, insan səhhətinə güçlü zərər vuran mikrob və infeksiyaların mövcudluğu, İİV/QİÇS kimi xəstəliklərin çoxalması və s. göstərilə bilər. İnkişaf məqsədləri çərçivəsində əhəmiyyətli irəliləyişlər əldə olunmuş, 1990-cı ildən bəri ana ölümü demək olar ki, 50 faiz azalmış, 2000-ci ildən bəri qızılca peyvəndi xəstəlikdən təxminən 15,6 milyon ölümün qarşısını almış, 2014-cü ilin sonuna 13,6 milyon insanın antiretrovirus terapiyaya çıxışı təmin olunmuşdur [25]. İnsanların sağlam yaşayışını təmin etmək və rifah halını yaxşılaşdırmaqdan məqsədilə qarşıya qoyulan hədəflər aşağıdakılardır: dünyada ana ölümü, neonatal ölüm, kimyəvi zəhərlənmələrlə əlaqədar ölüm hallarının azaldılması, 5 yaşadək uşaqların qarşısı alına bilən ölüm hallarına son qoyulması, yoluxucu xəstəliklərlə mübarizə aparılması, epidemiyalara son qoyulması, psixi sağlamlığı və ümumi rifahın təşviq edilməsi, profilaktika və müalicələrin gücləndirilməsi, narkotik vasitələrin, psixotrop və zərərli maddələrin istifadəsinin qarşısını alınması və bu sahədə intensiv müalicələr aparılması, yol-qəza hadisələri zamanı ölüm və xəsarət hallarını yarıya endirilməsi, insanların cinsi və reproduktiv səhiyyə, ailə planlaşdırması, məlumat və maarifləndirmə ilə bağlı xidmətlərə çıxışının təmin edilməsi, reproduktiv sağlamlığın milli strategiya və proqramlarının hazırlanması, keyfiyyətli səhiyyə xidmətlərinə, təhlükəsiz, effektli və xərc baxımından münasib olan zəruri dərman preparatlarının və peyvəndlərin əldə etməsinin asanlaşdırılması və s.

"Əqli mülkiyyət hüquqlarının ticarətlə əlaqəli aspektləri üzrə Saziş (TRİPS) və İctimai Səhiyyə haqqında" Doha Bəyannaməsinə uyğun olaraq, yoluxucu və qeyri-yoluxucu xəstəliklərə qarşı peyvənd və dərmanların hazırlanması, onlara çıxışın təmin edilməsi, elmi tədqiqatların aparılması və s. müəyyən edilmişdir [27].

Dördüncü məqsəd olaraq – Keyfiyyətli təhsilin təmin olunması vurğulanır ki, bu da davamlı inkişaf məqsədlərinə nail olmağın ən birinci şərti hesab edilir. Tolerantlığın artırılması, bərabərsizliyin azaldılmasına, sülhsevər cəmiyyətlərin formalaşmasına, gender bərabərsizliyinin aradan qaldırılmasına nail olunmasının ən əsas vasitələrindən biri inklüziv və keyfiyyətli təhsilin təmin edilməsidir. Bu sahədə də mühüm irəliləyişlər əldə olunmuş, inkişaf etməkdə olan ölkələrdə ibtidai təhsilə qəbul 91 faizə çatmışdır. YUNESKO-nun Beynəlxalq Statistika İnstitutunun məlumatına görə, 2000-ci ildən

2012-ci ilədək faiz payı uşaqların məktəbdənkənarlıq nisbətləri Saharaaltı Afrikada 40 faizdən 22 faizə, Cənubi Asiyada isə 20 faizdən 6 faizə düşmüşdür [25].

Layiqli həyat səviyyəsinin ən başlıca elementlərindən biri olan inklüziv və keyfiyyətli təhsilin təmin edilməsi və ömür boyu təhsilin təşviq edilməsi istiqamətində qəbul edilən məqsəddə isə aşağıdakı nəticələr hədəflənmişdir:

- insanların, o cümlədən əhalinin həssas qrupları, əlillər, aborigen xalqların nümayəndələri və həssas qruplardan olan uşaqlar üçün təhsilin bütün səviyyələrinə çıxış imkanlarının genişləndirilməsi,
- qız və qadınların məktəblərdə qeydiyyat səviyyəsinin yüksəldilməsi, qız və oğlanlar arasında ibtidai təhsildə bərabərliyə nail olunması,
- erkən uşaq inkişafı, qayğı və məktəbəqədər təhsilə çıxış imkanlarının genişləndirilməsi, şagirdlər arasında pulsuz, bərabər və keyfiyyətli ibtidai və orta təhsil pillələrini bitirməsinin təmin edilməsi,
- hər kəs üçün maliyyə baxımından münasib və keyfiyyətli texniki, peşə, ali təhsilə bərabər çıxış imkanlarının təmin edilməsi,
- məşğulluq, layiqli iş imkanları və sahibkarlıq fəaliyyəti üçün müvafiq bacarıqlara, texniki və peşə vərdişlərinə malik olan yetkin insanların sayının artırılması,
- təhsil sektorunda gender əsaslı bərabərsizliyin aradan qaldırılması,
- sülh və qeyri-zorakılığın təşviq edilməsi, dünya vətəndaşlığı konsepsiyası və mədəni müxtəliflik dəyərlərinin başa düşülməsi, mədəniyyətin dayanıqlı inkişafa töhfəsi sahələrində maarifləndirmə işlərinin aparılması,
- davamlı inkişafı təşviq etmək üçün zəruri bilik və vərdişlərə yiyələnmənin təmin edilməsi,
- inklüziv və effektiv təlim mühitini təmin edən təhsil müəssisələrinin qurulması və təkmilləşdirilməsi,
- inkişaf etməkdə olan dövlətlər və Afrika ölkələri üçün inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələrdə ali təhsil, peşə təlimi, informasiya və kommunikasiya texnologiyaları, texniki mühəndislik, elmi proqramlar üzrə təqaüdlərin sayının artırılması,
- bu ölkələrdə müəllimlərin hazırlığı sahəsində beynəlxalq əməkdaşlıq vasitəsilə ixtisaslı müəllimlərin sayını əhəmiyyətli dərəcədə artırmaq və s.

Altıncı məqsəd qismində təmiz su və sanitariya məqsədi qeyd edilir. İnsan sağlamlığı və rifahının ən başlıca şərtlərindən biri təhlükəsiz və içməlisuya, kanalizasiyaya və gigiyenaya çıxışının təmin olunmasıdır. Bunlar insanın başlıca hüquqlarıdır. Qeyd olunmalıdır ki, əhalinin sürətli artımı, urbanizasiya, kənd təsərrüfatı, sənaye və enerji sektorlarının artan tələbatları səbəbindən suya ehtiyac günbəgün artır. Su təkcə sağlamlıq üçün deyil, həm də yoxsulluğun azaldılması, ərzaq təhlükəsizliyi, sülh və insan hüquqları, ekosistemlər və təhsil üçün vacibdir. Suyu davamlı şəkildə idarə etməklə biz həm də qida və enerji istehsalımızı daha yaxşı idarə edə, layiqli işə və iqtisadi artıma nail oluna bilər [25].

Yeddinci məqsəd sərfəli və təmiz enerjiyə nail olunmasıdır. Kənd təsərrüfatı, biznes, rabitə, təhsil, səhiyyə, gigiyena və nəqliyyatın inkişafı üçün təmiz və sərfəli enerjiyə çıxışın təmin edilməsi də insanın əsas hüquqları sırasındadır. Cəmiyyət inkişaf etdikcə dünya davamlı enerji hədəflərinə doğru irəliləməyə davam edir. İnsanların gündəlik həyatları etibarlı və sərfəli enerjidən asılıdır. Buna görə də günəş, külək və istilik kimi təmiz enerji mənbələrinə ehtiyac günbəgün artır. Yaxşı qurulmuş enerji sistemi bütün sektorları, ən əsası isə sosial rifahı təşviq edir [25].

Səkkizinci məqsəd olaraq layiqli əmək və iqtisadi artım göstərilmiş əsas məqsədlərdəndir. Nəzərə alsaq ki, birinci və ikinci məqsəd olaraq müəyyən etdiyimiz yoxsulluğa son və aclığa son məqsədləri yalnız səkkizinci maddədə öz əksini tapmış, hamı üçün inklüziv və davamlı iqtisadi artımın, məşğulluğun və layiqli işin təşviqini özündə cəmləşdirən layiqli əmək və iqtisadi artım səviyyəsinin təmin olunması ilə mümkündür. Bundan başqa iğtişaşların qarşısının alınması, ədalətli qloballaşma, dinc mövcudluğa nail olmaq və s. göstəricilər üçün bu məqsədin təmin olunması labüddür. Beynəlxalq Əmək Təşkilatının (BƏT) 2015-ci il üçün məlumatına görə, 204 milyondan çox insan işsizdir. Dünyada işsizlik səviyyəsi 2007-ci ildəki 170 milyondan təxminən 202 milyona yüksəlmişdir [28]. "Layiqli iş" dedikdə – təhlükəsizliyin təmin olunduğu, ailələrin sosial müdafiəsini təmin edən, kifayət qədər gəlir gətirən effektiv əmək fəaliyyəti başa düşülür ki, bu da minimum yaşayış xərclərindən müvafiq faiz dərəcəsi ilə üstünlük təşkil edir. Layiqli məşğulluq imkanlarının təminatının digər bütün məqsədlərdə tərəqqiyə səbəb olacağı təkzibolunmazdır.

İnklüziv və dayanıqlı iqtisadi artımı, hamı üçün məşğulluğu və layiqli əməyi təşviq etmək məqsədilə aşağıdakı nəticələr hədəflənir: yeni iş yerlərinin yaradılması, insanların keyfiyyətli işlərə sahib olmasına imkan verərək iqtisadiyyatı stimullaşdıran şərtlərin formalaşdırılması, əmək qabiliyyətli əhali üçün iş imkanları və layiqli iş şəraitinin yaradılması, bütün insanlar üçün tam və səmərəli məşğulluq imkanlarının yaradılması, adambaşına düşən iqtisadi artımın milli şəraitə uyğun səviyyədə saxlanılması, az inkişaf etmiş ölkələrdə ÜDM-in illik artım tempinin yüksəldilməsi, iqtisadi məhsuldarlığın daha yüksək səviyyəyə qaldırılması, sahibkarlığa, yaradıcılığa və innovasiyalara dəstək göstərən inkişaf yönümlü siyasətlərin təşviq edilməsi, mikro, kiçik və orta ölçülü müəssisələrin formalaşdırılması, maliyyə xidmətlərinə çıxışın asanlaşdırılması, istehlak və istehsal proseslərində resurslardan səmərəli istifadəsinin təmin olunması, iqtisadi artımla ətraf mühitin deqradasiyası arasındakı əlaqəliliyin aradan qaldırması, bərabər dəyərli əməyə görə bərabər ölçüdə ödənişə nail olunması, məcburi əməyə, müasir köləliyə və insan alverinə son qoyulması, uşaq əməyinin bütün formalarının ləğv olunması, hərb sahəsinə uşaqların cəlb edilməsinin qadağan olunması, miqrant işçilərin, xüsusilə də qadın miqrantların və riskli şəraitlərdə işləyən işçilərin əmək hüquqlarının qorunması, etibarlı və təhlükəsiz əmək şəraitinin yaradılması, yerli mədəniyyətin inkişafını və yerli məhsulların istehsalını təşviq edən dayanıqlı turizmin təşviq edilməsi, insanların ölkədaxili maliyyə institutları - bank, sığorta və maliyyə xidmətlərinə çıxışının stimullaşdırılması, az inkişaf etmiş ölkələrə “Ticarətə Yardım” təşəbbüsü çərçivəsində dəstəyin artırılması, gənclərin məşğulluğu üzrə qlobal strategiyanın işlənib hazırlanması, dövlətlər tərəfindən Beynəlxalq Əmək Təşkilatının Qlobal Məşğulluq Paktına uyğun olaraq öhdəliklərin vicdanla yerinə yetirilməsi və s.

Milli səviyyədə həyata keçirilən tədbirlər çərçivəsində mütləq yoxsulluq səviyyəsi 49.0%-dən 5.0%-ə qədər azaldılmışdır, məktəblərə qeydiyyat dərəcəsi ibtidai, ümumi və tam orta təhsil səviyyələrində 99.8 - 100%-ə çatdırılmış, 1000 yeni doğulan körpə arasında 5 yaşadək uşaq ölümü göstəricisi 28-dən 12.8-ə endirilmişdir.

Yuxarıdakı müddəaları ümumiləşdirərək belə nəticəyə gələ bilərik ki, davamlı inkişaf “istehsal” və “tələb” mərhələlərini özündə birləşdirərək iqtisadi inkişaf, ətraf mühitin mühafizəsi və sosial rifah arasında tarazlıq tapmağa çalışır. Bu sistemdə ən mühüm göstəricilərdən biri olan sosial davamlılıq iqtisadi və ekoloji davamlılıqla bərabər mövqeyə malik olaraq gender imkanlarının gücləndirilməsi, gender əsaslı zorakılığın qarşısının alınması, əhalinin rifahının yüksəldilməsi, əlverişli əmək və iş şəraitinin yaradılması və s. sferalarda özünü göstərir. Başqa sözlə, sosial davamlılıq layiqli biznes sərmayəsidir. Cəmiyyətlər sosial davamlılığa nail olmaqla risklərin idarə edilməsinin təkmilləşdirə, yeni məhsul və ya xidmət xətləri üçün innovasiya mənbələri yarada bilərlər.

Davamlı inkişaf konseptində hədəflənən məqsədlərin hər biri kainatın varlığını şərtləndirən, hamının mənafeyinə xidmət edən ən ümdə məsələləri cəmləşdirir. Qeyd etmək lazımdır ki, davamlı inkişaf təkcə indiki-mövcud nəsil arasında deyil, indiki nəsillə gələcək nəsil arasında da bir körpü rolunu oynamalı, nəsillərarası ədalətə və kommunikasiyaya nail olmalıdır. Dünyanın sərvətləri yalnız indiki nəsillər arasında deyil, mövcud olmuş və olacaq bütün nəsillər arasında bərabər bölüşdürülməlidir. Bu konsepsiyada səsləndirilən sosial sferadakı məqsədlər isə insan hüquqları sistemin ən başlıca meyarlarından biri olaraq dünya ölkələrində investisiyaların yetərli səviyyədə olmaması, qeyri-kafi istehlak səviyyəsinin mövcudluğu, demokratik cəmiyyətlərin təməlini təşkil edən sosial həmrəyliyin aşınması səbəbindən ən mühüm komponentlərindən biri kimi çıxış edir. Xüsusilə, insanların layiqli həyat səviyyəsinin təmin olunması istiqamətində davamlı inkişaf çərçivəsində yoxsulların ərzaqla təmin olunmasına, onların həyat şəraitinin yaxşılaşdırılmasına, layiqli iş imkanlarının yaradılmasına, qlobal ərzaq və kənd təsərrüfatı sisteminin əsaslı şəkildə dəyişdirilməsinə, kömək edəcək sosial müdafiə proqramlarının qəbul olunmasına, ümumdünya çərçivəsində həyata keçirilən iqtisadi və sosial siyasəti yenidən gözdən keçirməyə əsaslı tələbatlar vardır.

## İstinadlar:

1. “Azərbaycan Respublikası ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "Azərbaycan Respublikasında informasiya-kommunikasiya texnologiyalarının inkişafı strategiyasının hazırlanması və ilkin mərhələdə tətbiq edilməsi layihəsi"ni Azərbaycan Respublikası adından imzalamaq səlahiyyətinin verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı:

[Elektron resurs] // No 865, 9 yanvar 2002-ci ildə qəbul edilmişdir. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin hüquqi aktların vahid elektron bazası. URL: http://www.e-qanun.az/framework/1090

2. BMT və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə sənədi (2021-2025): [Elektron resurs] // BMT Azərbaycanın İdarə Heyətinin rəsmi internet səhifəsi. URL: https://azerbaijan.un.org/sites/default/files/20216/AZERBAIJAN%20UNSDCF%2020212025_FINAL%20SIGNED_AZE_0.pdf.

3. Əliyev Ə.İ. İnsan hüquqları: Dərslik. Bakı: Nurlar, 2019, 352 s.

4. Dünyamızı dəyişdiririk: Dayanıqlı İnkişaf üçün 2030 Gündəliyi, Davamlı İnkişaf Şöbəsi (DSD), Birləşmiş Millətlər, https://sustainabledevelopment.un.org/post2015/transformingourworld [giriş tarixi 19 noyabr 2017-ci il] Architecture 2030, http://architecture2030.org/ [giriş tarixi 19 noyabr 2017]

5. David, H. Ətraf mühit haqqında beynəlxalq hüquq və siyasət H.Davud, S.Ceyms, Z.Durvud. İkinci nəşr. Bakı, 2008. 1720 s. (Əsas)

6. Əliyev Z.H. Avropa İnsan Hüquqları Məhkəməsi. Dərs vəsaiti. Bakı: AZSEA nəşriyyatı, 2012, 232 s.

7. Əliyev Ş.İ. İnsan hüquqları sistemində sosial hüquqlar (nəzəri və praktiki məsələlər). Dərs vəsaiti. Bakı, Bakı Universiteti nəşriyyatı, 2008, 368 s.

8. İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitənin Ümumi Şərhlərinin Seçmə Toplusu: [Elektron resurs] // BMT İHAK tərəfindən "İnsan hüquqlarının təşviqi və müdafiəsi sahəsində milli tərəfdaşların potensialının artırılması" layihəsi çərçivəsində tərcümə edilərək 12 yanvar 2021-ci ildə dərc olunmuşdur. URL: https://azerbaijan.un.org/az/107511-iqtisadi-sosial-v-mdni-huquqlar-uzr-komitnin-umumi-srhlrinin-secm-toplusu

9. Основы устойчивого развития: Учеб пособие / Под общ. ред. д.е.н., проф. Л. Г. Мельника. Сумы: ИТД «Университетская книга», 2005. 654 с.

10. https://dejure.az/az/article/davamli-inkisaf-flsfsi

11. https://www.un.org/sustainabledevelopment/ru/why-the-sdgs-matter/

12. https://www.un.org/en/conferences/environment/stockholm1972

13.https://www.unep.org/

14. http://etsim.az/upload/Image/Həsən%20Məmmədov.pdf

15. http://anl.az/el/Kitab/2020/03/cd/Ar2020-75.pdf

16. https://elibrary.az/docs/jurnal/jrn2007_317j.htm

17. Prezidentin rəsmi səhifəsi https://president.az/

18. https://azerbaijan.un.org/az/sdgs

19. https://diversity.social/social-sustainability/#0-what-is-social-sustainability

20. https://diversity.social/social-sustainability/#0-what-is-social-sustainability

21. https://www.worldbank.org/en/news/feature/2020/09/02/five-things-about-social-sustainability-and-inclusion

22. https://www.adecesg.com/resources/faq/what-is-social-sustainability/

23. ttps://blog.se.com/sustainability/2022/11/04/social-sustainability-for-inclusive-growth/

24. https://www.un.org/sustainabledevelopment/ru/why-the-sdgs-matter/

25. http://www.un.org/sustainabledevelopment

26. https://www.wfp.org/

27. https://press.un.org/en/2023/dev3459.doc.htm

28. https://www.ilo.org/global/lang--en/index.htm

**Malakkhanim Rahimova**
**Scientific secretary of the Academy**
**of the Bar Association of the Republic of Azerbaijan,**
**Lecturer of the UNESCO Chair on**
**Human rights and Information Law of the Faculty of Law of**
**Baku State University (melek.rahimovafff@gmail.com).**

## LEGAL FRAMEWORK AND UNIVERSAL STANDARDS OF THE RIGHT TO A DECENT LIFE IN THE FIELD OF SUSTAINABLE DEVELOPMENT

*In modern times, within the framework of sustainable development, the needs of current generations are met without compromising the interests of future generations, which is characterized by its three guidelines. One of the strongest pillars, called sustainable sociality, occupies one of the most important places in ensuring a decent standard of living for people. Society can improve people's well-being by guaranteeing their basic social rights within the framework of a sustainable sociality. The article examines sources reflecting the stages of development and legal framework of the industries planned as Millennium Development Goals, analyzes eleven of the seventeen goals as social rights, and provides the opinions of researchers. The author put forward the idea of providing social benefits as the most important condition for achieving sustainable development, argued that this goal is also the main condition for the path to two other (economic and environmental) goals, and made proposals in this direction.*

***Keywords:*** *Sustainable development, Millennium Development Goals, Absolute poverty, social sustainability, hunger, poverty, healthcare, education*

**Мелекханым Рахимова**
**Ученый секретарь Академии Коллегии**
**Адвокатов Азербайджанской Республики,**
**Преподаватель кафедры ЮНЕСКО «Права**
**человека и информационное право» Юридического**
**факультета Бакинского государственного**
**университета (melek.rahimovafff@gmail.com).**

## ПРАВОВАЯ ОСНОВА И УНИВЕРСАЛЬНЫЕ СТАНДАРТЫ ПРАВА НА ДОСТОЙНУЮ ЖИЗНЬ В СФЕРЕ УСТОЙЧИВОГО РАЗВИТИЯ

*В современное время в рамках устойчивого развития потребности нынешних поколений удовлетворяются без ущерба интересам будущих поколений, что характеризуется тремя его ориентирами. Один из самых сильных столпов, названный устойчивой социальностью, занимает одно из важнейших мест в обеспечении достойного уровня жизни людей. Общество может улучшить благосостояние людей, гарантируя их основные социальные права в рамках устойчивой социальности. В статье рассмотрены источники, отражающие этапы развития и правовые основы отраслей, запланированных в качестве Целей развития тысячелетия, проанализированы одиннадцать из семнадцати целей как социальных прав, приведены мнения исследователей. Автор выдвинул идею обеспечения социальных благ как важнейшего условия достижения устойчивого развития, доказывал, что эта цель является также главным условием пути к двум другим (экономической и экологической) целям, и внес предложения в этом направление.*

***Ключевые слова:*** *Устойчивое развитие, Цели развития тысячелетия, Абсолютная бедность, социальная устойчивость, голод, бедность, здравоохранение, образование.*

**Məqalənin redaksiyaya daxil olma tarixi: 16.09.2023**

**Polad Mehdiyev**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü,**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsinin**
**Konstitusiya hüququ kafedrasının doktorantı (poladmehdi@gmail.com).**

# PEŞƏKAR HÜQUQİ YARDIM HÜQUQUNUN TƏMİNATLARI SİSTEMİNDƏ VƏKİLLİK İNSTİTUTUNUN YERİ

*Məqalədə vəkillik institutunun müasir hüquqda beynəlxalq və məhkəmə praktikasında yeri məsələsi araşdırılır, peşəkar hüquqi yardım hüququnun hüquqi təminat kimi təhliliaparılır, vəkillik fəaliyyətinin ən əsas xidmət sahələrindən biri kimi nümayəndəlik fəaliyyəti araşdırılır, peşəkar hüquqi yardım hüququnun müxtəlif aspektləri qiymətləndirilir, vəkillərin peşəkar hüquqi yardım hüququnu qorumaq və onun cəmiyyətdə ədalətin əsas sütunu olaraq qalmasını təmin etmək üçün nəzərdə tutulmuş təminatlar sistemində əhəmiyyətli və vacib rola malik olmaqla mühüm funksiyaları yerinə yetirdiyi, nəhayət, vəkillərin insan hüquqlarını müdafiə etdiklərinə görə beynəlxalq cəmiyyyətin və dövlətin maraqlarına birbaşa xidmət etdiyi vurğulanır.*

***Açar sözlər:*** *normativ akt, beynəlxalq praktika, hüquqi yardım almaq hüququ,  vəkil, vəkillik peşəsi.*

Peşəkar hüquqi yardım hüququnun təmin edilməsinin yalnız bir təminat mexanizmi ilə əlaqələndirilməsi düzgün hesab olunmamalıdır. Belə ki, təminat mexanizmləri özü özlüyündə təsir dairəsi və dərəcəsinə görə də fərqlənirlər. Odur ki, praktikaya və statistikaya nəzər salaraq müəyyən etmək olar ki, vəkillik institutu ən geniş müraciət edilən və yayılan peşəkar hüquqi yardım hüququnun təminatı kimi mühüm və tarixi bir rola sahibdir. Bunun səbəbi isə birbaşa olaraq peşəkar hüquqi yardım xidmətləri göstərən şəxslərin əksər ölkələrin praktikasında vəkillərin olması ilə əlaqələndirilir.

Peşəkar hüquqi yardım hüququnun ən əsas və geniş yayılan, habelə diqqət göstərilən təminatının vəkillik olmasının bir sıra mühüm səbəbləri vardır. Əvvəla, peşəkar hüquqi yardım ixtisaslaşmış şəxslər tərəfindən hüquqi yardım xidmətlərinin göstərilməsini özündə ehtiva edir. Yəni peşəsi hüquqi xidmətlərin göstərilməsinə imkan verən şəxslər tərəfindən keyfiyyətli hüquq xidmətlərinin göstərilməsi peşəkar hüquqi yardım hüququnun təmin olunması kimi qiymətləndirilə bilər. Bu mövqedən peşəkarlıq məsələsinə də aydınlıq gətirilməlidir.

Aparılmış araşdırmaların birinə əsasən, qeyd etmək olar ki, müəyyən istiqamət üzrə ixtisasa yiyələnmiş şəxs tərəfindən hansısa xidmətlərin göstərilməsi və işlərin görülməsi peşəkarlıq anlayışı ilə uyğun gəlir. Habelə peşəkar mütəxəssisin öz ixtisası üzrə normal fəaliyyəti onun sosial varlıq kimi öz hüquq və vəzifələrinin icrası ilə də şərtləndirilir [12, s. 139-144]. Bu istiqamətdə vəkillik institutunun peşəkar hüquqi yardım insitutunda xüsusi yerini izah etmək mümkündür. Belə ki, bir çox ölkələrdə peşəkar hüquqşünaslar müəyyən təcrübə əldə etdikdən və biliklərin yoxlanılması prosesini uğurla tamamladıqdan sonra vəkil statusu qazana bilirlər. Bu da peşəkar hüquqi yardımın göstərilməsində peşəkarlıq indeksi baxımından vəkillərin fəaliyyətinin əhəmiyyətini daha da qabardır.

Vəkillik institutunun peşəkar hüquqi yardım hüququnun təminatı kimi təhlilini aparmamışdan əvvəl onun peşəkar hüquqi yardım kontekstində əhəmiyyəti və yeri barədə danışmaq düzgün olardı. Bu üsulla həm bu təminat xüsusiyyətlərini aydınlaşdırmaq mümkün olar, həm də təminat mexanizmi kimi daha dəqiq təhlil etmək olar.

Ədəbiyyatda vəkillik institutunun peşəkar hüquqi yardım və ədalətli məhkəmə araşdırması hüququ kontekstində təhlilinin aparıldığı araşdırmaların birində haqlı olaraq qeyd edilmişdir ki, vətəndaşların hüquqlarının təmin və müdafiə edilməsi, bərpası məqsədi ilə ədalətli və səmərəli ədalət mühakiməsinə nail olunması prosesində vəkillik fəaliyyəti mərkəzi yerə sahibdir [4, s. 180-183]. Bu həqiqətən də olduqca düzgün yanaşmadır. Çünki hələ qədim dövrlərdən bəri vəkillər ədalətin bərpa olunması, həmçinin şəxslərin məhkəmə qarşısında əsas müdafiəçiləri kimi ən zəruri peşə sahibləri kimi tanınmışlar. Tarixən vəkillik fəaliyyəti böyük nüfuz mənbəyi olmaqla bərabər ədalət mühakiməsinin düzgün və qərəzsiz aparılmasının da əsas qüvvəsi kimi bir rola sahib olmuşdur.

Aydın olduğu kimi, peşəkar hüquqi yardım hüququ ədalət mühakiməsinin əsas sütunudur. Məhz bu hüquqla bütün şəxslər sosial-iqtisadi vəziyyətindən asılı olmayaraq hüquqi xidmətlər almaq

imkanları əldə edirlər. Bu kontekstdə bir qayda olaraq peşəkar hüquqşünaslar hüquqi təmsilçilik və hüquqi məsləhətləşmədə əsas mexanizmlər kimi adətən vəkillər tərəfindən təmin edilir. Beynəlxalq və milli hüquqi çərçivələrdə təsbit edilən peşəkar hüquqi yardım hüququ hər bir şəxsin keyfiyyətli və ixtisaslı hüquqi yardıma çıxışının təmin edilməsi prinsipini təcəssüm etdirir. Bu hüquq müxtəlif hüquqi kontekstlərə, o cümlədən mülki, cinayət və inzibati proseslərə şamil edilir. O, təkcə məhkəmədə hüquqi təmsilçiliyi deyil, həm də hüquqi məsləhətləşmə, hüquqi müdafiə vasitələrinin seçilməsi və prosesin bütün mərhələlərində göstəriləcək hüquqi xidmətlərlə əlaqədar yardımı əhatə edir. Qeyd olunanlara əsasən, hesab edirik ki, bu hüququn əsasında, yəni peşəkar hüquqi yardıma çıxışın təmin edilməsində vəkillik mühüm rola sahib bir institut kimi nəzərə çarpır. Vəkillik və peşəkar hüquqi yardım hüququ arasında qarşılıqlı və ayrılmaz olan bu bağlılıq vəkillik institutunun bir təminat kimi peşəkar hüquqi yardım hüququnun təmin edilməsində mahiyyətini daha da qabardır. Ədəbiyyatda haqlı olaraq qeyd edilir ki, peşəkar hüquqi yardım hüququ çərçivəsində müvafiq hüquqi müdafiə funksiyası vəkillərin öhdəliyidir və bu daim vəkillik fəaliyyətinin funksiyalarından biri kimi qiymətləndirilməlidir [15, s. 34]. Bir sözlə, vəkillər peşəkar hüquqi yardım hüququnun təmin olunmasında əsas subyektlər kimi fəaliyyət göstərməklə yanaşı, bu vacib hüququn əsas təminatçısı kimi də çıxış edirlər.

Əslində ədəbiyyatda vəkillik fəaliyyətinin peşəkar hüquqi yardım hüququnun təmin olunmasına mənfi təsiri barədə praktiki tədqiqatlar da az deyildir. Belə araşdırmaların birində qeyd olunmuşdur ki, vəkillərin peşəkar hüquqi yardım hüququnun təmin edilməsi kontekstində hüquqi xidmətlər göstərməsi bir çox hallarda az maddi qazanc verdiyindən, habelə vəkil və hüquqi yardım göstərilən şəxs, digər subyektlər arasında müxtəlif səbəblərdən kommunikasiya problemi və bəzi hallarda vicdanlı olmayan fəaliyyətin həyata keçirilməsi peşəkar hüquqi yardım hüququnun təmin edilməsi istiqamətində öz mənfi təsirlərini göstərir [8, s. 3-5]. Qeyd olunan mövqe ilə tam da razılaşmaq doğru olmazdı. Çünki vəkillik fəaliyyəti ilə əlaqədar olan müəyyən çatışmazlıq və neqativ halların mövcudluğu heç də bunu bütün vəkillərin fəaliyyəti kimi ümumi qiymətləndirməyə icazə vermir. Vəkillik fəaliyyəti kontekstində belə neqativ hallarla müxtəlif üsullarla mübarizə aparmaq mümkündür ki, hazırda da bu istiqamətdə mühüm addımlar atılmaqdadır. Bu istiqamətdə qeyd edilməldir ki, belə üsullara vəkillərin etik davranışlarını tənzimləyən qaydaların və ya kodeksin qəbul edilməsi, belə fəaliyyətə ictimai nəzarət mexanizmlərinin formalaşdırılması və s. aid edilməklə, son nəticədə vəkillik insititutunun tətbiqi ilə əlaqədar neqativ halların minimuma endirilməsinə gətirib çıxarır.

Bu istiqamətdə ədəbiyyatda olan araşdırmaların birində vəkillik fəaliyyəti ədalət mühakiməsi fəaliyyətinin əsas istiqamətverici institutu kimi qəbul edilərək, bu fəaliyyətin rolu xüsusi fərqləndirilir. Həmin araşdırmada qeyd edilir ki, ədalətin bərqərar olması, habelə vəkilin hüquqlarının müdafiəsini həyata keçirdiyi şəxsin hüquqlarının təmin edilməsi üçün vəkillik fəaliyyəti mərkəzi rol oynayır. Bununla da vəkil ədalət mühakiməsini həyata keçirən orqana yardım edən peşəkar kimi fəaliyyət göstərməklə yanaşı, etik davranış qaydalarına əməl etməklə müvəkkilinin ən səmərəli şəkildə hüquqlarının müdafiəsini də həyata keçirir [6, s.266-268]. Qeyd olunan mövqe ilə tam razılaşaraq qeyd olunmalıdır ki, peşəkar hüquqi yardım göstərən zaman vəkil qanunun və etik davranış qaydalarının da mühafizə olunmasına diqqət yetirilməlidir. Peşəkar hüquqi yardım kontekstində göstərdiyi fəaliyyətdə qanuni və hüquqazidd olmayan hüquq müdafiə vasitələri və üsullarından istifadə etməlidir. Qanunu pozmaqla həyata keçirilən fəaliyyətlə göstərilən hüquqi xidmət peşəkar hüquqi yardım hüququnun təmin olunmasına əksinə mənfi təsir göstərir, habelə peşəkar hüquqi yardım göstərilən şəxsin vəziyyətini ağırlaşdıra bilər.

Qeyd olunan təhlilləri nəzərə alaraq, əksər hallarda vəkillər tərəfindən həyata keçirilən fəaliyyət kimi qbəul edilən vəkillik peşəkar hüquqi yardım hüququnun dayandığı təməldir. Ədəbiyyatda qeyd edilir ki, bəzi hallarda yaranan ictimai mövqe ondan ibarət olur ki, cinayət törətməkdə təqsirləndirilən şəxsə peşəkar hüquqi yardım göstərilməsi ilə üçüncü şəxslərin (əsasən zərərçəkənlərin) hüquq və azadlıqları mənfi təsirə məruz qalır. Bu isə öz növbəsində cinayət törətmiş şəxslərə kömək etməklə onların törətdiyi ictimai təhlükəli əmələ ekvivalent olmayan cəza alması, bəzən isə ümumiyyətlə cəza almaması ilə nəticələnir. Belə olan halda isə cəmiyyətdə hüquqa və qanunun aliliyinə inam azalır, ədalətli məhkəmə araşdırması hüququ pozulur. Bu yanaşma ilə razılaşmaq doğru olmazdı. Habelə bu barədə konstitusiya icraatı aparan məhkəmə orqanının formalaşdırdığı mövqeyi haqlı hesab edərək

göstərilməlidir ki, şəxsin peşəkar hüquqi yardım almaq hüququ çərçivəsində müdafiəçi ilə təmin olunması, digər subyektlərin hüquq və azadlıqlarına təsir etməməklə, əksinə səmərəli hüquq müdafiə vasitələrinin tətbiqinə yol açır. Bu yolla təqsirsizliyi qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə təsdiqlənənədək təqsirsiz hesab olunan şəxsin səlahiyyətli dövlət orqanının əməkdaşı tərəfindən hüquq və azadlıqlarının müdafə və təmin olunması həyata keçirilir. Qeyd edə bilərik ki, ədalətli məhkəmə araşdırması hüququnda mühüm rola malik olan peşəkar hüquqi yardım hüququnun əsas sütunu kimi də vəkillik qəbul edilə bilər (bax. Şəkil 2.).




Şəkil 2.

Vəkillər bu hüququn qorunmasına cavabdeh olan əsas səlahiyyət sahibi olan peşə sahibləri kimi qiymətləndirilir. Odur ki, haqlı olaraq ədəbiyyatda qeyd edilmişdir ki, yüksək keyfiyyətli peşəkar hüquqi yardımın həyata keçirilməsinin təmin edilməsinin ən səmərəli üsulu qanunvericilikdə mülki, cinayət və inzibati işlər üzrə məhkəmə icraatında təmsilçilik səlahiyyətlərinin yalnız ixtisaslı hüquqşünaslar olan vəkillər tərəfindən həyata keçirilməsinin müəyyən edilməsidir [14, s. 51-56]. Bu istiqamətdə bir çox ölkələrin qanunvericiliklərində müvafiq dəyişikliklər də edilmişdir. Azərbaycan Respublikası da bu dəyişiklikləri qəbul etmiş ölkələrdəndir. Belə ki, son dövrlərdə prosessual qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən, nümayəndəlik institutuna dəyişiklik edilmiş, qanunla müəyyən olunmuş hallardan başqa şəxsləri məhkəmədə vəkillərin təmsil etməsinə dair norma prosessual qanunvericiliyə əlavə edilmişdir. Bununla da vəkillik fəaliyyətinin həyata keçirilməsi dairəsi daha da genişlənmişdir.

Qeyd edilənlər vəkillərin çoxşaxəli fəaliyyəti ilə də əlaqəlidir. Çünki, vəkillik fəaliyyəti hüququn bütün sahələrində hüquqi yardıma ehtiyacı olan şəxslərə peşəkar hüquqi xidmətlərin göstərilməsini özündə ehtiva edir. Peşəkar hüquqi yardım hüququnun təminatı kimi də bu fəaliyyət praktikada müxtəlif proseslərdən, müxtəlif hüquqi xidmətlərin göstərilməsi ilə özünü büruzə verir. Belə hüquqi xidmətlərə təmsilçilik, hüquqi məsləhətləşmələrin aparılması, danışıqlar üsulu ilə mübahisələrin həlli üçün vasitəçilik, hüquqi xidmət göstərilən şəxsin işi ilə bağlı hüquqi tədqiqat və araşdırma aparılması, habelə sübut toplama fəaliyyəti və s. aid edilə bilər.

Ədəbiyyatda peşəkar hüquqi yardımın normativ aspektinin araşdırılmasına həsr olunmuş təhlillərin birində qeyd olunur ki, peşəkar hüquqi yardım və ədalətli məhkəmə araşdırması hüququnun təminatı perspekivindən hüquqi nümayəndəlik fəaliyyəti əsas yerə sahibdir [3, s. 210-216 ]. Praktikaya nəzər salaraq qeyd olunan fikri təsdiqləmək mümkündür. Çünki, şəxsin peşəkar hüquqi yardım olmasına əsas olan hallardan ən vacibi məhz onun məhkəmə və səlahiyyətli dövlət orqanları (qurumları) qarşısında təmsil olunması ilə bağlıdır. Bu istiqamətdən vəkillər cinayət işlərində, mülki

mübahisələrdə və ya inzibati dinləmələrdə öz müştəriləri üçün nümayəndə kimi çıxış edirlər, hüquqi xidmətlər göstərirlər. Onlar şəxslərə hüquq qaydaları, qanunvericiliik normaları, prosessual və prosedur qaydalar qarşısında rastlaşa biləcəkləri çətinliklərlə mübarizə aparmaları üçün dəstək olur, hüquqi xidmət göstərilməsinin əsas təminatçısı kimi çıxış edirlər. Xüsusən də məhkəmə və istintaq prosesi zamanı işin hallarının düzgün şəkildə peşəkarçasına təqdim edilməsi, şahidlərin, ekspert və ya mütəxəssis, habelə digər proses iştirakçılarının dindirilməsi prosesində iştirak, irəli sürülən dəlil və mülahizələrə hüquqi arqumentlər gətirilməsi, cavab verilməsi, qanunvericiliklə müəyyən edilmiş prosessual hüquq və vəzifələrin təmin olunması ilə müvafiq hüquqi müdafiə vasitələrinin seçilməsi və tətbiqi həyata keçirilir. Beləliklə, vəkillərin bilik və təcrübəsi ədalətli məhkəmə araşdırmasının aparılmasında, ədalətin bərqərar olması və həqiqətin müəyyən edilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edir.

Bu kontekstdə ümumi nümayəndəlik xidməti çərçivəsində müdafiəçinin nümayəndəliyi xüsusilə fərqləndirilən bir institut kimi dəyərləndirilir. Ədəbiyyatda haqlı olaraq qeyd edilir ki, ittiham tərəfinin hərəkətlərini təhlil edərək qanunsuzluqlar müəyyən edən və bununla bağlı müvafiq hüquqi proseduru aparan vəkillərin müdafiəçi kimi peşəkar nümayəndəlik fəaliyyəti göstərməsi ilə ədalət mühakiməsinin düzgün və qərəzsiz aparılması ilə yanaşı, cəmiyyətdə hüququn aliliyi və bununla bağlı digər standartların yüksəlməsinə nail olunur [11]. Bu səbəbdəndir ki, vəkillik fəaliyyətinin ən əsas xidmət sahələrindən də biri nümayəndəlik fəaliyyətinin təşkilidir. Müdafiəçi kimi nümayəndəlik faəliyyətində bir sıra digər aspektlər də nəzərə çarpır. Bu zaman şəxsin təqsirsiz olması hallarının araşdırılmasından başqa, onun hüquqlarının və azadlıqlarının məhdudlaşdırılması ilə bağlı məsələlərə də diqqət yetirilməlidir.

Peşəkar hüquqi yardım hüququnun əsas təminatı qismində nəzərə alınan vəkillik fəaliyyəti çərçivəsində həyata keçirilən əsas hüquqi xidmətlər sırasına məsləhət xidmətləri də daxildir. Təmsilçilikdən əlavə olaraq, vəkillər tərəfindən peşəkar hüquqi yardım hüququnun təmin edilməsi məqsədi ilə əvəzsiz hüquqi məsləhət verilməsi ən geniş yayılmış hüquqi təminat üsullarından biri kimi qəbul edilə bilər. Haqlı olaraq ədəbiyyatda qeyd edilir ki, məhkəmədə təmsilçiliklə peşəkar hüquqi yardım hüququnun təmin edilməsi mümkün deyildir. Peşəkar hüquqi yardımın təmin edilməsi üçün təmsilçilikdən kənar başqa fəaliyyətlərlə hüquqi xidmətlər göstərilməlidir [9, s.78-79]. Bu özü-özlüyündə peşəkar hüquqi yardım hüququnun təmin edilməsi üçün vəkillik fəaliyyəti üzrə xidmətlərin geniş aspektdə göstərilməsini bir daha zəruri edir.

Bu istiqamətdə aparılan tədqiqatda göstərilmişdir ki, şəxslərə hüquqi məsləhət xidmətlərinin göstərilməsi onların hüquqi prosedurları düzgün həyata keçirməyə, hüquqi məsələlərlə bağlı düzgün qərarlar qəbul etməyə, habelə mövcud vəziyyəti və işin hallarını düzgün dərk edərək səmərəli hüquqi müdafiə vasitələri seçməyə imkan verir [5, s. 11 ]. Qeyd olunan mövqeyi tam şəkildə qəbul edərək qeyd etmək olar ki, peşəkar hüquqi yardım hüququnun təmin edilməsi kontekstində hüquqi məsləhətləşmələrin aparılması vətəndaşların hüquq normaları və işin praktiki həlli ilə əlaqədar daha məlumatlı olmaları, hüquq və azadlıqlarının təmin edilməsinə daha səmərəli üsulla nail olmalarına səbəb olur. Onlar fərdlərə öz hüquqlarını, vəzifələrini və potensial hüquqi nəticələrini anlamağa kömək edir. Bu kimi təlimatlar bir qayda olaraq məlumatlı qərar qəbul etmək üçün olduqca vacibdir.

Əvvəlki fəsildə qeyd edildiyi kimi peşəkar hüquqi yardım hüququnun təmin edilməsi təminatlarından biri kimi də mübahisələrin alternativ yolla həlli çıxış edir. Doğrudur, məhkəmədənkənar həll üçün xüsusi hüquqi institutlar mövcuddur. Belə təminat institutlarına mediasiya, arbitraj və bu kimi digər alternativ həll mexanizmləri göstərilə bilər. Lakin o da qeyd edilməlidir ki, vəkillik fəaliyyəti ilə əlaqədar təklif edilən xidmətlərdən biri də vəkillər tərəfindən təşkil edilən danışıqlar və vasitəçilik peşəkar hüquqi yardım hüququnun təmin edilməsi üçün bəzi hallarda xüsusi və əvəzsiz rola malik mexanizm kimi çıxış edir. Doğrusu budur ki, vəkillər tərəfindən həyata keçirilən vasitəçilik praktikada peşəkar hüquqi yardım kontektində tətbiq edilən əsas mexanizmlərdən biri kimi nəzərə çarpmır. Bunun isə obyektiv səbəbləri maliyyə və maddi maraq məsələləri ilə bağlıdır. Çünki vasitəçiliyin həyata keçirilməsi özü-özlüyündə maliyyə vəsaitləri tələb edir. Ədəbiyyatda rast gəlinən araşdırmaların birində haqlı olaraq qeyd edilmişdir ki, vəkil tərəfindən vasitəçilik həyata keçirilməsi zamanı burada xüsusi bir hal meydana çıxır. Vasitəçilik fəaliyyəti göstərən vəkil bir qayda olaraq qərəzsiz və tərəfsiz şəkildə işin halları barədə obyektiv məlumat

verməyə borcludur. Bir sözlə, vasitəçi rolunu həyata keçirən vəkil qərəzsiz tərəf tutmayan hüquq məsləhətçisi kimi müvafiq izahları verərək mübahisələrin həllini tapmağa çalışmalıdır [7, s. 35] Beləliklə, vəkillər mübahisələri məhkəmə zalından kənarda həll etmək üçün danışıqlar və vasitəçiliklə məşğul ola bilərlər. Bunun praktiki əhəmiyyəti də odur ki, belə fəaliyyət bir çox hallarda müsbət təsirini göstərir. Bu üsul həm vəkillərin, həm də peşəkar hüquqi yardım alan şəxslərin vaxta və enerjiyə qənaət etmələrinə səbəb olur. Vəkillərin təcrübəsi, hüquqi bilikləri, səriştəsi və danışıq bacarıqları çox vaxt peşəkar hüquqi yardım almaq hüququndan istifadə edən şəxslərə öz müsbət təsirini göstərir ki, bu da müvafiq nəticələrdə öz ifadəsini tapır.

Daha sonra təhlillərdə qeyd edilir ki, vəkillik fəaliyyət peşəkar hüquqi yardım hüququnun təmin olunmasında əsas yeri tutan bir mexanizm olsa da, göstərilən hüquqi xidmətlər şəxsin yalnız müəyyən hüquq normaları və müdafiəsi ilə bağlı hüquqi xidmətlərin göstərilməsi ilə bağlı hərəkətlərdən ibarət olmamalıdır. Habelə vəkillər cinayət törətmiş şəxslərin sosial reablitasiyasına da dəstək göstərməklə bu prosesi sürətləndirməlidirlər [13, s. 503]. Qeyd olunan fikri düzgün qəbul edərək hesab edirik ki, vəkillər öz hüquqi xidmətlərini göstərərkən sosial əhəmiyyətli məsələləri də diqqət mərkəzində saxlamalıdırlar. Bu zaman cinayət törətmiş şəxsə əməlinin ictimai təhlükəliliyi, baş verəcək nəticələr, prosesin şərhi vəkil tərəfdən verildikdə bunun daha yaxşı dərk edilməsi danılmaz faktdır. Bununla vəkil hüquqi yardım göstərdiyi şəxsi düşünməyə sövq etməklə reablitasiyasına müsbət töhfə verir və onun vətəndaş kimi cəmiyyətdə rolunu daha da artırır. Bir sözlə, hüququnun əsas məqsədlərinə nail olmaq üçün səmərəli fəaliyyət göstərir. Yuxarıdakılara əsasən, qeyd edə bilərik ki, əslində, vəkillər hüquqi problemləri həll edənlər, məsləhətçilər və ədalət müdafiəçiləridir. Onların peşəkar funksiyaları peşəkar hüquqi yardım institutunun əhəmiyyət və zərurətinin əyani göstəricisi kimi qəbul olunmalıdır. Vəkillik fəaliyyəti olduqca maddi gəlirləri yüksək olan xidmətləri özündə ehtiva etdiyindən dövlət tərəfindən əvəzi ödənilən xidmət haqlarının tarifinin həmin xidmətlərin real bazar qiymətinə uyğun olaraq müəyyən edilməsi peşəkar hüquqi yardım hüququnun təmin edilməsinə öz müsbət töhvəsini verəcək, bununla belə vəkillik institutunun da inkişafına səbəb olacaqdır.

Qeyd olunduğu kimi vəkillik fəaliyyəti kontekstində hüquqi xidmətlərin haqqlarının yuxarı məbləğlərdə olmasını nəzərə alaraq, peşəkar hüquqi yardıma ehtiyacı olanlar üçün vəkillik xidmətlərinin göstərilməsi və vəkil tərəfindən peşəkar hüquqi xidmətlərin, hüquqi yardımın göstərilməsini əlçatan etmir. Buna görə də, peşəkar hüquqi yardım almaq hüququnun təminatı kimi vəkilliyin səmərəliliyinin hərtərəfli hüquqi çərçivələrlə möhkəmləndirilməsi olduqca zəruridir. Vəkillik insitutunun düzgün şəkildə tənzimlənməsinin həyata keçirilməsi və onun normativ baza cəhətdən möhkəmləndirilməsi həm ədalətli məhkəmə araşdırması hüququna, həm də peşəkar hüquqi yardım hüququnun təmin edilməsinə, habelə ümumilikdə əsas insan hüquq və azadlıqlarının, sivil və demokratik ölkələrə xas əsas dəyər və hüquqi prinsiplərin təmin olunmasına öz müsbət töhfəsini verəcəkdir. Bu normativ bazanın və çərçivələrin formalaşdırılması vəkillərin fəaliyyətinin tənzimlənməsi baxımından da olduqca xüsusi əhəmiyyəti ilə seçilir. Vəkillərin öz fəaliyyətlərində peşəkarlıqlarının təmin edilməsi ilə peşəkar hüquqi yardım hüququnun da təmin edilməsinə müsbət töhfə verilmiş olur. “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dövlət hesabına göstərilən hüquqi xidmətlərə görə vəkillərə ödəniləcək məbləğin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilməsi barədə norma təsbit edilmişdir [1]. Bu barədə qeyd edilməlidir ki, tətbiq edilən tariflər və haqqların miqdarının müasir dövrün tələblərinə uyğunlaşdırılması zərurəti vardır. Nəzərə alsaq ki, vəkillik fəaliyyəti nəticəsində ixtisaslı hüquqşünaslar müvafiq gəlir əldə edirlər, onda bu tariflərin ümumi bazar qiymətlərinə münasibətdə müəyyən olunması daha məqsədəmüvafiq olardı.

Bununla əlaqədar da qeyd edilməlidir ki, bir çox mühüm beynəlxalq normativ sənədlərdə də vəkillik fəaliyyəti əsas insan hüquq və azadlıqlarının təminat mexanizmi kimi özünü büruzə verir. Belə ki, beynəlxalq insan hüquqları sənədlərində ədalət mühakiməsinə çıxışın və hüquqi yardım hüququnun vacibliyi vurğulanır, həmin hüquqların təmin edilməsi kimi ödənişsiz hüquqi yardımın göstərilməsi əsas şərt kimi qəbul edilir. Həmin sənədlərdə olan müvafiq normalar isə adətən müdafiəçiyə ehtiyacı olan və maddi imkanı olmayan şəxslərin ödənişsiz müdafiəçi ilə də təmin olunması kimi təfsir olunur. Bir çox ölkələrin qanunvericiliyinə əsasən, o cümlədən Azərbaycan Respublikasında müdafiəçi kimi

yalnız vəkillər fəaliyyət göstərə bilir. Bu da öz növbəsində vəkillərin peşəkar hüquqi yardım hüququnun təmin olunmasında rolunu daha da gücləndirir.

Vəkillik fəaliyyətinin tənzimlənməsi barədə isə onu qeyd edə bilərik ki, vəkillik fəaliyyəti peşəkar etika və standartlar çərçivəsində həyata keçirilir. Tez-tez Vəkillər Kollegiyaları və ya hüquqi peşəkar təşkilatlar tərəfindən hazırlanmış bu kodekslər səriştə, məxfilik və sədaqət vəzifələri də daxil olmaqla, etik davranışı tələb edir. Onlar müştərilərini təmsil edərkən vəkillərin ən yüksək etik standartlara riayət etmələrini təmin edirlər. Bu yolla isə peşəkar hüquqi yardım hüququnun təmin edilməsinə daha tez nail olmaq olar.

Avropa İnsan Hüquqları Məhkəməsinin peşəkar hüquqi yardım hüququnun göstərilməsi ilə əlaqədar məsələlərə dair hüquqi mövqeyinin formalaşdırdığı qərarlarından birində peşəkar hüquqi yardım institunun təmin edilməsi üçün vəkillik fəaliyyəti əsas mexanizm kimi nəzərdən keçirilmiş, bununla belə əsas insan hüquq və azadlıqlarının təmin edilməsi baxımından vəkillik institutunun müstəqilliyinə xələl gətirilmədən göstərilən hüquqi yardımın səmərəli olması təmin edilməlidir [2, s. 15].

Ölkəmizdə hüquq subyektlərinin məhkəmə icraatı, habelə cinayət prosesinin bütün mərhələrində hüquq və azadlıqların, habelə qanunla qorunan mənafelərinin təmini və müdafiəsi məqsədi ilə müstəqil olaraq seçilən vəkilə müraciət edilməsi, azadlıq hüquqlarının məhdudlaşdırıldığı və cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüquqlarının təmin olunmasının və başqa məsələlər üzrə hüquqi yardım göstərən vəkillərin fəaliyyətinin tənzimlənməsi məqsədi ilə qəbul edilmiş, yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsi üzrə vəkillik fəaliyyətinin əsas prinsiplərini, vəkillərin hüquqi statusunu və onların özünüidarəsinin əsaslarını müəyyən edən "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu peşəkar hüquqi yardım institutunun tətbiqində vəkillərin fəaliyyətinin zəruriliyini təsbit etməklə, bu sferada yaranan hüquq münasibətlərini tənzimləyir [1]. Həmin Qanunun 4-cü maddəsinin 3-cü hissəsində vəkillərin iştirak etdiyi əsas münasibətlər kateqoriyası sadalanır. Burada qeyd olunur ki, vəkillər fiziki və hüquqi şəxslərə lazımi hüquqi yardım göstərilməsində və digər növ məsələlər iştirak edirlər.

Peşəkar hüquqi yardım institutunun tətbiqi ilə bağlı vəkillik fəaliyyətini mərkəzi mövqeyə gətirən əsas normalardan biri həmin Qanunun 20-ci maddəsində müəyyən olunmuşdur. Belə ki, həmin maddənin tələblərinə əsasən vəkil tərəfindən həyata keçirilən hüquqi xidmətlərə görə haqqı ödəmək üçün kifayət edəcək maddi imkanı olmayan şəxslərin əvəzinə haqqın ödənilməsi üzrə dövlət təminatı müəyyən edilmişdir. Burada əsas etibarı ilə aşağıdakı hüquq münasibətlərində həyata keçirilən hüquqi xidmətlərə görə haqqın ödənilməsinə dövlət təminatı mövcuddur. Hüquqi xidmətlər ya cinayət işləri üzrə şübhəli və ya təqsirləndirilən şəxslərə, inzibati qaydada tutulmuş şəxslərə göstərilməli və ya ümumiyyətlə məhkəmədə hüquqi yardım göstərilməsi zərurəti olmalıdır. Habelə həmin norma ilə növbətçi vəkilin dövlət hesabına hüquqi xidmətlərin göstərilməsindən imtina etməsinin yolverilməzliyinə dair imperativ qayda müəyyən edilmişdir. Bu özü özlüyündə peşəkar hüquqi yardım hüququnun təmin edilməsinə öz müsbət töhfəsini verir.

Bir sözlə, ədalət mühakiməsinə çıxış istənilən ədalətli və demokratik dövlətin hüquq sisteminin əsas prinsipidir. Vəkillik fəaliyyəti isə bu nöqteyi-nəzərdən ön plandadır.

Peşəkar hüquqi yardım institutunun tətbiqinə öz müsbət töhfəsini verə biləcək normalardan biri də Avropa Vəkillər Kollegiyaları və Hüquq Birlikləri Şurası tərəfindən qəbul olunmuş "Avropa vəkillərinin davranış Kodeksi"ndə təsbit olunmuşdur. Həmin Kodeksin 3.7-ci maddəsində hüquqi yardım alan şəxslərin tam şəkildə məlumatlandırılması vəkillərin əsas vəzifələrindən biri kimi təsbit olunmuşdur. Belə ki, müxtəlif ölkələr üzrə hüquqi yardım göstərilməsi şərtləri və xüsusiyyətlərinin fərqli ola biləcəyini nəzərə alaraq hüquqi yardım göstərilməsi barədə tam və geniş şəkildə ətraflı məlumat hüquqi xidmətlərdən yararlanan şəxsə ötürülməlidir [10]. Əslində, qeyd olunan norma peşəkar hüquqi yardım institunda vəkillik institutunun əhəmiyyətini göstərməklə, praktika meydana gələn bir çox əsas problemlərin həlli üçün şərait yaradır. Belə ki, hüquqi yardım xidmətləri barədə qabaqcadan ətraflı və geniş məsləhətləşmə aparılması, hüquqi yardım alan şəxsə müvafiq izahatla birlikdə məlumat verilməsi gələcək hüquqi gözləntilərin formalaşması, göstərilən hüquqi yardımın səmərəliliyinə təsir göstərən əsas hərəkətlərdən biri kimi çıxış edir.

Beləliklə, vəkillər fərdlərin, xüsusən də təcrid olunmuş və ya həssas əhalinin peşəkar hüquqi yardıma çıxışının təmin edilməsində mühüm rol oynayırlar. Onlar hüquqi ekspertiza ilə ehtiyacı olanlar arasında

körpü yaradır və bununla da qanun qarşısında bərabərliyi təşviq edirlər. Vəkillik insan hüquqlarının müdafiəsi ilə mahiyyətcə sıx bağlıdır. Vəkillər birbaşa olaraq insan hüquqlarını müdafiə edir, hüquq pozuntularının aradan qaldırılması üçün hüquqi vasitələr təqdim edir və hüquq sistemindəki ədalətsizliklərə etiraz edirlər. Onlar çox vaxt hüquq pozuntularına qarşı son müdafiə xətti kimi çıxış edir. Vəkillər məhkəmə prosesinin ədalətli, şəffaf və hüquqi standartlara riayət olunmasını təmin etməklə qanunun aliliyinin təmin edilməsində mühüm rol oynayırlar. Demokratik cəmiyyətlərdə vəkillik hüquq sisteminin əlçatan və hesabatlı olmasını təmin edilir. Vəkillər hökumətlərin, qurumların və fərdlərin öz hərəkətlərinə görə cavabdehliyini tələb edir və bununla da şəffaflıq və hesabatlılığın demokratik prinsiplərini qoruyurlar. Vəkillik sadəcə bir peşə kimi deyil, ədaləti və qanunun aliliyini qorumağa həsr olunmuş bir institut kimi nəzərə alınmalıdır. Vəkillik institutu peşəkar hüquqi yardım hüququnun təməl daşı hesab edilməlidir. Müxtəlif rolları və etik standartlara sarsılmaz sadiqliyi ilə vəkillər fərdlərin ədalətə çıxış əldə etmələrini, hüquqlarını müdafiə etmələrini və hüquq sistemində inamla hərəkət etmələrini təmin edirlər. Beləliklə, vəkillik peşəkar hüquqi yardım hüququnu qorumaq və onun cəmiyyətdə ədalətin əsas sütunu olaraq qalmasını təmin etmək üçün nəzərdə tutulmuş təminatlar sistemində əhəmiyyətli və vacib rola malik olmaqla mühüm funksiyalar yerinə yetirir, nəhayət, insan hüquqlarını müdafiə etdiklərinə görə beynəlxalq cəmiyyyətin və dövlətin maraqlarına birbaşa xidmət edirlər.

## İstinadlar:

1. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasinin Qanunu. https://e-qanun.az/framework/257 10.10.2023

2. Decision of European Court of Human Rigts on case of Daud v. Portugal (11/1997/795/997), 21.04.1998. 17 p.

3. Flynn A., Hodgson J., Mcculloch J., Naylor B. Legal Aid And Access To Legal Representation: Redefining The Right To A Fair Tria, Melbourne University Law Review, Vol 40, 2016, p. 207-239.

4. Lubis A. P. Advocate in Law Enforcement at the Medan Branch of the Indonesian Advocates Association Organization, Journal of Government and Social Politics, Vol. 4 No. 1, 2016, pp. 176-192.

5. Manifesto for Legal Aid, Legal Aid Practitioners Group, 2017 , 52 p.

6. Nuna, M., Kodai, D., Moonti, R.. Code of Ethics and the Role of Advocates in Providing Legal Aid to the Poor. Indonesian Journal of Advocacy and Legal Services, 2020, p. 259-274.

7. Riskin, L. Mediation and Lawyers. Ohio State Law Journal. 43, 1982, p. 29-60.

8. Sari D. Legal Assistance by Advocate to Defendant who cannot Afford in Purwokerto, SHS Web of Conferences 54, ICoL GaS 2018, 6 p.

9. Steinberg R, Beyond Lawyering: How Holistic Representation Makes for Good Policy, Better Lawyers, and More Satisfied Clients, Making Legal Aid a Reality A Resource Book for Policy Makers and Civil Society, Public Interest Law Institute, 2009, 285 p.

10. The Code of Conduct for European Lawyers, issued by the Council of Bars and Law Societies of Europe 28.10.1988. https://www.ccbe.eu/ fileadmin/speciality distribution/public/documents/DEONTOLOGY/DEON_CoC/EN_DEONTO_2021_Model_Code.pdf 10.10.2023

11. The Right to Effective Representation in Criminal Proceedings and the Ex Officio Appointment System, Organization for Security and Co-operation in Europe Mission in Kosovo (OSCE), August 2020

12. Ujan A. A. Profession as a social role, Philosophical and Theological Studies, Vol. 7 No. 2, 2007, p. 138-155.

13. Walter W. Steele Jr., The Doctrine of Right to Counsel: Its Impact on the Administration of Criminal Justice and the Legal Profession, 23 Sw L.J. 1969, p. 488-524.

14. Михайленко О.Р. Про забезпечення незалежності суддів у змагальному кримінальному процесі. Етичні та правові проблеми забезпечення незалежності суддів: Матеріали міжнар. наук.-практ. семінару, 30-31 берез. 2005 р.; м. Харків / Редкол.: В.В. Сташис (голов, ред.) та ін. Х.; К.: ЦНТ «Гопак», 2006, с. 51–56.

15. Черемных И.Г. Российский нотариат: прошлое, настоящее, будуще. М., 1999, 240 с.

**Polad Mehdiyev**
**Member of the Azerbaijan Bar Association,**
**PhD student of the Chair on Constitutional Law of**
**the Faculty of Law of Baku State University,**
**(poladmehdi@gmail.com).**

## THE PLACE OF THE ADVOCATE INSTITUTE IN THE SYSTEM OF PROVIDING PROFESSIONAL LEGAL ASSISTANCE

*The article examines the place of the legal institution in modern society and in international and judicial practice in various fields of law, analyzes the right to professional legal assistance as a guarantee, representation activity as one of the most basic services, explores the areas of advocacy, evaluates the right to professional legal assistance in various aspects, examines the right of lawyers to professional legal assistance, which performs important functions, playing a significant and important role in the system of guarantees designed to protect and ensure that it remains the main pillar of justice in society, and finally emphasizes that they directly serve the interests of international communities and states through the protection of human rights.*

***Keywords:*** *normative act, international practice, right to receive legal assistance, lawyer, legal profession.*

**Полад Мехтиев**
**Член Коллегии адвокатов Азербайджана,**
**докторант кафедры Конституционного права**
**Юридического факультета**
**Бакинского государственного университета**
**(poladmehdi@gmail.com)**

## МЕСТО АДВОКАТСКОГО ИНСТИТУТА В СИСТЕМЕ ОБЕСПЕЧЕНИЯ ПРОФЕССИОНАЛЬНОЙ ЮРИДИЧЕСКОЙ ПОМОЩИ

*В статье рассматривается вопрос места правового института в современном обществе и в международной и судебной практике в различных областях права, анализируется право на профессиональную юридическую помощь как гарантия, представительская деятельность как одна из самых основных услуг, исследуются области адвокатуры, оценивается право на профессиональную юридическую помощь в различных аспектах, рассматривается право адвокатов на профессиональную юридическую помощь, которое выполняет важные функции, играя значимую и важную роль в системе гарантий, призванных защищать и обеспечивать, чтобы оно оставалось главной опорой справедливости в обществе, и наконец, подчеркивается их непосредственная служба интересам международного сообщества и государства благодаря защите прав человека.*

***Ключевые слова:*** *нормативный акт, международная практика, право на получение юридической помощи, адвокат, адвокатура.*

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.09.2023**

**Zamiq Allahverdiyev**
**Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin**
**"İnsan hüquqları və informasiya hüququ" UNESCO**
**kafedrasının doktorantı (zamiq.allahverdiyev99@mail.ru).**

# UŞAQ HÜQUQLARININ MÜDAFİƏSI ÜZRƏ BEYNƏLXALQ HÜQUQİ PRİNSİPLƏRİN MİLLİ HÜQUQDA TƏSBİTİ VƏ YERİNƏ YETİRİLMƏSİ

*Hər bir xalqın gələcəyi potensial olaraq gənc nəsildən asılıdır, ona görə də uşaq hüquqlarının müdafiəsi birmənalı olaraq müasir dövrümüzün əsas vəzifəsidir və onun həllində bütün dünya dövlətləri maraqlı olmalıdır. Uşaq hüquqlarının özəlliyi uşaqların azad və hərtərəfli inkişafı üçün imkanlar və əlverişli şərait yaratmaq üçün onların xüsusi müdafiəyə ehtiyacının olmasıdır. Bu gün beynəlxalq insan hüquqları sisteminin mühüm göstəricilərindən biri də uşağın həm doğuşdan əvvəl, həm də doğuşdan sonra xüsusi müdafiə və qayğıya, o cümlədən zəruri hüquqi yardıma ehtiyacı olduğunun, eləcə də onun hüquq subyekti kimi beynəlxalq ictimaiyyət tərəfindən tanınmasıdır. Məqalənin yazılması zamanı uşaq hüquqlarının müdafiəsi üzrə prinsiplərin dairəsi müəyyən olunmuş, uşaq hüquqlarının müdafiəsi üzrə beynəlxalq normaların milli qanunvericiliyə tətbiqi üzrə təklif və tövsiyələr təqdim edilmişdir.*

***Açar sözlər:*** *uşaq hüquqları, beynəlxalq hüquq normaları, bərabərlik prinsipi, uşağın ən üstün mənafeyi prinsipi, universallıq, milli qanunvericilik.*

*1.1. Ümumi yanaşma*

Qeyd etmək lazımdır ki, uşaq hüquqlarının müdafiəsi üzrə hüquqi prinsiplər UHK-da sadalanmamışdır. Yalnız Konvensiyanın Preambulasında "BMT Nizamnaməsində bəyan olunmuş prinsiplərə uyğunluq" təsbit olunmuşdur. Eyni qaydada Azərbaycanın "Uşaq hüquqları haqqında" Qanununda da müdafiə prinsiplərini nəzərdə tutan konkret maddə yoxdur. Lakin uşaqlarının mənafelərinin üstünlüyü və barabərliyin təminatı prinsipləri əks olunmuşdur (4 və 5-ci maddələr).

Beynəlxalq normaların ümumilikdə tədqiqinə əsasən, insan hüquq və azadlıqlarının müdafiəsi üzrə aşağıdakı prinsipləri sıralamaq olar:

Hüquq ədəbiyyatında daha fərqli şərhlər vardır. Məsələn, professor Əmir Əliyev insan hüquqlarının müdafiəsi üzrə əsas və spesifik prinsipləri fərqləndirərək, birinci qrupa humanizm, azadlıq, bərabərlik, bərabərhüquqluluq və ayrı-seçkiliyin qadağan edilməsi və şəxsiyyətin ləyaqəti prinsiplərini daxil edirsə, ikinci qrupda beş prinsip müəyyənləşdirir:




- fərdə daha əlverişlilik prinsipi;
- mülki, siyasi, sosial, iqtisadi, mədəni insan hüquq və azadlıqlarının bölünməzliyi prinsipi;
- insan hüquqlarının ayrılmazlığı prinsipi;
- şəxsiyyətin təhlükəsizliyi prinsipi;
- inkişaf prinsipi [1, s. 61].

Mahiyyət etibarilə, Ə.Əliyevin sadaladığı prinsiplərdən şəxsiyyətin təhlükəsizliyi, inkişaf, fərd üçün daha əlverişlilik, humanizm, şəxsiyyətin ləyaqəti və azadlıq prinsipləri beynəlxalq normalardan fərqli yanaşma sərgiləyir.

Araşdırmamızda ümumi insan hüquqlarının müadifəsi üçün beynəlxalq-hüquqi prinsiplərə sırf uşaqların hüquqi vəziyyətindən irəli gələn dörd başlıca prinsip – bərabərlik və ayrı-seçkiliyə yol verməmə, ən üstün mənafe, uşağın baxışlarına (fikirlərinə) hörmət, yaşamaq və inkişaf prinsipləri əlavə olunaraq təhlil aparılacaqdır.

İnsan hüquqlarının universallığı prinsipi beynəlxalq insan hüquqları hüququnun təməl daşıdır. Bu o deməkdir ki, Yer Kürəsində bütün insanların hüquqları tanınır.

Ayrılmazlıq hüquqların insanlardan ayrılmaz olmasını və özgəninkiləşdirilməsinin qeyri-mümkünlüyünü ifadə edir. Beynəlxalq normaların hamısında bəyan olunmuş bu prinsip Azərbaycan Konstituisyasının 24-cü maddəsində də öz əksini tapmışdır.

Bütün insan hüquqları bölünməz və bir-birindən asılıdır. Bu o deməkdir ki, bir hüquq toplusu digəri olmadan tam şəkildə istifadə edilə bilməz. Məsələn, mülki və siyasi hüquqlarda irəliləyiş iqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsini asanlaşdırır. Eynilə iqtisadi, sosial və mədəni hüquqların pozulması bir çox digər hüquqlara mənfi təsir göstərə bilər [17]. BMT Baş Məclisinin 16 dekabr 1977-ci il 32/130 saylı və 4 dekabr 1986-cı il 41/117 saylı Qətnamələrində beynəlxalq ictimaiyyət tərəfindən insan hüquq və əsas azadlıqlarının bölünməzliyi və qarşılıqlı asılılığı, bir sıra kateqoriya hüquqların müdafiəsi və təşviqinin dövlətləri digər hüquqların müdafiəsi və həvəsləndirilməsi öhdəliyindən azad etməməsi fikri təsdiq edilmişdir. Həmçinin digər insan hüquqlarına dair beynəlxalq müddəalar da qarşılıqlı əlaqə bölünməzliyi rəhbər tutur. Konstitusiyamızın 24-cü maddəsində hüquq və azadlıqlarının hər kəsin həm cəmiyyət, həm də başqa şəxslər qarşısında məsuliyyət və vəzifələrini də əhatə etdiyinin bəyan olunması qarşılıqlı asılılıq prinsipinin göstəricisidir.

İştirakçılıq prinsipi bütün insanların həyatlarına və rifahına təsir edən qərar qəbul etmə proseslərində iştirak etmək və məlumat əldə etmək hüququnu müəyyən edir. Hüquqlara əsaslanan yanaşmalar icmaların, vətəndaş cəmiyyətinin, azlıqların, qadınların, gənclərin, yerli xalqların və müəyyən edilmiş digər qrupların yüksək səviyyədə iştirakını tələb edir [16].

Hesabatlılıq və hüququn aliliyi prinsipinə əsasən, dövlətlər və digər öhdəlik daşıyanlar insan hüquqlarına riayət olunmasına görə cavabdehdirlər. Bu baxımdan, onlar beynəlxalq insan hüquqları sənədlərində təsbit olunmuş hüquqi norma və standartlara əməl etməlidirlər. Bunu etmədikdə, zərər çəkmiş hüquq sahibləri qanunla nəzərdə tutulmuş qaydalara və prosedurlara uyğun olaraq zərərin ödənilməsini tələb etmək hüququna malikdirlər. Fərdlər, media, vətəndaş cəmiyyəti və beynəlxalq ictimaiyyət hökumətlərin insan hüquqlarını qorumaq öhdəliyinə görə məsuliyyət daşımasında mühüm rol oynayır [16]. BMT-nin Fərdlərin, qrupların və cəmiyyət orqanlarının hamılıqla tanınmış insan hüquqlarını və əsas azadlıqlarını təşviq etmək və müdafiə etmək hüququ və məsuliyyəti haqqında Bəyannaməsində müəyyən olunur ki, hər bir dövlət, o cümlədən, sosial, iqtisadi, siyasi və digər sahələrdə zəruri olan bütün şəraitin yaradılması üçün zəruri ola biləcək addımları atmaqla bütün insan hüquqlarını və əsas azadlıqlarını qorumaq, təşviq etmək və həyata keçirmək, onun yurisdiksiyasında olan bütün şəxslərin fərdi olaraq və başqaları ilə birlikdə bütün bu hüquq və azadlıqlardan praktik olaraq istifadə edə bilməsini təmin etmək üçün əsas məsuliyyət və vəzifə daşıyır. Hər bir dövlət həmin hüquq və azadlıqların səmərəli şəkildə təmin edilməsini təmin etmək üçün zəruri ola biləcək qanunvericilik, inzibati və digər tədbirləri görməlidir [7].

*1.2. Bərabərlik və ayrı-seçkiliyə yol verməmə prinsiplərinə dair beynəlxalq normaların milli təcrübədə tətbiqi üzrə mövcud problemlər*

Ümümdünya İnsan Hüquqları Bəyannaməsinin 1-ci maddəsində deyilir ki, bütün insanlar azad, ləyaqət və hüquqlar baxımından bərabər doğulurlar. 2-ci maddədə qeyd olunan ayrı-seçkilikdən azad olmaq bu bərabərliyi təmin edir. Ayrı-seçkiliyə yol verməmə bütün əsas insan hüquqları müqavilələrində mövcuddur [17].

İnsan Hüquqları Komitəsinin insan hüquqları sənədlərində ayrı-seçkiliyin təriflərini qeyd edən və ümumi tərif təklif edən 1989-cu il tarixli Ümumi Şərhində vurğulanır ki, ayrı-seçkiliyə yol

verilməməsi, qanun qarşısında bərabərlik insan hüquqlarının müdafiəsi ilə bağlı əsas və ümumi prinsip təşkil edir. Lakin hüquq və azadlıqlardan bərabər şəkildə istifadə edilməsi hər bir halda eyni rəftar demək deyil. Bərabərlik prinsipi bəzən iştirakçı dövlətlərdən "Paktla qadağan olunmuş ayrı-seçkiliyə səbəb olan və ya davam etdirməyə kömək edən şərtləri azaltmaq və ya aradan qaldırmaq üçün pozitiv addımlar atmağı" tələb edir. Əgər belə fərqləndirmə üçün meyarlar ağlabatan və obyektiv olarsa və Paktda legitim məqsədə xidmət edərsə, belə bir rəftar ayrı-seçkilik təşkil etməyəcək [13].

İnsan hüquqlarına dair digər beynəlxalq sənədlərdə olduğu kimi, ayrı-seçkiliyə yol verməmə prinsipini tənzimləyən UHK-nın 2-ci maddəsində də ayrı-seçkiliyin nədən ibarət olduğu göstərilmir. Konvensiyada ayrı-seçkiliyin tərifi verilmədən ayrı-seçkiliyin edilməməsi lazım olan meyarlar tərəflərin diqqətinə çatdırılmışdır. İnsan hüquq və azadlıqlarına dair konvensiya və bəyannamələrdə ayrı-seçkiliyin tərifi müəyyən edilməsə də, İnsan Hüquqları Komitəsinin 1989-cu ildə 37-ci sessiyasında qəbul etdiyi "Ayrı-seçkiliyin qadağan edilməsi" adlı 18-ci Ümumi Şərhində müəyyən şərh təqdim edilmişdir. Belə ki, Komitə İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında və Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyaların müddəalarına əsaslanaraq bildirmişdir ki, bu konvensiyalar yalnız konkret əsaslarla ayrı-seçkilik hallarına baxsa da, həmin hüquqi izahı "ayrı-seçkilik" termininə bütün hallar üzrə şamil etmək olar: irqi, rəngi, cinsi, dili, dini, siyasi və ya digər əqidəsi, milli və ya sosial mənşəyi, mülkiyyəti, doğulması və ya digər statusuna əsaslanan hər hansı fərq, həmçinin bütün hüquq və azadlıqların bütün şəxslər tərəfindən tanınmasını, istifadəsini və ya həyata keçirməsini ləğv etmək və ya pozmaq məqsədi və ya təsiri olan məhdudiyyət [13].

UHK-nın 2-ci maddəsi iştirakçı dövlətlərin üzərinə ayrı-seçkiliyin qadağan edilməsi ilə bağlı öhdəliklər qoyur. Birinci öhdəlik iştirakçı dövlətlərin irqindən, rəngindən, cinsindən, dilindən, siyasi və ya digər əqidəsindən, milli, etnik və sosial mənşəyindən, əmlakından, əlillik, doğum və digər statuslarından asılı olmayaraq heç bir ayrı-seçkilik qoymadan bütün uşaqların hüquqlarının təminatını ehtiva edir.

İkinci öhdəlik isə iştirakçı dövlətlərin uşağın valideynlərinin, qanuni qəyyumlarının və ya digər ailə üzvlərinin statuslarına, fəaliyyətlərinə, ifadə etdikləri fikirlərə və ya inanclara görə hər hansı formada ayrı-seçkilikdən və ya cəzadan səmərəli şəkildə müdafiəsini təmin etmək üçün bütün lazımi tədbirləri görməsini ifadə edir. Əslində iştirakçı dövlətlərin üzərinə mühüm öhdəlik qoyan bu müddəa uşaqları gizli ayrı-seçkilik riskindən qorumaq məqsədi daşıyır. İştirakçı dövlətlərin qanunlarında və siyasətlərində bu cür ayrı-seçkiliyə səbəb olan təcrübələrin mövcudluğu Uşaq Hüquqları Komitəsinin diqqətindən yayınmamışdır. Komitə valideynlərin hər hansı cinayətə cəlb olunduğu və ya immiqrasiya statusunda problem yarandığı zaman uşaqların cəzalandırılmaması üçün bütün lazımi tədbirlərin görülüb-görülmədiyini, sağlamlıq hüququnun təmin edilib-edilmədiyini hər zaman öz hesabatlarında nəzərə alır ki, ayrı-ayrı uşaq hüquqlarının tədqiqi zamanı bu məsələlər ətraflı nəzərdən keçiriləcəkdir.

Uşaqlar üçün bərabərlik və ya ayrı-seçkiliyə yol verilməməsi prinsipini müdafiə edən UHK əslində bu prinsiplə böyüklərin ayrı-seçkiliyə məruz qalmasının qarşısını alır. Çünki Konvensiyada bildirilir ki, uşaqlar öz fərqliliklərinə və ya onların nəzarəti altında olan böyüklərin fərqliliyinə görə ayrı-seçkiliyə məruz qalmayacaqlar. Başqa sözlə desək, böyüklərin məruz qaldığı hər cür ayrı-seçkilik uşaqların həyatında da öz əksini tapmamalı və onlara mənfi təsir göstərməməlidir.

Komitə hər bir hesabatında qeyd edir ki, iştirakçı dövlətlər üçün ayrı-seçkiliyin qadağan olunmasını öz qanunlarına, uşaq hüquqlarının müdafiəsi siyasətinə və bütün digər təcrübələrə daxil etmək vacibdir. Xüsusilə, qızların, qaçqın uşaqların və ya əlil uşaqların ayrı-seçkiliyə məruz qalma riskinin daha yüksək olması onlara qarşı təşəbbüsləri artırmışdır. Qəbul edilir ki, bu təşəbbüslər ağlabatan və ölçülü olmaq şərtilə ayrı-seçkilik demək deyil, əksinə ayrı-seçkiliyin qarşısını almağa yönələcəkdir.

Araşdırmamızda Komitənin əsas iki Ümumi Şərhinə müraciə etmişik: "Təhsilin məqsədləri" [14] və "Erkən uşaqlıq dövründə uşaq hüquqlarının həyata keçirilməsi" Ümumi Şərhi [15]. Hər iki Şərhdə uşaqlara qarşı ayrı-seçkiliyin təcrübədə mövcud olan aşağıdakı əsaslarının daha çox rastlandığı nümunələrlə qeyd olunmuşdur:

- Cinsi ayrı-seçkilik və ya gender bərabərsizliyi. Belə ayrı-seçkilik erkən uşaqlıq dövründə qız uşaqlarının sağ qalmasına mənfi təsir edərək, onların cəmiyyətə müsbət töhfə vermək qabiliyyətini yox

edir. Məsələn, müxtəlif cəmiyyətlərdə qız uşaqlarının "istənilməməsi", selektiv abort, cinsiyyət orqanlarının sünnəti kimi ciddi problemlər qız uşaqlarına erkən uşaqlıq dövründə tətbiq edilən ayrı-seçkilik formalarıdır. Təhsillə bağlı isə qızların erkən nikah və ya başqa formalarda təhsildən yayındırılması onların bərabərlik hüququnu pozmuş olur.

- Etnik və irqi ayrı-seçkilik. Etnik mənşə ilə bağlı ayrı-seçkilik uşaqların cəmiyyətdə tam iştirakını istisna edir. Bu, valideynlərin uşaqları qarşısında öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir etməklə yanaşı, uşaqların imkanlarına və özünə hörmətinə təsir edir, həmçinin uşaqlar və böyüklər arasında narazılıq və münaqişələri təşviq edir [15]. Komitə hesab edir ki, irqçilik və əlaqəli hadisələr cəhalət, irqi, etnik, dini, mədəni və linqvistik və ya digər fərq formalarına dair əsassız qorxular, qərəzlərin istismarı və ya təhrif edilmiş dəyərlərin öyrədilməsi və ya yayılmasının mövcud olduğu yerdə inkişaf edir. Bütün bu uğursuzluqların qarşısının alınması Konvensiyada əks olunan dəyərlərin dərk edilməsinə və qiymətləndirilməsinə kömək edən və ayrı-seçkilik və qərəzli münasibətin bütün aspektlərinə meydan oxuyan təhsilin təmin edilməsi ilə mümkün ola bilər. Beləliklə, irqçilik və əlaqəli hadisələrin pisliyinə qarşı bütün kampaniyalarda təhsil ən yüksək prioritetlərdən birinə çevrilməlidir [14].

- Sağlamlıq imkanları məhdud olan uşaqlara qarşı ayrı-seçkilik. Bu cür ayrı-seçkilik yaşamaq perspektivlərini və həyat keyfiyyətini azaldır. Bu uşaqlar digər uşaqlara təklif olunan qayğı, qidalanma, tibb bacısı və təşviq hüququna malikdirlər. Onların inteqrasiyasını və hüquqlarının həyata keçirilməsini təmin etmək üçün onlar həmçinin əlavə, xüsusi yardım tələb edə bilərlər.

Komitənin yanaşmasına görə, iştirakçı dövlətlər ayrı-seçkiliyin hər hansı formada və harada baş verməsindən asılı olmayaraq, ailələr, icmalar, məktəblər və ya digər qurumlar daxilində monitorinq və mübarizə aparmaq öhdəliyinə malikdirlər. Bu öhdəliyin icarsına nəzarət məqsədilə Komitə ikili fəaliyyət planlaşdırır: iştirakçı dövlətlərdən uşaq hüquqlarının müdafiəsi problemləri ilə bağlı sistematik məlumatların toplanması yolu ilə nəzarət edilməsi və bütün uşaqların mövcud xidmətlərdən faydalanmaq üçün bərabər imkanlara malik olmasını təmin edən tədbirlərin həyata keçirilməsinin dövlətlərdən tələb olunması [15].

Konstitusiyamızın 25-ci maddəsində əks olunmuş bərabərlik prinsipi bütün milli hüquq normalarının təməl ideyasını təşkil edir. Eyni zamanda, "Uşaq hüquqları haqqında" Qanunun 6-cı maddəsində uşaqların hüquqlarının bərabərliyi prinsipi bəyan olunmuşdur. Milli-hüquqi tənzimləmədə bərabərlik prinsipi iki səciyyəvi xüsusiyyəti ilə fərqlənir:

Birincisi, uşaqların hüquqlarının bərabərliyi böyüklərdən fərqli olaraq, başqa şəxslərin də (onların valideynləri və yaxud onları əvəz edən şəxslərin) hüquqi vəziyyətindən asılı olaraq müəyyən olunur. Məsələn, hər hansı bir meyara əsasən bərabərlik həm uşağın özünün, həm də həmin şəxslərin vəziyyətindən asılı olmayaraq təmin olunmalıdır. Uşağa atasının siyasi məhbus olduğuna görə məhdudiyyətlərin tətbiqi hüquq pozuntusu kimi qiymətləndiriləcəkdir.

İkincisi, böyüklərdən fərqli olaraq, uşaqların bərabərliyinin təminatında "onların doğulması zamanı valideynlərin nikahda olub-olmaması" meyarına da diqqət yetirilir. Belə ki, Qanunun 6-cı maddəsi nikahda və nikahdankənar doğumdan irəli gələn ayrı-seçkiliyə yol verilməsini qadağan edir. Bu, xüsusilə ayrı-ayrı hüquq institutları üzrə təmin olunmalıdır. Məsələn, vərəsəliklə bağlı. Norveç hələ 1916-cı ildə nikahdankənar uşaqların da nikahda olan uşaqlarla bərabər vərəsəlik hüququna malik olduğunu etiraf edən ilk ölkələrdən biri olmuşdur [10, p. 106]. Hollandiyada nikahdankənar uşaqlar miras ala bilərlər [9, p. 164]. Türkiyə Cümhuriyyətində, eləcə də respublikamızda bizim vərəsəlik hüququ sistemində nikahdankənar uşaqların da nikahda olan uşaqlarla eyni vərəsəlik hüququna malik olması qəbul edilmişdir.

Qeyd etməliyik ki, dövlətdaxili hüquq normalarında bərabərlik üçün meyarların fərqli təsbit olunması bir qədər çaşqınlıq yaradır. Vahid yanaşmanın təqdim olunması daha düzgün hesab olunur.

Bərabərlik və ayrı-seçkiliyə yol verməmə həmçinin başqa qanunlarla da təsbit olunmuşdur. Məsələn, "Təhsil haqqında" AR Qanununun 5.2-ci maddəsinə əsasən, dövlət hər bir vətəndaş üçün bərabər təhsil imkanlarının yaradılmasını və ayrı-seçkiliyə yol verilməməsini təmin edir. Müxtəlif prosessual qanunvericilik normalarında uşaq və ya böyük olmasından, bərabərlik üçün təsbit olunmuş meyarlardan asılı olmayaraq, proses iştirakçıları üçün bərabərlik təmin olunur və arasında ayrı-seçkilik qoyulması qadağan edilmişdir (məsələn, AR CPM-nin 11-ci maddəsi).

Respublikamızın Komitəyə verdiyi 5 və 6-cı dövri hesabatında bildirilir ki, uşaqların gender əsaslı ayrı-seçkiliyinin yolverilməzliyi haqqında maarifləndirilməsi və uşaqlarda buna qarşı dözümsüzlüyün aşılanması üçün davamlı olaraq səylər davam etdirilir [5, p. 19-21]. Komitənin yekun müşahidələrində bu cür uğurlu addımlar müsbət qiymətləndirilsə də, ənənəvi və mədəni sosial normaların müəyyən uşaq qruplarına qarşı ayrı-seçkiliyə səbəb olması bildirilmişdir. Belə ki, Komitə aşağıdakı sosial-ənənəvi problemlərin hüquqi tənzimləmələrə mənfi təsir göstərdiyi qənaətinə gəlmişdir:

- Gender stereotiplərinin davam etməsi müşahidə edilir, qızlar cins və gender stereotiplərinin təsirinə məruz qalır və nəticədə oğlanlara üstünlük verilir;
- Sağlamlıq imkanları məhdud olan uşaqlar əsasən onların sosial təcrid olunmasına səbəb ola biləcək həssas qrup kimi görünürlər;
- Xüsusi qayğıya ehtiyacı olan uşaqlar və imkansız ailələrdəki uşaqlar stiqma və səhiyyə və təhsilə qeyri-bərabər çıxışla üzləşə bilərlər [6, para 16].

Dayanıqlı İnkişaf Məqsədlərinin 5.1 və 10.3-cü hədəflərini xatırladaraq, Komitə Azərbaycana tövsiyə edir: uşaqlara qarşı ayrı-seçkilik praktikasını aradan qaldırmaq məqsədilə siyasət və qanunvericiliyin hərtərəfli təhlilinin aparılmasını, cinsi, gender, əlillik və sosial-iqtisadi vəziyyətə görə ayrı-seçkiliyi aradan qaldırmaq üçün fəal və hərtərəfli strategiyanın operativ şəkildə işlənib hazırlanması və qəbul edilməsini, bərabər hüquqlar və ayrı-seçkiliyə yol verməmə haqqında ictimaiyyətin məlumatlılığının artırılmasının davam etdirilməsi, mənfi sosial norma və stereotiplərin aradan qaldırılması və cəmiyyətdə münasibət dəyişikliyinin təşviq edilməsi [6, p. 17].

*1.3. Uşağın ən üstün mənafeyi prinsipi*

UHK-nın rəhbər müddəası sayılan 3-cü maddəsi uşaqların mənafeyindən söz düşəndə, maraqların onlara qarşı nə olmasından asılı olmayaraq, yanaşmanın bu istiqamətdə olması kimi başa düşülür. Məsələn, sünnət bəzi inanc və mədəniyyətlərdə zərurət hesab olunur. Kişilər ümumiyyətlə sünnət edilsə də, bəzi Afrika, Yaxın Şərq və Asiya ölkələrində və ya onların bəzi icmalarında sünnət qadın və qızlara da tətbiq edilir ki, bu da sonradan bir çox sağlamlıq problemlərinə gətirib çıxarır. Skandinaviya dövlətləri (məsələn, İsveç 1982-ci ildən etibarən) uşağın üstün mənafeyini nəzərə alaraq və bu təcrübənin UHK-ya uyğun gəlmədiyini əsas gətirərək qızların sünnətini qadağan etmişlər. İslandiya da eyni səbəblə oğlan və qız uşaqlarının sünnət edilməsini qadağan edən ilk Avropa ölkəsi olmaq yolundadır [8].

Ən üstün maraqların necə müəyyən ediləcəyi və hansı hallarda ən üstün maraqlara üstünlük veriləcəyi hər bir uşağın konkret şəraiti çərçivəsində qiymətləndirilməlidir. Əslində UHK uşağın qısamüddətli mənafeyini deyil, ən yüksək marağı ifadə edərək, uzunmüddətli faydanın dərk edilməsinin zəruriliyini vurğulayır. Komitəyə görə, uşağın ən üstün mənafelərini müəyyən edərkən, bütövlükdə Konvensiyanın ruhuna, xüsusən də uşağın öz baxışları və hissləri olan bir fərd kimi və hüquq subyekti kimi konsepsiyasına uyğun olmalıdır. Komitə həmçinin hər hesabatında vurğulayır ki, bu prinsip fövqəladə hallarda dəyişdirilə bilməz və digər fundamental prinsiplərdə qəbul edildiyi kimi, büdcə məhdudiyyətləri səbəbindən nəzərə alına bilməz [11, p. 48].

Qeyd etmək lazımdır ki, uşağın üstün mənafeyi prinsipi ailə münasibətlərini tənzimləyən qanunların əhatə dairəsinə daxil olan mübahisələrdə məhkəmələrin riayət etməli olduğu ən vacib prinsipdir. Hətta digər həssas qruplar olan qadınlarla müqayisədə uşağın üstün mənafelərinə üstünlük verilir. Belə ki, qadınların doğum anında şəxsiyyətlərini gizlətmək hüququ və uşağın valideynlərini tanımaq hüququ ilə əlaqədar ziddiyyət yarandığı vəziyyətlərdə qərar uşağın üstün maraqlarına uyğun qəbul edilməlidir. Göründüyü kimi, uşaqların mənafeləri digər həssas qrupların maraqları ilə toqquşduqda, uşaqların maraqları əsas götürülür.

Xarici dövlətlərin təcrübəsi və qanunvericiliyinin təhlilinə əsasən qeyd edə bilərik ki, milli məhkəmələr uşağa aid olan məsələlərdə hər zaman üstün mənafe prinsipini rəhbər tuturlar. Məsələn, Fransa Kassasiya Məhkəməsindən götürülmüş bir işdə Fransa vətəndaşı olan ər və arvad Braziliyada “sadə övladlığa götürmə” yolu ilə övladlığa götürdükləri braziliyalı uşağı Fransada “tam övladlığa götürmə” əsası ilə övladlığa götürmək istəyirdilər. Çünki Braziliyanın müvafiq qanunlarına görə, Braziliyada yaşamayan əcnəbilərin tam övladlığa götürmə əsası ilə braziliyalı uşağı övladlığa

götürməsi mümkün deyildi. Bu işdə Kassasiya Məhkəməsi Braziliya qanunlarına əsasən "sadə övladlığa götürmə" kimi qurulan övladlığa götürmə əsasının Avropa Konvensiyasının müddəalarına əlavə olaraq Fransanın ictimai qaydasına zidd olub-olmadığını araşdırmışdır. Burada sadə övladlığa götürmə münasibətinin xüsusilə Konvensiyanın 8-ci maddəsindən çıxarılan uşağın ailə himayəsində olmaq hüququna uyğun olub-olmaması müzakirə olunurdu. Fransa Kassasiya Məhkəməsi müəyyən etdi ki, sadə övladlığa götürmə ilə bağlı müvafiq qayda Braziliya qanunvericiliyi tərəfindən onun ailəsi və ölkəsi ilə əlaqələrini kəsərək ailəsini və ölkəsini mənəvi cəhətdən uzaqlaşdırmamaq üçün təqdim edilib. Ona görə də uşağın ən yaxşı mənafeyinə uyğun olaraq qəbul edilmiş müvafiq xarici hüquqi tənzimləməni Avropa Konvensiyasına zidd müddəa saymaq düzgün deyil [12, p. 14].

Eynilə, türk vətəndaşları tərəfindən Efiopiyalı uşağın övladlığa götürülməsi ilə bağlı bir işdə Ali Məhkəmə ictimai asayişin pozulmasının qiymətləndirilməsində uşağın ən üstün mənafeləri prinsipinin necə nəzərə alınmalı olduğunu açıq şəkildə ifadə etmişdir. Həmin işdə uşaq doğulduqdan altı ay yarım sonra övladlığa götürülmüşdü. Kassasiya Məhkəməsi, ilk növbədə Uşaqların Müdafiəsi və Ölkələrarası övladlığa götürmə sahəsində əməkdaşlıq haqqında Konvensiyanın məqsədlərinə istinad etmiş, daha sonra xarici dövlətdə övladlığa götürmə münasibətində Türkiyə qanunlarının tələb etdiyi bir il müddətində baxılma və təhsil alma şərtinin yerinə yetirilməməsinin ən yaxşı maraqlar çərçivəsində nəzərdən keçirilməsinə qərar vermişdir. Belə ki, uşağın ən üstün maraqları nəzərə alındıqda belə bir şərtin yerinə yetirilməməsi Türkiyənin ictimai asayişinin açıq şəkildə pozulması sayılmayacaqdır [3].

Ümumiyyətlə, İHAM övladlığa götürmə münasibətlərində uşağın ən üstün mənafeyi prinsipinə əsaslanır. Bu baxımdan, deyə bilərik ki, Kassasiya Məhkəməsi bir illik qayğı və təhsil tələbini ciddi şəkildə şərh etmiş və bu şərti yerinə yetirməyən xarici hüquqi qaydalar əsasında qurulan övladlığa götürmə münasibətlərinin ictimai qaydaya zidd olduğunu öz yurisprudensiyasından geri götürmüşdür. Şübhəsiz ki, xarici elementlərlə övladlığa götürmədə uşağın yüksək mənafeyinə əsaslanan belə yanaşma gələcəkdə AİHK-nın 8-ci maddəsinə əsaslanan pozuntu iddiası ilə qarşılaşma ehtimalını da azaldacaqdır. Əslində, uşağın mənafeyinə əsaslanan təfsir üslubu təkcə uşaqların övladlığa götürülməsi üçün deyil, həm də uşağın qəyyumluğu və onun valideynləri ilə şəxsi münasibət qurmaq hüququ üçün də vacib əhəmiyyət kəsb edir [4, s. 199]. Çünki İHAM-ın şərhinə görə, yerli xarakterli bir çox xüsusi hüquq mübahisələrində milli hakimiyyət orqanları uşağın mənafeyini nəzərə almalıdır və əks halda bu, təkcə uşağın deyil, həm də AİHK-nın 8-ci maddəsindən irəli gələn valideyn(lər)in hüquqlarını poza bilər [4, s. 200].

Hər bir uşağın üstün mənafeyinə riayət olunması üçün yalnız beynəlxalq-hüquqi tənzimləmə deyil, həmçinin milli qanunvericilik bazasının da təkmil olması lazımdır.

Son olaraq üstün mənafe prinsipinin Azərbaycanda hüquqi tənzimlənməsini şərh edək. "Uşaq hüquqları haqqında" Qanunun 5-ci maddəsi adı çəkilən prinsipi üç istiqamətdən təminatını nəzərdə tutur:

- həm dövlət orqanlarının, həm də bütün şəxslərin (həm fiziki, həm də hüquqi) üzərinə uşaqlarının mənafeyinin üstün tutulması və onların hüquq və azadlıqlarının təminatı üçün şərait yaradılması vəzifəsini qoymaqla. Bu vəzifə sahəvi aktlarda dövlətin bir çox hallarda bəzi münasibətlərə müdaxilə etməsinə hüquqi əsas verir. Məsələn, Ailə Məcəlləsinin 58-ci maddəsində öz əksini tapmış valideyn hüquq və vəzifələrinə yalnız uşağın mənafeyi tələb etdiyi hallarda dövlətin müdaxilə etməsinə yol verilir (maddə 58.6);
- milli-hüquqi bazanın qeyd olunan prinsipə ziddiyyət təşkil etməsinə yol verilməməsi vəzifəsini dövlət hakimiyyəti orqanlarının vacib vəzifəsi kimi müəyyənləşdirməklə;
- ictimai münasibətlərdə fəaliyyət zamanı uşağın hüquq və mənafelərinin məhdudlaşdırılmasına gətirib çıxaran əqdlərin yolverilməzliyini imperativ qaydada bəyan etməklə.

Qeyd olunan üç istiqamət digər normativ-hüquqi və normativ xarakterli aktların qəbulu zamanı, dövlət orqanlarının fəaliyyətində üstün mənafe prinsipinin rəhbər tutulmasının əsasını təşkil edir. Lakin bildiyimiz kimi, hər hansı bir prinsipin elan olunması deyil, onun təminat mexanizminin mövcudluğu həlledici əhəmiyyət kəsb edir. Belə təminat mexanizmləri digər qanunvericilik aktlarında təsbit olunmuşdur. Belə ki, Ailə Məcəlləsində hətta uşağın adının və soyadının dəyişdirilməsi ilə bağlı valideynlərin birgə xahişi uşağın mənafeyi nəzərə alaraq təmin edilir.

Bundan əlavə, valideynlik hüquqlarının ləğvi, bərpası ilə bağlı bütün hallarda qanunverici uşağın mənafeyini əsas götürür (maddə 67-69). Uşağın üstün mənafeyinin rəhbər tutulduğu daha başqa bir hal övladlığa götürmə qaydası ilə bağlıdır ki, bu üç mərhələni təşkil edir ki, ikinci mərhələ sırf övladlığa götürmə faktının uşağın mənafeyinə uyğun olub-olmamasının müəyyənləşdirilməsindən ibarətdir. Bu, bir ildən çox olmayan müddətdə övladlığa götürmək istəyən şəxslərlə və ya şəxslə müsahibənin aparılmasını və onların (onun) təlimlərə cəlb olunmasını ehtiva edir (maddə 118).

Ən üstün mənafe prinsipi artıq milli qanunvericilikdə öz əksini tapdıqda, bu, bir qayda olaraq, uşağın əsas subyekt və ya obyekt olduğu qərarların qəbulu ilə əlaqədardır. Lakin belə tənzimləmə yalnız ailə münasibətləri ilə bağlı olub, valideynlərin boşanması, övladlığa götürmə və dövlətin uşaqları pis rəftardan qorumaq üçün müdaxiləsini əhatə etməməlidir. Qeyd olunan prinsip həmçinin məşğulluq, planlaşdırma, nəqliyyat və s. ilə bağlı siyasətin hazırlanmasına da tətbiq edilməlidir. Hətta əsas məqsədi uşaqların inkişafı olan xidmətlərdə, məsələn, təhsil və ya sağlamlıq kimi sahələrdə uşaqların üstün mənafeyi qanunvericilik çərçivəsində təsbit olunmalıdır. Respublikamızda bununla bağlı bir çox müavinətlər, məzuniyyətlər və digər sosial tədbirlərin tətbiqi məhz uşaqların mənafeyini nəzərə alaraq tənzimlənmişdir. Məsələn, Əmək Məcəlləsində təsbit edilmiş ödənişsiz məzuniyyətlər (maddə 130).

Çox təəssüf ki, Azərbaycanın dövri hesabatlarında uşağın ən üstün mənafeyinə sırf sosial təminat hüquqları kontekstindən yanaşılır. Belə ki, beşinci və altıncı birgə hesabatda həmin prinsip üzrə milli təcrübə şərh olunarkən, dövlət tərəfindən aşağıdakı müavinətlərin və sosial müdafiənin digər təminatlarının müəyyən edilməsi qeyd olunmuşdur: analıq müavinəti; 8 yaşına çatmamış xəstə uşağa qulluq etmək üçün qadına müavinət; uşaqlara baxan tək atalar üçün müavinət; beşdən çox uşağı olan qadınlara müavinət; 18 yaşınadək əlil uşaqlar üçün sosial müavinət; şəhid ailələrinin 16 yaşınadək (tələbələr - 18 yaşadək) uşaqları üçün müavinət; müddətli hərbi xidmətdə olan hərbi qulluqçuların 16 yaşınadək (tələbələr - 18 yaşadək) uşaqları üçün müavinət; müharibə əlillərinin və 1990-cı ilin Yanvar hadisələri nəticəsində əlil olmuş şəxslərin 16 yaşınadək (tələbələr - 18 yaşadək) uşaqları üçün müavinət; valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarına verilən müavinət; 1 yaşadək uşaqlara görə yoxsul ailələrə müavinət; hər bir uşağın doğulmasına görə ödəniləcək birdəfəlik müavinət [5, para 22].

Məhz bu baxımdan, Komitə №14 (2013) ümumi şərhini və əvvəlki tövsiyələrini xatırladaraq iştirakçı dövlətə haqlı olaraq aşağıdakı tövsiyələri verir:

(a) Uşağın ən üstün maraqları prinsipinin qanunvericiliyə açıq şəkildə inteqrasiyasını və bütün inzibati və məhkəmə proseslərində, habelə uşaqlara təsir göstərən siyasət və proqramlarda ardıcıl şəkildə tətbiq olunmasını təmin etmək;

(b) Ədliyyə, polis, sosial xidmət işçi qüvvəsi və səhiyyə işçiləri üçün bu prinsipi tətbiq etmək üçün sistematik olaraq hərtərəfli potensialın yaradılmasını təmin etmək və onu asanlaşdırmaq üçün alətlər və təlimatlar hazırlamaq və yaymaq [6, para 18].

*1.4. Nəticə*

“Uşaq hüquqları haqqında” Qanunda uşaqların hüquqlarının müdaifəsi üzrə iki prinsip qeyd olunmuşdur: ən üstün mənafelərin və bərabərliyin təmin olunması. Lakin uşaqların hüquqlarının müdafiəsi üzrə beynəlxalq-hüququn bir çox prinsipləri diqqətdən kənarda qalmışdır. Nəzərə alsaq ki, Qanunun girişində “uşaqlarla bağlı dövlət siyasətinin əsas prinsiplərini müəyyən etməsi” göstərilmişdir, ayrıca bir maddədə, ya da “uşaqların müdafiəsi üzrə dövlət siyasətini əks etdirən 3-cü maddədə prinsiplərin sadalanması daha düzgün olardı. Məhz hansı prinsiplərin nəzərdə tutulmasına gəldikdə isə həm UHK-nın, həm də Uşaq Hüquqları Komitəsinin ümumi və eləcə də Azərbaycana aid şərhlərinə əsasən, bu prinsiplərə aşağıdakıların daxil edilməsini məqsədəmüvafiq sayırıq: bərabərlik və ayrı-seçkiliyə yol verməmə, ən üstün mənafe, uşağın baxışlarına (fikirlərinə) hörmət, yaşamaq və inkişaf prinsipləri.

Uşaqların hüquqlarının müdafiəsi üzrə başlıca prinsip olan bərabərliklə əlaqədar qeyd etmək lazımdır ki, ARK-nın 25-ci maddəsi və “Uşaq hüquqları haqqında” Qanunun 6-cı maddəsi arasında uyğunsuzluğun aradan qaldırılması məqsədəmüvafiqdir. Belə ki, Konstitusiyaya 2016-cı ildə edilmiş dəyişikliklərlə 25-ci maddədə “milli mənsubiyyət” sözü “etnik mənsubiyyət” termini ilə əvəz

olunmuşdur. Lakin Qanunun 6-cı maddəsində "milli mənsubiyyət" ifadəsi qalmaqda davam edir. Müvafiq dəyişikliyin edilməsi həm hüquqi tənzimləmə baxımdan, həm də vahid terminoloji aparatın tətbiqi baxımdan daha məqsədəmüvafiqdir.

Azərbaycan Konstitusiyasında uşağın ən üstün mənafeyi ilə bağlı prinsip nəzərdə tutulmamışdır. Bir çox xarici dövlətlərin (Türkiyə, Almaniya, İspaniya və s.) təcrübəsinə və beynəlxalq normalara istinadən bu prinsipin ARK-nın 17 ya da 34-cü maddəsinə əlavə edilməsini məqsədəuyğun sayırıq. Xüsusilə nikahın pozulması zamanı uşağın mənafeyi ilə bağlı tənzimləmə təsbit olunmalıdır.

**İstinadlar:**

1. Əliyev Ə.İ. İnsan hüquqları: Dərslik. Bakı: Nurlar, 2019, 352 s.

2. Əliyev Z.H. Avropa İnsan Hüquqları Məhkəməsi. Dərs vəsaiti. Bakı: AZSEA nəşriyyatı, 2012, 232 s.

3. Yargıtay HD, E.2004/6944, K.2004/7910, T.15.6.2004. www.kazanci.com

4. İlyas Arslan. Avrupa İnsan Hakları Sözleşmesinin milletlerarasi özel hukuka etkisi. İstanbul, 2018, 973 s.

5. Combined fifth and sixth periodic reports submitted by Azerbaijan under article 44 of the Convention, due in 2018. 24 December 2018. https://digitallibrary.un.org/record/3892518

6. Committee on the Rights of the Child. Concluding observations on the combined fifth and sixth periodic reports of Azerbaijan, 22 February 2023. https://digitallibrary.un.org/record/4003971

7. Declaration on the Right and Responsibility of Individuals, Groups and Organs of Society to Promote and Protect Universally Recognized Human Rights and Fundamental Freedoms, 09 December 1998. https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/declaration-right-and-responsibility-individuals-groups-and

8. Iceland law to outlaw male circumcision sparks row over religious freedom. https://www.theguardian.com/society/2018/feb/18/iceland-ban-male-circumcision-first-european-country#:~:text=Iceland%20law%20to%20outlaw%20male%20circumcision%20sparks%20row%20over%20religious%20freedom,This%20article%20is&text=Iceland%20is%20poised%20to%20become,new%20battleground%20over%20religious%20freedom

9. Kleijkamp Gerda A. Family Life and Family Interests: A Comparative Study of the Influence of European Convention of Human Rights on Dutch Family Law and the Influence of American Constitution on American Family Law. London: Kluwer Law International, 1999, 416 p.

10. Larry Wu, Barbara Wolfe. Out of Wedlock: Causes and Consequences of Nonmarital Fertility. New York: Russel Sage Foundation, 2001, 444 p.

11. Rachel Hodgkin, Peter Newell. Implementation Handbook for the Convention on the Rights of the Child. United Nations Publications, 2007, 788 p.

12. Thoma Ioanna. The ECHR and the Ordre Public Exception in Private International Law // NIPR, 2011, Vol. 29, Special Issue: Human Rights and PIL, p.13-18

13. UN Committee on the Rights of the Child (CRC). General Comment No. 18: Non-discrimination, Adopted at the Thirty-seventh Session of the Human Rights Committee, on 10 November 1989. https://www.refworld.org/docid/453883fa8.html

14. UN Committee on the Rights of the Child (CRC). General comment No. 1 (2001), Article 29 (1), The aims of education, 17 April 2001, CRC/GC/2001/1. https://www.refworld.org/docid/4538834d2.html

15. UN Committee on the Rights of the Child (CRC). General comment No. 7, 2005, Implementing Child Rights in Early Childhood, CRC/C/GC/7/Rev.1. https://www.refworld.org/docid/460bc5a62.html

16. UNFPA. Human Rights Principles. https://www.unfpa.org/resources/human-rights-principles

17. What are human rights? https://www.ohchr.org/en/what-are-human-rights

**Zamiq Allahverdiyev**
**Ph.D student of the UNESCO Chair**
**on Human rights and Information Law of**
**Baku State University (zamiq.allahverdiyev99@mail.ru).**

**DETERMINATION AND IMPLEMENTATION OF INTERNATIONAL PRINCIPLES ON THE PROTECTION OF CHILDREN'S RIGHTS İN NATIONAL LAW**

*The future of every nation potentially depends on the young generation, therefore the protection of children's rights is clearly the main task of our time, and all countries of the world should be interested in solving it. The peculiarity of children's rights is that they need special protection in order to create opportunities and favorable conditions for their free and comprehensive development. Today, one of the important indicators of the international human rights system is the fact that the child needs special protection and care both before and after birth, including necessary legal assistance, as well as recognition by the international community as a legal subject. During the writing of the article, the range of principles for the protection of children's rights was defined, proposals and recommendations on the application of international norms for the protection of children's rights to national legislation were presented.*

***Keywords:*** *children's rights, international legal norms, the principle of equality, the principle of the best interests of the child, universality, national legislation.*

**Замик Аллахвердиев**
**Докторант кафедры ЮНЕСКО по правам человека и**
**информационному праву Бакинского государственного**
**университета (zamiq.allahverdiyev99@mail.ru).**

**ОПРЕДЕЛЕНИЕ И ИМПЛЕМЕНТАЦИЯ МЕЖДУНАРОДНО-ПРАВОВЫХ ПРИНЦИПОВ ЗАЩИТЫ ПРАВ ДЕТЕЙ В НАЦИОНАЛЬНОМ ЗАКОНОДАТЕЛЬСТВЕ**

*Будущее каждой нации потенциально зависит от молодого поколения, поэтому защита прав детей, безусловно, является главной задачей современности, и в ее решении должны быть заинтересованы все страны мира. Особенность прав детей состоит в том, что они нуждаются в особой защите с целью создания возможностей и благоприятных условий для их свободного и всестороннего развития. Сегодня одним из важных индикаторов международной системы прав человека является признание международным сообществом того, что ребенок нуждается в особой защите и уходе, включая необходимую юридическую помощь, как до, так и после рождения. В ходе написания статьи определен круг принципов защиты прав детей, представлены предложения и рекомендации по применению международных норм по защите прав детей в национальное законодательство.*

***Ключевые слова:*** *права детей, международно-правовые нормы, принцип равенства, принцип наилучшего обеспечения интересов ребенка, универсальность, национальное законодательство.*

**Məqalənin redaksiyaya daxil olma tarixi: 24.10.2023**

**Ramin Əliyev**
**Gəncə Dövlət Universitetinin**
**Tarix-Coğrafiya fakültəsinin**
**"Sosial fənlər" kafedrasının müəllimi**
(**raminlev@gmail.com**).

# BEYNƏLXALQ HÜQUQDA TƏCAVÜZ ANLAYIŞININ ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *təcavüz, təcavüzün anlayışı, beynəlxalq hüquq, beynəlxalq cinayət, sülh və təhlükəsizlik, BMT, BMT Təhlükəsizlik Şurası, fərdi özünümüdafiə, kollektiv özünümüdafiə*

*Dünyada ərazi və resursların məhdudluğu şəraitində baş verən münaqişə və müharibələrin meydana gətirdiyi təhdidlər getdikcə daha da şiddətlənməkdə və daha ciddi nəticələr meydana gətirməkdədir. XXI əsrin qlobal problemlərinin də ağırlaşdırdığı belə bir vəziyyət beynəlxalq hüquqa və onun təklif etdiyi həll yollarına bir daha ciddi nəzər salmağı şərtləndirir. Bu məqalə də, sözügedən təhdidlərə münasibətdə hüquqi həll yollarına işıq tutmaq məqsədini daşıyır. Məqalənin giriş hissəsində ədəbi sülh, təcavüzlərin və müharibələrin qarşısının alınması məqsədilə tarixən irəli sürülmüş təşəbbüslərə qısa nəzər salınır və təcavüzün anlayışının verilməsinin əhəmiyyətinə diqqət yetirilir. Məqalənin 1-ci hissəsində II Dünya Müharibəsinə qədər belə bir anlayışın verilməsinə yönəlmiş səylər araşdırılır. 2-ci hissədə isə, təcavüzün BMT çərçivəsində verilmiş 1974-cü il tarixli anlayışının ən mühüm cəhətləri araşdırılır. Sonda, əgər beynəlxalq hüquq çərçivəsində zəruri tədbirlər görülməzsə, bəşəriyyəti gözləyən təhlükələr haqqında qısa məlumat verilir.*

*Giriş*

Əbədi sülh bəşəriyyətin çoxdankı arzusudur. Hətta qədim dövrlərdə belə sülh və təhlükəsizliyin qorunması üçün hansısa bir qurumun yaradılması ideyaları yox deyildi. Belə bir qurum ona üzv dövlətlərin silahlı qüvvələrini birləşdirməklə təcavüzkar qüvvələrə qarşı mübarizəni təşkil etməli idi. Və bu sülh və təhlükəsizliyin təmininin ən yaxşı mexanizmi kimi görünürdü. Ancaq təbiidir ki, zəmanənin və şəraitin tələblərinə uyğun olaraq, sülhü qoruma məramını əks etdirən bu ideyalar XX əsrədək öz əksini, olsa-olsa, bir sıra mütəfəkkir və elm adamlarının layihələrində tapmışdır. Belə alimlərə misal olaraq Poderbradı, Henrixi, Komarov və başqalarını göstərmək olar.

XX əsrdə isə, bütün bəşəriyyət yenilənmiş, köklü dəyişikliklərə məruz qalmış vəziyyətin məntiqi nəticəsi olaraq, təcavüz aktlarının, müharibələrin bütövlükdə Yer kürəsi üçün son dərəcədə təhlükəli olduğunu böyük ölçüdə anladı və bu sahədə irəliyə doğru proqressiv addımlar atdı. Xüsusilə də, Millətlər Cəmiyyətinin Nizamnaməsinin 10-cu maddəsi də təcavüzün qarşısının alınması və kollektiv təhlükəsizlik tədbirlərinin görülməsi məqsədini daşıyan müddəaları nəzərdə tuturdu.

Müasir beynəlxalq hüquq isə, təcavüzün qarşısının alınmasına güc tətbiqinin, fərdi özünümüdafiə və kollektiv təhlükəsizlik tədbirləri istisna olmaqla, tamamilə qadağanı yolu ilə nail olmağa çalışmışdır. Beləliklə, dövlətlərə, eləcə də öz müqəddəratını təyinetmə hüququ olan xalqlara qarşı güc tətbiqi tamamilə qadağandır [2, s. 57].

Beləliklə, XX əsrin beynəlxalq hüquq sisteminin beynəlxalq münasibətlərdə güc tətbiqinə imkan verən normalardan xilas olma cəhdləri bəşəriyyətin mövcud ağır və son dərəcədə təhlükəli vəziyyətlərdən xilası istiqamətində atılmış mütərəqqi addımlar kimi qiymətləndirilməlidir. Çünki bəşəriyyətin tarixi inkişafının XX əsrədək olan mərhələlərində təcavüz obyektiv reallıqdan doğan normal hal kimi qavranılırdı. Q. İ. Tunkinin də göstərdiyi kimi, "Təcavüz anlayışının özü köhnə beynəlxalq hüquqa yad idi" [20, s. 9]. Eləcə də, Donskoy D. müəyyən mənada haqlı olaraq, təcavüz termininin indiki, müasir dövrdə bizim başa düşdüyümüz mənanı kəsb etdiyini yazır [10, s. 21]. Xüsusilə də, dünyada bir-birinə antaqonist iki dövlətlər qrupunun bərqərar olunmasından sonra həmin iki əks qütblər aralarındakı konfrontasiyanın dünyanı məhvə apara biləcəyini dərk edərək bir-birilərinə münasibətdə qarşılıqlı güzəştlərə getməklə təcavüzü tamamilə qanundan kənar elan etdilər və təcavüz fərdi cinayət məsuliyyətinə səbəb olan, sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönəlmiş cinayət elan edildi [4, s. 597].

II Dünya Müharibəsindən az sonra bəşəriyyət məhz sözügedən ikiqütblülük problemi ilə üz-üzə qaldı və bu yeni tip antaqonizm dünyaya son dərəcədə mənfi təsir göstərməyə başladı. Beynəlxalq hüquq belə, hər iki qütb tərəfindən güc tətbiqi və ona bəraət qazandırılması vasitəsinə çevrildi.

Belə bir durum, ideoloji səviyyədə qarşıdurma hətta beynəlxalq hüquq ədəbiyyatına belə sirayət etmişdir. Hər iki düşərgəyə aid ən nüfuzlu mütəxəssis və alimlər, tədqiqatçılar təcavüz aktlarının qanundan kənar elan edilməsində mənsub olduqları düşərgənin rolunu dönə-dönə vurğulamağa, hətta bəzən bu rolu həddindən artıq şişirtməyə çalışırlar. Məsələn, keçmiş SSRİ beynəlxalq hüquq ədəbiyyatı təcavüzün qadağan olunmasında oktyabr çevirilişinin rolunu dönə-dönə vurğulayır [19, s. 12]. Bunun əksinə olaraq, Qərb beynəlxalq hüquq doktrinası keçmiş sovet blokunun beynəlxalq hüququ bir çox sahələrdə tamamilə neytrallaşdırdığını, onun effektliliyini son dərəcədə azaltdığını iddia edir. Mişel Laskoma görə, "Kommunist blokunun dağılması beynəlxalq hüquqa yeni bir imkan verdi ki, o öz dominant mövqeyini əldə etsin" [8, s. 9-10].

*1. II Dünya müharibəsinə qədər təcavüzün anlayışının verilməsinə yönəlmiş cəhdlər*

Köhnə beynəlxalq hüquqa əsasən jus ad bellum dövlət suverenliyinin ən mühüm tərkib ünsürlərindən biri hesab olunurdu. Lakin H. Qrotsinin də göstərdiyi kimi, "Əgər müharibələr qaçılmaz olsa belə, onlar sülh naminə aparılırdı" [9, s. 730]. Həmçinin, onu da vurğulamaq lazımdır ki, köhnə beynəlxalq hüquqda da işğalçı və ədalətsiz müharibələrlə müdafiə xarakterli və ədalətli müharibələr arasında fərq qoyulurdu [9, s. 730]. XX əsrin beynəlxalq hüququnun əsas fərqi ondan ibarət idi ki, o, müharibələri qadağan etmişdi.

Beləliklə, "jus ad bellum"u, başqa sözlə, müharibə hüququnu məhdudlaşdırmaq istiqamətində ilk addımlar 1899-cu və 1907-ci illərdə keçirilmiş Haaqa konfranslarında qəbul edilən konvensiyalarla atılmış oldu. Hələ 1864-cü ildə "Quru müharibələri zamanı yaralı və xəstə əsgərlərin vəziyyətlərinin yaxşılaşdırılması haqqında" Konvensiya qəbul olunmuşdu. 1899-cu ildə Haaqa sülh konfransında dəniz müharibəsi qurbanlarına şamil edilən konvensiya qəbul edildi. 1907-ci il Haaqa konfransları ilə "Haaqa Hüququ" və yaxud "müharibə hüququ" formalaşmış oldu.

"Haaqa Hüququ" hərbi əməliyyatların həyata keçirilməsi zamanı düşmənə zərər yetirmə üzrə üsul və vasitələrin seçimini məhdudlaşdırır [11, s. 7]. 1949-cu ildə isə, dörd Cenevrə konvensiyası, 1977-ci ildə isə, həmin konvensiyalara əlavə iki protokol qəbul olundu ki, bununla da "Cenevrə Hüququ" formalaşmış oldu. Bu hüquq isə, "Haaqa Hüququ"ndan fərqli olaraq, "sıradan çıxmış hərbçilərin və döyüş əməliyyatlarında iştirak etməyən şəxslərin maraqlarını qoruyur" [11, s. 6-7].

Qeyd edək ki, Beynəlxalq Humanitar Hüququn ən əsas prinsipi, müvafiq ədəbiyyatda göstərildiyi kimi, ondan ibarətdir ki, "İstənilən silahlı münaqişə zamanı münaqişədə olan tərəflərin müharibənin aparılma üsul və vasitələrini seçmə imkanları qeyri-məhdud deyildir" [12, s. 8]. Bu isə, o deməkdir ki, dövlət suverenliyinə nə qədər böyük əhəmiyyət verilsə də, silahlı münaqişələr zamanı bu suverenlikdən sui-istifadə etmək olmaz.

Bəzən belə bir təsəvvür yaranır ki, bir halda ki, beynəlxalq hüquqda müharibələrin aparılma qaydaları və üsulları məhdudlaşdırılır, başqa sözlə, hüquq özü müharibənin aparılmasını tənzimləyir, o zaman müharibənin və yaxud güc tətbiqinin qadağanı prinsipinin aqibəti necə olur? Sonuncu belə bir şəraitdə, sadəcə olaraq, ölü bir normaya çevrilmirmi?

Nəzərə almaq lazımdır ki, beynəlxalq münasibətlər o qədər mürəkkəbdir ki, hazırda heç bir mexanizm müharibəni tamamilə və qətiyyətlə qadağan edə bilməz. Hans-Peter Qasser haqlı olaraq yazır ki, "Beynəlxalq Humanitar Hüququn yalnız müharibənin başlanması ilə işə düşməsi faktı heç də müharibənin qadağan edilməsi barədəki ümumi prinsipi şübhə altına almaq demək deyildir" [1, s. 15]. Yəni ki, müharibə nəzəri cəhətdən artıq qadağan olunmuş və cəzalandırılmalı bir əməl hesab edilir. Ancaq real həyatda işğal faktı istənilən an baş verə bilər və müəyyən mənfur niyyətlərini həyata keçirmək arzusunda olan dövlətlər istənilən an digər dövlətlərə təcavüz edə bilərlər. Məhz buna görə də, söyləmək mümkündür ki, beynəlxalq humanitar hüquq normaları beynəlxalq hüququn əsas prinsiplərindən biri olan güc tətbiq etməmə prinsipi pozulduqda fəaliyyətə başlayır.

Müasir dövrdə beynəlxalq hüququn əsas xarakterik cəhətlərindən biri də, böyük-kiçikliyindən, gücündən, iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, bütün dövlətlərin bərabər hüquqlara malik olmasıdır. Pyer-Mari Dupui göstərir ki, "Uzun müddət ərzində beynəlxalq hüququn tətbiqi müstəsna subyektlər olan bir neçə dövlətin əlində cəmləşmişdi" [6, s. 411]. Müasir dövrdə isə, dövlətlərin suveren bərabərliyi prinsipi artıq jus cogens xarakterli normalardan biridir. 24 oktyabr 1970-ci il tarixində qəbul olunmuş "Beynəlxalq hüququn prinsipləri haqqında" Bəyənnaməyə əsasən, sözügedən prinsipin tərkibinə aşağıdakı elementlər daxildir:

a) dövlətlərin hüquqi cəhətdən bərabərliyi;
b) bütün dövlətlərin bərabər hüquqlardan istifadə etmələri;
c) dövlətin digər dövlətlərin hüquq subyektliyinə hörmətlə yanaşması;
d) dövlətlərin ərazi bütövlüyünün və siyasi müstəqilliyinin toxunulmazlığı və s [5].

Təbii ki, təcavüz aktı yuxarıda sadalananların, eləcə də, beynəlxalq hüququn bütün digər prinsiplərinin üstündən xətt çəkmək deməkdir. Məhz bu göstərilənləri, təcavüzün ən ağır cinayət olmasını nəzərə alan dövlətlər onun qadağan olunması istiqamətində real addımları XX əsrdən başlayaraq atmağa başladılar.

Beynəlxalq hüququn bütün sözügedən prinsiplərinin təsbiti, habelə beynəlxalq münasibətlərdə güc tətbiqinin qadağanı obyektiv zərurətdən doğurdu və hər bir xalqın, hər bir dövlətin bu mütərəqqi işdə öz payı, özünəməxsus dərəcədə rolu mövcud olmuşdur.

Belə bir nəticəyə gəlmək olar ki, beynəlxalq hüquq ədəbiyyatında da göstərildiyi kimi, beynəlxalq münasibətlərdə və beynəlxalq hüquqda təcavüzün qadağanı birdən-birə baş verməmişdir [19, s. 12]. Əksinə, problem öz həllini tədricən tapmışdır.

1899-1907-ci illərdə qəbul olunmuş beynəlxalq hüquqi sənərlərdən sonra Millətlər Cəmiyyəti çərçivəsində bir sıra hüquqi sənədlər hazırlanmışdı. Məsələn, 1923-cü il tarixli "Qarşılıqlı yardım haqqında" Müqavilə Layihəsini, 1924-cü il tarixli "Beynəlxalq münaqişələrin dinc həlli haqqında" Cenevrə Protokolunu (bu sənəd qüvvəyə minməmişdir), 1927-ci il tarixli "Təcavüzkar müharibə haqqında" Bəyənnaməni həmin sənədlərə aid etmək olar. Lakin bütün sadalanan sənədlər güc tətbiqini pisləsə də, o vaxtkı şərait üzündən heç bir real hüquqi qüvvəyə malik olmadılar. Bununla belə, təcavüzün tamamilə qadağanı işində onların da müəyyən rolu danılmazdır.

1928-ci ilin avqustunda Paris şəhərində "Brian-Kelloq Paktı" imzalandı. Məhz bu sənədin beynəlxalq münasibətlərdə güc tətbiqinin qadağan olunması baxımından xüsusi əhəmiyyət kəsb etməsi beynəlxalq hüquq ədəbiyyatında da vurğulanır [10, s. 27]. Paktın tam adı "Milli siyasətin aləti kimi beynəlxalq münasibətlərdə müharibədən imtina edilməsi haqqında Müqavilə" şəklindədir. Paktın I maddəsində dövlətlərin, daha doğrusu, "Yüksək Razılığa Gələn Tərəflərin beynəlxalq mübahisələrin həlli məqsədilə müharibəyə əl atılmasını pislədiyi və öz qarşılıqlı əlaqələrində milli siyasətin aləti kimi müharibəyə əl atmaqdan imtina etmələri" vurğulanır [15, s. 669]. Paktın III maddəsinə əsasən, "Yüksək Razılığa Gələn Tərəflər xarakter və növündən asılı olmayaraq, öz aralarında yarana biləcək bütün mübahisə və yaxud münaqişələri yalnız və yalnız həmişə dinc vasitələrlə həll etməlidirlər" [15, s. 669].

Bir daha vurğulamaq istərdim ki, təcavüzün qadağan olunması sahəsində II Dünya Müharibəsinə qədər qəbul olunmuş sənədlərdən ən önəmlisi, demək olar ki, "Brian-Kelloq Paktı" olmuşdur. Sözügedən dövrədək qəbul olunmuş, təcavüzün qadağanını nəzərdə tutan beynəlxalq hüquqi sənədlər II Dünya Müharibəsi səbəbindən uzun müddət səmərəsiz qalsa da, onların əksəriyyəti müharibədən sonra nasistlərin törətdikləri ağlasığmaz dəhşətli cinayətlərə görə təqsirkarların cəzalandırılması işində çox mühüm rol oynadı.

Beləliklə, söylənənlərdən aşağıdakı nəticələri çıxarmaq mümkündür:

*Birincisi,* təcavüz ən ağır cinayət olduğundan onun anlayışının verilməsi həmin cinayətə görə məsuliyyət və cəzalandırma məsələlərinin həlli üçün əlverişli şərait yaradır.

*İkincisi,* II Dünya Müharibəsinə qədər təcavüzün anlayışının verilməsi üçün qəbul edilən sənədlər çox az effektliliyi ilə xarakterizə olunur. Belə ki, həmin sənədlər ya ümumiyyətlə qüvvəyə minməmiş, ya da minsə də, əməl olunmayan sənədlərdir.

*Üçüncüsü,* II Dünya Müharibəsinədək qəbul olunan sənədlər sonralar təcavüzün anlayışının verilməsi üçün münbit zəmin formalaşdırdı.

*Dördüncüsü* və ən nəhayət, sözügedən mərhələ təcavüzün anlayışının verilməsinin ilk mərhələsi kimi qiymətləndirilə bilər. Yəni, XX əsrdə I Dünya Müharibəsindən sonra müəyyən nəticə çıxaran bəşəriyyət təcavüzkar müharibənin və ümumiyyətlə beynəlxalq münasibətlərdə güc tətbiqinin qadağan edilməsinə səy göstərirdi. Təəssüflər olsun ki, bu son dərəcədə mütərəqqi niyyət birinci cəhddən baş tutmadı, gerçəkləşdirilə bilinmədi ki, bu da mövcud tarixi şəraitlə bağlı idi.

Hadisə və proseslər, təbii ki, bu cür davam edə bilməzdi. Sadəcə müəyyən zaman və çıxarılası acı dərslər tələb olunurdu ki, təcavüz tamamilə beynəlxalq cəmiyyət həyatından hüquqi şəkildə kənarlaşdırılsın, qanundan kənar elan edilsin. Luis Henkin çox düzgün olaraq göstərir ki, "Millətlər

arasındakı münasibətlərdə sivilizasiyanın proqresi gücdən diplomatiyaya, diplomatiyadan isə, hüquqa keçid kimi başa düşülə bilər" [3, s. 1].

Sözügedən birinci mərhələdə uğursuzluğa düçar olan bütün bəşəriyyət "Olum, ya ölüm!" seçimi qarşısında təcavüzün qadağan olunmasının ikinci mərhələsinə yalnız II Dünya Müharibəsindən sonra qədəm qoya bildi. Bu mərhələ də, ağır və gərgin diplomatik mübarizələr şəraitində keçmişdir. Ümumiyyətlə, II Dünya Müharibəsindən sonrakı dövr, müəyyən istisnalarla, insanlıq tarixinin keyfiyyətcə yeni, mütərəqqi bir epoxası kimi qiymətləndirilə bilər.

*2. Təcavüzün anlayışı*

Beləliklə də, artıq məlumdur ki, təcavüzün hamılıqla qəbul olunmuş anlayışı 1974-cü ildə beynəlxalq miqyasda razılaşdırılmışdır. Həmin tarixdən əvvəl də beynəlxalq münasibətlərdə təcavüzün qarşısının alınması məqsədini güdən bir sıra digər beynəlxalq hüquqi sənədlər qəbul olunmuşdu (məsələn, "Brian-Kelloq Paktı").

Bütün ideoloji, antaqonist ziddiyyətlərə, siyasi-iqtisadi və s. maraq və mənafe toqquşmalarına baxmayaraq, artıq qeyd etdiyimiz kimi, beynəlxalq birlik təcavüzün beynəlxaq cinayət hesab olunması barədə ümumi razılığa gələ bilmişdir. Belə olan halda, təcavüzün anlayışı son dərəcədə mühüm əhəmiyyət kəsb edir. Ən sadəsi ona görə ki, belə bir anlayış olmadan təcavüzün nə demək olduğunu müəyyən etmək, təcavüzkar dövlətləri müəyyənləşdirmək və onları beynəlxalq-hüquqi məsuliyyətə cəlb etmək, cəzalandırmaq mümkün deyildir. Başqa sözlə, təcavüzün anlayışının müəyyənləşdirilməsi sülh uğrunda mübarizə işində son dərəcədə əhəmiyyətli bir silahdır. Çünki "*Nullum Crimen Sine Lege*" (Qanunda nəzərdə tutulmayan əməl cinayət deyildir), "*Nulla Poena Sine Lege*" (Qanunda nəzərdə tutulmayan cəza tətbiq edilə bilməz) kimi prinsiplər hüququn ən fundamental və əhəmiyyətli formulalarıdır.

Hətta Nyürenberq Tribunalında nasistlərin müdafiəçiləri iddia edirdilər ki, onların törətdikləri nə təcavüz, nə də bəşəriyyət əleyhinə digər cinayətlər heç biri beynəlxalq hüquqi sənədlərlə qadağan edilməmişdi. Halbuki, təcavüz, yumşaq şəkildə də olsa, hələ 1924-cü il Cenevrə Protokolu, 1928-ci il "Brian-Kelloq Paktı" ilə qadağan olunmuşdu. Eləcə də, bəşəriyyət əleyhinə cinayətlər 1907-ci il tarixli IV Haaqa və 1929-cu il tarixli Cenevrə konvensiyalarında qadağan olunmuşdu. Sadəcə olaraq, həm təcavüzün, həm də sözügedən digər beynəlxalq cinayətlərin qəti qadağanı II Dünya Müharibəsindən sonra həyata keçirildi. Lukaşuk İ. İ. haqlı olaraq göstərir ki, "Əsas beynəlxalq cinayət tərkibləri II Dünya Müharibəsindən sonra təsis edilən beynəlxalq hərbi tribunalların nizamnaməsləri ilə müəyyən olunmuşdur. Onların hərtərəfli əhəmiyyəti BMT Baş Assambleyasının 1946-cı və 1947-ci illərdə qəbul olunmuş xüsusi qətnamələrində də təsdiqlənir" [13, s. 240].

Təcavüzün anlayışının əhəmiyyəti şübhəsizdir. Təbii ki, məhz belə bir anlayışın köməyi ilə silahlı münaqişələr meydana çıxdığı zaman bu münaqişələrdə günahkar tərəf, yəni təcavüzkar müəyyən edilir. Əgər belə bir anlayış mövcud deyildirsə:

1) təcavüzkar sərbəst surətdə öz niyyətlərini həyata keçirir və sonra isə, məsuliyyətdən asanlıqla yayınır;

2) təcavüz qurbanı olan dövlət beynəlxalq ictimaiyyət tərəfindən müdafiə olunmaq hüququ əldə edir;

3) belə bir anlayış yoxdursa, təcavüz baş verdikdən sonra onun qarşısının alınması çətin olur. Çünki hansı əməllərin təcavüz cinayətinin tərkibini formalaşdırması, kimlərin təcavüzkar olması kimi məsələlər qeyri-müəyyən olaraq qalır.

Bu isə, şübhəsiz ki, Nyürenberq Tribunalının qərarlarında da göstərildiyi kimi, "Yalnız qeyri-hüquqi və cinayət əməli deyil, ən ağır beynəlxalq cinayət olan" [16, s. 591] təcavüzə qarşı mübarizədə böyük çətinliklər törədə bilər. Və bu cür böyük məsuliyyəti və mühümlük dərəcəsini dərk edən dövlətlər 8 avqust 1945-ci ildə qəbul olunmuş Beynəlxalq Hərbi Tribunalın Nizamnaməsinin 6-cı maddəsində Tribunalın yurisdiksiyası altına düşən cinayətlərə, a) təcavüzü, b) müharibə cinayətlərini və s. hərbi cinayətləri, habelə bəşəriyyət əleyhinə cinayətləri aid etmişlər [15, s. 828].

Bir məsələni xüsusilə vurğulamaq lazımdır ki, təcavüzə, onun qarşısının alınmasına bu cür böyük əhəmiyyət verilməsi yalnız deklarativ xarakter daşımır. Beynəlxalq hüquq ədəbiyyatında haqlı olaraq göstərilir ki, "Silahlı təcavüzün və təcavüzkar müharibənin ən ağır beynəlxalq cinayət kimi tövsif edilməsi, yalnız hər cür silahlı təcavüzün sülh işi üçün xüsusi təhlükəli nəticələr törətməsini

qeyd etmək deyil, həm də bu təcavüzü həyata keçirən dövlətlərin eyni dərəcədə ağır məsuliyyətini vurğulamaq məqsədi daşıyır" [14, s. 121].

Məhz buna görə də, fərdlərin belə cinayətlərin törədilməsində təqsiri və iştirakı varsa, onların cinayət məsuliyyətinə cəlb edilməsi və cəzalandırılması beynəlxalq hüquqda birbaşa nəzərdə tutulur. Bu məsələ çox böyük əhəmiyyət kəsb edir. Çünki çox vaxt təcavüzün planlaşdırılmasında və həyata keçirilməsində birbaşa iştirak edən vəzifəli şəxslər bir kənarda qalır, onların əməllərinə görə məsuliyyəti sadə xalq daşımalı olur. Y.A. Reşetov bu məsələ ilə əlaqədar haqlı olaraq göstərir ki, "Nyürenberq Tribunalı öz qərarı ilə dövlət aktı doktrinasını kateqorik şəkildə rədd etdi, hansı ki, sözügedən doktrinaya görə dövlət orqanları tərəfindən törədilən əməllər yalnız dövlətin cinayəti kimi inkriminə edilir və həmin əməllərin törədilməsində icraçı şəxslərin təqsiri istisna edilir" [18, s. 184].

Həmin doktrinanın başlıca mənfi cəhətlərindən, çatışmazlıqlarından biri ondan ibarətdir ki, dövləti cinayət məsuliyyətinə cəlb etmək, onu həbs etmək və s. mümkün deyildir. Lakin təcavüzü birbaşa planlaşdıran, ona dövlət səviyyəsində hərtərəfli, geniş miqyaslı, sistematik hazırlıq işləri görən və icra edən vəzifəli şəxslər, yəni dövlət və hökumət başçıları, güc nazirlikləridir. Və burada əsas məsələ, təbii ki, sözügedən vəzifəli şəxslərin dairəsinin konkretləşdirilməsi, onların cinayət məsuliyyətinə cəlb edilməsi və cəzalandırılmasıdır.

Sonuncu fikirləri sübuta yetirmək üçün A. Hitlerin II Dünya Müharibəsindən əvvəl bir məxfi müşavirədə səsləndirdiyi sözləri xatırlamaq, zənnimcə, məqsədəmüvafiq olardı:

"Mən müharibənin başlanması üçün propoqandist bəhanə taparam və bu bəhanənin həqiqətə uyğun gəlib-gəlməməsi isə, o qədər də əhəmiyyətli deyildir. Qalibdən heç vaxt soruşmurlar ki, o, yalan danışırdı, yoxsa yox… Müharibənin başlanğıcında və gedişatında hüquq deyil, qələbə zəruridir" [17, s. 955].

Bütün söylənənlərdən belə aydın olur ki, təcavüzün anlayışının verilməsi bəşəriyyətin öz mövcudluğunu bundan sonra da daha təhlükəsiz biçimdə sürdürə bilməsi üçün həddindən artıq əhəmiyyətli idi. Bu baxımdan, təcavüzün anlayışının verilməsi, heç şübhəsiz, sülhün və sülhsevər qüvvələrin mühüm tarixi qələbələrindən biri olmuşdur. Daha da konkretləşdirsək, sözügedən mühümlük aşağıdakı faktorlardan qaynaqlanır:

- təcavüz ən ağır beynəlxalq cinayət hesab edilir və onun hamılıqla qəbul olunmuş ortaq anlayışının olmaması bu fikri təkzib etmiş olardı;
- təcavüz həmişə "dövlət suverenliyi" kimi son dərəcədə həssas bir məsələ ilə sıx qarşılıqlı əlaqədə olur və onun mahiyyətinin, əhatə dairəsinin konkretləşdirilməsi, başqa sözlə anlayışının verilməsi suverenliklə təcavüz arasındakı nisbəti müəyyənləşdirmiş oldu;
- təcavüzün anlayışının işlənilməsindən və qəbul edilməsindən sonra həmin anlayış BMT-nin, o cümlədən bütün dövlətlərin əlində sülh və təhlükəsizliyin qorunması uğrunda aparılan mübarizədə, bir növ, kəsərli silah rolunu oynadı.

*Nəticə*

Təcavüz beynəlxalq münasibətlərdə beynəlxalq hüquq tərəfindən qadağanı zərurət təşkil edən bir təhdid, cinayət halını almışdır. Yəni, təcavüzün qanundan kənar elan edilməsi hər hansı bir təsadüfi hal deyildir, tarixi zərurətdən doğmuşdur. Belə ki, heç şübhəsiz, müasir dövrdə kütləvi qırğın silahlarına malik ölkələr arasında müharibə bəşəriyyətin əldə etdiyi əksər nailiyyətlərin sıfırlanmasına, hətta dünyanın məhvinə aparıb çıxara bilər. Müasir beynəlxalq hüququn ən çatışmayan cəhəti də elə bundan ibarətdir. Uşakov N.A. haqlı olaraq göstərir ki, "Nizamnamənin 51-ci maddəsinin Təhlükəsizlik Şurasının daimi üzvlərinin arasındakı münasibətlərə aidiyyatı yoxdur (söhbət fərdi və kollektiv özünümüdafiədən gedir), çünki onlar arasında müharibə baş verərsə, kimin hücum, kimi müdafiə edən tərəf olmasının heç bir əhəmiyyəti qalmayacaqdır" [21, s. 31]. Belə bir ssenari artıq bəşəriyyətin özü-özünü məhv etməsi demək olardı. Bütün dövlətlər bu həssas cəhəti çox böyük diqqətlə nəzərdən keçirməli və beynəlxalq hüququn tələblərinə əməl etməlidirlər.

Beynəlxalq hüquq dövlətlərin üzərinə yerinə yetirilməsi qeyri-mümkün heç nə qoymur. Məsələn, Moris Torreli qeyd edir ki, "Fövqəladə hallar hüququ düşmənin nəzarəti altına keçən və buna görə də öz dövlətinin müdafiəsindən məhrum olan qurbanları qorumaq məqsədi daşıyır və o, dövlətlər üçün bu sahədə əməl etməli olduqları qaydaları müəyyənləşdirir" [7, s. 47]. Yəni hüquq bəşəriyyət üçün ən yaxşısının olmasını istəyir. Və buna görə də, müxtəlif səbəblər üzündən hüquqdan yayınmaq,

onun müəyyən etdiyi qaydaları pozmaqla müəyyən mənafeləri təmin etməyə çalışmaq təkcə bir dövlət üçün deyil, ümumilikdə bütün bəşəriyyət üçün qarşısıalınmaz fəlakətlər törədə bilər.

Müasir dövr üçün çoxlu sayda lokal xarakterli münaqişələr də xarakterikdir. Obrazlı şəkildə ifadə etsək, III Dünya müharibəsi üçün indi dünyanın müxtəlif regionlarında çoxlu sayda "barıt çəllləkləri" mövcuddur. Misalçün, Yaxın Şərq probleminin həlli artıq bir əsrə yazındır ki, bütün bəşəriyyəti narahat etməkdədir. Elə regionumuzda lokal münaqişələr də təhlükəli olaraq qalmaqda davam edir. Dövlətlər anlamalıdırlar ki, ərazi iddiaları, güclə torpaqlar ələ keçirmək, etnik, milli və s. kimi ayrıseçkiliklər dövrü artıq keçmişdə qalıb və müasir dövrdə bütün belə hallar dövlətlərin həm daxili, həm da xarici siyasətindən tamamilə kənarlaşdırılmalıdır.

## İstifadə olunmuş ədəbiyyat

1. Hans – Peter Qasser. Beynəlxalq humanitar hüquq. Bakı, Beynəlxalq Qızıl Xaç Komitəsi, 2000, 131 s.
2. Antonio Cassese. International Law (Second edition). Oxford University Press, 2005, 558 p.
3. Louis Henkin. How Nations Behave. New York, Columbia University Press, 1979, 400 p.
4. Malcolm N. Shaw. International Law (Fifth edition). Cambridge University Press, 1434 p.
5. UN DOC. A/Res/2625(XXV)
6. Droit International Public, 4$^{e}$ edition, Pierre-Marie Dupuy. Paris,"Editions Dalloz" 1998, 684.
7. Maurise Torreli. Le Droit International Humanitaire. Paris "Presses Universitaires de France" 1989, 128 p.
8. Michell Lascombe. Le Droit International Public. Paris, "Dalloz" - 1996, 134 p.
9. Гроций Г. О праве войны и мира. Москва (Три Книги) Госполитиздат, 1957, 868 с.
10. Донской Д. Агрессия – вне закона. Москва, изд-во «Межд. Отношения», 1976, 136 с.
11. Жан Пикте. Развитие и принципы международного гуманитарного права. Международный Комитет Красного Креста, Москва - 1982, 127 с.
12. Защита лиц и обьектов в международном гуманитарном праве. Международный Комитет Красного Креста, Москва. 1999, 374 с.
13. Лукашук И.И. Международное право (Особенная Часть). Москва издательство «БЕК» 1997, 410 с.
14. Курс международного права: Основные принципы современного международного права. В 6-ти томах. Т. 2. Москва, издательство «Наука», 331 с.
15. Международное право в документах. Москва, «Юридическая литература», 1982, 855 с.
16. Нюрнбергский процесс: Сб. материалов в 8 т. Т. 3 / Отв. ред. А.Я. Сухарев. — Москва: издательство Юрид. Лит., 1989, 656 с.
17. Сборник материалов Нюрнбергского процесса над главными немецкими военными преступниками в двух томах, под редакцией К.П.Горшенина (главный редактор), Р.А.Руденко, И.Т.Никитченко, Москва, Государственное издательство Юридической литературы, 1954, в двух томах., Т- II. 1156 с.
18. Решетов Ю. А. Борьба с международными преступлениями против мира и безопасности. Москва, издательство «Междунар. Отношения» 1983, 223 с.
19. Рыбаков Ю. М. Вооруженная агрессия – тягчайшее международное преступление. Москва, издательство «Юрид. Лит.» 1980, 216 с.
20. Тункин Г. И. Теория международного права. Москва, «Международные отношения», 1970, 511 с.
21. Ушаков Н.А. Правовые регулирование использования силы в международных отношениях. Москва, издательство «ИГиП РАН» 1997, 96 с.

**Ramin Aliyev**
**Lecturer of the Chair on Social Sciences of the**
**Faculty of History and Geography of**
**Gandja State University**

## THE IMPORTANCE OF DEFINITION OF AGGRESSION IN INTERNATIONAL LAW

*Threats caused by ongoing conflicts and wars in today's world due to limited resources, including territory, are becoming more and more intense and give birth to more serious consequences. Such a situation, aggravated by the global challenges of the 21th century, requires a serious consideration of international law and of legal solutions / methods offered by international law as well. And this paper aims to shed light on legal solutions designed to deal with the mentioned threats. The introductory part of the paper briefly discusses various historic initiatives put forward to prevent aggression and wars in order to protect peace forever, and it also takes into consideration the importance of the elaboration of the definition of aggression. The first part of the paper focuses on the efforts directed at the goal of elaboration of the given definition before the Second World War. The second part of the paper examines the most important aspects of the definition of aggression elaborated in 1974 within the United Nations framework. Finally, the paper provides a short overview of potential threats which the world might face with, if international law fails to eliminate all risks emanating from the crime of aggression.*

***Keywords:*** *aggression, definition of aggression, international law, international crimes, peace and security, UN, UN Security Council, individual self-defence, collective self-defence*

**Рамин Алиев**
**Преподаватель кафедры Социальных Наук**
**Историко-географического факультета**
**Гянджинского государственного университета**

## ВАЖНОСТЬ ДЕФИНИЦИИ АГРЕССИЯ В МЕЖДУНАРОДНОМ ПРАВЕ

*Угрозы, вызванные продолжающимися в современном мире конфликтами и войнами из-за ограниченности ресурсов, в том числе территории, становятся все более интенсивными и порождают все более серьезные последствия. Такая ситуация, усугубленная глобальными вызовами XXI века, требует серьезного рассмотрения международного права, а также правовых решений/методов, предлагаемых международным правом. И эта статья призвана пролить свет на правовые решения, предназначенные для борьбы с упомянутыми угрозами. Во вступительной части документа кратко обсуждаются различные исторические инициативы, выдвинутые с целью предотвращения агрессии и войн с целью защиты вечного мира, а также принимается во внимание важность разработки определения агрессии. В первой части статьи основное внимание уделяется усилиям, направленным на разработку данного определения до Второй мировой войны. Во второй части статьи рассматриваются наиболее важные аспекты определения агрессии, выработанного в 1974 году в рамках ООН. Наконец, в документе представлен краткий обзор потенциальных угроз, с которыми может столкнуться мир, если международное право не сможет устранить все риски, вытекающие из преступления агрессии.*

***Ключевые слова:*** *агрессия, понятие агрессии, международное право, международные преступления, мир и безопасность, ООН, Совет Безопасности ООН, индивидуальная самооборона, коллективная самооборона.*

**Məqalənin redaksiyaya daxil olma tarixi: 28.09.2023**

**Aisha Gasimova**
**Lecturer of the UNESCO Chair on**
**Human rights and Information Law of the Faculty of Law of Baku**
**State University (qasimova.ayse.00@gmail.com).**

# INTERNATIONAL ASPECTS OF THE ISSUE OF HUMAN RIGHTS PROTECTION

*This article describes the international methods and means of human rights protection in detail. The problems arising in the realization of human rights in modern times, as well as the characteristic features of their solutions, are one of the points covered in the article. Thus, the international acts adopted in the last century to ensure the systematic development of human rights, their composition and the institutions created on the basis of these acts have been discussed in the article. The variety of regional and national mechanisms created to protect the rights of individual human groups has been analyzed in detail as one of the issues of interest.*

***Keywords***: *law, human rights, convention, protection, international, equality,mechanism, freedom, regional*

*International Human Rights Law.*

The foundation of international human rights law (IHRL) is the notion that every person has a set of rights and freedoms that are interconnected and inseparable. No one, not even states, can take away these rights because they are inherent to all people, regardless of their personal traits like sex, language, religion, or national or ethnic origin (Baki, 2007). IHRL is made up of a collection of international standards found in treaties, conventions, general principles, and soft law that are intended to safeguard and advance these human rights (De Schutter, 2019). IHRL lays out duties and obligations on states to act in certain ways and refrain from acting in other ways, acknowledging that states play a primary role in protecting and promoting human rights.

To put it another way, states have a duty to both actively promote the enjoyment of fundamental human rights and to safeguard individuals and groups from violations of those rights. After a treaty is ratified, states need to make sure they have domestic laws and institutions in place that can support the treaty's implementation and upholding of the human rights it addresses. While some sections of IHRL concentrate on protecting everyone, others focus on protecting those who are deemed vulnerable, including children, refugees, and internally displaced individuals.

Human rights law offers a legal alternative for achieving equality for people with disabilities. International law contains the rights-based approach, which is sometimes incorporated into constitutions or statutes. The Canadian Constitution, for example, expressly guarantees the equality rights of people with disabilities. Section 15 of the 1982 Constitution Act states:

1. Every person is equal before the law and has the right to equal protection under the law, which is protected from discrimination in any kind of impairments, either mental or physical themes.

2. Subsection does not prohibit any legislation, initiative, or program whose goal is to improve the circumstances of underprivileged people or groups, including those who are underprivileged due to a physical disability or other reason.

This guarantee encompasses both procedural and substantive rights, allows for affirmative action, and is applicable to all levels of Canadian law. Section 15 offers protection against discriminatory impact as well as intent, according to the Canadian Supreme Court. The Supreme Court adopts a contextual, effects-based approach in Andrews v. Law Society of British Columbia 1989 154, acknowledging disadvantage as a crucial component of the analysis of discrimination. Furthermore, Canada boasts a federal Human Rights Act in addition to provincial and territorial Human Rights Codes that cover all spheres of public and private activity and offer protection against discrimination, harassment, and retaliation (Rioux and Frazee 1999). One advantage of the human rights approach is that any deficiency is addressed by the state, whatever it may be.

Many international human rights instruments that are relevant to individuals with disabilities have been developed by the international community. Under the International Bill of Rights, which includes the Universal Declaration of Human Rights, the International Convention on Civil and

Political Rights, and the Convention on Economic, Social, and Cultural Rights, people with disabilities are able to file claims. In the same way, individuals with disabilities can benefit from the following international agreements: the Convention on the Elimination of All Forms of Discrimination Against Women, the Convention on the Elimination of All Forms of Discrimination Against Racism, the Convention on the Rights of the Child, and the Convention Against Torture and Other Cruel, Inhuman, or Degrading Treatment or Punishment (Degener and Koster-Dreese 1995) [2].

Although all of these international legal instruments are claimed to have universal applicability, only the most recent convention expressly mentions how it relates to individuals with disabilities. Nonetheless, every treaty has a nondiscrimination clause that mandates the application of the human rights instruments regardless of the "status" of the person in question. Additionally, there is jurisprudence that suggests "disability" is included in the category of "other status" (e.g., Vienna Declaration and Programme of Action, para. 63 (A/CONF.157/24, June 25, 1993)).

Compared to other international legal instruments, international covenants have a stronger legal force. However, documents like resolutions from the General Assembly, proclamations, and statements from human rights organizations are crucial because they uphold the rights of individuals with disabilities and are useful in interpreting the treaties themselves. A number of "soft" international instruments exist, such as the Standard Rules on the Equalization of Opportunities for Persons with Disabilities, the Declaration on the Rights of Mentally Retarded Persons, and the Declaration on the Rights of Disabled Persons.

The most important and comprehensive international document pertaining to the rights of individuals with disabilities is the resolution of the United Nations General Assembly that was just mentioned. The Standard Rules embrace a social constructionist understanding of disability and demand that governments ensure that individuals with disabilities have equal access to opportunities in all spheres of their lives. However, because the Standard Rules are not intended to address systemic disadvantage, they do not fully incorporate a rights perspective.

There isn't a specific convention or treaty that addresses the rights of disabled individuals. There is debate regarding the strategic appropriateness of a convention on the rights of people with disabilities. One argument is that by isolating disabled people from the mainstream, one risks creating a social divide at a time when the main goal of a rights perspective is to include outsiders rather than treating their needs as separate from those of all other community members.

It has been very challenging to make sure that these rights are included on the general human rights agenda and to develop mechanisms to ensure a disability perspective is maintained with respect to the operation of rights in practice, though, in the absence of a convention on the rights of people with disabilities. Ensuring the implementation of rights for individuals with disabilities is not a guarantee provided by a disability convention. But such a convention would provide a place to start for those who want equality for all community members.

The development and processes at the national level are primarily responsible for the protection and comprehension of human rights. Every nation's foundation for guaranteeing human rights is its current set of national laws, regulations, practices, and systems. Human rights must therefore be incorporated into national legal and constitutional frameworks, justice personnel must be trained in applying human rights principles, and human rights violations must be denounced and punitive measures taken. National standards are more directly impactful and national procedures are more easily accessible than those at the regional and international levels. Drawing from her own observations, Eleanor Roosevelt said:

Scientific and technological progress, which began during the industrial revolution, led to even greater human consumption of natural resources and the emergence of ideas about the superiority of human being over nature, which ultimately led to an environmental disaster. In the 20th century, global production increased 20-fold, improving people's well-being and quality of life while

simultaneously destroying the ecosystems around them. It was during this period that people began to understand about their role in the environment, that is, its positive or negative impact on nature. And after two devastating world wars, an unregulated consumer attitude towards the environment, which the planet could not replenish even then, could lead to the destruction of humanity, prompted the fact that from that moment the question of environmental safety and the role of the human within the environment began to rise international level. As a result, environmental protection programs began to be developed and adopted both within the framework of national jurisdiction and within the framework of international law, thereby these actions began to be considered as a positive human impact on the environment Although the Universal Declaration of Human Rights, adopted by the General Assembly in 1948, did not contain an article on the human right to the environment, but in the late 1960s the environmental movement, which began to grow in strength, began to demand that the world community take measures within the framework of environmental safety. So in 1972, on the initiative of the General Assembly established the Environmental Protection Program (UNEP). This program was created as a result of the adoption of the Stockholm Declaration in 1972, aimed at creating international measures to prevent persistent environmental pollution, and identifying the role of human in the environment [2]. Through UNEP's collaboration with non-governmental and international organizations, a number of achievements in the field of environmental safety have been achieved. First of all, it was established that each person is individually responsible for the quality of the environment in which he lives. The Stockholm Declaration of 1972 brought environmental issues to attention at the national level. The solution to this problem was the establishment within 10 years of ministries of environmental protection in countries around the world. However, disagreements on a number of issues between developed and developing countries led to the fact that developed countries did not support, ignored or prevented the adoption of measures or acts in this area. This declaration went down in history as one of the first international documents that raised environmental problems and established the principles of action of participating countries and designated a person as an individual with the right to live in a healthy environment. June 5 was proclaimed by the General Assembly as World Environment Day, which has been celebrated every year since the 1972 Stockholm Conference on the Human Environment [3]. Then, subsequently, a number of other international documents were adopted, which not only referred to and confirmed the norms of the Stockholm Declaration, but also expanded the scope of the mechanisms necessary to prevent pollution and achieve a healthy environment within the framework of sustainable development.

UNEP played a significant role in this context. An international conference called RIO+20, 20 years after the 1992 RIO Conference on Environment and Sustainable Development, which brought the issue of sustainable development to the forefront of the UN and international agenda, attempted to establish UNEP as the leading global environmental body [4]. In collaboration with UNEP, the Intergovernmental Panel on Climate Change was created, and the Global Environment Facility was established. The main mission of the Intergovernmental Panel on Climate Change is to study the risks of climate change resulting from anthropogenic factors - that is, human activities in the environment. At the same time, the Global Environment Facility is an international financial entity aimed at financing projects to improve the environment. Its activities are implemented through the United Nations Environment Programme, the United Nations Development Program and the World Bank. Both of these organizations operate in the international arena as international entities, through which various international programs are implemented with the assistance of other international and non-governmental organizations [5].

Another well-known international organization is GREENPEACE [6]. At the beginning it acted as a movement against nuclear testing and for peace, in 1971 it transformed into an international non-governmental environmental organization aimed at combating environmental threats emanating from humans, as well as maintaining a healthy environment around the world. Today, this organization carries out actions against environmental pollution by industrial waste. GREENPEACE, with its many years of experience and influence, seeks from governments and companies to take measures and actions on specific environmental issues. This organization bases its activities on three principles: 1) the principle of independence - Greenpeace does not accept financial support from states, commercial structures and political parties. Its activities are carried out on the basis of donations from citizens and

private charitable foundations, 2) the principle of non-violence - Greenpeace does not accept any form of violence to achieve its goals, 3) the principle of protest by action - Greenpeace believes in protest as the only way to achieve and unite people to protect nature.

Another organization created to prevent destruction and protect the environment is the World Wildlife Fund [7]. This organization operates throughout the world, uniting millions of people to carry out its mission to combat the deterioration of the natural environment and achieve harmony and balance between human being and nature. At the initiative of the World Fund, in order to protect animals not only on land, but also at sea, a law was adopted to protect the sea from oil pollution, the fishing and trade of certain types of fish was completely prohibited, and a Bear Patrol was created in Artik to prevent conflicts between polar bears and human.

On the international stage, on October 8, 2021, the UN Rights Council took a step by adopting a resolution recognizing access to a sustainable and healthy environment, as its universal right of any person [8]. With this resolution, the Council called on countries around the world to work together to realize this right. This action was emphasized by the Orkhun Declaration of 1998, which raised the topic of the procedural right of a person to receive necessary and important information about the environment, his active participation in the decision-making process and access to justice to realize his right to a healthy environment. All these actions can be considered the result achieved by human rights activists, who were able to achieve through a long struggle not only with local groups of people, intergovernmental organizations, but also with states. It is necessary to understand that climate change, as a result of the negative impact of human activities, only aggravates its situation, forcing people to leave their homes, migrate to other places and jeopardize food security. Of course, there are many other international organizations in the world, such as the Organization for Economic Development and Cooperation (OECD), the Organization for Security and Cooperation in Europe (OSCE), the United Nations Economic Commission for Europe (UNECE) and many others, which, within their powers, develop such principles, implement such programs and projects that are aimed at protecting the environment and, first of all, at protecting the rights and freedoms of every person on earth within the framework of environmental safety.

It should be noted that the proposals listed above are part of international environmental law. First of all, international environmental law is a set of international legal norms and principles that regulate the relationship between subjects of international law regarding environmental protection, rational use of natural resources, ensuring environmental safety and human compliance with environmental standards.

Under the influence of international documents, states also began to adopt national regulations within their jurisdiction to regulate human activities that negatively impact the environment. States began to create nature reserves and national parks in order to preserve species of flora and fauna that are on the path to extinction. Projects are being adopted to regulate human-generated waste that negatively affects the environment by reusing it - that is, recycling waste. This will not only reduce environmental pollution, but will also prevent the dumping of potentially useful materials [9]. In particular, the countries of Western Europe have distinguished themselves in this, which, understanding the importance of the issue of environmental safety of the European continent, are taking strict measures in the field of construction and nature conservation to obtain results in this aspect. So, for example, to reduce environmental pollution in the energy sector, programs are being adopted and projects are being implemented to obtain alternative energy sources, thereby prohibiting dirty energy sources at the legislative level. And in industry, restrictions are set on the quantity of products produced to reduce the level of pollution in the atmosphere and soil [10]. In the countries of Asia and in a number of other continents, various national and regional documents are also adopted, however, due to the fact that most of the developing countries are located on these continents, their developing economy and the opportunities flowing from it do not allow them to fully implement these acts, which leads them to a violation.

In international law, there are many other international and regional treaties that regulate human activities in relation to the environment, defining the role of humans within nature. States and organizations must cooperate to solve environmental crises peacefully in accordance with the UN Charter. Together they must regulate the role of man in the environment, prevent all attempts to

commit crimes that may have a negative impact on nature, and also inform each other in advance about environmental crises occurring on their territory, in order to jointly eliminate them, preventing their spread throughout to the world.

Although today, despite the adoption of numerous international and regional treaties and acts that regulate human relations with the environment, that is, they give the idea that without this environment, not only a person, but the whole world cannot simply survive, that many people are still irrational and irresponsible they use natural resources for the benefit only of themselves, without thinking about those around them, makes us understand that even with such a level of technological progress, a person still remains anthropocentric, that is, an exorbitant egoist within the framework of the whole world. Even in modern literature one can notice that there are statements that even “the human takes from nature everything he needs”, and not vice versa, that “nature gives him everything he needs”. Such a statement itself undermines everything that has been done to achieve a balance between human and the environment. My main idea of this article is that a person himself must develop ideas about respect, his respectful attitude towards the world around him. International norms and principles only guide and systematize a person; states and their bodies only accept and monitor their implementation, thereby giving him a reason to think about his actions, about the rules of relations with nature. Because he must understand that the earth is our common and only home, and the decisions we make today will inevitably affect the fate of the next generation.

**References:**

1. https://www.kp.ru/guide/chelovek-i-priroda.html

2.https://wedocs.unep.org/bitstream/handle/20.500.11822/28247/Stkhm_DcltnHE.pdf

3. https://www.genevaenvironmentnetwork.org/world-environment-day/

4. https://sustainabledevelopment.un.org/rio20

5.https://www.worldenvironmentday.global/about/history#:~:text=1972%2C%20Sweden%20%7C%20Stockholm%20Conference%20on,to%20the%20creation%20of%20UNEP.

6. https://www.greenpeace.org/international/explore/energy/

7. https://www.worldwildlife.org/

8. https://www.coe.int/en/web/portal/-/committee-of-ministers-calls-on-member-states-to-recognise-the-right-to-a-clean-healthy-and-sustainable-environment-as-a-human-right

9. https://www.informationsverige.se/ru/om-sverige/att-bo-i-sverige/manniska-och-miljo.html

10.https://www.vedomosti.ru/economics/articles/2023/02/16/963159-evropeiskoe-promproizvodstvo-nachalo-sokraschatsya

**İdris Əsədzadə**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsinin**
**“İnsan hüquqları” ixtisaslaşması üzrə**
**magistrantı (asadzade.idris1@mail.ru).**

## ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNDƏ İNSANIN ROLU

*İnsan yer üzündə yaranandan bəri onun hərəkətləri ətraf mühitə təsir göstərmiş, onu dəyişdirmişdir. Min illər keçdikcə və planetdəki insanların sayı artdıqca ətraf mühitə bu təsir daha da gücləndi. Bu təsir həm mənfi, həm də müsbət ola bilər. Mənfi təsirlər yerli flora və faunanın məhv edilməsi, təbii ehtiyatlardan səmərəsiz istifadə nəticəsində onların tükənməsinə və məhvinə, bununla da müəyyən regionların ekosistemlərində tarazlığın dəyişməsinə, landşaftın dəyişməsinə səbəb olur. Bu günə qədər bu cür hərəkətlərin nəticəsi havanın çirklənməsi, meşələrin məhv edilməsi, su ehtiyatlarının, torpağın çirklənməsi, heyvanların qanunsuz məhv edilməsi və s. Təbii ki, bunlar insanın yarada bildiyi bütün ekoloji problemlər deyil, lakin onların sayı hər gün artır. Başa düşməliyik ki, ətraf mühitin iştirakı olmadan insanın mövcudluğu sadəcə olaraq mümkün deyil. İnsan və təbiət təkcə bir-biri ilə əlaqəli deyil, həm də bir-birindən asılıdır.*

***Açar sözlər:*** *ətraf mühit, insan hüquqları, insanın təbiətə münasibəti, ətraf mühit haqqında informasiya, beynəlxalq hüquqi mexanizmləri, beynəlxalq təşkilatlar, iqlim dəyişikliyi.*

**Идрис Асадзаде**
**Магистрант по специальности**
**Прав человека юридического факультета**
**Бакинского государственного университета**
**(asadzade.idris1@mail.ru).**

## РОЛЬ ЧЕЛОВЕКА В ЗАЩИТЕ ОКРУЖАЮЩЕЙ СРЕДЫ.

*С момента появления человека на земле он своими действиями оказывал воздействия на окружающую среду, меняя его. По прохождению тысячи лет и увеличением количества людей на планете данное воздействие на окружающую среду лишь усиливалась. Данное воздействие могло носить как негативный, так и позитивный характер. Негативные воздействия — это результат уничтожение местной флоры и фауны, нерациональное использование природных ресурсов приводящие к их истощению и уничтожению, тем самым меняя баланс в экосистемы определенных регионов, трансформируя ландшафт. На сегодняшний день результатом таких действий стало загрязнение атмосферы, уничтожение лесов, загрязнение водных ресурсов, почвы, незаконное уничтожение животных и многое другое. Конечно, это не все экологические проблемы, которые человека смог совершить, но и с каждым днем их количество лишь увеличивается. Мы должны понимать, что существование человека без наличия окружающей среде просто невозможно. Человек и природы не только взаимосвязаны, но и взаимозависимы.*

***Ключевые слова:*** *окружающая среда, права человека, отношение человека к природе, доступ к информации об окружающей среде, механизмы международного права, международные организации, изменение климата.*

**Məqalənin redaksiyaya daxil olma tarixi: 17.05.2023**

**Səadət Musayeva**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsinin**
**"Turizm hüququ" ixtisaslaşması üzrə magistrantı**
**(seadet.musayeva173@gmail.com).**

# BEYNƏLXALQ MÜQAVİLƏLƏR TURİZM HÜQUQUNUN MƏNBƏYİ KİMİ

*Turizm - dövlətlərin iqtisadi və siyasi cəhətdən inkişafını təmin edən münasibətlər sistemidir. Bu o deməkdir ki, turizm münasibətləri iqtisadi potensialına uyğun olaraq dövlətə gəlir gətirir, eyni zamanda dövlətlərarası əməkdaşlığın yaxşılaşdırılması ilə nəticələnir. İqtisadi əhəmiyyət daşıyan turizm dövlətin büdcəsini formalaşdıran əsas mənbələrdən birinə çevrilir. Siyasi əhəmiyyət daşıyan turizm beynəlxalq əlaqələrin müsbət istiqamətdə irəliləməsinə səbəb olur. Turizm sahəsinin formalaşdırılmasında maraqlı olan dövlətlər bunun üçün bir çox əməkdaşlıqlar edirlər. Beynəlxalq müqavilələr həmin bu önəmli məsələləri özündə əks etdirən mühüm sənədlərdir. Məqalədə beynəlxalq müqavilələrin əhəmiyyətindən və onların praktikada tətbiqinin nəticələrindən bəhs olunur.*

***Açar sözlər:*** *beynəlxalq müqavilə, əməkdaşlıq, turizm sektoru, iqtisadi münasibətlər, siyasi münasibətlər, nəticə, əhəmiyyət, beynəlxalq təşkilatlar.*

Beynəlxalq müqavilələr bu gün bütün hüquqi münasibətlərin ilkin həlledici mənbəyi qismində çıxış edir. Bütün hallarda beynəlxalq hüququn tələblərinə uyğun davranılmalıdır. Məhz buna görə də, turizm münasibətlərinin beynəlxalq hüquq çərçivəsində müəyyən standartları müəyyənləşdirilmişdir. Bu isə öz növbəsində dövlətlərdə turizm münasibətlərinin formalaşdırılmasına təsir göstərir. İctimai münasibətlər dayanmadan inkişaf edir. İnkişaf isə öz növbəsində yeniliklərin daşıyıcısıdır. Münasibətlər müxtəlif olmalıdır ki, bu da müxtəlif yanaşmalar və ya yeni ideyaların yaranmasına gətirib çıxaracaqdır. Bu ideyalar hüquqi yanaşmaların da fərdiləşməsi ilə nəticələnir.

Hər hansısa bir münasibətin beynəlxalq səviyyədə tədqiq edilməsi onun əhəmiyyətindən xəbər verir. Bu gün beynəlxalq münasibətlərin inkişafı özlüyündə beynəlxalq hüququn inkişafı deməkdir. Beynəlxalq hüquq bütün sahələrin ən önəmli müəyyənedicisidir. Qeyd etmək lazımdır ki, hazırda beynəlxalq müqavilələr mühüm hüquqi mənbə rolunu oynayır. Beynəlxalq müqavilələrin məhz özünəməxsusluğu bundan ibarətdir. O, özək rolunu daşıyır. Dövlətlər isə öz qanunvericiliklərini formalaşdırarkən beynəlxalq hüququn tələblərini nəzərə alır. Nəticədə dövlətlərin özlərinin effektiv hüquqi sistemi meydana çıxır. Beynəlxalq hüquqa münasibətdə iki yanaşmanın mövcudluğu hələ də mübahisə doğurur: monist nəzəriyyə və dualist nəzəriyyə. Düşünürük ki, milli hüquq və beynəlxalq hüquq, əlbəttə ki, ayrı-ayrı sahələrdir. Çünki milli hüquq milli maraqları özündə əks etdirir və etdirməlidir. Ən ideal hüquqi təminat mövcud hüquqi normaya uyğun olmalıdır.

Hüquq insana xidmət etməlidir. Turizmin ən önəmli ünsürü isə insandır. Son dövrlərdə turizm hüququ inkişaf etməkdədir. Turizm hüququnun hüquq sahələri içərisində spesifik xüsusiyyəti ondan ibarətdir ki, bu hüquq sahəsində iki maraqlı tərəf mövcuddur : 1) turizm münasibətlərinin birbaşa iştirakçısı olan şəxslər; 2) bu sahənin inkişafında maraqlı olan dövlət.

Dövlətlərin turizmə olan münasibəti belə ikili xarakter daşıyır. Dövlətlər bu sahənin inkişafında ilk növbədə ona görə maraqlıdır ki, büdcəyə gəlir gətirən əsas sahələrdən biri də turizmdir. Bununla da dövlət özünün turizm sənayesini və infrastrukturunu formalaşdırır. Digər tərəfdən turizm əhalinin məşğulluq səviyyəsini yüksəldir. Yeni iş yerlərinin yaradılması buna əyani misaldır. Bundan başqa turizm münasibətləri dövlətləri bir-birilə əməkdaşlıq etməyə sövq edir. Bu da dünya dövlətləri arasında turizm münasibətləri ilə yanaşı siyasi, iqtisadi, mədəni və s. əlaqələrin inkişafına gətirib çıxarır.

Turizm sahəsində olan beynəlxalq müqavilələri tərəflərin iştirakına görə iki qrupa bölmək olar. 1) turizm sahəsində çoxtərəfli beynəlxalq müqavilələr; 2) turizm sahəsində ikitərəfli beynəlxalq müqavilələr [ 3, s. 141]. 1954-cü ildə BMT çərçivəsində 3 universal beynəlxalq müqavilə işlənib hazırlanmış və qəbul edilmişdir. Onlara Turistlər üçün gömrük güzəştləri haqqında Konvensiya, ona Əlavə olan Turizmə dair məlumat xarakterli sənəd və materialların idxalı haqqında Protokol, Xüsusi yol nəqliyyat vasitələrinin idxalı haqqında Gömrük Konvensiyası aiddir. Yuxarıda sadaladığımız müqavilələrin və bunlardan əlavə qəbul edilən digər beynəlxalq sənədlərin ortaq xüsusiyyəti ondan ibarətdir ki, onların hamısı turizm münasibətlərinin tənzimlənməsi qaydalarını müəyyən etməyə xidmət edir.

Turizm münasibətlərinin effektiv inkişafı ikitərəfli beynəlxalq müqavilələr də özünü daha yaxşı biruzə verir. Çünki bu münasibətlər iki tərəf arasında yaranır və onun nəticəsini müəyyənləşdirmək daha asan olur. İki tərəf arasında turizmlə yanaşı digər sahələrdə də müəyyən dəyişikliklər özünü biruzə verə bilir. Dövlətlər öz aralarında əməkdaşlıq etdiyi zaman turizmlə bağlı məsələnin həllini iki qaydada həll edə bilərlər. Bağlanılan müqavilə ya birbaşa turizmlə bağlı olur, ya da başqa sahə ilə bağlı olsa belə özündə turizmlə bağlı müddəalara yer verir.

Azərbaycan Respublikası turizm sahəsində müvəffəqiyyətlər göstərən ölkələrdən biridir.Bu sahənin tənzimlənməsi ilə bağlı 1999-cu il 4 iyun tarixində "Turizm haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. Bu qanun öz növbəsində həm turizm münasibətlərinin tənzimlənməsini, həm də inkişaf etdirilməsini özündə əks etdirdi. 2021-ci il 27 dekabr tarixində qanuna edilmiş əlavə və dəyişiklərlə "Turizm haqqında" Azərbaycan Respublikası Qanunu özünün ən mükəmməl formasını almışdır. Bu qanun Azərbaycan Respublikasında dayanıqlı turizmin inkişaf etdirilməsi məqsədilə qəbul edilmişdir [7].

Turizmin inkişaf etdirilməsi bütün dünya dövlətləri üçün mühüm əhəmiyyət kəsb edir. Hər bir regionun öz turizm potensialı vardır. Məsələn: Avropa İttifaqı regionunda turizmin inkişafının xarakterik xüsusiyyəti region daxili xarici turizmin geniş vüsət almasıdır ki, bunun da xarici turizmdə payı 87.8 faiz qiymətləndirilir (1996) [ 6, s. 35].

Azərbaycan Respublikası bir çox dövlətlərlə turizm sahəsində əməkdaşlıq edir, ikitərəfli və çoxtərəfli müqavilələr bağlayır və bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Azərbaycan Respublikasında ikitərəfli müqavilə praktikası kifayət qədər normativ baza üzərində formalaşmışdır [3, s. 180]. Azərbaycan Respublikasının turizmlə bağlı ikitərəfli müqavilələr siyahısına bunları əlavə etmək olar: "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında 1992-ci il noyabr ayının 2-də Ankara şəhərində bağlanmış turizm sahəsində əməkdaşlıqla bağlı" Saziş, "Azərbaycan Respublikası Hökuməti ilə Ruminiya Respublikası Hökuməti arasında 1996-cı ilin mart ayında turizm sahəsində əməkdaşlıq haqqında" Saziş, "1997-ci il Azərbaycan Respublikası Hökuməti ilə İtaliya Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında" Saziş, "1999-cu ildə Azərbaycan Respublikası Hökuməti ilə Ukrayna Nazirlər Kabineti arasında bağlanmış turizm sahəsində əməkdaşlıq haqqında" Saziş, 1994-cü ildə Azərbaycan Respublikası Hökümәti ilə Çin Xalq Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıqla bağlı" Saziş, "1997-ci il AR Hökuməti ilə Polşa Hökuməti arasında turizm sahəsində əməkdaşlıqla bağlı" Saziş və s. Bütün bu müqavilələr dövlətlər arasında turzim münasibətlərini inkişaf etdirilməsinə xidmət edir.

Bütün hallarda münasibətlərin növündən asılı olmayaraq fərdin ən ali insan hüquq və azaqdlıqları təmin olunmalıdır. Turizm münasibətlərində də bu belədir. Turzim münasibətləri daxilində hüquq pozuntusu meydana gəldiyi zaman bunun tənzimlənmə qaydaları müəyyənləşdirilmişdir. Məhz elə həmin bu beynəlxalq müqavilələr bu kimi məsələlərin həll edilməsi məqsədilə qəbul edilmişdir. Beynəlxalq müqavilələr iki məqsədlə qəbul edilə bilər: 1) Həmin münasibətin formalaşdırılması və inkişaf etdirilməsi məqsədilə 2) Həmin münasibətin tənzimlənməsi məqsədilə. Tənzimetmə baxımından turizmdə müəyyən qaydalar mövcuddur. Turist getdiyi dövlətin daxili qanunvericiliyinə, beynəlxalq hüququn ümumqəbuledilmiş normalarına riayət etməli və yerli əhalinin adət-ənənələrinə hörmətlə yanaşmalıdır. Bu halda baş vermiş hüquq pozuntusu həmin dövlətin milli qanunvericiliyinə uyğun olaraq həll ediləcəkdir.

Son illərdə turizmin təşkili işi qloballaşaraq sırf beynəlxalq fəaliyyət dairəsinə daxil olmuşdur [ 4, s. 22]. Turizm münasibətləri sadəcə səyahət nəticəsində dövlətə xeyir gətirmir, eyni zamanda turizm sosial-iqtisadi sahədə insanların problemlərinin ödənilməsinə yardımçı olan bir fəaliyyət sahəsinə çevrilmişdir. Bu gün beynəlxalq aləm turizm sahəsinin inkişaf etdirilməsində xeyli maraqlıdır.

Turizm bazarı xidmətlər bazarı olmaqla tələb və təklif əsasında formalaşır [2, s. 219]. Turizmin fərqliliyi də məhz bundadır. Münasibətlər sistemi kimi turizm müxtəlif faktorların təsiri altında olur. Turizm sahəsinin inkişaf etdirilməsi və bu sahədə daim yüksək göstəricilər əldə etmək heç də o qədər asan deyil. Qeyd etdiyimiz kimi, buna bir sıra səbəblər öz təsirini göstərir. Dövlətlər öz turizm məhsulunu yaxşı reklam etməyi bacarmalı, bununla ölkənin beynəlxalq arenadakı imicini formalaşdırmalıdır. Onu da qeyd edək ki, turizmin inkişaf etdirilməsi bir tərəfədən reklam fəaliyyətinin düzgün həyata keçirilməsi ilə də bağlıdır. Fərd səyahət edəcəyi ölkəni seçən zaman bir neçə məsələyə diqqət yetirir. Bunlardan ən əsasları həmin ölkə ərazisində hərbi-siyasi vəziyyətin stabil

olması, insan hüquq və azadlıqlarının həmin ölkə ərazisində realizəsi, turistin şəxsi və əmlak təhlükəsizliyinin təmin olunması, turizm ehtiyyatlarının hansı səviyyədə olması və s. səbəblərdir.

Son illərdə dünyanı ağuşuna alan pandemiyanın mövcudluğu və karantin şəraitinin tətbiqi nəticəsində turizm sahəsində ciddi zəifləmələr meydana gəldi. Pandemiya dövrü ərzində bir çox ölkələrə səyahət qadağan edilmişdi. Şübhəsiz ki, bütün dövlətlər bundan zərər çəkdi. Pandemiyadan sonraki vəziyyət isə bu sahədə əldə edilmiş təcrübələrdən birinə çevrildi. Dövlətlər bu sahədə müvafiq təcrübələr qazandılar. Məsələn: müəyyən dövlətlərdə turistlərə müəyyən qadağalar tətbiq olunur, lakin bəzi dövlətlərdə isə onlara müəyyən imtiyaz və güzəştlər verilirdi.

Beynəxalq səviyyədə turizm münasibətlərinin inkişafı və yaxşılaşdırılması qismində müqavilələrdən əlavə bir sıra beynəlxalq layihələr də həyata keçirilir. Buna misal olaraq Avropa İttifaqı Azərbaycan Respublikasında Tvinninq layihəsi həyata keçirmişdir. Buradakı əsas məqsəd turizm sektorunun göstəricilərini yaxşılaşdırmaqdan ibarətdir. Turizm və beynəlxalq səyahətlər dünyada ən güclü iqtisadi inkişaf vasitəsinə çevrilmişdir [1, s. 26]. Turizm dövlətlərin büdcələrini formalaşdıran önəmli vasitələrdən biridir. Buna görə də hər bir dövlət bu sahədə üstünlük əldə etməyə çalışır.

Bu gün Azərbaycan Respublikası bütün sahələrdə öz sözünü deyən bir dövlətdir. Bütün göstəriciləri ilə beynəlxalq aləmdə öz yerini qazanmışdır. Uzun müddət idi ki, Respublikamızın bəzi əraziləri işğal altında idi. Beynəlxalq hüququn tələblərinə uyğun olaraq Azərbaycan Respublikası öz ərazilərini düşmən tapdağından azad etdi. Bu gün Azərbaycan Respublikası işğaldan azad edilmiş ərazilərdə təmir-bərpa işləri görür. Eyni zamanda həmin ərazilər turizm sahəsinə çevrilir. Böyük turizm ehtiyyatına malik olan həmin bu ərazilərə dövlət büdcəsindən pul ayrılır. Bunun nəticəsində həmin ərazilər xarici vətəndaşların səyahət edə biləcəyi alternativ məkanlara çevrilir. Biz beynəlxalq hüququn tələblərinə uyğun davranır və əsas insan hüquq və azadlıqlarının təmin edilməsi və qorunması üçün hər cür şərait yaradırıq. Buna uyğun olaraq Azərbaycan Respublikası ərazisində ilk növbədə qanunvericilik ən effektiv şəkildə tətbiq olunur, turizm münasibətləri də daxil olmaqla bütün münasibətlər Konstitusiyamızın tələblərinə uyğun olaraq həll edilir. Ölkə ərazisində hüquq mübahisələri normativ və digər hüquqi aktlarına tələblərinə uyğun olaraq tənzimlənir. Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsi Qanunvericilik sistemimizə daxil olan aktlardan bəhs edir [8]. Həmin ardıcıllığa uyğun olaraq tənzimlənmə prosesi həyata keçirilir.

Qeyd etdiyimiz kimi, turizm sahəsində bir sıra beynəlxalq müqavilələr bağlanmışdır. Həmin müqavilələr yalnız praktikada realizə olunduğu zaman real əsasa malik olur. Bəs əgər bağlanmış müqavilə ilə Azərbaycan Respublikası qanunvericilik sisteminə daxil olan aktlar arasında ziddiyyət yarandığı zaman bu məsələnin həlli necə olacaqdır? Bu məsələnin həlli Konstitutsiyının 151-ci maddəsində öz əksini tapmışdır. Belə ki, 151-ci maddədə qeyd olunur: "Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə ( Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilmiş aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir" [8]. Bu baxımdan beynəlxalq müqavilələrin əhəmiyyəti bir daha ön plana çıxır. Şərhimiz bu yöndədir ki, beynəlxalq müqavilələr iki hal istisna olmaqla hər zaman əsas götürülür. Buna görə də beynəlxalq müqavilələr daxili qanunvericilik aktlarının formalaşmasına da öz təsirini göstərir. Beynəlxalq müqavilələrin rolu və əhəmiyyəti danılmazdır. Lakin milli qanunvercilik aktları ilə beynəlxalq aktların bir-birini tamamlaması müasir dövrdə hüquqi keyfiyyətin yüksək dərəcədə olmasından və implementasiya prosesinin düzgün tətbiqindən xəbər verir. Beynəlxalq müqavilələr əhatəli şəkildə təşkil olunur. Azərbaycan Respublikasının Konstitutsiyasına görə beynəlxalq müqavilələr qanunvercilik sistemimizin tərkib hissəsidir [7].

Nəticə etibari ilə turizm sahəsində bağlamış olduğumuz beynəlxalq müqavilələr bu sahənin inkişafı və dövlətimizin güclənməsi ilə nəticələnir. Hər bir halda bağlanan beynəlxalq müqavilələr həm bizim, həm də turizm hüquq münasibətlərinin bərqərar olması üçün üstünlük hesab olunur .Bu sahənin inkişaf etdirilməsi məqsədilə beynəlxalq-elmi konfransların, seminarların və praktiki tədbirlərin keçirilməsi daha da effektiv nəticənin əldə olunmasına səbəb olacaqdır. Fikrimizcə, turizm sahəsində texnologiya vasitələrindən istifadə etməklə müəyyən proqramların hazırlanması turistlərin səyahət zamanı rahatlığını təmin edəcəkdir.

**İsitnadlar:**

1. Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Dərs vəsaiti. Bakı: "Mütərcim", 2006, 276 s.
2. Bilalov B.Ə., Gülalıyev Ç.G. Turizmin əsasları. Dərslik. Bakı: "QHT nəşriyyatı", 2015, 492 s.
3. Əliyev Ə.İ., Aslanov E.Z. Beynəlxalq Turizm Hüququ. Dərslik. Bakı: NAT MMC, 2011, 475 s .
4. İlqar Hüseynov, Nigar Əfəndiyeva. Turizm hüququnun əsasları. Dərslik. Bakı: "Mars-Print", 2007, 442 s.
5. Ankara Universitesi Uzaktan Eğitim Yayınları. Turizm Mevzuatı. 2010. 539 s.
6. Tourism market trends Europe 1985-1995.WTO commission for Europe. İsrael, 1996, p. 70.
7. www.president.az
8. www.e-qanun.az.

**Saadat Musaeva**
**Master student in speciality "Tourism Law"**
**of the Faculty of Law of Baku**
**State University (seadet.musayeva173@gmail.com).**

**INTERNATIONAL TREATIES AS A SOURCE OF TOURISM LAW**

*Tourism is a system of relations that ensures the economic and political development of states. This means that tourism relations generate income for the state in accordance with its economic potential and at the same time lead to improved interstate cooperation. Tourism, which has economic significance, is becoming one of the main sources of the state budget. Politically important tourism contributes to the development of international relations in a positive direction. States interested in the formation of the tourism sector enter into numerous agreements for this purpose. International agreements are important documents that reflect these important issues. The article talks about the significance of international agreements and the consequences of their application in practice.*

**Keywords:** *international agreement, cooperation, tourism, economic relations, political relations, result, significance, international organizations.*

**Саадат Мусаева**
**Магистрант по специальности**
**Туристического права юридического факультета**
**Бакинского государственного университета**
**(seadet.musayeva173@gmail.com).**

**МЕЖДУНАРОДНЫЕ ДОГОВОРЫ**
**КАК ИСТОЧНИК ТУРИЗМСКОГО ПРАВА**

*Это система отношений, обеспечивающая экономическое и политическое развитие государств. Это означает, что туристические отношения приносят доход государству в соответствии с его экономическим потенциалом и в то же время приводят к улучшению межгосударственного сотрудничества. Туризм, имеющий экономическое значение, становится одним из основных источников формирования государственного бюджета. Политически важный туризм способствует развитию международных отношений в положительном направлении. Государства, заинтересованные в формировании туристического сектора, заключают для этого многочисленные соглашения. Международные соглашения являются важными документами, отражающими эти важные вопросы. В статье говорится о значении международных соглашений и последствиях их применения на практике.*

***Ключевые слова:*** *международное соглашение, сотрудничество, сфера туризма, экономические отношения, политические отношения, результат, значение, международные организации.*

**Məqalənin redaksiyaya daxil olma tarixi: 04.10.2023**

# ƏLAVƏLƏR

## Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 26 və 61-ci maddələri baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.16.3-cü maddəsində nəzərdə tutulan "müdafiəçinin cinayət prosesində iştirakını istisna edən hallar" müddəasının həmin Məcəllənin 19.6, 32, 92.10 və 114-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair

**9 oktyabr 2023-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 26 və 61-ci maddələri baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.16.3-cü maddəsində nəzərdə tutulan "müdafiəçinin cinayət prosesində iştirakını istisna edən hallar" müddəasının həmin Məcəllənin 19.6, 32, 92.10 və 114-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim H.Əfəndiyevanın məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Baş Prokurorluğunun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsi, Bakı Apellyasiya Məhkəməsi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının mütəxəssis mülahizələrini, ekspertlər Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının professoru, hüquq elmləri doktoru M.Qəfərovun və həmin kafedranın dosenti, hüquq üzrə fəlsəfə doktoru R.Rüstəmovun rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### Müəyyən etdi:

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu verərək Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət- Prosessual Məcəlləsi) 92.16.3-cü maddəsində nəzərdə tutulan "müdafiəçinin cinayət prosesində iştirakını istisna edən hallar" müddəasının həmin Məcəllənin 19.6, 32, 92.10 və 114-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda qeyd edilir ki, Cinayət-Prosessual Məcəlləsinin 19.1-ci maddəsində qanunverici imperativ qaydada cinayət təqibi gedişində təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxslərin keyfiyyətli hüquqi yardım almaq hüququnun təmin edilməsi üçün tədbirlərin görülməsini müəyyən etmişdir.

Eyni zamanda, Cinayət-Prosessual Məcəlləsinin 19.6-cı maddəsi ilə cinayət prosesində şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəçisinin və qanuni nümayəndəsinin iştirak etməsinin bu şübhəli və ya təqsirləndirilən şəxsin hüquqlarını məhdudlaşdıra bilməməsi təsbit edilmişdir.

Sorğuverənin qənaətinə görə, təcrübədə şübhəli və ya təqsirləndirilən şəxslərin müdafiə hüquqlarının təmin edilməsi sahəsində cinayət-prosessual qanunvericiliyinin tələblərinə əməl edilməməsi və bu məsələləri tənzimləyən normaların fərqli qaydada tətbiq edilməsi halları baş verir.

Belə ki, bəzi hallarda təqsirləndirilən şəxs ona qarşı irəli sürülmüş ittiham üzrə özünü təqsirli bilməsə də, müdafiəçi ittiham üzrə cinayət əməlinin daha yüngül maddə ilə tövsif edilməsi və ya yüngülləşdirici halların yekun ittihamda nəzərə alınması məqsədilə cinayət təqibi orqanlarına vəsatətlər təqdim edir. Həmin vəsatətlər əsasında icra edilən müvafiq istintaq və digər prosessual hərəkətlər onunla izah olunur ki, şübhəli və ya təqsirləndirilən şəxslər Cinayət-Prosessual Məcəlləsinin 19.4.4 və 92.12-ci maddələrində göstərilən "şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə müdafiə olunmaq" hüquqlarını həyata keçirir və həmin müdafiəçidən imtina etmir.

Cinayət mühakimə icraatının sonrakı mərhələlərində isə məhkəmələr tərəfindən bəzən müdafiəçinin göstərilən prosessual hərəkətləri Cinayət-Prosessual Məcəlləsinin 92.10-cu maddəsində sadalanan qadağan edilmiş hallarla əlaqələndirilərək və ya təqsirləndirilən şəxsin müdafiə hüququnun pozulması kimi qiymətləndirilərək, həmin Məcəllənin 303.3.1-ci maddəsinə əsasən cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə qərar qəbul edilir.

Belə ki, həmin maddəyə əsasən, cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə qərar təqsirləndirilən şəxsin müdafiə hüququnun kobud pozulmasına yol verildikdə çıxarılır.

Sorğuda göstərilib ki, Cinayət-Prosessual Məcəlləsinin 114.1-ci maddəsinə əsasən müdafiəçiyə, həmçinin zərər çəkmiş şəxsin (xüsusi ittihamçının), mülki iddiaçının, mülki cavabdehin və ya şahidin nümayəndəsinə etiraz onun cinayət prosesində sonrakı iştirakını istisna edən hallardan hər hansı biri olduqda əsaslı sayılmalı və şərtsiz təmin olunmalıdır. Həmin hallar Məcəllənin 114.1.1 -114.1.5-ci maddələrində sadalanmışdır.

Cinayət-Prosessual Məcəlləsinin 92.10-cu maddəsində isə müdafiəçiyə münasibətdə müəyyən qadağalar təsbit edilmişdir. Sorğuverən həmin qadağaların müdafiəçinin cinayət prosesindən kənarlaşdırılması üçün əsas qismində çıxış edib-etməməsi ilə bağlı hüquq tətbiqetmə təcrübəsindəki qeyri-müəyyənliyin aradan qaldırılması, vahid istintaq və məhkəmə təcrübəsinin formalaşdırılması, cinayət və cinayət-prosessual qanunvericiliyi normalarının eyni qaydada tətbiqinin və bununla da hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədilə Konstitusiya Məhkəməsinə sorğu verilməsi qənaətinə gəlmişdir.

Prokurorluq Cinayət-Prosessual Məcəlləsinin 92.16.3-cü maddəsində nəzərdə tutulmuş "müdafiəçinin cinayət prosesində iştirakını istisna edən hallar" müddəasının aşağıdakı hüquqi məsələlər üzrə həmin Məcəllənin 19.6, 32, 92.10 və 114-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir:

- müdafiəçinin cinayət prosesində iştirakını istisna edən hallara hansı halların aid edilməsini (ona etiraz edilməli olan hallarla yanaşı, müdafiəçiyə qadağan olunmuş hərəkətləri də əhatə edib-etməməsi), eyni zamanda təqsirləndirilən şəxsin özünü təqsirli bilmədiyi ittiham üzrə müdafiəçinin cinayət əməlinin daha yüngül maddəyə tövsif edilməsinə dair müraciət etməsinin belə halların sırasına aid olub-olmaması;
- təqsirləndirilən şəxsin özünü təqsirli bilmədiyi ittiham üzrə cinayət əməlinin daha yüngül maddəyə tövsif edilməsinə dair müraciət etmiş müdafiəçinin kənarlaşdırılmasına dair müdafiə olunan şəxsin müvafiq vəsatəti və ya razılığı olmadığı halda, həmin müdafiəçinin icraatın sonrakı mərhələsində iştirakının müdafiə hüququnun kobud pozuntusu hesab edilib-edilməməsi.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar aşağıdakıların qeyd olunmasını vacib hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 26-cı maddəsinə əsasən, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını

müdafiə etmək hüququ vardır. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir.

Konstitusiyanın 61-ci maddəsinin I hissəsinə müvafiq olaraq, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır.

Konstitusiyanın 61-ci maddəsinin III hissəsi ilə təsbit edilmiş hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ, şəxsin müdafiəçini seçmək hüququnu da ehtiva edir.

Hər bir şəxsin müdafiəçinin köməyindən istifadə etmək hüququ yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun növü olaraq Konstitusiyada təsbit olunmuş digər hüquqlarla qarşılıqlı əlaqədədir (qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını müdafiə etmək hüququ, azadlıq hüququ, məhkəmə müdafiəsi hüququ) və onların həyata keçirilməsini təmin edir. Bunun davamı olaraq ədalət mühakiməsinin əsas ünsürlərindən biri kimi, müdafiəçinin köməyindən istifadə etmək hüququnun başlıca məqsədi şübhəli və ya təqsirləndirilən şəxsi müdafiəçi ilə təmin etməklə cinayət prosesində tərəflərin real (həqiqi) bərabərliyinə zəmanət verməkdir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.12-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 2011-ci il 20 may tarixli Qərarı).

Müdafiəçinin köməyindən istifadə etmək hüququ beynəlxalq-hüquqi aktlarla da fundamental hüquqlar sırasında tanınır. "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 14-cü maddəsinin 3-cü hissəsinin b və d bəndlərinə əsasən, hər bir şəxsin ona qarşı irəli sürülən istənilən cinayət ittihamına baxılarkən bərabərlik əsasında öz müdafiəsinə hazırlaşmaq və özünün seçdiyi müdafiəçi ilə əlaqə saxlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq; öz iştirakı ilə mühakimə olunmaq və özünü şəxsən və ya öz seçdiyi müdafiəçi vasitəsilə müdafiə etmək; əgər müdafiəçisi yoxdursa, bu hüququ barədə xəbərdar edilmək və ədalət məhkəməsinin mənafeyi bunu tələb etdiyi istənilən halda onun üçün təyin edilmiş müdafiəçiyə, bu müdafiəçinin haqqını ödəməyə kifayət qədər vəsaiti olmadığı istənilən halda isə pulsuz müdafiəçiyə malik olmaq hüququ vardır.

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra – Konvensiya) 6-cı maddəsinin 3-cü hissəsinin c bəndinə görə, cinayət törətməkdə ittiham olunan hər kəs şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə belə müdafiədən pulsuz istifadə etmək hüququna malikdir.

Cinayət-Prosessual Məcəlləsinin 19.4.4-cü maddəsinə əsasən, cinayət prosesini həyata keçirən orqan şübhəli və ya təqsirləndirilən şəxsin bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə müdafiə olunmaq, yaxud müdafiəçinin haqqını ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, pulsuz hüquqi yardım almaq hüquqlarını təmin etməlidir.

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun preambulasında isə qeyd edilmişdir ki, bu Qanun Azərbaycan Respublikasının ərazisində hər bir şəxsin məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda öz hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsini həyata keçirmək üçün özünün seçdiyi vəkilə müraciət etmək hüququnun təmin olunması məqsədi ilə qəbul edilir.

Vurğulanmalıdır ki, müdafiəçinin şübhəli və ya təqsirləndirilən şəxsin özü tərəfindən sərbəst seçilməsi hüquqi yardımın səmərəliliyini artırmaqla yanaşı, ümumiyyətlə məhkəmə müdafiəsinin keyfiyyətinə təsir göstərir. Belə ki, etibar etdiyi və birlikdə müdafiə strategiyasını razılaşdırdığı müdafiəçi tərəfindən təmsil olunma şübhəli və ya təqsirləndirilən şəxsin qanuni maraqlarına xidmət etmiş olur.

İnsan hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra – Avropa Məhkəməsi) formalaşdırdığı hüquqi mövqeyə əsasən, vəkil və onun müdafiə etdiyi şəxs arasındakı münasibətlər etibar və anlaşılmaya əsaslanmalıdır (Şaxnovski Rusiyaya qarşı iş üzrə 2010-cu il 2 noyabr tarixli Qərar, §102).

Bununla belə Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, özünün seçdiyi vəkil tərəfindən müdafiə olunmaq hüququ mütləq hüquq deyil. Belə ki, müdafiəçi yardımının publik-hüquqi təbiətindən irəli gələrək, şübhəli və ya təqsirləndirilən şəxslərin konkret müdafiəçini seçmək hüququ ədalət mühakiməsinin maraqları naminə, tez, ədalətli və keyfiyyətli məhkəmə müdafiəsinin həyata keçirilməsi məqsədilə məhdudlaşdırıla bilər.

Bu mövqe Avropa Məhkəməsinin hüquqi mövqeləri ilə də uzlaşır. Belə ki, şəxsin özü tərəfindən seçdiyi müdafiəçi vasitəsi ilə təmsil olunma hüququ mütləq hüquq deyil və "ədalət mühakiməsinin maraqları naminə" ciddi və yetərli əsaslar olduğu halda məhdudlaşdırıla bilər (Dvorski Xorvatiyaya qarşı iş üzrə 2015-ci il 20 oktyabr tarixli, §§ 78-79; Martin Estoniyaya qarşı iş üzrə 2013-cü il 30 may tarixli, §90 Qərarlar). Belə əsaslar olmadan, müdafiəçini sərbəst seçmək hüququnun məhdudlaşdırılması Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin və 3-cü bəndinin (c) yarımbəndinin pozuntusu hesab oluna bilər.

Şübhəli və ya təqsirləndirilən şəxsin özünün seçdiyi müdafiəçi vasitəsilə müdafiə olunmaq hüququnu məhdudlaşdıran hallar Cinayət-Prosessual Məcəlləsi ilə dəqiq müəyyən edilmişdir.

Cinayət-Prosessual Məcəlləsinin müdafiəçiyə və nümayəndəyə etiraz qaydalarını tənzimləyən 114.1-ci maddəsinə əsasən, müdafiəçiyə, həmçinin zərər çəkmiş şəxsin (xüsusi ittihamçının), mülki iddiaçının, mülki cavabdehin və ya şahidin nümayəndəsinə etiraz onun cinayət prosesində sonrakı iştirakını istisna edən aşağıdakı hallardan hər hansı biri olduqda əsaslı sayılmalı və şərtsiz təmin olunmalıdır:

- cinayət prosesində iştirak edən və ya əvvəllər iştirak etmiş hakimlə, prokurorla, müstəntiqlə, təhqiqatçı ilə və ya məhkəmə iclasının katibi ilə qohumluq əlaqələrinin, habelə bu şəxslərdən şəxsi və ya xidməti asılılığın olması;

- cinayət təqibi üzrə icraatda hakim, prokuror, müstəntiq, təhqiqatçı, hal şahidi, məhkəmə iclasının katibi, tərcüməçi, mütəxəssis, ekspert və ya şahid qismində iştirak etməsi;

- hakim, prokuror, müstəntiq və ya təhqiqatçı vəzifələrini tutması (təqsirləndirilən, şübhəli şəxsin və ya cinayət prosesinin fəaliyyət qabiliyyəti olmayan iştirakçısının qanuni nümayəndəsi olması, yaxud mülki iddiaçı və ya mülki cavabdeh kimi tanınmış işlədiyi orqanın nümayəndəsi qismində iştirak etməsi hallarından başqa);

- qanuni mənafeyini müdafiə etdiyi təqsirləndirilən və ya şübhəli şəxsin, həmçinin təmsil etdiyi zərər çəkmiş şəxs, mülki iddiaçı, yaxud mülki cavabdehin qanuni mənafeyi ilə ziddiyyət təşkil edən şəxsə hüquqi yardım göstərməsi;

- qanuna və ya məhkəmənin hökmünə əsasən müdafiəçi və ya nümayəndə olmaq hüququnun olmaması (Cinayət-Prosessual Məcəlləsinin 114.1.1-114.1.5-ci maddələri).

Məcəllənin 114.2-ci maddəsində həmin Məcəllənin 114.1-ci maddəsində göstərilən hallardan hər hansı biri olduqda müdafiəçinin, habelə zərər çəkmiş şəxsin (xüsusi ittihamçının), mülki iddiaçının, mülki cavabdehin və şahidin nümayəndəsinin özü-özünə etiraz etməli olduğu təsbit olunmuşdur.

Müdafiəçiyə, habelə zərər çəkmiş şəxsin (xüsusi ittihamçının), mülki iddiaçının, mülki cavabdehin və şahidin nümayəndəsinə etiraz məsələsi cinayət prosesini həyata keçirən orqan tərəfindən həll edilir (Cinayət-Prosessual Məcəlləsinin 114.3-cü maddəsi).

Xüsusilə qeyd edilməlidir ki, Məcəllənin 114.1-ci maddəsində göstərilən əsaslardan biri mövcud olduğu və müdafiəçinin özü-özünə etiraz etmədiyi halda, müdafiəçiyə şübhəli və ya təqsirləndirilən şəxs, dövlət ittihamçısı və ya xüsusi ittihamçı, habelə zərər çəkmiş şəxs, mülki iddiaçı, mülki cavabdeh, onların qanuni nümayəndələri və ya nümayəndələri tərəfindən etiraz edilə bilər (Cinayət-Prosessual Məcəlləsinin 107.3.2-ci maddəsi).

Həmçinin, Məcəllənin 107.5-ci maddəsində müəyyən olunmuşdur ki, cinayət prosesini həyata keçirən orqan da öz səlahiyyətləri daxilində cinayət prosesinin gedişində müvafiq şəxsin cinayət prosesində iştirakını istisna edən halları aşkar etdikdə, öz təşəbbüsü ilə onu cinayət prosesindən kənarlaşdırmağa haqlıdır.

Sorğuda qaldırılan müdafiəçiyə qadağan olunmuş hərəkətlərin onun cinayət prosesində iştirakını istisna edən hallara aid edilib-edilməməsi ilə bağlı qeyd olunmalıdır ki, qanunverici Cinayət-Prosessual Məcəlləsinin 114.1-ci maddəsində müdafiəçinin cinayət prosesində iştirakını istisna edən halları məhdud şəkildə müəyyən etməklə, bu halları müdafiəçiyə qadağan edilmiş hərəkətlərdən fərqləndirmişdir. Bu maddədə göstərilən halların hamısı öz hüquqi təbiətinə görə bütövlükdə ədalət mühakiməsinin, cinayət mühakimə icraatının obyektivliyinin, qərəzsizliyinin və ədalətliliyinin təmin edilməsinə yönəlmişdir.

Məcəllənin 92.10-cu maddəsi ilə nəzərdə tutulan müdafiəçiyə qadağan olunan hərəkətlər isə birbaşa şəxsin hüquqlarının və qanunla qorunan mənafelərinin müdafiəsi məqsədilə onlara yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsinin təmin olunmasına və müdafiəçinin müvafiq davranış qaydalarının tələblərinə riayət etməməsi nəticəsində müdafiə olunan şəxsin mənafeyinə zərər vuran hərəkətlərin aradan qaldırılmasına yönəlmişdir.

Nəzərə alınmalıdır ki, qanunverici məhz müdafiə olunanın mənafeyi baxımından məsələyə yanaşaraq müdafiəçi və ya nümayəndə qismində təyin edilmiş şəxsin səriştəsinə və ya vicdanlı olmasına şübhə və ya digər səbəblər olduqda, onların cinayət prosesindən kənarlaşdırılmasını yalnız müdafiə olunanın, yaxud təmsil edilən şəxsin vəsatəti əsasında mümkün hesab etmişdir.

Belə ki, Cinayət-Prosessual Məcəlləsinin 114.4-cü maddəsinə əsasən, müdafiəçi və ya nümayəndə qismində təyin edilmiş şəxsin səriştəsinə və ya vicdanlı olmasına şübhə və ya digər səbəblər olduqda, müdafiə olunan, yaxud təmsil etdiyi şəxsin vəsatəti əsasında müdafiəçi və ya nümayəndə cinayət prosesindən kənarlaşdırılmalıdır.

Məcəllənin həmin maddəsi ilə müəyyən edilmiş müdafiəçinin kənarlaşdırılma əsasının qanunverici tərəfindən həmin Məcəllənin 114.1-ci maddəsindəki müdafiəçinin cinayət prosesində iştirakını istisna edən halların siyahısına daxil edilməməsi təsadüfi deyildir və məhz bu iki institutun yuxarıda qeyd olunan fərqli hüquqi təbiətindən irəli gəlir.

Odur ki, Cinayət-Prosessual Məcəlləsinin 92.10-cu maddəsi ilə müdafiəçiyə qadağan edilmiş hərəkətlər də məhz müdafiə olunan şəxsin mənafeyinin pozulmasına səbəb ola biləcəyindən, belə hərəkətlərə yol vermiş müdafiəçinin icraatdan kənarlaşdırılması məsələsi həmin Məcəllənin 114.4-cü maddəsinə uyğun olaraq həll edilməlidir.

Cinayət prosesini həyata keçirən orqanlara, xüsusilə də ittiham tərəfinə bu hüququn (qadağan olunmuş hərəkətlərə yol verildiyi halda müdafiəçinin prosesdən kənarlaşdırılması) verilməsi isə çəkişmə prinsipinin pozulmasına səbəb ola bilər.

Cinayət Prosessual Məcəlləsinin 92.10.1-ci maddəsi ilə müdafiəçiyə qadağan edilmiş hərəkətlərin onun cinayət prosesində iştirakını istisna edən hal kimi qiymətləndirilməsi müdafiəçinin hər bir hərəkətinin cinayət prosesini həyata keçirən orqan tərəfindən şübhəli və ya təqsirləndirilən şəxsin mənafeyinə uyğun olub-olmaması baxımından müzakirə edilməsi və qiymətləndirilməsi imkanını yaratmaqla, bu orqanlara müdafiəçini prosesdən kənarlaşdırmağa geniş diskresion səlahiyyət yaradar.

Eyni zamanda o da qeyd edilməlidir ki, Cinayət-Prosessual Məcəlləsinin 322.1.17-ci maddəsinə uyğun olaraq, məhkəmə iclasında sədrlik edən cinayət prosesinin iştirakçılarına bu Məcəllənin 114-cü maddəsində nəzərdə tutulmuş müdafiəçinin cinayət prosesində iştirakını istisna edən halları izah edir və müdafiəçiyə etiraz etmək barədə vəsatətlərinin olub-olmamasını aydınlaşdırır.

Beləliklə, istinad edilən norma da birmənalı şəkildə müdafiəçinin cinayət prosesində iştirakını istisna edən halların məhz Cinayət-Prosessual Məcəlləsinin 114-cü maddəsi ilə nəzərdə tutulmasını təsbit edir.

Təqsirləndirilən şəxs ona qarşı irəli sürülmüş ittiham üzrə özünü təqsirli bilməsə də, ittiham üzrə cinayət əməlinin daha yüngül maddəyə tövsif edilməsi və ya yüngülləşdirici halların yekun ittihamda nəzərə alınmasına dair vəsatət verən müdafiəçinin icraatın sonrakı mərhələsində iştirakının mümkünlüyü ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, bu məsələ müdafiə olunan

şəxs tərəfindən dəyərləndirilməli və yalnız onun vəsatəti əsasında Cinayət-Prosessual Məcəlləsinin 114.4-cü maddəsi tətbiq edilməlidir.

Hüquqi yardım göstərilən şəxs, müdafiəçinin fərqli mövqeyini öz marağına və mənafeyinə zidd hesab etmirsə və onun prosesdən kənarlaşdırılması barədə vəsatət vermirsə, müdafiəçinin prosesin sonrakı mərhələlərində iştirakı Cinayət-Prosessual Məcəlləsinin 303.3-cü maddəsi ilə nəzərdə tutulmuş müdafiə hüququnun kobud pozuntusu kimi qiymətləndirilə bilməz.

Bununla belə, Konstitusiya Məhkəməsinin Plenumu bir daha vurğulayır ki, müdafiə hüququ şəxsin qanuni maraqlarının təminatı ilə yanaşı, həm də ədalət mühakiməsi maraqlarının təminatıdır, sosial dəyərdir. Hər kəsin hüquqi yardım almaq hüququnun təmin edilməsi ilə bağlı yaranan hüquq münasibətləri özündə ictimai maraqları əks etdirdiyi üçün dövlətin bu sahədə üzərinə düşən konstitusiya öhdəliklərinin yerinə yetirilməsinə dəlalət edir. Bu isə dövlət tərəfindən zərurət olduqda şəxsin hüquqlarının müdafiəsi üçün pozitiv tədbirlərin görülməsini tələb edir ("Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.12-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 2011-ci il 20 may tarixli Qərar).

Odur ki, Konstitusiyanın 61-ci maddəsinin I hissəsində təsbit olunan yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ dövlətin bu sahədəki pozitiv öhdəliklərinin icrasının təmin edilməsi üçün cinayət prosesinin iştirakçıları arasındakı müvafiq münasibətlərə müdaxiləsini istisna etmir. Müdaxilənin əsaslı olması isə fiziki və hüquqi şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiə edilməsi və onlara yüksək keyfiyyətli hüquqi yardımın göstərilməsi ilə şərtləndirilmişdir.

Məhz müdafiə hüququ sahəsindəki pozitiv öhdəliklərin təmin edilməsi məqsədi ilə qanunverici Cinayət-Prosessual Məcəlləsinin 19.1-ci maddəsində cinayət təqibi gedişində təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən zərər çəkmiş, şübhəli və ya təqsirləndirilən şəxslərin keyfiyyətli hüquqi yardım almaq hüququnu təmin etmək üçün tədbirlərin görülməsini imperativ qaydada nəzərdə tutmuşdur.

Avropa Məhkəməsinin müdafiə olunmaq və hüquqi yardım almaq hüquqları ilə bağlı formalaşdırdığı hüquqi mövqeyinə əsasən, vəkillik peşəsinin müstəqilliyi nəzərə alınaraq, müdafiənin həyata keçirilməsi başlıca olaraq təqsirləndirilən şəxs və onun müdafiəçisi arasında olan məsələdir (Czekalla Portuqaliyaya qarşı iş üzrə 2002-ci il 10 oktyabr tarixli Qərar, §60.) Razılığa gələn Dövlətlərdən isə müdaxilə etmək yalnız hüquqi təmsilçiliyin səmərəsiz olduğunun "açıq-aşkar" göründüyü və ya bu məsələ onların diqqətinə çatdırıldığı hallarda tələb olunur (İmbrioscia İsveçrəyə qarşı iş üzrə 1993-cü il 24 noyabr tarixli § 41; Daud Portuqaliyaya qarşı iş üzrə 1998-ci il 21 aprel tarixli §38 Qərarlar). Dövlətin məsuliyyəti o halda yarana bilər ki, müdafiəçi təqsirləndirilən şəxsi müdafiə etmir (Artico İtaliyaya qarşı iş üzrə 1980-ci il 13 may tarixli Qərar, §§33 və 36) və ya onun tərəfindən mühüm prosessual tələblərə əməl edilmirsə və bu yanlış müdafiə taktikası və ya sadəcə arqumentasiya qüsuru deyildirsə (Czekalla Portuqaliyaya qarşı iş üzrə 2002-ci il 10 oktyabr tarixli Qərar, §§ 65 və 71).

Avropa Məhkəməsi Vasenin Rusiyaya qarşı iş üzrə 2016-cı il 21 iyun tarixli Qərarında bir daha vurğulamışdır ki, dövlət müdafiəçinin yol verdiyi səhvlərə görə məsuliyyət daşımır... dövlət keyfiyyətsiz hüquqi yardımın göstərilməsinə vaxtında reaksiya verib müvafiq tədbirlər görmüşdürsə, məsələn başqa müdafiəçi təyin etmişdirsə məsuliyyət daşımır. Konvensiya hüquqların nəzəri deyil, praktiki müdafiəsini tələb etdiyindən, dövlət tərəfindən lazımi reaksiyanın verilməməsi onun məsuliyyətinə səbəb ola bilər, belə ki, müdafiəçinin təyin edilməsi özü-özlüyündə göstərilən hüquqi yardımın keyfiyyətinə zəmanət vermir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Konstitusiyanın 61-ci maddəsi ilə təsbit edilmiş şübhəli və ya təqsirləndirilən şəxsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun təmin edilməsi və Konvensiyanın 6-cı maddəsindən irəli gələn dövlətin üzərinə düşən pozitiv öhdəliklərinin yerinə yetirilməsi məqsədi ilə, müdafiə olunan şəxsin mövqeyi ilə müdafiəçinin mövqeyi

uzlaşmadıqda, bu hal, cinayət prosesini həyata keçirən orqanlar tərəfindən dərhal müdafiə olunan şəxsin diqqətinə çatdırılmalı və ona həmin müdafiəçidən imtina etmək hüququ izah edilməlidir.

Konstitusiya Məhkəməsinin Plenumu Konstitusiyanın 26 və 61-ci maddələrinin tələblərini rəhbər tutaraq aşağıdakı nəticələrə gəlir:

- Cinayət-Prosessual Məcəlləsinin 92.16.3-cü maddəsinin "müdafiəçinin cinayət prosesində iştirakını istisna edən hallar" müddəası, yalnız həmin Məcəllənin 114.1-ci maddəsində göstərilən müdafiəçinin cinayət prosesində iştirakını istisna edən halları nəzərdə tutur və bu Məcəllənin 92.10-cu maddəsində sadalanan müdafiəçiyə qadağan olunmuş hərəkətləri ehtiva etmir;
- təqsirləndirilən şəxsin özünü təqsirli bilmədiyi ittiham üzrə müdafiəçinin cinayət əməlinin daha yüngül maddə ilə tövsif edilməsinə dair müraciətinə müdafiə olunan şəxsin etirazı olmadığı halda, müdafiəçinin icraatın sonrakı mərhələsində iştirak etməsi Cinayət-Prosessual Məcəlləsinin 303.3.1-ci maddəsi ilə nəzərdə tutulmuş müdafiə hüququnun kobud pozuntusu hesab edilə bilməz.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**Qərara aldı:**

1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.16.3-cü maddəsinin "müdafiəçinin cinayət prosesində iştirakını istisna edən hallar" müddəası, yalnız həmin Məcəllənin 114.1-ci maddəsində göstərilən müdafiəçinin cinayət prosesində iştirakını istisna edən halları nəzərdə tutur və bu Məcəllənin 92.10-cu maddəsində sadalanan müdafiəçiyə qadağan olunmuş hərəkətləri ehtiva etmir.
2. Təqsirləndirilən şəxsin özünü təqsirli bilmədiyi ittiham üzrə müdafiəçinin cinayət əməlinin daha yüngül maddə ilə tövsif edilməsinə dair müraciətinə müdafiə olunan şəxsin etirazı olmadığı halda, müdafiəçinin icraatın sonrakı mərhələsində iştirak etməsi Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 303.3.1-ci maddəsi ilə nəzərdə tutulmuş müdafiə hüququnun kobud pozuntusu hesab edilə bilməz.
3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
4. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.
5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

**Azərbaycan Respublikası adından**
**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi**
**Plenumunun Qərarı**

E.Axundovun məhkəməyə müraciət hüququnun pozulması barədə şikayətinə dair

**6 oktyabr 2023-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 34-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, konstitusiya məhkəmə icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında E.Axundovun şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının 12 noyabr 2021-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, ərizəçinin şikayətini, Azərbaycan Respublikası Ali Məhkəməsinin mülahizəsini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**Müəyyən etdi:**

Bakı Ağır Cinayətlər Məhkəməsinin 11 noyabr 2020-ci il tarixli hökmü ilə Yiğitdöl Hikmət Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.3.2, 29, 178.3.2, 308.2 və 313-cü maddələri ilə təqsirli bilinmiş, həmin Məcəllənin 70-ci maddəsi tətbiq edilməklə təyin edilmiş 5 il 6 ay müddətinə azadlıqdan məhrum etmə cəzası 1 il sınaq müddəti ilə şərti hesab edilmişdir.

Həmin hökmlə Bakı şəhəri Xətai rayonu Xocalı prospekti 1181-ci məhəllə 32 ünvanında inşa edilmiş çoxmərtəbəli yaşayış binasının qeyri-yaşayış sahələrinin Q.İbrahimovun sahibliyinə və istifadəsinə təhvil verilməsi qərara alınmışdır.

Cinayət işi üzrə şahid E.Axundovun həmin hökmdən apellyasiya şikayətinin verilməsi üçün müddətin bərpası barədə vəsatəti Bakı Ağır Cinayətlər Məhkəməsinin 28 yanvar 2021-ci il tarixli qərarı ilə təmin edilməmişdir.

Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 26 iyun 2021-ci il tarixli qərarı ilə E.Axundovun apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qərarı dəyişdirilmədən saxlanılmışdır

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının (bundan sonra – Ali Məhkəmənin Cinayət Kollegiyası) 12 noyabr 2021-ci il tarixli qərarı ilə E.Axundovun kassasiya şikayəti təmin edilməmiş, apellyasiya instansiyası məhkəməsinin qərarı dəyişdirilmədən saxlanılmışdır.

Kassasiya instansiyası məhkəməsi mövqeyini onunla əsaslandırmışdır ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəlləsi) 386.1 və 383-cü maddələrində cinayət prosesində şahidin apellyasiya şikayəti vermək hüququ nəzərdə tutulmamışdır.

E.Axundov Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) şikayətlə müraciət edərək Ali Məhkəmənin Cinayət Kollegiyasının 12 noyabr 2021-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına (bundan sonra – Konstitusiya) uyğunluğunun yoxlanılmasını xahiş etmişdir.

Ərizəçi hesab edir ki, kassasiya instansiyası məhkəməsi tərəfindən Cinayət-Prosessual Məcəlləsinin 2.1, 2.2, 10.1 və 12.3-cü maddələrinin tələblərinin nəzərə alınmaması, həmçinin həmin Məcəllənin 386.1 və 383-cü maddələrinin hərfi mənada tətbiq edilməsi onun Konstitusiyanın 26-cı maddəsinin I hissəsindən və 60-cı maddəsinin I hissəsindən irəli gələn hüquq və azadlıqlarının həyata keçirilməsinin məhdudlaşdırılması ilə nəticələnmişdir.

Şikayətdə o da göstərilmişdir ki, Ali Məhkəmənin Mülki Kollegiyasının 2 iyul 2016-cı il tarixli qanuni qüvvəyə minmiş qərarı ilə mübahisəli obyektlər üzərində ilk olaraq E.Axundovun mülkiyyət hüquqları tanındığı halda, Bakı Ağır Cinayətlər Məhkəməsinin 11 noyabr 2020-ci il tarixli hökmü ilə həmin qeyri-yaşayış sahələrinin Q.İbrahimovun sahibliyinə və istifadəsinə təhvil verilməsi nəticəsində onun Konstitusiyanın 29-cu maddəsində təsbit edilmiş mülkiyyət hüququ pozulmuşdur.

Ərizəçi şikayətində həmçinin bildirmişdir ki, Ali Məhkəmənin Cinayət Kollegiyasının 12 noyabr 2021-ci il tarixli qərarının qüvvəyə minməsindən sonra pozulmuş əmlak hüquqlarının bərpa edilməsi üçün mövcud qanunvericiliklə nəzərdə tutulmuş bütün prosessual vasitələrdən istifadə etmək məqsədilə Cinayət-Prosessual Məcəlləsinin 408.3-cü maddəsinə uyğun olaraq Ali Məhkəməyə müraciət etmiş, lakin Ali Məhkəmənin 6 dekabr 2022-ci il tarixli qərarı ilə məsələ digər əsaslar üzrə araşdırılıb qiymətləndirilərək təqdimatın verilməsindən imtina olunmuşdur.

Konstitusiya Məhkəməsinin Plenumu birinci instansiya məhkəməsinin hökmü ilə hüquq və qanuni maraqlarına toxunulduğunu iddia edən E.Axundovun Konstitusiyanın 60-cı maddəsinin I hissəsində təsbit olunmuş məhkəmə müdafiəsi təminatından kənar qaldığını və bunun, ilk növbədə, qanunvericilikdə müvafiq tənzimetmənin olmamasından irəli gəldiyini nəzərə alaraq, mövcud vəziyyətdə Ali Məhkəmənin Cinayət Kollegiyasının 12 noyabr 2021-ci il tarixli Qərarının Konstitusiyanın 60-cı maddəsinin tərkib hissəsi olan məhkəməyə müraciət etmək hüququnun təmin edilməsi baxımından Konstitusiyaya uyğunluğunun yoxlanılmasını mümkün hesab edir.

Konstitusiyanın 26-cı maddəsinin I hissəsinə görə, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır.

Konstitusiyanın 60-cı maddəsinin I hissəsinə müvafiq olaraq, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

Konstitusiyanın 71-ci maddəsinin I hissəsinə əsasən, Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Həmin maddənin II hissəsində göstərilir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz.

Qeyd olunmalıdır ki, Əsas Qanunda demokratik dövlətin təbiətini və mahiyyətini əks etdirən, insan və vətəndaş hüquq və azadlıqlarının təminatını nəzərdə tutan prinsiplər təsbit edilmişdir (Konstitusiyanın 25, 28, 32, 33, 60, 61, 63, 65, 66, 67, 125 və 127-ci maddələri). Cinayət prosesi iştirakçılarının hüquqları da Konstitusiyada təsbit edilmiş əsas prinsiplərdən, həmçinin bu hüquqların səmərəli həyata keçirilməsini təmin edən cinayət mühakimə icraatının prinsiplərindən irəli gəlir. Həmin prinsiplər öz aralarında ayrılmaz əlaqədədir və cinayət icraatının məqsədlərinə nail olmaq üçün eyni zəruri olan hüquqi başlanğıcların vahid məcmusunu formalaşdırırlar.

Məhkəmə müdafiəsi hüququ əsas insan və vətəndaş hüquqları və azadlıqları sırasında olmaqla yanaşı, eyni zamanda bütün digər hüquq və azadlıqların təminatı kimi çıxış edir. Bu hüquq yalnız məhkəməyə müraciət edilməsi ilə kifayətlənməyərək, pozulmuş hüquq və azadlıqların, qanunvericilikdə müəyyən edilən hədlər çərçivəsində səmərəli müdafiəsini ehtiva edən ədalət mühakiməsini də nəzərdə tutur.

Müstəqil məhkəmə tərəfindən ədalətli məhkəmə araşdırılması əsasında hüquqların səmərəli bərpa edilməsi bir sıra beynəlxalq-hüquqi aktlarda, o cümlədən İnsan hüquqları haqqında Ümumi Bəyannamənin 7, 8, 10-cu maddələrində, “Mülki və siyasi hüquqlar haqqında” Beynəlxalq Paktın 14-cü maddəsində və “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Konvensiyanın (bundan sonra – Konvensiya) 6-cı maddəsində öz əksini tapmışdır.

Məhkəmə müdafiəsi hüququ geniş hüquqi məzmuna malik olmaqla bir sıra elementləri əhatə edir. Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinə görə, hər kəs onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında

yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Beləliklə, hüquq və azadlıqların inzibati və məhkəmə təminatı hüququ hər kəsin məhkəməyə müraciət etmək hüququ ilə yanaşı, işinin ədalətli araşdırılmasını, eləcə də hüquq və azadlıqları pozulduğu halda məhkəmə aktlarından qanunvericiliklə müəyyən edilmiş qaydada yuxarı instansiya məhkəmələrinə şikayət vermək hüququnu ehtiva edir.

Konstitusiyanın 60-cı maddəsində nəzərdə tutulan məhkəmə müdafiəsi təminatı ilə bağlı rəhbər müddəa yalnız birinci instansiyada məhkəmə müdafiəsinin təmin olunmasını deyil, onun həmçinin apellyasiya və kassasiya instansiyalarında həyata keçirilməsini nəzərdə tutur. Hər hansı məhkəmə instansiyasına şikayət etmək hüququ məhkəmə müdafiəsi hüququndan irəli gəlir. Bu hüquq demokratik cəmiyyətdə mövcud olmaqla dövlətin konstitusiyası və qanunlarında öz əksini tapır (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 221.3-cü maddəsinin şərh edilməsinə dair" 2011-ci il 20 may, "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 403.2-ci maddəsinin şərh edilməsinə dair" 2020-ci il 24 iyul, "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 359-cu maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinə, 26-cı maddəsinə, 60-cı maddəsinin I hissəsinə və 71-ci maddəsinin I və II hissələrinə uyğunluğunun yoxlanılmasına dair" 2003-cü il 25 fevral tarixli Qərarları).

O da xüsusilə qeyd edilməlidir ki, qanunla müəyyən olunmuş qaydada cinayət prosesi iştirakçısının hüquqlarına və qanuni maraqlarına toxunulan hərəkətlərdən və qərarlardan məhkəməyə şikayət vermək hüququnun tanınmasında məhkəmələr müvafiq şəxsin formal hüquqi vəziyyətindən başqa, həmçinin onun faktiki vəziyyətini və belə vəziyyətdə onun hansı hüquqlara malik olması məsələsini də nəzərə almalıdırlar (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 449.2.3-cü maddəsinin şərh edilməsinə dair" 2009-cu il 5 avqust tarixli Qərarı).

Məhkəməyə müraciət etmək hüququnun əsassız məhdudlaşdırılması və ya nəzərdə tutulmaması son nəticədə Konstitusiyada müdafiəsinə təminat verilən hüquqların bəyanedici xarakter daşıdığına dəlalət etmiş olur (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 71.1-ci maddəsinin şərh edilməsi haqqında" 2010-cu il 13 dekabr tarixli Qərarı).

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 449.2.3-cü maddəsinin şərh edilməsinə dair" 2009-cu il 5 avqust tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyinə əsasən, şikayət hər bir şəxs, o cümlədən cinayət prosesinin iştirakçısı üçün qanunla təminat altına alınmış, bir tərəfdən hüquqların pozulmasına dövlətin müvafiq orqanlarının diqqətini cəlb etmək, digər tərəfdən isə bu hüquqları müdafiə və bərpa etmək imkanıdır. Məhz buna görə də digər müraciət növlərindən fərqli olaraq şikayətin əsasında pozulmuş hüququn bərpası barədə müraciət dayanır.

O da nəzərə alınmalıdır ki, birinci instansiya məhkəməsinin qərarına (hökmünə) apellyasiya qaydasında yenidən baxılması məhkəmə səhvlərinin düzəldilməsinin vasitəsi kimi çıxış edir.

Bu növ icraatda məhkəməyədək və ya birinci instansiya məhkəməsində icraat zamanı işin hallarının hərtərəfli və tam araşdırılmasına, törədilmiş cinayət əməlinə lazımi cinayət-hüquqi qiymət verilməsinə və cinayət prosesinin iştirakçılarının hüquqlarının təmin edilməsinə təsir etmiş və ya təsir edə biləcək qanun pozuntusu aşkarlanaraq aradan qaldırılır. Bu isə yuxarı məhkəməyə imkan yaradır ki, birinci instansiya məhkəməsi tərəfindən qəbul olunmuş qanunsuz və ya əsassız hökmü vaxtında ləğv edərək yeni hökm qəbul etsin. Bununla da maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməməsi nəticəsində buraxılmış məhkəmə səhvləri düzəldilmiş olur və bu səhvlərin ağır nəticələrinin qarşısı vaxtında alınır (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 397.1 və 397.2-ci maddələrinin şərh edilməsinə dair" 2009-cu il 12 may tarixli Qərarı).

Şikayətdən və işin materiallarından göründüyü kimi, apellyasiya və kassasiya instansiyaları məhkəmələri E.Axundovun şikayətini rədd edərkən onun cinayət işi üzrə icraatda məhz şahid kimi iştirak etməsinə və şahidin birinci instansiya məhkəməsinin hökmündən şikayət vermək hüququnun olmamasına istinad etmişlər.

Bununla bağlı Konstitusiya Məhkəməsinin Plenumu, ilk növbədə, qeyd etməyi vacib hesab edir ki, E.Axundovun şikayətini rədd edən apellyasiya və kassasiya instansiyası məhkəmələri onun iş üzrə şahid qismində həyata keçirmiş olduğu prosessual funksiyanın icrası ilə bağlı şikayət etmədiyini, birinci instansiya məhkəməsinin hökmü ilə ərizəçinin hüquq və qanuni maraqlarına toxunulduğunun iddia edildiyini nəzərə almamışlar.

Cinayət prosesində iştirak edən digər şəxs olaraq şahidin hüquqi vəziyyəti isə Cinayət-Prosessual Məcəlləsinin 95-ci maddəsi ilə müəyyən edilmişdir. Həmin maddə Məcəllənin "Cinayət prosesində iştirak edən digər şəxslər" adlanan X fəslinə daxil edilmişdir. Qeyd edilən maddədə şahidin cinayət prosesini həyata keçirən vəzifəli şəxslərin qərarlarından və ya hərəkətlərindən (hərəkətsizliyindən) şikayət vermək hüququ birbaşa göstərilməsə də, Məcəllənin 95.6.12-ci maddəsində onun bu Məcəllədə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək hüququ müəyyən edilmişdir.

Nəzərə alınmalıdır ki, cinayət prosesində iştirak edən digər şəxslər kateqoriyasına şahidlə yanaşı, hal şahidi, mütəxəssis, ekspert, məhkəmə iclas katibi və tərcüməçi aiddir (Cinayət-Prosessual Məcəlləsinin 7.0.29-cu maddəsi). Bu şəxslər Cinayət-Prosessual Məcəlləsinin 7.0.18-ci maddəsi ilə dairəsi müəyyən edilən cinayət prosesinin iştirakçıları hesab edilmirlər. Cinayət prosesinin iştirakçıları dedikdə, məhz ittiham və müdafiə tərəflərini təmsil edən təhqiqatçı, müstəntiq, prokuror, habelə zərərçəkmiş şəxs, şübhəli və ya təqsirləndirilən şəxs və digərləri nəzərdə tutulur.

Məlum olduğu kimi, apellyasiya icraatı qaydasında məhkəmə qərarlarına yenidən baxılması yalnız apellyasiya şikayətinin və ya apellyasiya protestinin olduğu halda mümkündür və belə şikayətlə müraciət etmək hüququ olan şəxslərin dairəsi Cinayət-Prosessual Məcəlləsinin 383-cü maddəsi ilə müəyyən edilmişdir. Qanunverici apellyasiya şikayəti vermək hüququ olan şəxsləri yalnız cinayət prosesinin tərəfləri, yəni cinayət prosesinin iştirakçıları ilə məhdudlaşdırmışdır ki, bu da birinci instansiya məhkəməsinin hökmü ilə hüquq və qanuni maraqlarına toxunulmuş cinayət prosesində iştirak edən digər şəxslərin (şahidin) pozulmuş hüquqlarının müdafiəsi imkanından kənar qalması ilə nəticələnir.

Konstitusiya Məhkəməsi Plenumunun S.Xəlilov və Ə.İbrahimovun şikayəti üzrə 2016-cı il 13 iyul tarixli Qərarında qeyd edilmişdir ki, konstitusiya hüquqlarının həyata keçirilməsinin təmin edilməsi üçün cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində ziyan vurulmuş prosessual statusa malik şəxslərin, o cümlədən zərər çəkmiş şəxsin yalnız formal prosessual vəziyyəti deyil, həm də onun faktiki vəziyyəti nəzərə alınmalıdır. Belə yanaşma, məhkəmələrdən işin tam və hərtərəfli həll edilməsi üçün bütün halların araşdırılmasını, o cümlədən hər hansı proses iştirakçısının baxılan cinayət işi üzrə statusu ilə bağlı irəli sürdüyü dəlillərinə dair əsaslandırılmış qərar qəbul edilməsini tələb edir.

Cinayət prosesinin iştirakçısı (tərəfi) olmayan və məhkəmənin qərarı ilə hüquqlarına və qanuni maraqlarına toxunulan şəxsin statusunun səciyyəvi əlamətləri ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu qeyd etmişdir ki, belə şəxslər məhkəmədə baxılan iş üzrə tərəf qismində cəlb edilməməsi, iş üzrə qəbul edilmiş məhkəmə qərarı ilə onların hüquq və qanuni maraqlarına toxunulması, öz hüquqlarının və qanuni maraqlarının müdafiəsində maddi və prosessual marağının olması ilə xarakterizə olunurlar (K.Maraevin şikayəti üzrə 2016-cı il 29 iyul tarixli Qərar).

Konstitusiya Məhkəməsi Plenumunun hüquqi mövqeyinə görə, cinayət prosesinin iştirakçısı (tərəfi) olmayan və məhkəmə qərarı ilə hüquq və azadlıqları pozulan yaxud üzərinə əlavə öhdəliklər qoyulan şəxs pozulmuş hüquqlarının bərpası üçün səmərəli vasitələrlə təmin edilməlidirlər ("Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 183.2-ci maddəsinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142.1, 383.1, 408.3-cü maddələri və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.4-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2022-ci il 24 fevral tarixli Qərar).

Bu Qərarda Konstitusiya Məhkəməsinin Plenumu Cinayət-Prosessual Məcəlləsinin 12.3-cü maddəsinə istinadən də hesab etmişdir ki, məhkəmə hökmü ilə maraqlarına toxunulan şəxsin apellyasiya şikayəti vermək hüququnun təmin edilməsi, həmin şəxsin hüquqlarının və qanunla qorunan maraqlarının əhəmiyyətli dərəcədə pozulduğu hallarda mümkün hesab edilməlidir.

Qeyd edilən maddəyə əsasən, cinayət prosesi gedişində hər kəsin özünün Konstitusiya ilə təsbit edilmiş hüquq və azadlıqlarını qanunla qadağan edilməyən bütün üsul və vasitələrlə müdafiə etməyə hüququ vardır.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu bir daha qeyd edir ki, məhkəmənin qəbul etdiyi məhkəmə aktı cinayət prosesində iştirak edən digər şəxs olaraq şahidin hüquq və qanuni maraqlarına toxunduğu halda, həmin aktdan şikayət vermək hüququnun normativ qaydada müəyyən edilməməsi səbəbindən, belə şikayətə yol verilməməsi məhkəmə baxışının ədalətli hesab edilməsini istisna edir. Belə ki, həmin şəxslər bu zaman pozulmuş hüquqlarının bərpası üçün təsirli vasitələrə təmin edilməmiş olurlar.

Halbuki, Konstitusiya Məhkəməsinin Plenumu əvvəlki Qərarlarında cinayət prosesi üzrə qəbul edilmiş məhkəmə aktı ilə hüquq və qanuni maraqlarına toxunulmuş şəxslərin məhkəmə müdafiəsi hüququnun təmin edilməsi baxımından həmin aktı mübahisələndirmək imkanının tanınması ilə bağlı müvafiq dəyişikliklərin edilməsi üçün qanunverici orqana tövsiyələr etmişdir.

Əks yanaşma məhkəmə müdafiəsi hüququ ilə bağlı konstitusiya prinsiplərinin, cinayət-prosessual qanunvericiliyinin bir sıra prinsiplərinin, eləcə də Azərbaycan Respublikasının beynəlxalq müqavilələrə əsasən üzərinə götürdüyü öhdəliklərin pozulmasına gətirib çıxara bilər.

Təsadüfi deyildir ki, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra – Avropa Məhkəməsi) öz presedent hüququnda dəfələrlə qeyd edib ki, Konvensiyanın 6-cı maddəsi milli səviyyədə Konvensiya ilə təsbit edilmiş maddi hüquq və azadlıqların həyata keçirilməsinin hüquqi müdafiəsinin əlçatanlığını təmin edir və milli hüquq sistemində təmin olunmasının formasından asılı olmayaraq hüquq müdafiə vasitələri səmərəli olmalı, yəni ehtimal olunan pozuntunun qarşısını almalı və ya ona son qoymalıdır, habelə artıq yol verilmiş pozuntuya görə adekvat kompensasiya verilməlidir (Kudla Polşaya qarşı iş üzrə 2000-ci il 26 oktyabr, Klyaxin Rusiyaya qarşı iş üzrə 2004-cü il 30 noyabr tarixli Qərarlar).

Cinayət prosesi üzrə qəbul edilmiş məhkəmə aktı hüquq və qanuni maraqlarına toxunduğu halda digər şəxslərin həmin aktdan şikayət vermək hüququ bir sıra ölkələrin müvafiq qanunvericiliyində də nəzərdə tutulmuşdur. Məsələn, Rusiya Federasiyası Ali Məhkəməsi Plenumunun 27 noyabr 2012-ci il tarixli 26 nömrəli "Rusiya Federasiyası Cinayət-Prosessual Məcəlləsinin apellyasiya instansiyası məhkəməsində icraatı tənzimləyən normalarının tətbiqi haqqında" Qərarının 2-ci bəndinə əsasən, məhkəmələrə izah olunmuşdur ki, Cinayət-Prosessual Məcəlləsinin 123-cü maddəsinin 1-ci hissəsinin, 127-ci maddəsinin 1-ci hissəsinin, 389.1-ci maddəsinin, 389.2-ci maddəsinin 1-ci hissəsinin, 401-ci maddəsinin 1-ci hissəsinin, 444-cü maddəsinin, 463-cü maddəsinin 9-cu hissəsinin müddəaları nəzərə alınmaqla, cinayət işi üzrə cinayət prosesinin bütün iştirakçılarının, o cümlədən digər şəxslərin yalnız onların hüquqlarına və qanuni mənafelərinə toxunduğu hissədə qəbul edilmiş məhkəmə qərarlarından şikayət vermək hüququ vardır.

Beləliklə, məhkəmə aktlarına yenidən baxılmasının mümkünlüyünü tənzimləyən Cinayət-Prosessual Məcəlləsinin 383-cü maddəsi hazırkı redaksiyada mübahisələndirilən məhkəmə aktı cinayət prosesində iştirak edən digər şəxslərin, o cümlədən şahidlərin hüquq və qanuni maraqlarına toxunduğu halda, ədalət prinsipi əsasında təsbit edilmiş məhkəmə müdafiəsi hüququnun səmərəli həyata keçirilməsini təmin etmir.

Avropa Məhkəməsinin Puaro (Poirot) Fransaya qarşı iş üzrə 2011-ci il 15 dekabr tarixli Qərarında qeyd edilmişdir ki, prosessual normaları həddən artıq formal şəkildə tətbiq etməklə apellyasiya şikayətinin qəbul edilməməsi ərizəçinin məhkəməyə müraciət etmək hüququna qeyri-mütənasibdir.

Avropa Məhkəməsi Eşinqdeyn (Ashıngdane) Birləşmiş Krallığa qarşı iş üzrə 1985-ci il 28 may tarixli Qərarında öz əvvəlki hüquqi mövqelərinə istinad edərək göstərmişdi ki, məhkəməyə müraciət etmək hüququ qeyd-şərtsiz deyil və məhdudiyyətlərə məruz qala bilər, çünki müraciət etmək hüququ öz təbiətinə görə dövlət tərəfindən tənzimləməni tələb edir və həmin tənzimləmə cəmiyyətin və fərdlərin ehtiyaclarına uyğun olaraq müxtəlif vaxtlarda və müxtəlif yerlərdə fərqli ola bilər. Bununla belə, tətbiq edilən məhdudiyyətlər əlçatanlıqla bağlı hüququn mahiyyətini pozacaq qədər məhdudlaşdırılmamalı və azaldılmamalıdır. Bundan əlavə, əgər o qanuni məqsəd güdmürsə və tətbiq

edilən vasitələrlə qarşıya qoyulan məqsəd arasında ağlabatan nisbət yoxdursa, həmin məhdudiyyət Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinə uyğun gəlməyəcək.

Qeyd olunmalıdır ki, 2019-cu il 3 aprel tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə gücləndirilməli olan tədbirlər sırasında məhkəməyə müraciət imkanlarının daha da genişləndirilməsi və məhkəmə icraatının effektivliyinin yüksəldilməli olduğu göstərilmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, məhkəməyə əlçatanlıq müdafiəyə ehtiyacı olan şəxs üçün ədalət mühakiməsinin təmin edilməsinin zəruriliyini nəzərdə tutmaqla, həmin şəxsin yaranmış vəziyyətlə bağlı məhkəmənin simasında dövlətin mövqeyini bilmək hüququnu da ehtiva edir. Konstitusiyada təsbit edilmiş insan hüquq və azadlıqları ilə bağlı digər qanunvericilik aktlarında əks olunmuş tənzimləyici normalar müvafiq konstitusiya normalarının tətbiqini mümkünsüz etməməli, əksinə məhkəmə tərəfindən konstitusion hüquqların realizəsinə, təməl prinsiplərin rəhbər tutulmasına imkan yaratmalıdır.

Qeyd olunmalıdır ki, cinayət prosesində iştirak edən, birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış hökm və ya qərar ilə maraqlarına toxunulan şəxslərin apellyasiya şikayəti vermək hüququnun və müvafiq olaraq, məhkəməyə müraciət etməsi üçün müddətlərin axımının müəyyən edilməsi məhkəmə müdafiəsi hüququnun səmərəli həyata keçirilməsinin təmin edilməsi baxımından zəruridir.

Odur ki, Cinayət-Prosessual Məcəlləsinin 384-cü maddəsində müəyyən edilən apellyasiya şikayətinin verilmə müddətlərinin başlanğıcının müəyyənləşdirilməsi də həlledici əhəmiyyət kəsb edir.

Şəxs bir qayda olaraq hüquq pozuntusunun baş verdiyi vaxtdan öz hüququnun pozulmasını bilir və yaxud bilməlidir. Bu səbəbdən Cinayət-Prosessual Məcəlləsinin 384-cü maddəsində müəyyən edilən müddətlərin başlanğıcı birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış hökm və ya qərar ilə hüquq və qanuni maraqlarına toxunulan cinayət prosesində iştirak edən digər şəxslərin (şahidin) öz hüquqlarının pozulmasını bildiyi və yaxud bilməli olduğu gün ilə əlaqələndirilməlidir.

Nəzərə alınmalıdır ki, qanunvericilikdə boşluq müvafiq normanın mövcud olmamasını nəzərdə tutmaqla son nəticədə Əsas Qanunda təsbit edilmiş müvafiq insan hüquq və azadlıqlarının həyata keçirilməsi üçün məhdudiyyət yarada bilər. Bu boşluq mahiyyətcə qeyri-konstitusion norma ilə eyni hüquqi nəticəyə malikdir və onun aradan qaldırılması ümumi qaydada qanunvericinin funksiyasına (səlahiyyətinə) aid olsa da, həmçinin konstitusiya məhkəmə icraatı vasitəsi ilə aradan qaldırıla bilər.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Cinayət-Prosessual Məcəlləsinin 383-cü maddəsində birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış hökm və ya qərar ilə hüquq və qanuni maraqlarına toxunulan cinayət prosesində iştirak edən digər şəxslərin (şahidin) apellyasiya şikayəti vermək hüququnun nəzərdə tutulmaması Konstitusiyanın 26-cı maddəsinin I hissəsinə və 60-cı maddəsinin I hissəsinə uyğun olmayan hesab edilməlidir.

Bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla, Cinayət-Prosessual Məcəlləsinin 383 və 384-cü maddələrində birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış hökm və ya qərar ilə hüquq və qanuni maraqlarına toxunulan cinayət prosesində iştirak edən digər şəxslərin (şahidin) apellyasiya şikayəti vermək hüququnun və müvafiq olaraq məhkəməyə müraciət edilməsi üçün müddətlərin axımının hesablanması qaydalarının müəyyən edilməsinə dair müvafiq dəyişikliklərin həyata keçirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunmalıdır;

- Konstitusiyanın 26-cı maddəsinin I hissəsinə, 60-cı maddəsinin I hissəsinə və bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelərə əsasən, məsələ qanunvericilik qaydasında həll edilənədək birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış hökm və ya qərar ilə hüquq və qanuni maraqlarına toxunulan cinayət prosesində iştirak edən digər şəxslərin (şahidin) apellyasiya şikayəti vermək hüququ təmin edilməlidir;

- E.Axundovun apellyasiya şikayətinin verilməsinin mümkünlüyünə dair iş üzrə Ali Məhkəmənin Cinayət Kollegiyasının 12 noyabr 2021-ci il tarixli qərarı Konstitusiyanın 26-cı

maddəsinin I hissəsinə, 60-cı maddəsinin I hissəsinə, Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində istinad olunan əvvəlki hüquqi mövqelərinə və Cinayət-Prosessual Məcəlləsinin 2.1, 2.2, 10.1, 12.3 və 416.1.20-ci maddələrinə uyğun olmayan hesab edilməli və işə bu Qərarda əks olunmuş hüquqi mövqelərə uyğun olaraq Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yenidən baxılmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V və IX hissələrini, “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikası Qanununun 34, 52, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Konstitusiya Məhkəməsinin Plenumu

**Qərara aldı:**

1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 383-cü maddəsində birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış hökm və ya qərar ilə hüquq və qanuni maraqlarına toxunulan cinayət prosesində iştirak edən digər şəxslərin (şahidin) apellyasiya şikayəti vermək hüququnun nəzərdə tutulmaması Azərbaycan Respublikası Konstitusiyasının 26-cı maddəsinin I hissəsinə və 60-cı maddəsinin I hissəsinə uyğun olmayan hesab edilsin.

Bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelər nəzərə alınmaqla, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 383 və 384-cü maddələrində birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış hökm və ya qərar ilə hüquq və qanuni maraqlarına toxunulan cinayət prosesində iştirak edən digər şəxslərin (şahidin) apellyasiya şikayəti vermək hüququnun və müvafiq olaraq məhkəməyə müraciət edilməsi üçün müddətlərin axımının hesablanması qaydalarının müəyyən edilməsinə dair müvafiq dəyişikliklərin həyata keçirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun.

2. Azərbaycan Respublikası Konstitusiyasının 26-cı maddəsinin I hissəsinə, 60-cı maddəsinin I hissəsinə və bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunan hüquqi mövqelərə əsasən, məsələ qanunvericilik qaydasında həll edilənədək birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış hökm və ya qərar ilə hüquq və qanuni maraqlarına toxunulan cinayət prosesində iştirak edən digər şəxslərin (şahidin) apellyasiya şikayəti vermək hüququ təmin edilsin.

3. E.Axundovun apellyasiya şikayətinin verilməsinin mümkünlüyünə dair iş üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının 12 noyabr 2021-ci il tarixli qərarı Azərbaycan Respublikası Konstitusiyasının 26-cı maddəsinin I hissəsinə, 60-cı maddəsinin I hissəsinə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində istinad olunan əvvəlki hüquqi mövqelərinə və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 2.1, 2.2, 10.1, 12.3 və 416.1.20-ci maddələrinə uyğun olmayan hesab edilsin və işə bu Qərarda əks olunmuş hüquqi mövqelərə uyğun olaraq Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yenidən baxılsın.

4. Qərar dərc olunduğu gündən qüvvəyə minir.

5. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və “Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı”nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

6. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir oluna bilməz.

**Sədr** **Fərhad Abdullayev**